ƏFQAN
QASIMZADƏ

# QƏBƏLƏNİN ORTA ƏSR KERAMİKASI (XI-XIII ƏSRLƏR)

*Monoqrafiya*

**BAKI**
**MÜTƏRCİM**
**2025**

*DİN-in Polis Akademiyasının Elmi Şurasında müzakirə olunmuş və çapa tövsiyə edilmişdir (protokol № 02, 20.12.2023).*

**Elmi redaktor:** **Qafar Cəfər oğlu Cəbiyev**
*tarix elmləri doktoru, professor*

**Rəyçilər:** **Elmira İdris qızı Abbasova**
*tarix üzrə fəlsəfə doktoru*

**Laçın Xalid oğlu Mustafayev**
*tarix üzrə fəlsəfə doktoru*

**Qasımzadə, Ə.H. Qəbələnin orta əsr keramikası (XI-XIII əsrlər).** *Monoqrafiya.* – Bakı: Mütərcim, – 2025. – 216 s.

*Tarix üzrə fəlsəfə doktoru Əfqan Qasımzadə tərəfindən Qəbələnin XI-XIII əsrlər keramikasının xüsusi tədqiqat mövzusu olaraq araşdırılması ilə qədim paytaxt şəhərimizin keramika məmulatının tam və sistemli olaraq öyrənilməsi işi başa çatdırılmışdır ki, bu da digər orta əsr Azərbaycan şəhərlərinə aid anoloji materialların tədqiqi üçün bir növ etalon kimi dəyərləndirilə bilər. Müəllif əsərdə dövrün şirsiz, şirli və inşaat keramikasının ilk dəfə olaraq təsnifatını və bədii-texniki, texnoloji xarakteristikasını vermişdir.*

*Monoqrafiyadan Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri olan qədim paytaxt şəhəri Qəbələnin tarixinə, bütövlükdə Azərbaycan tarixinə və Azərbaycan arxeologiyasına aid tədqiqat aparan mütəxəssislər, tarix ixtisası üzrə təhsil alan tələbələr, magistr və doktorantlar, Azərbaycan tarixi ilə maraqlanan geniş oxucu kütləsi faydalana bilər.*

$\frac{4306020000}{026}$ 37-25

© Ə.H.Qasımzadə, 2025

# MÜNDƏRİCAT

GİRİŞ.......................................................................................5

I FƏSİL. QƏBƏLƏNİN XI-XIII ƏSRLƏR
ŞİRSİZ SAXSI MƏMULATI ........................................................15
1.1. Şirsiz saxsı məmulatının istehsal texnologiyası .......................15
1.2. Şirsiz saxsı məmulatının təsnifatı.............................................27
1.2.1. Təsərrüfat küpləri.....................................................................29
1.2.2. Qazanlar....................................................................................32
1.2.3. Səhənglər...................................................................................38
1.2.4. Bardaqlar...................................................................................41
1.2.4.1. Darboğaz bardaqlar...............................................................42
1.2.4.2. Enliboğaz bardaqlar ..............................................................45
1.2.5. Küpə tipli qablar ......................................................................50
1.2.6. Dolça tipli qablar......................................................................52
1.2.7. Mehtərə tipli qablar .................................................................54
1.2.8. Çıraqlar.....................................................................................57
1.2.8.1. Lüləkli çıraqlar .....................................................................58
1.2.8.2. Vaza tipli çıraqlar..................................................................61
1.2.9. Şar-konusvari qablar ...............................................................63

II FƏSİL. QƏBƏLƏNİN XI-XIII ƏSRLƏR
ŞİRLİ SAXSI MƏMULATI ...........................................................68
2.1. Şirli saxsı məmulatının istehsal texnologiyasına dair .............68
2.2. Kasa və boşqab tipli qablar........................................................83
2.2.1. Saya şirli qablar........................................................................85
2.2.2. Nəbati təsvirli qablar................................................................87
2.2.3. Həndəsi təsvirli qablar.............................................................92
2.2.4. Antropomorf və zoomorf təsvirli qablar................................97
2.2.5. Qarışıq təsvirli qablar.............................................................102

2.3. Duz qabları ........................................ 106
2.4. Damğalı qablar ........................................ 108

**III FƏSİL. QƏBƏLƏNİN XI-XIII ƏSRLƏR İNŞAAT KERAMİKASI ........................................ 114**
3.1. Kərpic nümunələri ........................................ 116
3.2. Kaşılar ........................................ 129
3.3. Kirəmitlər ........................................ 132
3.4. Su tüngləri ........................................ 137

**NƏTİCƏ ........................................ 148**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI ........................................ 155**

**ƏLAVƏLƏR ........................................ 172**

**İXTİSARLAR ........................................ 216**

# GİRİŞ

Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynamış Qafqaz Albaniyası şimalda Qafqaz dağlarından başlayaraq cənubda Araz çayına, qərbdə İberiyadan, şərqdə Xəzər dənizinədək böyük bir ərazini əhatə edirdi. Albaniyanın ərazisi inzibati cəhətdən vilayətlərə və əyalətlərə bölünürdü. Sol sahil ərazidə yerləşən on bir vilayətdən biri də Qəbələ idi. Burada Albaniyanın eramızdan əvvəl IV əsrdən eramızın V əsrinədək paytaxt şəhəri olmuş, eyni zamanda ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynayan Qəbələ şəhəri yerləşirdi. Burada Alban hökmdarlarına məxsus sarayların, iqamətgahın, həmçinin alban arxiyepiskopunun qərargahının olması onu göstərir ki, Qəbələ həm inzibati və siyasi mərkəz, həm də yepiskopluq olmaqla mühüm əhəmiyyətə malik olmuşdur [96, s.79-80; s.85]. Dövlətçilik tariximizdəki önəmli yeri və rolundan bəhs edən Ulu öndər çıxışlarından birində qeyd edirdi ki, “Qəbələnin şərəfli keçmişi, gözəl gələcəyi var” [77, s.3]. Ulu öndər Heydər Əliyev kimi, onun siyasi varisi, möhtərəm cənab prezidentimiz İlham Əliyevin də dəfələrlə Qəbələyə rəsmi və qeyri-rəsmi səfərləri olub.

Ölkə prezidenti cənab İlham Əliyevin 2014-cü il sentyabr ayının 22-də açılışında iştirak etdiyi “Qəbələ Arxeoloji Mərkəzi” əslində Ulu öndər Heydər Əliyevin illər öncə söyləmiş olduğu kimi Qəbələnin həm şərəfli keçmişini, həm də gözəl gələcəyini özündə təcəssüm etdirir. Təbiidir ki, oraya səfər edən turistlərin həm Arxeoloji Mərkəzlə, həm də Qəbələnin keçmişi ilə tanış olması arxeoturizmin inkişafı ilə yanaşı, tarixi faktların dünya ictimaiyyətinə çatdırılmasında xüsusi əhəmiyyətə malikdir [64, s.54]. Cənab Prezidentin 18 avqust 2005-ci ildə gerçəkləşən növbəti səfəri zamanı o, Qəbələ Tarix Diyarşünaslıq muzeyini də ziyarət etmiş, orada saxlanılan zəngin maddi-mədəniyyət nümunələri ilə tanış olmuş, daha sonra isə muze-

yin xatirə kitabına bu sözləri yazmışdır: *"1980-cı illərin əvvəlində xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Qəbələ diyarşünaslıq muzeyi şübhəsiz, öz eksponatları ilə diyarın qədim tarixini əks etdirir. Qəbələ Azərbaycanın qədim torpağıdır, eramızadan əvvələ aid yazılı mənbələrdə Qəbələnin adını çəkirlər. Biz öz tarixi və mədəni irsimizə böyü diqqətlə yanaşırıq. Biz öz qədim tariximizi sevməliyik, onu dərindən öyrənməliyik və beynəlxalq ictimaiyyətə təqdim etməliyik"* [45, s.42].

Qəbələnin adı yazılı qaynaqlarda ilk dəfə eramızın I əsrində Böyük Plininin "Təbiət tarixi" əsərində Albaniyanın baş şəhəri olaraq Kabalaka kimi çəkilir [8, s.27-28]. Mənbələrdə Plininin bu ada eramızdan əvvəl II-I əsrlərdə yaşamış Varronun əsərlərində rast gəldiyi bildirilir. Maraqlıdır ki, Plini Qəbələ şəhəri haqqında bəhs edərkən istehkam kimi başa düşülən "oppidum" terminini qeyd edir [4, s.362-363]. Bu da Qəbələnin həmin dövrdə möhkəmləndirilmiş bir şəhər və qala olmasını deməyə əsas verir. II əsr müəllifi olan Klavdi Ptolemeyin "Coğrafiya dərsliyi" adlı əsərində isə şəhərin adı "Xabala" kimi verilmişdir [57, s.25; s.27]. Qəbələ şəhəri haqqında məlumatlara nəinki antik müəlliflərin, həm də orta əsr müəlliflərinin əsərlərində də rast gəlinir.

Qəbələ şəhərinin tarixinin dərindən və hərtərəfli öyrənilməsi hər zaman olduğu kimi, bu gün də aktual istiqamət olaraq qalmaqdadır. 1926-cı ildən başlayaraq və müəyyən fasilələrlə bugünədək davam etməkdə olan arxeoloji tədqiqatların nəticələri Qəbələnin ölkənin ictimai-siyasi həyatında olduğu kimi təsərrüfat həyatında da önəmli yer tutduğunu göstərir. Zəngin və rəngarəng çeşidli maddi-mədəniyyət nümunələri Qəbələnin XI-XIII əsrlərdə də Azərbaycanın mühüm sənətkarlıq mərkəzlərindən olduğuna dəlalət edir. Başqa sözlə, Qəbələ ustalarının istehsal etmiş olduğu sənətkarlıq nümunələri əksər parametrləri üzrə o dövrün inkişaf etməkdə olan şəhərlərində istehsal olunan məmulat növlərindən heç də fərqlənmirdi. Bu baxımdan keramika məmulatını xüsusi olaraq qeyd etmək yerinə düşər. Çünki, həm Qəbələdə, həm də digər şəhər və şəhər tipli yaşayış yerlərində, hətta fərqli dövrlərə aid nekropollarda aparılan arxeoloji tədqiqatlar zamanı əldə olunan ən zəngin material məhz keramika nümunələridir.

Bu gün Azərbaycanın muzey və fondlarında saxlanılmaqda olan Şamaxı, Gəncə, Beyləqan, Şabran, Şəmkir, Naxçıvan, Şərifan, Bəndovan, Xaraba-Gilan materiallarının az qala 80 faizindən çoxu məhz keramika məmulatıdır. Maraqlıdır ki, qeyd olunan keramika nümunələri faiz etibarı ilə digər növlərdən olan tapıntılarla müqayisədə üstün olmaqla yanaşı, həm də cəlbediciliyi və daha çox elmi dəyər kəsb etməsi ilə diqqət çəkir. Ona görə ki, bu və ya digər yerdə və şəraitdə aşkar olunan ən kiçik saxsı parçası həm də təyinedici materialdır. Yəni öyrənilən abidənin və oradan aşkar olunan bütün digər tapıntıların (əlbəttə sikkə nümunələri yoxdursa) yaşı və dövrü məhz keramika nümunələri əsasında müəyyən olunur. Bu mənada mütəxəssislərin keramika məmulatının dərindən və hərtərəfli öyrənilməsinə hər zaman xüsusi önəm vermələri başadüşüləndir.

Qəbələnin antik, ilk orta əsrlər və son orta əsrlərə aid keramikası hələ illər öncə ayrı-ayrı tədqiqatçılar tərəfindən xüsusi araşdırma mövzusu olmuşdur. Bu cəhətdən S.M.Qazıyevin [67, 68], Ö.Ş.İsmizadənin [161, 162, 164], R.B.Göyüşovun [51, 52, 53], Q.M. Əhmədovun [40, 41, 119, 120, 121, 122, 123, 124, 125], F.V.Qədirovun [79, 80, 81, 82, 83, 84, 85, 86, 87, 88, 89, 90, 91, 140, 141, 142, 143, 144], İ.A.Babayevin [5, 6, 7, 127, 128, 129, 130, 131, 132], Q.C.Cəbiyevin [11, 12, 13, 14, 15, 16, 17, 18, 19, 20, 21, 22, 23, 24, 25, 26, 27, 151, 152, 153], Ə.H. Bədəlovun [133], C.T. Eminlinin [34, 35, 36] tədqiqatlarını yada salmaq yerinə düşər. Doğrudur, S.M.Qazıyevin, Ö.Ş.İsmizadənin, F.V.Qədirovun tədqiqatlarında Qəbələ keramikası barədə ümumi şəkildə bəhs olunmuşdur. İ.A.Babayev Qəbələnin ilk şirli qablarını, Ə.H.Bədəlov və C.T.Eminli daha çox məhz Qəbələ materialları əsasında Albaniyanın antik və ellin dövrü keramikasını ayrıca dissertasiya mövzusu olaraq araşdırmışlar. R.B.Göyüşov isə məxsusi olaraq, Qəbələnin I-X əsrlər keramikası barədə dissertasiya işi yazmışdır [146]. Xatırladaq ki, bu Qəbələ keramikasına həsr olunmuş ilk tədqiqat əsəridir. Q.C.Cəbiyev isə Qəbələnin XIV-XVII əsrlərə aid materialları əsasında “Azərbaycanın son orta əsrlər saxsı məmulatı” mövzusunda dissertasiya müdafiə etmişdir. Beləliklə, XI-XIII əsrlər istisna olmaqla Qəbələnin bütün dövrlə-

rə aid keramikası xüsusi tədqiqat mövzusu olaraq işlənmişdir. Qəbələnin XI-XIII əsrlər keramikasının ayrıca tədqiqat mövzusu olaraq araşdırılmasını aktual edən başlıca məqam da elə budur.

Əfsuslar olsun ki, Azərbaycanın digər şəhərlərində aparılmış arxeoloji tədqiqatlar nəticəsində aşkar olunmuş keramika məmulatı hələ ki, bu dərəcədə tam, ardıcıl və sistemli olaraq tədqiq olunmamışdır. Bu baxımdan yalnız Bakı və Şəmkirin keramikasının nisbətən əhatəli şəkildə öyrənildiyini qeyd edə bilərik. T.M.Dostiyevin Şəmkirin, Şirvanın, Şimal-şərqi Azərbaycanın keramikasına dair tədqiqatları [29, 30, 31, 32, 33, 157, 158, 159], R.C.Əhmədovun "Bakının saxsı məmulatı IX-XVII əsrlər" [126], habelə F.Ə.İbrahimov və Ö.Ş.İsmizadənin müştərək işlədikləri "Bakının orta əsr bədii basma naxışlı qabları" [165] adlı əsərlər orta əsr şəhərlərinin keramika məmulatının tədqiqi istiqamətində atılmış müsbət addım kimi xüsusi olaraq qeyd olunmalıdır.

Fikrimizcə, bu gün ölkəmizin muzey və fondlarında mühafizə olunmaqda olan Mingəçevir, Beyləqan, Şamaxı, Gəncə, Şabran, Şəmkir materiallarının da Qəbələ materialları kimi dövrləşdirilərək, təsnifata ayrılaraq xüsusi tədqiqat mövzusu olaraq araşdırılması aktual olaraq qalmaqdadır.

Doğrudur, Q.M. Əhmədovun ötən əsrin 50-ci illərində başlıca olaraq Beyləqan materialları əsasında aparmış olduğu tədqiqatlarında Azərbaycanın şirsiz saxsı məmulatı kontekstində XI-XIII əsrlərin şirsiz saxsı məmulatından da ümumi şəkildə bəhs olunub [40]. Hansı ki, o vaxtadək Qəbələdə genişmiqyaslı tədqiqatlara hələ heç başlanılmamışdı. Başqa sözlə, Qəbələnin bu tədqiqat işinə cəlb olunmuş zəngin və çoxçeşidli keramika məmulatı əsasən ötən əsrin 50-ci illərindən sonrakı dövrdə aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş nümunələrdir. Yeri gəlmişkən onu da qeyd edək ki, Q.M.Əhmədovun tədqiqatlarında Beyləqan materialları əsasında Azərbaycanın IX-XIII əsrlər şirli saxsı məmulatı da ümumi şəkildə araşdırılıb [41]. Onu da xatırladaq ki, Q.M.Əhmədovdan daha əvvəl A.L.Yakobsonun Beyləqanın bədii keramikası barəsində araşdırmaları olub [195]. Əslində Q.M.Əhmədov da sadəcə olaraq A.L.Yakobsonun təsnifatını təkrarlamaqla kifayətlənib. Xatırladaq ki, bu, Azərbaycanın IX-XIII

əsrlər şirli keramikasının təsnifatı və xarakteristikasına dair ilk tədqiqat idi. Lakin, bugünkü reallıqlar müstəvisində yanaşdıqda həmin tədqiqatların yetərli və mükəmməl olduğunu da söyləyə bilmərik. Birincisi, A.L.Yakobsonun və Q.M.Əhmədovun təsnifatında XI-XIII əsr materialları ayrılıqda deyil, IX-X əsr materialları ilə birlikdə ümumi şəkildə nəzərdən keçirilib. Yəni, IX-X əsrlərdən fərqli olaraq XI-XIII əsrlərdə şirli keramika istehsalındakı təbəddülat məxsusi olaraq araşdırılmayıb. İkincisi, A.L.Yakobson və Q.M.Əhmədovun IX-XIII əsrlərin şirli saxsı məmulatının təsnifatına dair bölgüsü kifayət qədər mürəkkəb və çətin anlaşılandır. Onların təsnifatında yer alan 12 qrupa aid nümunələri müəyyən etmək və fərqləndirmək olduqca çətindir.

Bütövlükdə, IX-XIII əsrlərin şirli keramikasından bəhs edərkən sənətşünas alim N.N.Nəcəfovanın tədqiqatlarını da qeyd etməmək olmaz. Xatırladaq ki, Azərbaycanın orta əsrlərə, daha doğrusu XII-XV əsrlərə aid şirli keramikasının bədii xüsusiyyətləri ötən əsrin ortalarında ilk dəfə məhz onun tədqiqatlarında araşdırılaraq ümumiləşdirilmişdir [174, 175, 176, 177]. Lakin həmin tədqiqatlarda Qəbələ materialları demək olar ki, yer almamışdır. Bundan əlavə həmin tədqiqatlarda orta əsrlər keramikasının texniki və texnoloji xüsusiyyətləri də araşdırma predmeti olmayıb. Azərbaycanın ayrı-ayrı keramika istehsalı mərkəzlərinin materiallarının oxşar, ümumi və lokal xüsusiyyətləri göstərilməyib. Bu da sözsüz ki, həmin dövrdə tədqiqata cəlb olunan materialın qıtlığı və ölkənin bütün regionlarını əhatə etməməsindən irəli gələn hal kimi dəyərləndirilməlidir. Qəbələ şəhər yerində davamlı olaraq aparılmış olan tədqiqatlar isə XI-XIII əsrlərin keramika məmulatının öyrənilməsi sahəsindəki problem və boşluqların aradan qaldırılmasına imkan verir.

Qəbələdə arxeoloji tədqiqatlar əsasən şəhərin Səlbir və Qala ərazilərində aparılıb (Şəkil 3.1.13) [78, s.38]. Səlbirdə mədəni təbəqənin qalınlığı 2,5-3 metr təşkil edir. Burada 3 mədəni təbəqə müəyyən edilib. Antik dövrə aid edilmiş I mədəni təbəqə e.ə. III əsrdən b.e. V əsrinə qədər olan dövrə, II təbəqə VI-X əsrlərə, sonuncu, III təbəqə isə XI-XII əsrlərə aiddir. Qalada isə mədəni təbəqənin qalınlığı 5 m-ə qədərdir [46, s.10].

Səlbir ərazisində 1959-1960-cı illərdə görkəmli arxeoloq S.M.Qazıyevin rəhbərliyi ilə aparılmış arxeoloji qazıntılar zamanı həm Qala, həm də Səlbir ərazisində iri ictimai binaların qalıqları, su kəmərləri, kərpic, kirəmit və kaşı nümunələri, təsərrüfat quyuları, çoxlu sayda saxsı qablar aşkar olunaraq öyrənilib. Arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə Qəbələ arxeoloji dəstəsi tərəfindən 1975-ci ildən 1990-cı ilə qədər əvvəlcə Səlbir, daha sonra isə Qala, Kamaltəpə və Şərifaçığı adlanan ərazisində tədqiqatlar aparılmış və nəticədə çoxlu sayda şirsiz, şirli qablar və onların fraqmentləri, inşaat keramikasının bişirildiyi dulus kürələri tədqiq olunmuşdur. Qazıntılar şəhərin qala divarları ilə əhatə olunduğunu və şəhər əhalisinin gündəlik məişət həyatında saxsı qablardan geniş istifadə etdiyini göstərir.

Qəbələ şəhər yerində ilk dəfə 1926-cı ildə görkəmli arxeoloq D.B.Şərifov tərəfindən arxeoloji tədqiqat aparılıb. Qala ərazisinin mərkəzi hissəsində aparılan həmin tədqiqatlar daha çox kəşfiyyat xarakterli olmuş, həm də məhdud ərazidə aparılmışdır. 1960-1961-ci illərdə Ö.Ş. İsmizadənin rəhbərliyi ilə aparılmış qazıntılar zamanı ilk dəfə olaraq Qala ərazisində zəngin və çoxçeşidli keramika nümunələri müəyyən olunmuşdur. Saxsı qabların bişirilməsi üçün nəzərdə tutulmuş dulus kürəsinin aşkar olunması xüsusi diqqət çəkir. Professor Q.M.Əhmədovun rəhbərliyi ilə 1971-1983-cü illərdə IV qazıntı sahəsində aparılan tədqiqatlar zamanı orta əsrlər dövrünə aid dörd mədəni təbəqə qeydə alınıb [3, c.6, s.37]. Qeyd edək ki, IV qazıntı sahəsi indiyədək Qala ərazisində tam olaraq öyrənilmiş ən geniş sahələrdən hesab olunur. Hansı ki, həmin ərazidən əldə olunmuş zəngin keramika məmulatı, xüsusən də istehsal prosesi yarımçıq qalan şirli qab kolleksiyası və üçayaqlar elmi cəhətdən çox mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, sovet hakimiyyəti illərində Ö.Ş.İsmizadə, S.M.Qazıyev, Q.M.Əhmədov, F.V.Qədirov, İ.A.Babayev, Q.C.Cəbiyev və digər görkəmli arxeoloqlarımız tərəfindən qədim Qəbələ şəhər yerinin müxtəlif ərazilərində arxeoloji tədqiqatlar aparılmışdır. Bu qazıntılar zamanı aşkar olunmuş müxtəlif dövrlərə aid zəngin və çoxçeşidli maddi-mədəniyyət nümunələri içərisində şirli, şirsiz və inşaat keramikasına aid nümunələr çoxluq təşkil edir.

Xatırladaq ki, Ümummilli lider Heydər Əliyevin tarixi abidələrin öyrənilməsinə diqqət və qayğısının nəticəsi idi ki, 1975-ci ildən başlayaraq Qəbələ ilə yanaşı, Gəncə, Naxçıvan, Şamaxı, Şəki, Quba və digər ərazilərdə arxeoloji bazalar yaradılmışdır [66, s.308]. 1977-ci ildə Qəbələ radiolokasiya stansiyası inşa olunarkən yüksək gərginliyə malik olan elektrik xəttinin şəhər ərazisindən keçməsi milliyyətcə erməni olan mütəxəssislər tərəfindən layihələndirilmiş və bu zaman arxeoloqların etirazına məhəl qoyulmamışdı. Özündə əzəmətli bir tarixi keçmişi ehtiva edən qədim Qəbələ şəhərinin qalıqlarına qarşı olan bu hərəkət Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi Heydər Əliyevin göstərişi ilə Mərkəzi Komitənin 17 yanvar 1978-ci il tarixli iclasında müzakirə edilmiş, günahkar şəxslər cəzalandırılmışdır. Bir müddət sonra isə şəhərin ərazisi Dövlət qoruğu elan edilib [93, s.364-371]. Əlbəttə, Ulu öndər Heydər Əliyevin təşəbbüsü və qətiyyəti sayəsində belə bir qərarın qəbul edilməsi Azərbaycanda tarixi-mədəni dəyərlərə xüsusi önəm verildiyinin bariz nümunəsi kimi dəyərləndirilməlidir.

Təsadüfi deyildir ki, Ulu öndərin Qəbələyə 1978-ci ildə səfəri də olmuşdur. Ümumiyyətlə, Qəbələyə olan bütün səfərləri zamanı Heydər Əliyev bu tarixi şəhərin gözəl təbii-coğrafi şəraitə və qədim tarixə malik olmasını vurğulayıb. Hansı ki, *"Bu yerlərin gözəlliyi məni heyran etdi"* fikri də Ümummilli lider Heydər Əliyevin Qəbələnin təbiətinə vurğunluğunun təcəssümü idi [94, s.17; s.25].

70-ci illərin II yarısı, 80-cı illərin ortalarında Qəbələ ərazisində eyni vaxtda görkəmli arxeoloqlar Qara Əhmədovun, İlyas Babayevin, Firidun Qədirovun və Qafar Cəbiyevin rəhbərliyi ilə ayrı-ayrı sahələrdə qazıntı işləri aparılsa da, 80-cı illərin sonlarında ölkədə mövcud olan ictimai-siyasi vəziyyətlə əlaqədar arxeoloji tədqiqatlar dayandırıldı. Yalnız 2008-ci ildən başlayaraq SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının maliyyə dəstəyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyası yenidən Qəbələdə arxeoloji tədqiqatlara başlayıb [70, 71, 72, 73, 74, 75, 76].

Professor Q.C.Cəbiyevin rəhbərliyi ilə 2008-2023-cü illərdə Qala ərazisində VI-IX sahələrdə qazıntılar davam etdirilib və zəngin keramika məmulatı aşkar olunub.

Qəbələ arxeoloji ekspedisiyasının apardığı uzunmüddətli və genişmiqyaslı arxeoloji qazıntılar nəticəsində burada I əsrdən XVIII əsrin əvvəllərinə qədər fasiləsiz həyatın olması müəyyən edilib. XI əsrin sonlarında Səlbir ərazisində həyat kəsildikdən sonra Qala ərazisi şimal tərəfdən dərin xəndək və qala ilə əhatə olunub.

Təbiidir ki, arxeoloji tədqiqatlar nəticəsində aşkar olunmuş saxsı qablar və inşaat keramikasına aid nümunələr antik dövrdən başlayaraq son orta əsrlərə qədər Qəbələdə keramika sənətinin inkişaf dinamikasını daha müfəssəl öyrənmək baxımından geniş imkanlar açmış oldu. Bu nümunələr Qəbələ şəhərində həm dulusçuluq istehsalı sahəsinin ümumi inkişaf mənzərəsini göstərir, həm də tapılmış nümunələrin təhlili nəticəsində tədqiqatçılara XI-XIII əsrlərdə Qəbələnin ictimai-iqtisadi, sosial və mədəni həyatı haqqında daha ətraflı fikir söyləməyə imkan verir.

Qəbələ şəhər yerinin müxtəlif ərazilərində uzun illər ərzində aparılmış qazıntılar nəticəsində əldə olunmuş şirsiz, şirli və inşaat keramikasına aid nümunələr əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutu və Milli Azərbaycan Tarixi Muzeyinin, habelə Qəbələ Arxeoloji Mərkəzi və Qəbələ tarixdiyarşünaslıq muzeyinin fondlarında saxlanılır. Aparılan tədqiqatlar Azərbaycanın dövlətçilik tarixində xüsusi əhəmiyyəti olan Qəbələdə orta əsrlərdə şəhər həyatının inkişafı və şəhərin iqtisadi-mədəni həyatını öyrənməyə kömək edir. Beləliklə, mövzunun aktuallığı orta əsrlərdə Azərbaycanın mühüm sənətkarlıq və ticarət mərkəzi olan Qəbələ şəhərinin geniş miqyaslı və hərtərəfli arxeoloji tədqiqindən irəli gəlir.

Monoqrafiyanın tədqiqat obyektinin əsasını Qəbələnin XI-XIII əsrlərə aid şirsiz, şirli və inşaat keramikasına aid nümunələr, onların hazırlanma texnologiyası, məişətdə, memarlıqda və şəhər təsərrüfatının digər sahələrində istifadəsinə dair çoxçeşidli maddi-mədəniyyət nümunələri təşkil edir.

Monoqrafiyanın predmeti isə Qəbələdən tapılmış arxeoloji materialları hərtərəfli təhlil edərək tədqiq olunan dövrdə keramika istehsalının ümumi inkişaf tendensiyasını, şirsiz, şirli və inşaat keramikasının növlərini və onların əsas səciyyəvi xüsusiyyətlərini müəyyən etmək və öyrənməkdən ibarətdir.

Tədqiqat işində Milli Azərbaycan Tarixi Muzeyində, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun arxivində, Qəbələ Arxeoloji Mərkəzində və Qəbələ tarix-diyarşünaslıq muzeyində qorunub saxlanılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş zəngin nümunələrə, aparılmış arxeoloji tədqiqatların nəticələrinə həsr olunmuş hesabatlara, jurnallara, arxeoloq gündəliklərinə, fotoşəkillərə, digər zəruri ədəbiyyatlara və internet resurslarına istinad edilmişdir.

Monoqrafiyanın mənbəşünaslıq bazasını son yüz il ərzində Qəbələ şəhər yeri və ətrafında aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar olunan və hazırda Qəbələ rayon tarix-diyarşünaslıq muzeyində, Qəbələ Arxeoloji Mərkəzində, Milli Azərbaycan Tarixi Muzeyində, Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutunun arxivində olan XI-XIII əsrlərə aid keramika məmulatı nümunələri və Qəbələ qazıntılarına aid hesabatlar təşkil edir.

Monoqrafiyanın əsas məqsədi və vəzifəsi Qəbələnin XI-XIII əsrlər dövrünün keramikasını hərtərəfli tədqiq etməklə onun özündən əvvəlki və sonrakı dövrlərin materialları ilə müqayisə edərək bütövlükdə Orta əsrlər dövründə Qəbələdə keramika istehsalının inkişaf dinamikasını izləməkdən ibarətdir.

Göstərilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələri həll etməyi nəzərdə tuturuq:

- XI-XIII əsrlərdə Qəbələdə keramika istehsalında intibah dövrünün olduğunu tədqiqata cəlb olunmuş nümunələrin hərtərəfli təhlili və öyrənilməsi əsasında müəyyən etmək;
- Qəbələdə tədqiq olunan dövrdə zəngin və rəngarəng çeşidli keramika məmulatı əsasında əhalinin mədəni-sivil səviyyəsini izləmək;
- Məişətdə istifadə olunan keramika məmulatının bədii-texniki və texnoloji xüsusiyyətlərini öyrənmək, dövrün inşaat sənətinin sü-

rətli inkişafında kərpic, kirəmit və kaşılardan istifadə imkanları, şəhərin su təchizatı və kanalizasiya şəbəkəsinin yenidən qurulmasında su tünglərinin rolu və əhəmiyyətini müəyyən etmək.

Tədqiqat işində XI-XIII əsrlərdə Qəbələdə saxsı qabların və inşaat keramikasının inkişafını göstərən tarixi faktların ümumi mənzərəsi yaradılmışdır. Bununla bağlı araşdırılan mövzuda aşağıda qeyd olunan əsas məsələlər diqqət çəkir:

- Qəbələ şəhərinin XI-XIII əsrlərdə ümumi sosial-iqtisadi və siyasi mənəzərəsini vermək;
- Şəhərdə mədəni-sivil həyatın inkişaf səviyyəsini, eyni zamanda əhalinin sosial vəziyyətinə uyğun olaraq keramika sənətinin ümumi inkişafını göstərmək;
- Aşkar olunmuş arxeoloji materiallara əsaslanmaqla Qəbələdə sənətkarlıq və ticarətin ümumi mənzərəsini göstərmək.

Araşdırılan mövzu hal-hazıradək ayrıca tədqiqat mövzusu olmadığından Qəbələnin XI-XIII əsrlər dövrünün keramikasını, onun əsas səciyyəvi xüsusiyyətlərini öyrənməyə və bu sahədə mövcud olan çatışmazlıqları aradan qaldırmağa xidmət edir.

Tədqiqat zamanı arxeoloji materialların hərtərəfli araşdırılması məqsədilə tipoloji, ümumiləşdirici və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. Mövzu işlənərkən arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş nümunələrin və hesabatlarda əksini tapmış məlumat və materialların müqayisəli təhlili əsas götürülmüşdür.

Monoqrafiyada ilk dəfə olaraq Qəbələnin XI-XIII əsrlər keramikasının bədii-texniki və texnoloji xarakteristikası verilmiş, onun özündən əvvəlki və sonrakı dövrlərin materialları ilə müqayisədə fərqli və oxşar xüsusiyyətləri göstərilmişdir. Bu da bütövlükdə Qəbələnin Antik və Orta əsrlərə aid keramika məmulatının tam və sistemli şəkildə öyrənilməsinə imkan yaratmışdır.

Monoqrafiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı, əlavələr və ixtisarlardan ibarətdir.

# I FƏSİL. QƏBƏLƏNİN XI-XIII ƏSRLƏR ŞİRSİZ SAXSI MƏMULATI

## 1.1. Şirsiz saxsı məmulatının istehsal texnologiyası

Arxeoloji tapıntılar və etnoqrafik müşahidələr saxsı qabların istehsalının bir neçə mərhələdən ibarət olduğunu göstərir. Bu fikir müəyyən istisnalarla həm şirsiz qabların, həm şirli qabların, həm də inşaat keramikasının istehsalına aiddir. Bu prosesdə ilkin mərhələ isə zəruri çeşiddən olan gilin tədarüküdür.

Azərbaycanın demək olar ki, bütün regionları saxsı məmulatı istehsalı üçün yararlı olan gil ehtiyatları ilə zəngindir. Qəbələ, Beyləqan, Gəncə, Şabran, Naxçıvan və digər orta əsr şəhərlərində, şəhər ətrafı ərazilərdə xammal olaraq gil yataqlarının bol olması saxsı məmulatı istehsalı ilə məşğul olan ustaların işini asanlaşdırır və kütləvi istehsala şərait yaradırdı.

**Gilin tədarükü.** Gilin tədarük olunmasından başlayan ilkin mərhələ istehsalın başlıca zəruri şərti idi. Gili yataqlardan bel, lapatqa və külüng vasitəsi ilə qazaraq tədarük edirdilər. Məsələn, Qəbələ rayonunun Küsnət kəndində fəaliyyət göstərən dulusçu ustalar saxsı qablar istehsalı üçün gili yaxınlıqdakı Şonqar dağından tədarük edirdilər [11, s.27]. Qəbələnin həm Küsnət kəndində, həm də rayonun Pasdar adlı məhəlləsində gil ehtiyatı bol olduğuna görə burada dulusçu ustalar tərəfindən müxtəlif çeşidli saxsı qabların hazırlanması daha asan olmuş ixtisaslaşma daha da dərinləşmişdi (Şəkil 1.1.3; 1.1.4) [77, s.83-84]. Qəbələ rayonunda yataqdan götürülən gil adətən parça torbalara və ya yundan toxunmuş çuvallara doldurularaq, at, ulaq və ya arabalara yüklənərək gətirilirdi. Daha sonra həmin gil usta və ya

usta köməkçisi tərəfindən təkrar-təkrar tapdanaraq tam həll vəziyyətinə gətirilir [15, s.23-24].

Lakin, bəzi regionlarda gilin tədarük olunmasında fərqlərin olması diqqət çəkir. Məsələn, arxeoloq A.Ş.Orucov Quba rayonunda kustar dulusçuluq sənətinin öyrənilməsi zamanı bir sıra oxşar və fərqli məqamları müəyyən edib. Belə ki, qabın hazırlanması üçün zəruri olan gilin seçilməsində usta şəxsən iştirak edir, usta köməkçisi isə 2-3 $m^2$ olan yerdə gildən yarasız torpağı ayırmaqla məşğul olur. Lakin, Orta Asiya, Ukrayna, Dağıstan ustalarından, Azərbaycanda isə Qəbələnin Küsnət kəndi və Lənkəran ustalarından fərqli olaraq, Qubanın Yenikənd ustaları gili birbaşa emalatxanaya gətirib üstünə su səpmirlər. Bunun üçün quyunun yanında kiçik ölçülü, təxminən 30 sm-lik çala qazaraq, həmin quyuya keçi dərisi sərib gili onun üzərinə tökürlər [108, s.236].

Professor Q.C.Cəbiyev "*Azərbaycan dulusçularının qazan, təsərrüfat küpü və digər böyük həcmli qabları hazırlayarkən tərkibində qum qarışığı olan məsaməli gildən, zərif saxsı qablar olan kasa, boşqab, dolça, bardaq tipli qabları hazırlayarkən isə narın gildən istifadə etdiklərini göstərmişdir. Məsaməli, cod gildən hazırlanan qablar digərlərinə nisbətən davamlı və möhkəm olması ilə seçilirdi*" [14, s.23]. Təsadüfi deyildir ki, tədqiqatçı E.V.Sayko *"Orta əsr ustalarının nəinki xüsusi növlü gildən, eyni zamanda xüsusi hazırlanan gildən də istifadə etdiklərini göstərirdi* [187, c.162]. Saxsı qabların hazırlanması prosesini öyrənərkən Qəbələ ustalarının da bu sahədə daha səriştəli olmaları diqqət çəkir.

Şərqi Avropa nümunəsindən bəhs edən A.A.Bobrinskinin yazdığına görə avropalılar da gili tədarük etdikdən sonra onu emalatxana daxilindəki palçıq quyusuna tökərək üzərinə su əlavə edirdilər. Təxminən, on-on beş gün quyuda qalan gil palçıq qıcqırır və bundan sonra ondan məmulat hazırlanırdı [135, c.93-99]. Quyudakı palçığın tapdanaraq qarışdırılması, həll vəziyyətinə çatdırılması istehsalın ən ağır mərhələsi hesab olunurdu.

Dahi Azərbaycan şairi Nizami Gəncəvi "Sirlər xəzinəsi" əsərində kərpickəsən ustanın işindən bəhs edərək yazırdı:

*Bu nə əzab, nə zillətdir çəkirsən,*
*Saman və torpaq daşımaq uzunqulağın sənətidir.*
*Kəsəklərlə özünə nə qədər əziyyət verəcəksən,*
*Torpaq və su ilə nə qədər qurdalanacaqsan*? [103, s.106].

Fikrimizcə, dulusçuluq istehsalının əsas istiqamətlərindən olan inşaat keramikası istehsalının nə dərəcədə ağır zəhmət tələb edən iş olduğu hələ səkkiz əsr öncə Ulu Nizaminin qələmə aldığı elə bu sətirlərdən də çox aydın görünür.

Göründüyü kimi Nizami Gəncəvinin əsərlərində dulusçuluq, dulusçu ustaların məişət şəraiti və dövrün kərpic istehsalı ilə bağlı məsələlər də işıqlandırılmışdır. Xatırladaq ki, ölkə prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında" 05 yanvar 2021-ci il tarixi Sərəncamı dahi şəxsiyyətin elmi və bədii irsinin öyrənilməsində xüsusi əhəmiyyətə malikdir [200].

Qabların nə dərəcədə keyfiyyətli olması xeyli dərəcədə palçığın yoğrulma dərəcəsindən asılı idi. Hələ K.Marks özünün "Kapital" əsərində qeyd edirdi ki, dulusçuluq sahəsində işləyən insanların əksəriyyəti revmatizm xəstəliyindən əziyyət çəkirdi [26, s.238-241].

Palçıq yoğrulduqdan sonra ondan hazırlanacaq qabın həcmindən asılı olaraq kündə kəsilir, ən böyük kündə isə küp və nehrə tipli qablar üçün hazırlanırdı. Görkəmli arxeoloq Q.M.Əhmədovun yazdığına görə *"Küsnətdə gil qablar dulus çarxında hazırlanır, dulus çarxı isə 3 hissədən – üst və alt taxta təkərlərdən və onları birləşdirən ağac oxdan ibarət olurdu. Alt çarxın diametri 50-60 sm, üst çarxın diametri 20-30 sm, birləşdirici oxun uzunluğu isə 70-75 sm olmaqla düzəldilirdi. Dulus çarxının arxasında oturan usta növbəli şəkildə sağ və sol ayağı ilə alt çarxı hərəkətə gətirir və bununla da dəzgahı işlədirdi"* [40, s. 42-43].

**Məmulatın hazırlanması.** Şirsiz keramika istehsalında növbəti texnoloji mərhələ məmulatın hazırlanmasıdır. Xatırladaq ki, bu mərhələ istehsalın daha vacib bir hissəsi olmaqla ustadan səriştəli və bacarıqlı olmağı tələb edir.

Küsnət ustalarının şirsiz saxsı qablar istehsalı prosesini izləmiş olan professor Q.C.Cəbiyev yazır ki, *“Hazırlanmış kündə sağ əl ilə dulus çarxının üst hissəsinə qoyulur, kündənin çarxa yapışmaması üçün çarxın üzərinə kül səpilirdi. Sonra usta əllərini dəzgahın yanına qoyulmuş suya batıraraq iki əli ilə kündəni tutmaqla ayağı ilə dəzgahı hərəkətə gətirir. Qabların həm xarici, həm də daxili səthinin hamar olması ustadan daha diqqətli olmağı tələb edirdi. Böyük həcmli qabların hazırlanması zamanı isə qabın yarıdan yuxarı hissəsi əvvəlcə hazırlanaraq başı aşağı vəziyyətdə ayrı qoyulur, sonra isə qabın aşağı hissəsi düzəldilir və ardıcıl olaraq hər iki calaq bir-birinə birləşdirilərək çarx yenidən hərəkətə gətirilirdi”* [14, s. 28-29 ].

Qəbələdə saxsı qabların hazırlanmasında dulusçuluq dəzgalarının geniş inkişaf etməsinə baxmayaraq, həmin dövrdə torba üsulu ilə düzəldilmiş kermika nümunələrinə də rast gəlinmişdir. Onlar əsas etibarilə güvəclərdir. Güvəclər sadə üsulla əldə hazırlandığına görə adətən onların alt hissəsinin yanmasına tez-tez rast gəlinir. Qəbələ sakinləri bəhs etdiyimiz həmin bu yanmış güvəclərdən manqal kimi istifadə etmişlər. Bu da indiki manqalların qədim forması hesab oluna bilər. Hansı ki, həmin güvəcləri qadınlar hazırlayırdı, lakin buna baxmayaraq onların üzərində yapma, eşmə və ya qazımaqla vurulmuş naxışlar vardır. Bu da dövrün bəhs olunan peşə sahibləri içərisində qadınların da olmasına dəlalət edir [67, s.152].

Müşahidələr göstərir ki, saxsı qabların hazırlanması prosesi oturacaqdan başlayaraq qabın boğaz hissəsinə doğru icra olunur.

Professor Q.M.Əhmədovun fikrincə də *“Dulusçu ustalar kiçik həcmli qabları bir dəfəyə hazırlayırdılarsa, böyük qablar iki dəfəyə hazırlanırdı. Böyük həcmli qabları daha davamlı birləşdirmək üçün içəri və çöl tərəfdən olmaqla kəsik hissədə gəz düzəldilirdi. Qabın hissələri bir-birinin üzərinə qoyulur və həmin hissənin bilinməməsi üçün içəri və çöl tərəfdən hər iki əlin şəhadət barmaqları arasında tutulmaqla çarx hərəkətə gətirilir”* [40, s. 43].

Məlumdur ki, şirsiz saxsı qabların bir qismi qulp və lüləyə malikdir. Qulp və lülək qabın xarici görünüşünə yeni bir forma verməklə yanaşı, kənardan diqqəti cəlb etdiyindən qabın bu hissələri də səli-

qəli hazırlanmalı və qabın ümumi görünüşünü tamamlamalıdır. Adətən şirsiz qab hazır olduqdan sonra onun üzərində ornamentlər işlənir. Havalar isti olduqda 2-3 gün, yağmurlu olduqda 4-5 gün sonra isə qulp və lülək qablara yapışdırılır [14, s.30].

**Məmulatın qurudulması.** Qab hazır olduqdan sonra emalatxanada qurudulur. Qabın nəmliyi təqribən 5 gün ərzində çəkildikdən sonra, quruması üçün qab rəflərdə başı aşağı qoyulur. Qabların qurumağa qoyulduğu müddətdə emalatxananın qapısı bağlı saxlanılır. Bu qabların tədricən quruması, külək və günəş şüalarının təsiri nəticəsində qabların çatlamaması üçün edilirdi [150, c.157]. Hazır saxsı qabların quruması üçün 15-20 gün tələb olunur. Yalnız bundan sonra çox günəşli olmayan yerə gətirilərək açıq havaya çıxarılırdı.

**Qablara sığal çəkilməsi.** Qəbələnin XI-XIII əsrlərə aid səhəng, bardaq, dolça, çıraq, mehtərə tipli və digər şirsiz saxsı qab nümunələrinə nəzər saldıqda qabların keyfiyyətli hazırlanmaqla yanaşı, onların xarici səthinin daha səliqəli işlənməsi də diqqəti cəlb edir. Qabların qulp və lülək hissələrinin birləşdiyi hissəsi, bötüvlükdə qabların xarici səthi elə hamarlanmışdır ki, həmin hissələrin ayrı-ayrılıqda hazırlanması hiss olunmur. Qeyd olunanlar inkişaf etmiş orta əsrlər dövründə şirsiz saxsı məmulatı hazırlanarkən ustaların qablara sığal çəkilməsi işində daha peşəkar olmalarını deməyə əsas verir. Xatırladaq ki, qablara sığal çəkilməsi nəinki şirsiz qablar, həm də şirli qablar üçün də xarakterikdir. Çünki, saxsı qablar hazırlanarkən onlar xarici və daxili səthinin hamar olması qabın xarici görünüşünə diqqət çəkməklə yanaşı, həm də gündəlik məişətdə istifadə zamanı əhəmiyyətli idi.

Qabların səthində müşahidə olunan xırda gil hissəciklərin təmizlənməsi zamanı səth dəfələrlə islandıqda və yüngülcə sığallandıqda həmin incə hissəciklərin aradan qalxması baş verir. Təbiidir ki, minimum gil hissəciyin ölçüsü və ölçü diapazonu əldə edilən teksturaya təsir edəcək. Sıxılmış səthin təsvirində səthin hazırlanmasını və ya hamarlığını, cilalanma prosesini və gilin keyfiyyətini fərqləndirmək vacibdir [199, p.191].

**Məmulatın bişirilməsi.** Qabların bişirilməsi saxsı qab istehsalında mühüm və əhəmiyyətli bir mərhələ hesab olunur. Qəbələdə aparılmış arxeoloji qazıntıların nəticələri və etnoqrafik məlumatlar arxeoloqlara saxsı məmulatının bişirilməsi haqqında daha ətraflı fikir yürütməyə imkan verir.

Gil quruyan zaman çoxlu su itirir, yenidən onu rütubətdən alır. Gil bişirildikdə isə su onun molekulundan 400 dərəcə selsidə buxarlanıb gedir, söndürmədən sonra da bərpa olunmur və gil keramikaya çevrilir. 1000 dərəcədən yuxarı temperaturda hissələri əriməyə başlayır. Qədim dulusçuların belə yüksək temperatur almaq imkanları olmasa da, orta əsrlərdə qabların bişirilməsi daha da təkmilləşir [137, c.108].

Saxsı məmulatı, o cümlədən şirsiz qablar xüsusi kürələrdə bişirilirdi. Qəbələdə arxeoloji tədqiqatlar zamanı XI-XIII əsrlərə aid çoxsaylı dulus kürələri aşkar olunub. Bu cəhətdən 1960-cı ildə Ö.Ş.İsmizadə tərəfindən Qalanın cənub-şərq tərəfində, professor Q.C.Cəbiyev tərəfindən isə Qalanın mərkəzi hissəsində aşkar olunmuş dulus kürələrini qeyd edə bilərik. Həmin kürələrin hamısı düzbucaqlı və ya ellips formalı olmaqla ikiyarusludur. Kürənin alt kamerası odluq, üst kamerası isə qabların bişirilmək məqsədi ilə yığıldığı hissədir. Odluqla üst kamera arasındakı deşiklər hərarətin üst kameraya ötürülməsi üçündür.

1961-ci ildə Ö.Ş.İsmizadə tərəfindən Qalada arxeoloji qazıntılar aparılarkən ikinci mədəni təbəqədə 3 ədəd dulus kürəsi tapılmışdır. Həmin kürələrin ətrafında çoxlu sayda gil qablar, onların fraqmentlərinə də rast gəlinir. Bu kürələrin öyrənilməsi nəticəsində onların birinin şirli, ikisinin isə şirsiz qabların bişirilməsi üçün nəzərdə tutulduğu müəyyən olunub. Şirsiz qabların bişirildiyi kürələr 1 və 2-ci kvadratlarda müəyyən olunub. Onlar oval formalı olmaqla, divarları bişmiş kərpicdən hörülmüş, kürələrin ancaq odluq hissəsi salamat qalmışdır. Qabların yığıldığı kameraya istilik dördkünc formada düzəldilmiş bacalardan paylanırdı. I kürədə 4 bacanın olması aydın müşahidə edilmişdir. II kürə çox dağılmış, onun 0,55-0,6 metr hündürlükdə olan divarı 13 cərgə kərpicdən ibarətdir. Kürələrin ətrafından

müəyyən olunmuş nümunələr həmin kürələrin XI-XV əsrlərə aid olduğunu göstərir [162, c.24].

Dulus kürələri adətən dulusçu emalatxanalarına yaxın ərazidə olurdu. Ustalar ayrı-ayrı növ məmulat istehsalı üzrə ixtisaslaşdığı kimi, onlara aid kürələr də fərqli xüsusiyyətlərə malik ola bilirdi. Məsələn, 2011-ci ildə Qəbələnin Qala ərazisində professor Q.C.Cəbiyev tərəfindən öyrənilmiş kürələrin ikisi dolu vəziyyətdə olmuşdur (Şəkil 1.1.1; 1.1.2) [71, s.304-305]. Görünür bişmə prosesi davam edərkən şəhərdə hansısa fövqəladə hadisə baş verib, bu səbəbdən də kürə boşaldılmayıb, içərisindəki qablar isə yanıb ötərək bir-birinə yapışıb. Kürələrdən birinin içərisi süzgəcli bardaqlarla, digər bir kürənin içərisi isə yalnız lüləkli çıraqlarla dolu olmuşdur.

Müəyyən əlamətlərinə görə kürələrdə hansı növ məmulatın bişirildiyini çox asanlıqla müəyyən etmək olur. Məsələn, şirsiz qablar bişirilən kürələrdən daha çox silindr formalı kürə çubuqları tapılır. Hansı ki, həmin kürə çubuqlarından adətən qulplu qabları kürənin divarlarından asmaq üçün istifadə olunurdu. İçərisində və ətrafında sacayaq formalı üçayaqların tapıldığı kürələrdə isə şirli qabların bişirildiyi məlumdur. Kərpic kürələri isə tam fərqli olub.

1982-ci ildə F.V.Qədirovun rəhbərliyi ilə Qəbələ arxeoloji ekspedisiyasının Səlbir dəstəsi Covurlu çayının sol sahilində, yerli əhalinin “Yanıq yer” adlandırdığı ərazidə tədqiqat apararkən iki istehsalat ocağı aşkar olunub (Şəkil 3.1.16) [81]. Arxeoloq F.V.Qədirov ərazisi təxminən 10 hektar olan Yanıq yerində təpələrin bir-birindən 50-100 metr məsafədə yerləşdiyini, həmin təpəliklərin üst qatında torpaq işləri aparılarkən yanmış torpaq qatının üzə çıxmasına görə yerli əhalinin buranı şərti olaraq “Yanıq yer” adlandırdığını göstərmişdir.

Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, şimal tərəfdə olan kürə kərpic kürəsi, cənub tərəfdəki isə dulus kürəsidir. Kürələrin ocaq yandırılan alt yarusları nisbətən salamat qalsa da, lakin, kərpic və ya şirsiz saxsı qabların bişirildiyi üst yarusu isə dağılıb. Buna baxmayaraq aşkar olunmuş qalıqlar kürələrin forma və quruluşu haqqında aydın təsəvvür yaradır.

Bəhs olunan (Şəkil 3.1.16) istehsalat ocağı dulus kürələrinin tipik nümunəsidir. Düzbucaqlı formada olan kürənin şimal divarının uzunluğu 2,75 m, cənub divarının uzunluğu 2,70 m, şərq divarının uzunluğu 3,25 m, qərb divarının uzunluğu isə 3 m-dir. Kürənin yarusları arasında 28 sm enində olmaqla boşluqlar qoyulmuşdur. Həmin boşluqlar üst-üstə qalaqlanan kərpiclərin bişirilərkən alovun bərabər paylanmasına şərait yaradır ki, bu da normal şəkildə bişirilməni təmin edirdi.

Yanıq yerdə aşkar olunmuş hər iki kürənin alt və yan tərəfləri gil məhlulundan istifadə olunmaqla və ölçüləri 28X28X5 sm olan bişmiş kərpiclərdən istifadə olunmaqla hörülüb.

Arxeoloq F.V.Qədirov bu dulus kürəsinin nisbətən böyük ölçüyə malik olmasına, həm də kürədə olan alov gözlərinin nisbətən böyük və aralı olmasına əsaslanaraq burada nisbətən böyük ölçüyə malik olan saxsı qabların, o cümlədən iri təsərrüfat küplərinin, nehrə, səhəng və bu tip saxsı qabların bişirildiyini göstərir [81, s.45-48].

F.V.Qədirovun rəhbərliyi ilə 1983-1984-cü illərdə Qala ərazisində tədqiqatlar aparılarkən inkişaf etmiş orta əsrlər dövrünə aid daha bir neçə dulus kürəsi tapılıb. Həmin kürələrdən yalnız şirsiz qablara aid nümunələrin aşkarlanması bu kürələrdə şirsiz qabların bişirildiyini deməyə əsas verir [82, s.23-24]. 1984-cü ildə Qalada V sahədə qazıntılar davam etdirilərkən aşkar olunmuş kürələrdən biri dairəvi formalı olmaqla odluq və qab bişirilən hissədən ibarətdir. Üst yarus təsərrüfat işləri zamanı dağıdılsa da, alt yarusun qismən salamat qalması kürə haqqında zəruri məlumatların əldə olunmasına kömək edir. Həcm etibarilə nisbətən kiçik olan bu kürələrin ətrafından çoxlu sayda şirsiz saxsı qablara aid fraqmentlər müəyyən olunmuşdur [83, s.23-24].

Qala ərazisində uzun illər ərzində aparılmış və günümüzədək davam edən arxeoloji tədqiqatlar zamanı çoxlu sayda dulus kürələri tapılıb. 1960-cı ildə 1 ədəd, 1986-cı ildə daha 1 ədəd dulus kürəsi aşkar olunmuşdusa, 2011-ci ildə 7 ədəd dulus kürəsi tapılıb. Mütəxəssislər Qaladan aşkar olunmuş 7 ədəd dulus kürəsinin bir-birinə yaxın yerləşməsinə əsasən həmin ərazinin dulusçular məhəlləsi olduğunu bildirir. Dulus kürələrinin sayca çoxluğu və içərisindəki məmulatın

fərqliliyi dulusçuluq sahəsində ixtisaslaşmanın dərinləşdiyini söyləməyə əsas verir [22, s.300].

Xatırladaq ki, gil məmulatının bişirildiyi dulus kürələrinə aid nümunələr Qəbələ ilə yanaşı, Gəncə, Quba, Mingəçevir, Örənqala, Şabran və s. yaşayış yerlərindən də aşkar olunub. Nümunələr orta əsr kürələrinin dairəvi və nisbətən kiçik olduğunu göstərir [9, s.73].

Xatırladaq ki, Örənqalada 1955-ci ildə aşkar olunmuş 4 ədəd dulus kürəsi saxsı qabların kürələrdə necə bişirilməsi barədə aydın təsəvvür yaradır [171, c.134-148]. Tədqiqatçı N.V.Minkeviç-Mustafayeva Örənqaladan aşkar olunmuş bu kürələrdən 1 və 2 nömrəli kürələrin içərisində olan sikkələr, kərpiclər, həmçinin saxsı qab nümunələrinə əsasən IX-X əsrlərə, 3 və 4 nömrəli kürələrin isə XII-XIII əsrlərə aid olduğunu, 3və 4-cü kürələrdə əsasən şirsiz və şirli qabların bişirildiyini göstərir. Bu kürələr Qəbələnin həmin dövr kürələri ilə oxşarlıq təşkil edir [173, c.181-182]. Qala ərazisindən digər dulus kürələri ilə yanaşı, fayans istehsalı kürələri də aşkar olunub. Fayans kürələrinin ölçüləri 1m 50 sm və 1 m 60 sm təşkil edir [111, s.65-66].

Arxeoloji ədəbiyyatlarda saxsı qabların bişirilməsinin üç mərhələsi fərqləndirilir:

I mərhələ tüstüləndirmədən ibarətdir ki, bu zaman bişirilməyə hazırlanmış gil məhsulundan nəmliyin çıxarılması həyata keçirilir. Bu proses ustadan xüsusi diqqət tələb edir.

II mərhələ gil məhsulunun bərkiməsindən ibarətdir ki, artıq bu zaman saxsı qab bişirilməyə tam hazır vəziyyətə gətirilmiş olur.

III mərhələdə isə dulus kürəsində saxsı məmulatının bişirilməsi icra olunmaqla qabın hazırlanması prosesi başa çatmış olur.

Qeyd olunan hər üç mərhələ demək olar ki, bütün orta əsrlər dövrü üçün saxsı qabların bişirilməsində xarakterik əlamət olmaqla tədricən inkişaf etmiş və qabların bişirilməsi texnologiyası daha da təkmilləşmişdir. 1948-1949-cu illərdə Mingəçevirdən məlum olan dulus kürələri Qəbələdən aşkar olunmuş dulus kürələri ilə daha çox oxşarlığa malikdir. Q.İ.İone *“Mingəçevir kürələrinin oturacağı 2 m, yuxarı hissəsi isə 1,3 m eni olan xam torpağın qazılması nəticəsində inşa olunmaqla ikiyaruslu olmasını göstərir”* [40, s.49-50].

Mingəçevirdə 2 və 3 nömrəli yaşayış yerlərində, Qubada Xucbala, Qaxda Torpaqqala yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş nümunələr buna misal ola bilər [107, s. 21].

Tədqiqatçı S.M.Ağamalıyeva isə Talış zonasında öyrənilən dairəvi formalı açıq tipli kürələrin böyüyünün hündürlüyünün 70 sm-dən çox olmadığını, diametrlərinin isə 3 m-ə qədər olduğunu bildirir. Həmin nümunələrin öyrənilməsi və təhlilinə əsasən S.M.Ağamalıyeva açıq tipli kürələrin tədricən inkişaf edərək daha mükəmməl kürələrə, yəni ikiyaruslu kürələrə keçid xarakteri daşıdığını və bir kameradan ibarət olmasını əsaslandırmışdır [115, c.12-13].

Dulus kürələrinin quruluşunu xarakterizə edərkən diqqət çəkən məqamlardan biri də kürələrin odluq hissəsinin necə olması ilə bağlıdır. Odluq hissə aşağı kameranı təşkil etməklə tağ vasitəsilə üst kamera ilə birləşirdi. Arxeoloq Q.M.Əhmədov yazır ki, *"Küsnət kürələrinin digər kürələrdən əsas fərqi onların ocağının yarımdairəvi tağı olan uzun xəndək şəklində hörülməsidir. Ocağın bir hissəsi kürədən 2,5 m çölə çıxdığı halda, digər hissəsi içəridə qalırdı"* [40, s.52]. Kürələrin odluğu küləyin istiqamətinə əsasən qoyulurdu. Qəbələdən aşkar olunmuş kürələrin istiqaməti cənub-şərq tərəfdədir. Arxeoloq Ö.Ş.İsmizadə isə kürələrin ağzının bu cür yerləşməsini cənub-şərq tərəfdən küləyin zəif olması ilə əsaslandırırdı [14, s.33].

Qəbələdən aşkar olunmuş dulus kürələri Örənqala kürələri ilə çox oxşardır. Hansı ki, yuxarıda göstərilən Örənqaladan aşkar olunmuş dulus kürələri də ikiyarusludur. İkiyaruslu kürələrdə odluğun tavanında bacalar qoyulurdu. Maraqlıdır ki, Orta əsr Mərv şəhərinin sənətkarlar məhəlləsindən aşkar olunmuş kürələr də anoloji forma və xüsusiyyətlərə malikdir. Lakin, həmin dövrə aid Xersones kürələri isə armudvari formalı olması ilə fərqlənir [56, s.213; s.216-217].

Kürələrə qabların bişirilmə üçün ardıcıllıqla yerləşdirilməsinə, kürələrin yandırılması və orada saxsı qabların bişirilməsi prosesinə usta cavabdeh idi və mütəmadi olaraq buna nəzarət edirdi. Dulusçu ustaların dediyinə görə saxsı qabların bişirilməsi mülayim hava şəraitində və çox soyuq olmayan günlərdə həyata keçirilirdi.

Tədqiqatçı E.M. Peşereva kürənin yandırılmasının adətən həftənin cümə axşamı və cümə günlərinə, bəzən isə çərşənbə günlərinə təsadüf edildiyini göstərirdi [183, c.145].

Təsadüfi deyildir ki, dulusçu ustalar saxsı qabların uzunömürlü olmasını onların istehsal texnologiyası ilə əlaqələndirirlər. Keyfiyyətli saxsı qabın üstünə ağır bir şey qoyanda o, sınmamalı, saxsılar birbirinə toxunduqda isə şüşə səsi verməlidir [49, s.15].

Saxsı qablar yüksək temperaturda bişirdi. Buna görə də dulus kürəsində qabın bişməsi üçün zəruri olan temperatur yarananadək kürə qızdırılır və usta kürədə normal bişmə istiliyinin qorunub saxlanılmasına nəzarət edirdi. Çünki, kürədə istiliyin həddən çox və ya az olması qabın korlanmasına səbəb ola bilərdi. Tədqiqatçı N.S.Qrajdankina saxsı qabların normal bişməsinə 950-1000 dərəcə temperaturun zəruri olduğunu, odluq hissədə temperaturun 1000-1200 dərəcə, üst kamerada isə 900-950 dərəcəyə qədər yüksəlmiş olduğunu bildirir [147, c.157].

Etnoqrafik müşahidələr göstərir ki, saxsı qabların istehsalı ilə usta, usta köməkçisi və şagird məşğul olub. Hazır məmulatın bazara çıxarılaraq reallaşdırılması ilə isə xüsusi adamlar məşğul olub. Nizami Gəncəvinin "Yeddi gözəl" poemasında saxsı qabların satışı ilə məşğul olan insanlar barədə belə deyilir:

*Çox iti zehinlər yatan oldular,*
*Axırda saxsı qab satan oldular [104, s.50].*

Göründüyü kimi, saxsı qabların istehsalında usta əməyi xüsusi əhəmiyyət kəsb edir. Qərbi Avropa ilə müqayisə etsək, orada orta əsr sənətkarlığının əsas xarakterik xüsusiyyəti onun sex təşkilatına malik olması idi. Burada sənətkara işində əsasən ailəsi kömək etsə də, ustanın yanında bir və ya iki nəfər usta köməkçisi, eyni zamanda bir neçə şagirdi də işləyirdi. Lakin, sexin üzvü olmaq hüququna yalnız sənətkarlıq emalatxanasının sahibi olan usta malik idi [112, s.210].

Saxsı qabların istehsalı ilə bağlı qeyd olunan xarakterik əlamətlər Cənubi Azərbaycan şəhərlərinə də xas idi. Düzdür, monqolların

yürüşü dövründə əsas sənət mərkəzləri, o cümlədən saxsı qabların istehsalı üzrə ixtisaslaşmış mərkəzlər dağılsa da, lakin Təbriz və Sultaniyyə hələ də xüsusi rol oynamaqda davam edirdi. Burada keramika sənəti o qədər tərəqqi etmişdi ki, Əbülqasim Kaşani (1300-1301-ci illərdə) Tacəddin Əlişah Cilani üçün Təbrizdə saxsı qabların və kaşıların istehsal texnologiyası barədə əsər yazmışdı. Təbrizdə ayrı-ayrı sənət sahələri üzrə sənətkarlar rastası da təşəkkül tapmışdı [106, s.48-49].

Mütəxəssislər XII-XV əsrlərdə Azərbaycan dekorativ-tətbiqi sənət növləri içərisində keramikanın mühüm yer tutduğunu bildirirlər. Arxeoloji qazıntılar nəticəsində tapılmış çoxsaylı və müxtəlif çeşidli saxsı qab nümunələri Azərbaycanda orta əsrlər dövründə keramika istehsalı mərkəzlərinin olduğunu göstərir. Bütövlükdə Azərbaycan keramika sənətində vahid üslub mövcud idi [37, s.19-20].

Keramikanın bir çox üstünlükləri var. Azərbaycan ərazisində də xammalı geniş yayılıb. Qab hazırlanarkən ona forma vermək və bişirmək çətin deyil, gilə istənilən qədər forma və ornament vermək olar. Kövrək olması ilə bağlı narahatlıq haqqında onu demək olar ki, bu arxeoloqlar üçün bir üstünlük qazandırır. Eyni zamanda qırıntılar şəklində olan keramika da məhv edilməzdir. Bütün bu faktorlar keramikanın arxeologiyada böyük əhəmiyyətini göstərir. Keramika kütləvi şəkildə hər bir yaşayış məntəqəsində tapılan bir nümunədir, çünki o hər yerdə istifadə olunub. Mədəni müxtəlifliyin, inkişafın və qohumluğun parlaq impulsvericisi olmaqla, onun hazırlanma texnikası keramikanın təhlili nəticəsində nisbətən asan şəkildə aşkarlanır [137, c.108].

Xatırladaq ki, Monqol işğalına qədər Azərbaycanda keramika istehsalı yüksək səviyyədə inkişaf edib. Bu inkişaf demək olar ki, Azərbaycanın bütün şəhər və vilayətlərini əhatə edirdi. Keramika istehsalı aşağıdakı əsas ixtisasları özündə birləşdirirdi: Şirli keramika ustaları (kaşitaraş), dulusçu ustalar (duluz), dulus küp ustaları (kaseqər), gil kuzə ustaları (kuzəgər) və kərpic ustaları. Lakin bu sahələr içərisində də əhəmiyyətli dərəcədə daxili ixtisaslaşmanın olması diqqət çəkir. Bu özünü məmulatların müxtəlifliyində və geniş çeşidliliyində göstərir. Məsələn, bişmiş kərpiclər, o cümlədən dekorativ olanlar, müxtəlif rəngli, yüksək keyfiyyətli saxsı plitələr, su boruları, ya-

şıl-boz çalarlı, böyük, ağ anqobla örtülmüş, qalın divarlı qazanlar, dairəvi gövdəli küplər, bardaqlar, səhənglər, çıraqlar və s [145, c.223-224].

Tədqiqatlardan da bəlli olduğu kimi şirsiz saxsı qabların istehsalı şirli qablarla müqayisədə nisbətən tez, asan və ucuz başa gəlirdi ki, bu da qabların daha geniş miqyasda istehsalını şərtləndirirdi. Orta əsr şəhərlərinin görkəmli tədqiqatçısı, arxeoloq Q.M.Əhmədov qeyd edirdi ki, “*Ucuz və asan başa gələn şirsiz saxsı məmulatı digər yerlərə daşınmayaraq, yalnız ehtiyac olduğu təqdirdə yaxın rayonlara aparılırdı”* [40, s.37-39].

## 1.2. Şirsiz saxsı məmulatının təsnifatı

Digər orta əsr şəhər yerlərində olduğu kimi Qəbələdə də aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələrinin əksər hissəsini şirsiz saxsı qablar təşkil edir. Orada IX əsrdən etibarən müşahidə olunan inkişaf XI-XIII əsrlərdə intibah dövrünü keçirmişdir. Təbiidir ki, qazıntılar zamanı keramika məmulatının çox tapılması həm də istehsalına hələ Neolit dövründə başlanmış saxsı qabların hazırlanmasında yeni texnologiyaların mənimsənilməsi ilə bağlı olub.

Xatırladaq ki, məişətdə istifadə olunan saxsı qablar hazırlanma texnikası və təyinatı baxımından iki əsas qrupa bölünür. Bunlar şirsiz və şirli qablardan ibarətdir. XI-XIII əsrlərə aid olan şirsiz saxsı qablar çoxçeşidlidir. Bu da əhalinin gündəlik tələbatı zərurətindən istehsalı genişlənən bu qabların müxtəlif məqsədlər üçün istifadə edilməsi ilə bağlıdır.

Şirsiz qablar şirli qablara nisbətən həm ucuz başa gəlir, həm də hazırlanma texnikası baxımından daha tez və asan olurdu. Yəni, istənilən yaşayış məntəqəsində bu cür qabları istehsal etmək mümkün idi. Bu tip qablara daha çox ehtiyac olduğundan onların istehsalı daha çox yerli xarakter daşıyırdı. Tədqiqatçı K.Fərhadoğlu İslam dini

yayılan ölkələrdə şirsiz saxsı qabların məişətdə geniş istifadə olunduğunu göstərirdi. Belə ki, dəmir, mis və qalaydan hazırlanmış qablarda xörək yeyilməsi münasib sayılmadığından şirsiz saxsı qablar yerli əhalinin həm istehsal texnologiyasını və onların məişət həyatını, həm də etik və estetik zövqünü özündə əks etdirirdi [50, s.194 ].

Arxeoloji ədəbiyyatda dulus məmulatının təsnifatına mütəxəssislər tərəfindən fərqli yanaşma olmuşdur. Məsələn, professor Q.M.Əhmədov Örənqaladan aşkar olunmuş nümunələri tədqiq edərkən qabların təsərrüfat və məişətdə hansı məqsəd üçün işlədilməsini əsas götürmüş və Örənqalanın bütün şirsiz saxsı qablarını qazanlar, küplər, qapaqlar, aşxana və digər məişət qabları, çıraqlar və şar-konusvari qablar olmaqla 6 qrupa ayırmışdır [40, s.60].

A.Ş.Orucov Azərbaycanın ilk orta əsr saxsı məmulatını formasına və istifadə məqsədinə görə məişətdə və təsərrüfatda işlədilən qablara, zoomorf və antropomorf qablara, habelə uşaq oyuncaqlarına ayırmışdır [107, s.9].

Professor Q.C.Cəbiyev isə şirsiz saxsı qabların təsnifatında məmulatın çeşidlərə görə qruplaşdırılmasını daha məqsədə müvafiq hesab etmişdir. Beləliklə, onun təsnifatında küp, qazan, səhəng, bardaq, mehtərə, aftafa, silbic, dolça, nehrə, sərnic, küpə, çıraq və qəlyanlar ayrı-ayrılıqda təqdim olunmuşdur [14, s.49].

Bu baxımdan professor T.M.Dostiyevin Şəmkirin orta əsr şirsiz keramikasına dair tədqiqatları bir qədər fərqlidir. Şəmkir arxeoloji ekspedisiyasının 2006-2019-cu il tədqiqatlarının materialları əsasında orta əsr şirsiz saxsı məmulatı aşağıdakı qaydada təsnif olunub: Anbar, təsərrüfat, mətbəx, süfrə qabları, işıqlandırma vasitələri, xüsusi təyinatlı qablar və inşaat keramikası. Fikrimizcə, bu cür təsnifatın üstünlükləri ilə yanaşı, zəif tərəfi də görünür. Məsələn, anbar, təsərrüfat və məişət qabları kimi ayrı-ayrılıqda təsnif olunan nümunələrin hər birini eyni zamanda digər bölgüyə də aid etmək mümkündür [29, s.8].

Onlardan fərqli olaraq A.M.Mustafayev gil məmulatı istehsalını dulusçuluq, kərpickəsmə, suvaqçılıq və kaşıçılıq kimi sahələrə ayırmaqla bir-birindən fərqləndirib [101, s.83].

Etnoqraf Ş.T.Bünyadova isə dulusçuluq vasitələrini məişət qabları, su təchizatı qurğuları, isitmək məqsədi daşıyan vasitələr və inşaat məmulatlarına ayırmaqla təsnif edib [9, s.72].

S.M.Ağamalıyeva isə dulus məmulatının təsnifatını verərkən onları su qabları, yeməyin hazırlanması, saxlanması, emalı, süd məhsulları qabları, işıqlandırma və qızdırıcı əşyalar, digər məişət əşyaları və su təchizatı üçün saxsı məmulatından ibarət olmaqla 6 qrupa ayırmışdır [116, c.18].

Göründüyü kimi tədqiqatçılar tərəfindən şirsiz keramika məmulatının təsnif edilməsində fərqli yanaşmaların olmasına baxmayaraq, ümumi və oxşar cəhətlərin də olduğu aydın şəkildə görünür.

## 1.2.1. Təsərrüfat küpləri

Qəbələ şəhər yerində davamlı olaraq aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş şirsiz saxsı qabların böyük bir qrupunu təsərrüfat küpləri təşkil edir. Təbiidir ki, tapıntılar içərisində təsərrüfat küplərinin çoxluq təşkil etməsi bu tip qablardan məişətdə geniş istifadə olunduğunun göstəricisidir. Qəbələnin antik və ilk orta əsr küpləri kimi XI-XIII əsrlərə aid təsərrüfat küplərinin də ölçüləri fərqli olsa da, ümumən oxşar formaya malik olublar.

Professor Q.C.Cəbiyev "*İri təsərrüfat küplərindən əsasən su və süd məhsullarının, eyni zamanda müxtəlif tərəvəzlərdən hazırlanmış turşuların saxlanılmasında istifadə olunduğunu bildirir".* Müşahidə və tədqiqatlar göstərir ki, kiçik və ya orta həcmli küplər 2-3 hissədən, bəzi nəhəng küplər bir-birinə calaq olunan 5-6, bəzən isə daha çox hissədən ibarət olmaqla hazırlanıb [14, s.49-50].

Professor Q.M.Əhmədov isə Örənqalanın küplərini xarakterizə edərkən onların 1,2-1,3 metr hündürlükdə, qabarıq gövdəli, yastı oturacaqlı, qalın divarlı, anqoblanmış və memarlıq naxışları ilə bəzənmiş küplər, təxminən 1 metr hündürlükdə, gövdəsi xaşal, 3-4 qulpu olan yastı, üzəri qırmızımtıl rənglə rənglənmiş küplərdən ibarət olmaqla 3 qrupa ayırmışdır [40, s.65-72].

A.Ş.Orucov hazırlanarkən ucuz başa gələn küplərin ilk orta əsrlərdə də əhalinin məişətində geniş yayıldığını, qalın divarlı küplərin yaxşı bişirilmədiyini, bu tip qabların üzərinə müxtəlif naxışların işlənildiyini bildirir [109, s.154].

Küplər yerə dik basdırılırdı ki, bu da onların daha uzun müddət istifadə olunmasını şərtləndirməklə qabları sınmadan qoruyurdu [79, s.7]. “Yeddi gözəl” poemasında təsərrüfat küplərindən bəhs edən dahi şair Nizami Gəncəvi belə yazırdı:

*Küp demə, küp demə, quyudur quyu,*
*Kərpic divarlara qalxmışdı suyu [104, s.177].*

Arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə 1986-cı ildə Qala ərazisində qazıntılar aparılarkən 2,5 metr dərinlikdən təsərrüfat küpü tapılmışdır. Dik formada yerə basdırılmış küpün içərisi təmizlənərkən oradan çürümüş buğda qalığı aşkar olunmuşdur ki, bu da həmin təsərrüfat küpündə taxıl məhsulunun saxlanmasını deməyə əsas verir [89, s.2].

Qala ərazisində 2011-2012-ci illərdə aparılmış arxeoloji qazıntılar zamanı müəyyən olunmuş 4 qulplu küp dövr etibarilə XI-XIII əsrlərə aiddir. Küpün oturacağının diametri 14, ağzının diametri 33, hündürlüyü 54, gövdəsinin diametri isə 1,36 sm-dir. Qaba yuxarı hissəsi ağız hissədən az aşağı, digər hissəsi isə gövdə hissəyə bərkidilməklə dörd ədəd qulp qoyulmuşdur (Şəkil 1.2.1.1) [75, s.267]. Küpün ağız hissəsi kənarlara doğru qatlanmış, enli gövdəyə və yastı oturacağa malikdir. Boğaz hissə isə dalğavari və şaquli olan cızma xətlərlə sıx bəzədilmiş, həmçinin qulpun üzərinə basma naxış vurulmuşdur. Qulpun sayının çox olması qabın tutulmasını daha rahat və əlverişli edir. Qabın forması onun daha təcrübəli və ixtisaslaşmış usta tərəfindən hazırlandığını deməyə əsas verir.

2011-2012-ci illərin arxeoloji tədqiqatları zamanı Qala ərazisindən aşkar olunmuş və xronoloji baxımdan XIII əsrə aid olan kiçik həcmli təsərrüfat küpü formasına görə digər nümunələrdən fərqlənir. Küpün hündürlüyü 40, ağzının diametri 13, oturacağının diametri is-

də 15,5 sm-dir (Şəkil 1.2.1.2) [75, s.289]. Küp qulpsuzdur, onun gövdə hissəsi nisbətən enli olsa da, lakin ağız hissəsi həm gövdə, həm də oturacağına nisbətən ensizdir. Küpün ağzı kənarlara doğru qatlanmış, xarici səthi isə qaralmış vəziyyətdə aşkar olunmuşdur. Hazırlanarkən küpün üzərinə qulpun qoyulmaması, həmin küpün məişətdə istifadə olunan məhsulun daşınması üçün deyil, nəyinsə saxlanılması üçün istifadə edildiyini göstərir.

Professor Q.C.Cəbiyev qulpu olmayan küplərin daşınması zamanı onların boğaz hissəsinə vurulan kəmərin üzərindəki batıqların barmaqlara ilişdiyini və bununla da qabın əldən sürüşmədiyini göstərmişdir [14, s.50].

Səlbir ərazisindən aşkar olunmuş və dövr etibarilə X-XI əsrlərə aid digər bir nisbətən kiçik həcmli təsərrüfat küpü də oxşar xüsusiyyətlərə malikdir (Şəkil 1.2.1.3). Küpün hündürlüyü 56, ağzının diametri 21, oturacağının diametri isə 15,5 sm-dir [75, s.212]. Qabın kənarlarının bir hissəsi qırılmış və çatlamışdır. Gövdəsinin yuxarı hissəsindən ağız hissəyə yaxın, hər iki tərəfi gövdəyə bərkidilmiş yarımdairəvi formalı bir qulpu vardır. Təqdim olunan nümunələrdə olduğu kimi küpün ağız hissəsi kənarlara doğru qatlanmış, yastı oturacağa və enli gövdəyə malikdir.

Xatırladaq ki, klassik poeziyamızın görkəmli nümayəndəsi Nizami Gəncəvinin əsərlərində də saxsı küplərlə bağlı fikirlərə rast gəlinir. Görkəmli şairimizin "Suyu küp ilə daşıyırlar" misrası bu cəhətdən diqqət çəkir. Müəllifin böyük saxsı küplərlə bağlı fikirləri XII əsrdə həm su və digər mayelərin ehtiyat üçün saxlanılmasında küplərdən geniş istifadə olunmasına dəlalət edir, həm də dövrün dulusçuluq sənəti barədə aydın təsəvvür yaradır [19, s.96].

Aşkar olunmuş nümunələrin tədqiq olunmasına əsasən Qəbələnin XI-XIII əsrlərə aid olan iri ölçülü təsərrüfat küplərini qulplu və qulpsuz olmaqla 2 qrupa ayırmaq olar. Təsərrüfat küplərinin oxşar xüsusiyyətləri onların gövdə hissəsinin enli və xaşal formalı olması, həmçinin küplərdə saxlanılan məhsulların qorunub saxlanılması üçün onların ağzının daha möhkəm və səliqəli bağlanılmasına kömək edən ağız hissənin kənarlara doğru qatlanmasıdır.

## 1.2.2. Qazanlar

Qəbələ şəhər yerində müxtəlif illərdə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş şirsiz saxsı qabların bir qrupu qazanlardan ibarətdir. Arxeoloqlardan S.M.Qazıyev, Q.M.Əhmədov, Ö.Ş.İsmizadə, İ.M.Cəfərzadə, V.N.Leviatov, Q.C.Cəbiyev, H.A.Ciddi və başqaları orta əsrlərə aid şirsiz qazanları tədqiq etməklə onların əsas səciyyəvi xüsusiyyətlərini müəyyən etmişlər. Nümunələr və fraqmentlərin aşkar olunması Qəbələdə XI-XIII əsrlər dövründə qazanların daha mükəmməl hazırlandığını göstərir. Belə ki, həmin qazanların əksəriyyəti şirsizdir. Hansı ki, nümunələrin xeyli qismi uzunmüddətli istifadə nəticəsində his qatı ilə örtülərək qaralmış, bütöv şəkildə olan nümunələrə isə az rast gəlinmişdir [71, s. 275 ].

Arxeoloq R.B.Göyüşov Qəbələ şəhər qazıntılarından tapılmış gil qazanlar haqqında ayrıca məqalə yazmışdır. O, qazanlar hazırlanarkən usta tərəfindən gilin tərkibinə bəzən lil, bəzən iri çay qumu, bəzən də kövrək dağ daşlarının ovuntusunun qatıldığını da yazır. Əlbəttə bu fikirləri heç də inandırıcı hesab etmək olmaz. R.B.Göyüşov Qəbələ ustalarının qazanları üç üsulla hazırladıqlarını göstərmişdir:

1. Əl ilə hazırlanma üsulu. Bu üsulla hazırlanmış qazanlar bir qədər kobud olmaqla, onların üzərində ustanın barmaqlarının izi belə qalmışdır. Bu qazanlar həcmcə kiçik olur, onların hündürlüyü 10-16, ağzılarınını diametri 13-20, oturacaqlarının diametri isə 15-22 sm olur. Bu qazanlar şəhərin IX-XI əsr təbəqələrindən aşkar olunub, qulp isə qazanların ağzına yaxın qoyulub.

2. Dulusçuluqda ən qədim üsullardan biri olan toxuma üsulu. Bu üsulla hazırlanmış qablar Azərbaycan ərazisində hələ Eneolit dövründən məlumdur. Həcmi nisbətən böyük olan bu qazanların hündürlüyü 15-20, ağızlarının diametri 23-30, oturacaqlarının diametri isə 17-28 sm olur. Qulpların sayı 2, 4, hətta 6 olmaqla, üçkünc formada olur.

3. Dulus çarxından istifadə etməklə hazırlanmış qazanlar daha səliqəli və mükəmməl hazırlanması ilə seçilir. Bu nümunələrin üzərin-

də çarxda hazırlanma izi aydın görünür. Qabların hündürlüyü 12-13, ağız və oturacaqlarının diametri isə 20-22 sm olur [53, s.645-648].

Qəbələ şəhər yerinin XI-XIII əsr təbəqələrindən aşkar olunmuş qazanlara oxşar nümunələr Örənqala, Gəncə, Şabran və Mingəçevir qazıntılardan da müəyyən olunub. Xatırladaq ki, əl ilə hazırlanmış qazanlar hazırlanma texnologiyası baxımından nisbətən bəsit və kobud olması ilə seçilir. Lakin, Qəbələnin XI-XIII əsrlər dövrünün şirsiz qazanlarına nəzər saldıqda onları hazırlayan ustaların artıq bu sahədə mütəxəssis olduqları və qabları daha mükəmməl hazırladıqlarını görürük.

Professor Q.C.Cəbiyev isə XIV-XVII əsrlərə aid şirsiz qazanları qulplu, qulpsuz və lüləkli olmaqla üç qrupa bölmüş, qulplu qazanları da qulplarının formasına görə üçbucaq, qövsvari, iri qulaqvari formalı, düzbucaqlıya bənzər və lentvari qulpu olan qazanlara ayırmışdır [14, s.55-56].

Q.M.Əhmədov isə Örənqala qazıntılarından aşkar olunmuş nümunələrə əsaslanaraq IX-XIII əsrlər dövrünün gil qazanlarının bir sıra səciyyəvi xüsusiyyətlərini göstərmişdir. Belə ki, ocaqda istifadə olunduğu üçün üzəri his qatı ilə örtülmüş qazanların əksər hissəsi yarımşar formalı olmuşdur. Örənqalanın son dövr qazanlarının əksər hissəsinin çiyinlərinə cəftəvari dəstəklər bərkidilmiş, lüləklərinin diametri isə 0,5-2 sm arasında olmuşdur. Qazanlarda lüləklərin olması isə onlarda duru xörəklərin bişirildiyini göstərir [40, s.60-65].

Qəbələdən aşkar olunmuş çoxsaylı şirsiz qazan nümunələri formasına və hazırlanma texnologiyasına görə Azərbaycanın digər istehsal mərkəzlərinin eyni dövrə aid anoloji qablarından az fərqlənir. Tədqiqatçıların orta əsrlər dövrünə aid gil qazanların əsas xarakterik xüsusiyyətləri barədə elmi mülahizələrinə və sözügedən dövrə aid nümunələrin dönə-dönə təhlil olunmasına əsasən Qəbələnin XI-XIII əsrlərə aid şirsiz qazanlarını aşağıdakı qruplara ayırmaq olar:

1.Qulplu qazanlar.

2. Qulpsuz qazanlar.

3. Lüləkli qazanlar

Qulplu qazanların özlərini də qulplarının formasına görə aşağıdakı yarımqruplara ayırmaq olar:

– dairəvi və ya oval formalı qulpu olan qazanlar.
– üçbucaq formalı qulpu olan qazanlar.
– qövsvari qulpu olan qazanlar.

Qazanlar davamlı olaraq yüksək ocaq temperaturu altında istifadə olunduğundan onların çox az bir qismi salamat vəziyyətdə tapılır. Əksər qazanlar isə fraqmentlər şəklində aşkar olunmuşdur. Qala ərazisində 2011-2012-ci illərdə aparılmış arxeoloji qazıntılar zamanı digər dövrlərlə yanaşı, XI-XIII əsrlərə aid bir neçə qazan nümunəsi aşkar olunmuşdur (Şəkil 1.2.2.1; 1.2.2.7). Nümunələrdən biri (Şəkil 1.2.2.1) dövr etibarilə XI-XII əsrlərə aid olmaqla, oturacağının diametri 8, hündürlüyü 18, ağzının diametri isə 5 sm-dir. Qazanın qulpu ağız və gövdə hissəyə bərkidilmiş, forma etibarilə qövsvaridir. Bu cür qulpu olan qazanlara Qəbələ ərazisində çox rast gəlinib [75, s.250]. Digər nümunə isə (Şəkil 1.2.2.7) XIII əsrə aiddir və Qala ərazisində aşkar olunub [75, s.294]. Hər iki qazanın xarici səthinin his qatı ilə örtülməsi bu qablardan uzun müddət ocaqda xörək bişirmək üçün istifadə olunduğunu göstərir. Qazanların gövdə hissəsi oturacaq və ağız hissəsinə nisbətən enlidir, ağız hissə isə kənarlara doğru qatlanmışdır.

Xatırladaq ki, professor Q.C.Cəbiyev qövsvari qulpu olan qazanların yayılma ərazisinin, daha geniş olduğunu, xüsusən də IX-XIII əsrlərdə belə qazanların geniş yayıldığını göstərmişdir [14, s.57]. Qəbələ qazanları Şəmkir şəhər yerindən tapılmış nümunələrlə də oxşarlığa malikdir. Arxeoloq T.M.Dostiyev Şəmkir şəhər yerindən aşkar olunan nümunələrə əsasən XI-XIII əsrlərdə qazanların tipoloji baxımdan zəngin olmasını, forma etibarilə oturacaqlarının yastı, gövdənin isə yarımşar şəkilli olmaqla oturacağa doğru daralmasını, bununla yanaşı XI-XII əsrlərdə qazanların quruluşu ilə bərabər dekorunda da dəyişikliklərin olduğunu müəyyən etmişdir [29, s.38].

Aşkar olunmuş bəzi qazan nümunələrinin qulpu olmasa da forma və hazırlanma texnologiyası baxımından digər nümunələrlə oxşardır (Şəkil 1.2.2.2). Məsələn, Qala ərazisindən aşkar olunan digər qazan

nümunəsi xronoloji cəhətdən XII-XIII əsrlərə aid olmaqla bir sıra fərqli xüsusiyyətlərə malikdir. Həcmi nisbətən böyük olan qazanın ağzının diametri 13,5 sm təşkil edir, qulpsuzdur [75, s.269]. Gövdə hissə şar şəkilli olmaqla enlidir. Qabın ağız hissəsinin kənarlara doğru çox qatlanması həm də bunun qulp funksiyası daşıdığını söyləməyə əsas verir. Qazanın xarici səthi his qatı ilə örtülüb və bozumtul rəngdədir.

Oxşar formalı qazanlara Örənqala ərazisində də rast gəlmək mümkündür. Arxeoloq Q.M.Əhmədov bu cür qazanların boğazlarının daha aydınlığı ilə nəzərə çarpdığını, onların ya düz, ya da geriyə qatlanmış şəkildə olduğunu göstərir [40, s.62].

Təqdim olunan (Şəkil 1.2.2.3; 1.2.2.4) iki qazan nümunəsi nisbətən böyük həcmli olmaqla dövr etibarilə XII-XIII əsrlərə aiddir və Qala ərazisində aşkar olunub. Onlardan birinin (Şəkil 1.2.2.3) oturacağının diametri 19, ağzının diametri 13, hündürlüyü 8 sm, digərinin isə (Şəkil 1.2.2.4) oturacağının diametri 16, ağzının diametri 12, hündürlüyü isə 6,6 sm-dir. Hər iki qazan nümunəsinin ağız hissəsi əvvəlkilərdə olduğu kimi kənara doğru qatlanmışdır. Qulpsuz olan bu nümunələrin ağız hissəsinin kənarına cızma xətlərlə naxış vurulub [75, s.272]. Qabın ağzının kənarlara doğru daha çox çıxıntılı olması bu tip qazanların Örənqalanın son dövr qazanları ilə oxşarlığının əyani göstəricisidir. Qazanın həcmcə nisbətən böyüklüyü isə bu qabların daha böyük ailələrin məişətində istifadə olunduğunu deməyə əsas verir.

R.B.Göyüşov qazanların qulpunun sayca çox olmasını 2 səbəblə əsaslandırırdı:

- Birincisi, qazanların həcmlərinin böyüməsi ilə, yəni ailəyə xidmət vəzifəsindən əlavə, böyük xeyir-şər yığıncaqlarında istifadə edilirdi.
- İkincisi isə qazanlar əsasən asma yolla ocaqlarda istifadə olunurdu [53, s.646-647 ].

Qəbələ şəhər yerinin Qala ərazisində müxtəlif illərdə aparılmış arxeoloji qazıntılar zamanı bir neçə çoxqulplu qazan fraqmentləri də tapılıb. Təqdim olunan (Şəkil 1.2.2.5; 1.2.2.6) iki qazan fraqmenti lüləkli qazanlara aiddir [75, s.279]. Göründüyü kimi bu qazanlar nisbə-

tən dayaz olmaqla his qatı ilə örtülmüş və qulpları qövsvari olmuşdur. His qatının oturacaq hissədə daha çox olması, həmçinin qazanların lüləkli olması yuxarıda qeyd etdiyimiz kimi onlardan ocaqda duru yemək hazırlanmasını göstərir.

Professor Q.C.Cəbiyev *"Lülələrin böyük və kiçik olmasının həmin lülələrin mənsub olduğu qazanların həcmi barədə də müəyyən təsəvvür yaratdığını və lüləyi qısa olan iri qazanlara nadir hallarda rast gəlindiyini göstərir"* [14, s.60].

Qəbələ şəhər yerinin Qala ərazisində 2013-cü ildə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş şirsiz qazan fraqmenti (inv.№ 82, Şəkil 1.2.2.8). Qazanın ağzının diametri 25, hündürlüyü isə 15 sm-dir.

Qala ərazisindən aşkar olunmuş digər bir qazanın ağzının diametri 28, hündürlüyü isə 18, gövdəsinin diametri 10 sm-dir, qulpları isə üçbucaq formalıdır. (inv.№142, Şəkil 1.2.2.9). Hər iki qazan çoxqulplu olmaqla xronoloji cəhətdən XII əsrə aiddir [72, s.265].

Tədqiqatlar zamanı Qəbələ şəhər yerindən dövr etibarilə XI-XIII əsrlərə aid çoxsaylı müxtəlif formalı qazan qulpları da aşkar olunmuşdur. XI-XIII əsrlərə aid edilən həmin qulp nümunələri formasına görə bir-birindən fərqlənir (Şəkil 1.2.2.10-1.2.2.17) [75, s.282]. Nümunələrdən də göründüyü kimi XI-XIII əsrlərdə Qəbələdə üçbucaq və qövsvari formalı qulpa malik qazanlar çoxluq təşkil etmişdir.

Yuxarıda deyilənləri ümumiləşdirməklə Qəbələnin XI-XIII əsrlərə aid şirsiz qazan nümunələrinin müxtəlif ölçülü olmaqla, onların hündürlüyünün 18, ağızlarının diametrinin ən kiçiyinin 5, ən böyüyünün isə 28 sm-ə qədər, oturacağının diametrinin isə 19 sm-ə qədər olduğunu söyləyə bilərik. Beləliklə, aşkar olunan çoxsaylı qazan nümunələrinin öyrənilməsi həm onların nə məqsədlə istifadə olunmasını, həm də hazırlanma texnologiyasını müəyyənləşdirməyə kömək edir [60, s.153].

**Qapaqlar.** Qəbələnin XI-XIII əsrlərə aid şirsiz keramika nümunələri içərisində qapaqlara da çox rast gəlinib. Məlumdur ki, qa-

paqlardan əsas etibarilə qazanların, küp və küpələrin, eyni zamanda digər oxşar saxsı qabların ağzının bağlanması üçün istifadə edilib.

Nəinki, Qəbələdə, digər şəhər yerlərində, xüsusilə köhnə Bakıda aparılmış qazıntılar zamanı çoxlu sayda qalındivarlı, əsasən dairəvi formalı, üzərində naxışları olan qapaqlara və onların fraqmentlərinə təsadüf olunmuşdur [50, s.221].

Qəbələ qapaqları içərisində sadə görünüşlü, tutacağı olan qapaqlarla yanaşı, daha müfəssəl hazırlanmış, üzəri naxışlarla bəzədilmiş qapaqlar da vardır (Şəkil 1.2.2). Qapaqlar dairəvi olmaqla, bəziləri qabarıq formalı və naxışlıdır (Şəkil 1.2.2.20). Tutacaqları orta hissədə çıxıntılı formada düzəldilirdi. Onlardan biri (Şəkil 1.2.2.20) nisbətən daha səliqəli hazırlanmış, üzəri cızma naxışlarla bəzədilmişdir. Bu şirsiz qapaq nümunəsi dövr etibarilə XIII əsrə aiddir və Qala ərazisində aparılmış qazıntılar zamanı aşkar olunub. Qapağın diametri 7,5, hündürlüyü isə 3 sm-dir [75, s.293].

Professor Q.M.Əhmədov Beyləqan ustalarının XI-XIII əsrin əvvəllərində qapaqları naxışlamaq üçün möhürdən geniş istifadə etdiklərini, naxışlı qəliblərdə düzəldilmiş nümunələrin də olduğunu, eyni zamanda qapaqların üzərinə ya barmaqla, ya da hamar qələmlə və fayans qab qəlpələri ilə vurulmuş naxışlara, zoomorf və gül təsvirlərinə rast gəlindiyini göstərmişdir [41, s.58].

Şəkil 3-də təqdim olunan (Şəkil 1.2.2.18; 1.2.2.19) hər iki qapaq nümunəsi xronoloji cəhətdən XIII əsrə aiddir və Qala ərazisindən aşkar olunub [75, s.294].

Qapaqlar formasına və ölçülərinə görə də bir-birindən fərqlənirlər. Bu da onların istifadə olunduğu qabların növü və müxtəlif ölçülü olmasından irəli gəlir. Onların ağız hissəsinin diametri 6-10 sm təşkil edir. Şəkil 3-də təqdim olunan (Şəkil 1.2.2.21; 1.2.2.22) kiçik ölçülü şirsiz qapaqların ağzının diametri 6 sm təşkil edir. Digər iki qapaq nümunəsi (Şəkil 1.2.2.23; 1.2.2.24) dövr etibarilə XIII-XIV əsrlərə aiddir. Əvvəl qeyd etdiyimiz nümunələrə nisbətən onların diametri böyük olmaqla 10 sm təşkil edir [75, s.300-301].

Diqqəti cəlb edən odur ki, Qəbələnin inkişaf etmiş orta əsrlər dövrünə aid olan şirsiz qapaqlarının üzəri naxışlı və naxışsız olma-

sından asılı olmayaraq səliqəli hazırlanmış, gili məsaməsiz olmaqla keyfiyyətli bişirilmişdir.

## 1.2.3. Səhənglər

Qəbələ sakinlərinin XI-XIII əsrlərdə məişət və təsərrüfatda daha çox istifadə etdiyi su qablarından biri də səhəng tipli qablardır. Xatırladaq ki, arxeoloji tədqiqatlar nəticəsində tapılan şirsiz saxsı məmulatı içərisində bu tip qablar da çoxluq təşkil edir.

Tədqiqatçı A.Ş.Orucov *"Məişətdə geniş istifadə olunan su qablarını xarakterizə edərkən bu tip qabların orta tutumlu olmaqla bir növ təsərrüfat küpləri ilə bardaqlar arasında keçid forması təşkil etdiyini və onların görünüş etibarı ilə şarformalı, xaşal gövdəli və yastı oturacaqlı qablardan ibarət olduğunu bildirir"* [107, s.16].

Səhənglər formasına görə bardaqlara oxşasalar da onlardan müəyyən qədər fərqlənirlər. Səhənglərdən əsas etibarilə su gətirmək üçün istifadə edilib. Azərbaycanda kənd yerlərində sakinlərin su gətirmək üçün istifadə etdiyi əsas qab səhənglər olmuşdur. Professor Q.C.Cəbiyev Azərbaycanda səhəng tipli qabların istehsalına xeyli əvvəl başlanmasını, Yaloylutəpə, Mingəçevir və Gəncə qazıntıları zamanı bu tipdən olan qablara rast gəlindiyini, indinin özündə də bəzi kənd yerlərində çay və bulaqlardan içməli suyun səhənglər vasitəsilə daşındığını göstərmişdir. Saxsı səhənglər metal səhənglərə nisbətən kiçik olmaqla, onların boğaz hissəsi gödək, gövdələri isə armudabənzər idi [14, s.63; s.65].

Səhəng tipli qablara el arasında kuzə də deyirdilər. Qəbələdə müxtəlif illərdə aparılmış arxeoloji qazıntılar zamanı orta əsrlər dövrünə, o cümlədən XI-XIII əsrlərə aid çoxlu sayda səhəng nümunəsi aşkar olunub. Hansı ki, həmin nümunələr əsasında dövrün səhənglərinin formasını, onların hazırlanma texnologiyasını müəyyənləşdirmək mümkündür. Məsələn, 2009-cu ildə Qala ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş bir səhəng parçası dövr etibarilə XIII əsrə aiddir (Şəkil 1.2.3.1). Qab yarımsalamat vəziyyət-

də olmaqla, gövdəsinin yuxarı hissəsi və qulpla birlikdə boğaz hissəsi tapılıb. Ağız hissə novludur ki, bu da qabdan suyun daha asan tökülməsinə kömək etməklə yanaşı, həm də istifadə zamanı suyun kənara dağılmasının qarşısını alır [76, s.201]. Ümumiyyətlə, səhənglər oxşar formaya malik olmaqla bir-birindən çox az fərqlənir. Bu tip qablar üçün səciyyəvi əlamət onların hamısının yastı oturacaqlı, qulplarının qövsvari və lentvari formada olmasıdır.

Qala ərazisindən tapılan və xronoloji cəhətdən XII-XIII əsrlərə aid edilən səhəng nümunəsi səliqəli hazırlanması ilə diqqəti cəlb edir (Şəkil 1.2.3.3). Qabın oturacağının diametri 10,5, hündürlüyü isə 22 sm-dir [75, s.268]. Ağız və çiyin hissəni birləşdirən qulpu lentvari formadadır.

Nümunələr içərisində üzərinə naxış vurulmuş səhənglərə də tez-tez rast gəlinmişdir. Naxışlar adətən qabların boğaz və gövdə hissəsinin arasına vurulmuş olur ki, bu da qabın xarici görünüşünə yeni forma verir (Şəkil 1.2.3.4; 1.2.3.5). Nümunələrdən biri (Şəkil 1.2.3.4) xronoloji baxımdan XII-XIII əsrlərə aiddir. Onun boğazının aşağı hissəsinə dalğavari, yuxarı hissəsinə isə çıxıntılı formada naxış vurulub [75, s.269]. Digər bir nümunə də (Şəkil 1.2.3.5) Qəbələnin XI-XIII əsr səhəngləri üçün xarakterik nümunə hesab edilə bilər. XII-XIII əsrlərə aid olan bu səhəngin ağzının diametri 5 sm-dir [75, s.277]. Qabın gövdəsinin yuxarı hissəsinə dalğavari cızma xətlərlə naxışlar vurulmuş, qulpu isə qövsvari formalı olmaqla çiyin hissəyə mükəmməl bərkidilmişdir. Səhəng tipli qabların qulpunun yuxarı hissəsi adətən genəldilərək halqavari formaya salınmaqla və boğaza geyindirilməklə qabın ağzını tamamlayır [14, s.64].

Bəzi oxşar əlamətlərlə yanaşı Qəbələnin XI-XIII əsrlərə aid olan səhəng nümunələrinin bir-birindən fərqlənən xarakterik əlamətləri də vardır. Xüsusilə, 2011-2012-ci illərdə Qala ərazisində aparılmış qazıntılar zamanı aşkar olunmuş və XIII əsrə aid olan iki səhəng nümunəsi formasına görə bir-birindən müəyyən qədər fərqlənir. Onlardan birinin (Şəkil 1.2.3.6) gövdəsi nisbətən enli olmaqla yumurtavari formadadır, oturacağı yastı, qulpu isə qövsvari və nazikdir. Qabın oturacağının diametri 11, ağzının diametri 9, hündürlüyü isə

35 sm-dir. Digər bir səhəng nümunəsi isə həcmcə nisbətən kiçik olmaqla yanaşı, gövdə hissəsi uzunsov, ağız hissəsi isə içəriyə doğru qatlanmışdır (Şəkil 1.2.3.7). Qabın oturacağının diametri 8,5, ağzının diametri 6,5, hündürlüyü isə 23 sm-dir [75, s.290]. Qabın qulp hissəsi isə qarmaqvari formada hazırlanıb.

Maraqlıdır ki, digər su qabları, o cümlədən bardaq və dolça tipli qabların qulplarından fərqli olaraq, səhənglərin qulpları nisbətən enli olması ilə seçilir (Şəkil 1.2.3.2). Qabın qulpu həm ağızla birləşən hissədə, həm də gövdə ilə birləşən hissədə eyni enliyə malikdir. Bu da qabın istifadəsini asanlaşdırır [75, s.297]. Həmin tapıntılaramisal olaraq 2013-cü ildə Səlbir ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan nümunəni misal göstərə bilərik (Şəkil 1.2.3.8). Qab yastı oturacağa, yumurtayabənzər gövdəyə və qövsvari qulpa malikdir. Səhəngin hündürlüyü 44, oturacağının diametri 12, gövdəsinin diametri 23,5, boğazının hündürlüyü 6, boğazının diametri 9,5, qulpunun eni 1,7, qulpunun uzunluğu isə 4,1 sm-dir [72, s.233]. Qabın xarici səthi səliqəli hamarlanmış, gili məsaməsiz olmaqla, həcmcə nisbətən böyükdür.

2013-cü il tədqiqatları zamanı Qala ərazisindən tapılan daha bir nümunə də (Şəkil 1.2.3.9) səhəng tipli qablara aiddir. Onun ağzının diametri 2,2, qulpunun eni 5 sm dir [72, s.269].

Tapılmış nümunələrin müqayisəli təhlili və öyrənilməsindən məlum olur ki, XI-XIII əsrlərdə Qəbələdə səhəng tipli qabların istehsalı genişlənməklə yanaşı, onların hazırlanma texnologiyası və naxışlanması daha da təkmilləşmiş və səciyyəvi xüsusiyyətlər son orta əsrlər dövründə də davam etdirilmişdir.

Diqqəti cəlb edən odur ki, Qəbələnin XI-XIII əsrlərə aid olan səhəngləri ilk orta əsrlərin anoloji qablarından fərqli olaraq formasına görə daha səliqəlidir və gili məsaməsiz olmaqla, keyfiyyətli bişirilmişdir. Arxeoloji qazıntılar zamanı aşkar olunmuş səhəng nümunələrinin öyrənilməsi və tədqiqi onu göstərir ki, qabların əksəriyyətinin qulpları lentşəkilli olub, bir tərəfi qabın çiyninə, digər tərəfi isə qabın ağzına bərkidilib. Səhənglərin boğaz hissəsi isə dar olmaqla bir qulpdan ibarət idi. Nümunələr içərisində səhənglərin xarici səthinin na-

xışlanmasına da rəst gəlinir. Naxışlar əsasən qabların boğaz və çiyin hissələrinə vurulmuşdur. Xatırladaq ki, qablarda rast gəlinən belə naxış nümunələri təkcə Qəbələdə deyil, Azərbaycanın digər orta əsr şəhər yerlərində həmçinin, Cənubi Qafqazın digər ərazilərində, Yaxın və Orta Şərq ölkələrində də geniş yayılıb.

## 1.2.4. Bardaqlar

Qəbələnin XI-XIII əsr şirsiz saxsı qabları içərisində əhalinin məişətində geniş yer alan qablardan biri də bardaqlar olmuşdur. Bu tip qabların forma etibarilə dolğun və mükəmməl olması Qəbələ ustalarının bardaqların hazırlanmasında artıq böyük təcrübəyə malik olduqlarından xəbər verir.

Tədqiqatçılardan R.B.Göyüşov, Q.M.Əhmədov, A.Ş.Orucov, Q.C.Cəbiyev və digərləri bardaq tipli qablardan əsasən süfrəyə su, şərbət, meyvə şirəsi qoymaq üçün istifadə olunduğunu bildirir. Mayeləri sərin saxlaması bardaq tipli qabların praktiki əhəmiyyətinə dəlalət edir [14, s.66].

Xatırladaq ki, hələ antik və erkən orta əsrlər dövründə Albaniya əhalisinin məişətində bardaq tipli qablardan geniş istifadə olunub. Arxeoloq F.L.Osmanov Albaniya dövrünün gil bardaqlarının gövdəsinin yumru, oturacağının yastı olduğunu, gövdə ilə ağızın kənarını birləşdirən qulpun en kəsiyinin dairəvi olduğunu, bardaqlardan bir qisminin ağzının isə üçləçək formada düzəldildiyini göstərmişdir [110, s. 83].

Arxeoloq A.Ş.Orucov ilk orta əsrlər bardaqlarını forma və hazırlanmasına görə üç qrupa bölüb: Birinci qrupa boğazları uzunsov və ağızları dairəvi, ikinci qrupa gövdəsi xaşal, lüləkli, üçüncü qrupa isə ağzı novlu bardaqlar daxildir [107, s.9].

Qəbələdən aşkar olunmuş XI-XIII əsrlərə aid bardaqlar digər şəhər yerlərindən, o cümlədən, Beyləqandan aşkar olunmuş bardaqlardan formasına və naxışlanmasına görə bəzi oxşar və fərqli xüsusiyyətlərə malikdir. Arxeoloq Q.M.Əhmədov Örənqala materiallarına

əsasən XI-XIII əsrlərə aid bardaqların timsalında “*Qabların çiyin hissəsinin düzəldilməsi zamanı naxışlı gil qəliblərdən istifadə olunduğunu göstərmişdir”* [41, s.58]. Onun fikrincə bardaqlar aftafalardan fərqli olaraq lüləyə malik deyil, Örənqala bardaqlarının bəziləri armudabənzər, dar boğazlı, alçaq dabanlı oturacaqlı və çəhrayı-boz rəngdə olmuşdur [40, s.91-92].

Qəbələ şəhər yerində müxtəlif illərdə aparılmış arxeoloji tədqiqatlar zamanı çoxsaylı bardaq nümunələri aşkar olunmuşdur ki, onların da xeyli qismi xronoloji cəhətdən XI-XIII əslərə aiddir.

Etnoqrafik müşahidələr göstərir ki, bardaqlar müxtəlif maye növlərinin istifadəsində zəruri olsa da, onlar əsasən su qabları kimi məişətdə geniş yayılıb və formalarına görə bir-birindən fərqlənir. Bu fərqlilik əsas etibarilə qabların boğaz və gövdə hissələrində görünür. Odur ki, Qəbələdən aşkar olunmuş XI-XIII əsrlərə aid bardaqları darboğaz və enliboğaz olmaqla iki qrupa ayırmaq olar.

## 1.2.4.1. Darboğaz bardaqlar

Qala ərazisində 2009-cu il qazıntıları zamanı aşkar olunmuş bir ədəd şirsiz darboğaz bardaq Qəbələnin XI-XIII əsr şirsiz bardaqları üçün xarakterik nümunə hesab edilə bilər (Şəkil 1.2.4.1.18) [76, s.203]. Qab yastı oturacaqlıdır, gövdə hissəsi nisbətən enli, qulpu isə qövsvari olmaqla gövdə və boğaz hissəyə bərkidilib. Lülək hissə qırılmış olsa da, lakin qırıntı izi qabın lüləkli olduğunu göstərir. Təqdim olunan digər bir darboğaz bardaq nümunəsi (Şəkil 1.2.4.1.15) dövr etibarilə XIII əsrə aiddir [75, s.292].

Qala ərazisi ilə yanaşı, Səlbirdən də X-XI əsrə aid bir neçə bardaq nümunəsi aşkar olunub. Onların da əksəriyyəti darboğaz bardaqlardır (Şəkil 1.2.4.1.17; 1.2.4.1.23). Nisbətən iri həcmli olması ilə diqqət çəkən nümunələrdən birinin (Şəkil 1.2.4.1.23) hündürlüyü 26, oturacağının diametri 12, gövdəsinin diametri 16,5, boğazının diametri 2,8, boğazının hündürlüyü 8,5, qulpunun eni 2,6 sm təşkil edir. Bardağın qulp hissəsi ənənəvi olaraq gövdə və boğaz hissəyə bərkidilib.

Aşkar olunmuş digər bir darboğaz bardağın boğaz hissəsi qırılmış, qabın yalnız gövdə və oturacaq hissəsi qalmışdır (Şəkil 1.2.4.1.17). Həmin nümunənin hündürlüyü 15,5, oturacağının diametri 8,6, gövdəsinin diametri isə 17 sm-dir. Qabın oturacaq hissəsi daha çox çıxıntılı olmaqla mükəmməl hazırlanmışdır [75, s.211].

Səlbirdən aşkar olunan və xronoloji baxımdan X-XI əsrlərə aid olan nümunələr ölçülərinə görə bir-birindən fərqlənir (Şəkil 1.2.4.1.12; 1.2.4.1.16; 1.2.4.1.22). Bardaqların biri (Şəkil 1.2.4.1.16) səliqəli hazırlanmaqla xarici görünüşünə görə diqqəti cəlb edir. Qab dabanlı oturacağa, enli, yumurtayabənzər gövdəyə malik olmaqla, ağız və gövdə hissəyə bərkidilmiş qulp qabın ağzından yuxarıya doğru qalxıb və ona əlavə çıxıntı qoyulub. Boğaz hissəyə isə əlavə olaraq dairəvi formalı çıxıntının qoyulması onun xarici görünüşünü daha da zənginləşdirmişdir. Qabın hündürlüyü 24,5, oturacağının diametri 8,8, gövdəsinin diametri 16, boğazının diametri isə 3,3 sm-dir.

Digər bardaq nümunəsi (Şəkil 1.2.4.1.22) formaca yuxarıda təqdim olunan nümunələrdən qismən fərqlənməklə enli gövdəyə malikdir. Qabın hündürlüyü 25, oturacağınını diametri 10, gövdəsinin diametri 19, boğazının diametri 3,2, boğazının hündürlüyü 5,9, qulpunun eni isə 3,1 sm-dir [75, s.212-213].

2013-cü ildə Qala ərazisində tədqiqat işləri zamanı xeyli miqdarda şirsiz darboğaz bardaq nümunələri aşkar olunub. Onlardan bəzilərini təqdim edirik.

98 saylı qab: Bu şirsiz darboğaz bardaq dövr etibarilə XI əsrə aiddir (Şəkil 1.2.4.1.27). Yarımsalamat vəziyyətdə olan bu qab yastı oturacaqlıdır, gövdənin yuxarı hissəsində dairəvi cızma naxışları var. Oturacağının diametri 3,5, hündürlüyü isə 7 sm-dir [72, s.253].

55 saylı qab: XI-XII əsrlərə aid olan bu nümunənin (Şəkil 1.2.4.1.26) oturacağının diametri 2,4, hündürlüyü isə 5,5 sm təşkil edir [72, s.259]. Qabın qulpu, boğazının bir hissəsi və ağız hissəsi qırılıb. Qeyd olunan nümunələrdən fərqli olaraq bu bardaq nümunəsi dabanlı və nisbətən hündür oturacağa malik olmaqla, yumurtayabənzər gövdəyə malikdir.

84 saylı qab: XI-XII əsrlərə aid olan şirsiz bardaq (Şəkil 1.2.4.1.13). Qala ərazisindən aşkar olunub. Oturacağının diametri 2, hündürlüyü isə 13 sm təşkil edir [72, s.259]. Qab boğaz və qulp hissəsi qırılmış vəziyyətdə aşkar olunub, əvvəl qeyd etdiyimiz nümunədə olduğu kimi, hündür və çıxıntılı oturacağa malikdir.

170 saylı qab: Təqdim olunan darboğaz bardaq nümunəsi dövr etibarilə XII-XIII əsrlərə aiddir (Şəkil 1.2.4.1.8). Oturacağının diametri 1,5, hündürlüyü isə 5 sm-dir [72, s.269]. Qabın qulpu nisbətən böyük və qalın olması ilə seçilir.

213 saylı qab: Bu nümunə xronoloji baxımdan XII-XIII əsrlərə aiddir (Şəkil 1.2.4.1.3). Oturacağının diametri 2,3, gövdəsinin diametri 30, ağzının diametri 1,4, hündürlüyü 6, boğazının hündürlüyü isə 2 sm-dir [72, s.269]. Nümunə dabanlı oturacaqlı olmaqla, ağız hissəsi boğaz hissəyə nisbətən enlidir. Qabın qulpu boğazın orta hissəsinə bərkidilmiş və yuxarıya doğru qalxmış formada olduğundan qabın xarici görünüşü diqqət çəkir.

Qala ilə yanaşı, Səlbirdə də 2013-cü il qazıntıları zamanı X-XI əsrlərə aid olan bir neçə darboğaz bardaq nümunəsi müəyyən olunub. Bu nümunələr Qaladan aşkar olunmuş bardaqlarla forma etibarilə oxşardır. Onlar aşağıdakılardır:

621 saylı qab: Xronoloji baxımdan X-XI əsrlərə aiddir (Şəkil 1.2.4.1.4). Hündürlüyü 16, oturacağının diametri 4,2, oturacağının hündürlüyü 0,7, gövdəsinin diametri 9, boğazının hündürlüyü 5,5, boğazının diametri 2,6, ağzının diametri 3,5, qulpunun diametri isə 1,5 sm-dir [72, s.236]. Qabın qulpu qövsvari olmaqla gövdə və çiyin hissəyə bərkidilib, ağız hissəsi isə qismən kənarlara doğru qatlanmışdır. Bu həm qabın xarici görünüşünə, həm də mayenin qaba asanlıqla tökülməsinə kömək edir. Dabanlı oturacağa malik olan bu bardaq nümunəsi nisbətən kobud hazırlanıb.

622 saylı qab: Şirsiz darboğaz bardaq (Şəkil 1.2.4.1.5). Qab qulp və ağız hissəsi qırılmış vəziyyətdə tapılıb. Bardağın hündürlüyü 15, oturacağının diametri 6, gövdəsinin diametri 10, boğazının hündürlüyü 4, boğazınını diametri isə 2,4 sm-dir [72, s.234]. Oturacaq hissə dabanlı və kənarlara doğru çıxıntılıdır. Bu da qabın müvazinəti-

nin saxlanılmasında əhəmiyyətlidir və xarici görünüşcə ona yeni forma verir.

Xatırladaq ki, XI-XIII əsrlərə aid bardaqlar ölçülərinə görə son orta əsrlər dövrünün bardaqları ilə oxşarlıq təşkil edir. Belə ki, Qəbələdən tapılmış bir bardağın ölçülərinə nəzər salsaq hündürlüyü 27, ağzının diametri 4,5, boğazının diametri 3,5, gövdəsinin böyük diametri 18, oturacağının diametri 9 sm olmaqla 2,4 litr su tutumuna malikdir. Professor Q.C.Cəbiyev *"Dulusçu ustaların darboğaz bardaqları üç hissədən ibarət hazırladıqlarını bildirir"*. Belə ki, əvvəlcə qabın gövdə və boğaz hissələri hazırlanaraq bir-birinə calaq edilir, qulpların isə hazırlanması və calaq edilməsinin yalnız qab təpidikdən sonra icra olunur [14, s.68].

## 1.2.4.2. Enliboğaz bardaqlar

Qəbələ şəhər yerinin Qala və Səlbir ərazisində aparılan qazıntılar zamanı çoxlu sayda enliboğaz bardaq nümunələri qeydə alınıb. Enliboğaz bardaqlar içərisində həm süzgəcli, həm də süzgəci olmayan nümunələrə rast gəlinir. Enliboğaz bardaqlardan maye darboğaz bardaqlara nisbətən daha asan tökülür, qoyulmuş süzgəclər isə mayenin süzülməsi zamanı suyun daha təmiz əldə olunmasına şərait yaradırdı.

Professor Q.C.Cəbiyev *"Son orta əsrlərə aid enliboğaz bardaqları da süzgəcli və süzgəcsiz olmasına görə iki tipə bölmüş, süzgəcli bardaqların süzgəcsiz bardaqlara nisbətən az yayıldığını göstərmişdir"* [14, s.66]. Bu Qəbələnin XI-XIII əsrlərə aid bardaqları üçün də xarakterikdir. Maraqlıdır ki, XI-XII əsr tapıntıları içərisində süzgəcli bardaqlara rast gəlinmir. Bu cür nümunələr yalnız XIII əsrin sonlarına doğru istehsal olunmağa başlayır. Təqdim olunan süzgəc nümunəsi (Şəkil 1.2.4.2.28) Qalada 2009-cu il qazıntıları zamanı tapılıb və xronoloji baxımdan XIII əsrə aiddir [76, s.207]. Nəfis hazırlanmış süzgəcin deşikləri gül formasında və yarpaq şəkilli kəsilməklə düzəldilmiş, mərkəzi hissəyə isə düyməşəkilli çıxıntı qoyulub ki, bu da nümunəni hazırlayan ustanın peşəkar olduğunu göstərir.

Qəbələnin əsas tədqiqatçılarından olan arxeoloq F.V.Qədirov süzgəcli bardaqların nisbətən böyük həcmli və uzun boğazlı olmaqla, ağzının diametrinin boğaz hissənin diametri ilə müqayisədə böyük olmasını, bu qabların narın gildən dulus çarxında hazırlanmasını, keyfiyyətli bişirildiyini və bişirildikdən sonra açıq qırmızı rəng aldığını göstərmişdir [87, s.18-19].

Yuxarıda artıq qeyd olunduğu kimi, professor Q.C.Cəbiyevin rəhbərliyi ilə Qalanın mərkəzi hissəsində aşkar olunmuş dulus kürələrindən birinin içərisində yanaraq deformasiyaya uğramış çoxlu sayda süzgəcli bardaq aşkar edilmişdir. Süzgəcli bardaqlardan savayı isə qeyri tiplərdən olan heç bir nümunə qeydə alınmayıb. Bu, o deməkdir ki, həmin kürənin sahibi sırf süzgəcli bardaqların istehsalı üzrə ixtisaslaşmış usta olub. Həmin nümunələrin əsasən çiyin və boğaz hissələrinin cızma və deşdəkləmə üsulu ilə nəfis bəzədilməsi də bu növ məmulat istehsalı üzrə ixtisaslaşmış ustanın yüksək peşəkarlığından xəbər verir. Qeyd olunan nümunələr, həmçinin müxtəlif vaxtlarda və fərqli yerlərdə aşkar olunan bu tip qablar sanki eyni qəlibdən çıxıb. Bu da sözsüz ki, eyni ustalar tərəfindən davamlı olaraq eyni növ məmulat istehsalı nəticəsində mümkün ola bilərdi. Bu qəbildən olan tapıntılar eyni zamanda XIII əsrin ortalarında Qəbələdə dulusçu ustalar arasında yüksək ixtisaslaşma olduğunun göstəricisi kimi izah oluna bilər.

Təqdim olunan enliboğaz bardaq fraqmenti 2009-cu ildə Qalada aparılan qazıntılar zamanı müəyyən olunub və dövr etibarilə XIII əsrə aiddir (Şəkil 1.2.4.2.20) [76, s.203]. Qabın qulpu lentvaridir, gövdənin yuxarı hissəsi şaquli formada paralel cızıqlar çəkilməklə naxışlanmışdır.

Süzgəcli bardaqlardan fərqli olaraq, süzgəci olmayan enliboğaz bardaqlara həm XI, həm də XII və XIII əsr materialları içərisində təsadüf olunur.

Enliboğaz bardaqlar bəzi əlamətlərinə görə bir-birindən fərqlənir. Məsələn, Qala ərazisində tapılan və xronoloji baxımdan XII-XIII əsrlərə aid olan qabın oturacağı digər nümunələrdən fərqli olaraq çıxıntılıdır, boğaz hissədə isə dairəvi formada cızıqlar çəkilməklə naxışlanıb (Şəkil 1.2.4.2.21) [76, s.204].

Qəbələnin bu dövrə aid şirsiz bardaqlarının əksəriyyəti lüləksizdir. Lüləkli bardaqlara isə çox az təsadüf olunub, nümunələrin bir qismi yastı oturacaqlı, bir qismi isə dabanlı oturacağa malikdir. Qala ərazisində 2011-2012-ci illərdə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş bir bardaq nümunəsi əvvəl qeyd etdiyimiz nümunələrdən qismən fərqlənir (Şəkil 1.2.4.2.19). Bu bardaq nümunəsinin hündürlüyü 23, oturacağının diametri isə 9 sm-dir, dövr etibarilə XII əsrə aiddir. Bardağın boğaz və qulp hissəsi qırılmış, gövdə hissəsi isə enlidir [75, s.262].

Təqdim olunan digər bardaq nümunəsi ölçülərinə görə fərqlidir (Şəkil 1.2.4.2.25). Dövr etibarilə XIII əsrə aid olan qabın oturacağının diametri 10, ağzının diametri 5, hündürlüyü isə 23 sm təşkil edir [75, s.290]. Enliboğaz bardaq nümunəsi yastı oturacağa, enli gövdəyə malik olmaqla, qulp gövdə və boğaz hissəyə bərkidilib. Digər bir enliboğaz bardaq nümunəsi də xronoloji baxımdan XIII əsrə aid olmaqla, qulaqvari qulpa və yumurtavari gövdəyə malikdir. Oturacaq hissəsi isə az çıxıntılı olması ilə seçilir (Şəkil 1.2.4.2.24) [75, s.292]. Bu tipdən olan 2013-cü ilin tədqiqatları zamanı Qala və Səlbir ərazilərindən aşkar olunmuş bir neçə nümunəni təqdim edirik:

54 saylı qab: Şirsiz enliboğaz bardaq nümunəsi dövr etibarilə XI-XII əsrlərə aiddir (Şəkil 1.2.4.2.14). Oturacağının diametri 3,8, hündürlüyü isə 8,5 sm təşkil edir [72, s.258]. Enli gövdəyə malik olan qabın qulpu qövsvari olmaqla gövdə və boğaz hissəyə bərkidilib.

161 saylı qab: XII əsrə aid olan bu tapıntı Qala ərazisində 2013-cü il qazıntıları zamanı aşkar olunub (Şəkil 1.2.4.2.9). Oturacağının diametri 4, ağzının diametri 3,2, hündürlüyü 9, boğazının hündürlüyü isə 3 sm təşkil edir [72, s.263].

166 saylı qab: Şirsiz bardaq nümunəsi olmaqla, dövr etibarilə XII əsrə addir və Qala ərazisindən aşkar olunub (Şəkil 1.2.4.2.10). Oturacağının diametri 3,3, ağzının diametri 3,5, hündürlüyü isə 7,6 sm-dir, yastı oturacaqlıdır [72, s.265].

201 saylı qab: XII əsrə aiddir və Qala ərazisindən tapılıb (Şəkil 1.2.4.2.11). Oturacağının diametri 4, ağzının diametri 3,5, hündürlüyü 27, boğazının uzunluğu isə 3,3 sm-dir [72, s.265]. Qabın qulp hissəsi

digər nümunələrdə olduğu kimi gövdə və boğaz hissəyə bərkidilməklə, qövsvari formaya malikdir. Ağız hissə novlu olduğundan mayenin asanlıqla tökülməsinə kömək edir. Qeyd edək ki, bardaqların ağız hissəsinin novlu olması və novun üçbucaq və ya qövsvari formada hazırlanması da onların əsas xarakterik xüsusiyyətlərindən biridir.

202 saylı qab: Xronoloji baxımdan XII əsrə aid olan bu nümunənin (Şəkil 1.2.4.2.6) oturacağının diametri 3, hündürlüyü 7,5, boğazının uzunluğu 2,8, ağzının diametri 2,3 X 2,8, qulpunun uzunluğu isə 4,8 sm-dir [72, s.265]. Bardağın ağız hissəsi novludur, qulpu isə qövsvari formadadır.

192 saylı qab: Xronoloji baxımdan XII-XIII əsrlərə aiddir və 2013-cü ildə Qala ərazisindən aşkar olunub (Şəkil 1.2.4.2.7). Qabın hündürlüyü 8, oturacağının diametri 3, ağzının diametri 3,3, boğazının hündürlüyü isə 2 sm-dir [72, s.269]. Bardağın gövdə hissəsi nisbətən dar, boğazı isə enli olduğundan formaca sərnicə də oxşayır.

590 saylı qab: Xronoloji baxımdan XI-XII əsrlərə aiddir (Şəkil 1.2.4.2.2). Qabın boğaz və gövdə hissəsinin bir tərəfi qırılıb, hündürlüyü 18,5, oturacağının diametri 9, gövdəsinin diametri 15, boğazının hündürlüyü 7,2, boğazının diametri 11, ağzının diametri 11,2, qulpunun eni 0,9, qulpunun uzunluğu isə 2,2 sm-dir [72, s.239]. Həmçinin, qabın qulpu qövsvari formada olmaqla boğaz və gövdəyə bərkidilib. Bardağın boğaz hissəsinin aşağı tərəfinə 3, yuxarı tərəfinə isə 2 ədəd dairəvi olmaqla nazik cızıqlar çəkilərək naxışlanıb.

591 saylı qab: Təqdim olunan digər bir enliboğaz bardaq nümunəsi dövr etibarilə XI-XII əsrlərə aiddir (Şəkil 1.2.4.2.1). Qabın hündürlüyü 27, oturacağının diametri 8,5, gövdəsinin diametri 15,5, boğazının hündürlüyü 8,2, boğazının diametri 5,8, qulpunun eni 1,8, qulpunun uzunluğu isə 3 sm-dir [72, s.239]. Bardağın boğaz hissəsinə nazik cızıqlardan ibarət dairəvi formalı və bəzək funksiyasını yerinə yetirən şırımlar çəkilmiş, ağız hissə isə kənarlara doğru qismən qatlanmışdır.

Qala ərazisində 2016-cı ildə aparılmış arxeoloji tədqiqatlar zamanı tapılmış şirsiz saxsı məmulatı içərisində bardaqlar və onların fraqmentləri də çoxluq təşkil edir. Şirsiz bardaqların boğaz hissəsinin

naxışlanması diqqət çəkir. Boğaz hissədə çəkilən bir-birinə perpendikulyar yerləşmiş xətlərin arasına əlavə olaraq qoşa xətlər cızılmış və onların arasına nöqtələr əlavə edilmişdir [21, s.285]. Oxşar naxışlanma Gəncəbasarın XI-XIII əsrlərə aid bardaqlarında da vardır. Bu bardaqların çiyin hissələrini hazırlayarkən ustalar naxışlı gil qəliblərdən geniş istifadə etmişdir [95, s.65].

Qeyd olunan bardaq nümunələrindən göründüyü kimi Qala və Səlbir ərazilərindən XI-XIII əsrlərə aid aşkar olunmuş bardaqların bir qismi tam salamat vəziyyətdə aşkar olunmasa da, onların fraqmentinin, yaxud bir hissəsinin tapılması arxeoloqlara həmin nümunələrin dövrünü müəyyənləşdirməyə və onların başlıca səciyyəvi xüsusiyyətlərini müəyyən etməyə kömək edir. Qəbələnin inkişaf etmiş orta əsrlər dövrünə aid olan bardaq nümunələri əsas etibarilə bir-birinə oxşardır. Bu onların həm gövdə və boğaz, həm də qulp və oturacaq hissələrində aydın şəkildə görünür. Bardaqların hazırlanmasında anoloji oxşarlıq son orta əsrlər dövrünə aid nümunələrdə də müşahidə edilib. Professor Q.C.Cəbiyev qabların müxtəlif xüsusiyyətlərinə görə oxşarlığını onların əsas etibarilə eyni emalatxanada və təcrübəli ustalar tərəfindən hazırlanması ilə əsaslandırır [14, s.67].

Qazıntılar zamanı aşkar olunmuş nümunələrin öyrənilməsi onu deməyə əsas verir ki, XI-XIII əsrlərə aid olan bardaqlarla son orta əsrlərə aid olan nümunələr arasında müəyyən oxşarlıq izlənilməkdədir. Lakin, XI-XIII əsrlərdə darboğaz bardaqlardan, son orta əsrlərdə isə üzəri daha zəngin bəzədilmiş enliboğaz bardaqlardan geniş istifadə olunmuşdur [62, s.330].

Qəbələnin XI-XIII əsrlərə aid olan şirsiz bardaq nümunələrinin ətraflı təhlili və öyrənilməsi nəticəsində müəyyən olunub ki, dövrün bardaqlarının ölçüləri müxtəlif olmaqla, əsas etibarilə hündürlüyü 27 sm, ən böyüyünün ağzının diametri 11,2, gövdəsinin diametri 30, boğazının hündürlüyüisə 8,5, qulpunun eni isə 3,1 sm təşkil edib.

## 1.2.5. Küpə tipli qablar

Tədqiqatlar göstərir ki, XI-XIII əsrlərdə Qəbələ əhalisinin məişətində küpə tipli qablardan geniş istifadə olunub. Mütəxəssislər küpə tipli qabları xarakterizə edərkən onların həcm və forma etibarı ilə nehrələrə və ya kiçik təsərrüfat küplərinə oxşadığını, bu qablardan fərqli olaraq üzərində deşik və qulpun olmadığını, lakin asan bağlanması üçün ağzının kənarlara doğru qatlanmasını göstərmişlər [14, s.78].

Qeyd olunmalıdır ki, Qəbələdə son illər aparılmış arxeoloji tədqiqatlar zamanı XI-XIII əsrlər təbəqəsindən aşkar olunan nümunələr arxeoloqlara küpə tipli qablar haqqında daha müfəssəl fikir söyləməyə imkan verir. 2009-cu ildə Qala ərazisində aparılmış qazıntılar zamanı Qəbələnin XI-XIII əsrlər dövrünə aid bir neçə küpə tipli qab nümunəsi aşkar olunub. Bu qablar səthinin hamar, gilinin məsaməsiz olması ilə diqqəti cəlb edir. Məsələn, 2009-cu ildə Qala ərazisində aşkar olunmuş küpə tipli qab xronoloji cəhətdən XII-XIII əsrlərə aiddir (Şəkil 1.2.5.1) [76, s.204]. Qab çıxıntılı oturacaqlı olmaqla enli gövdəyə malikdir, ağız hissə isə oturacağa nisbətən böyükdür və kənarlara doğru qatlanıb.

XIII əsrə adi olan digər küpə nümunəsinin gövdəsinin yuxarı yan tərəflərində 3 ədəd çıxıntı vardır (Şəkil 1.2.5.2) [76, s.207]. Küpə yastı oturacaqlıdır, tünd sarımtıl rəngdə olmaqla keyfiyyətli bişirilmişdir.

Qəbələnin XI-XIII əsrlərə aid küpə tipli şirsiz qabları bir sıra hallarda həm formalarına və hazırlanma texnologiyasına, həm də ölçülərinə görə bir-birindən fərqlənir. Məsələn, Qala ərazisində arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş və dövr etibarilə XI əsrə aid olan bir ədəd küpə tipli qabın (Şəkil 1.2.5.3) oturacağının diametri 8, ağzının diametri 10, hündürlüyü isə 19 sm-dir [75, s.245]. Qab yastı oturacaqlı olmaqla gövdə hissəsi ağız və oturacaq hissəyə nisbətən enlidir.

Tapıntılardan birinin (Şəkil 1.2.5.4) ağzının diametri 13, hündürlüyü 16,5, ikincisinin (Şəkil 1.2.5.5) oturacağının diametri 8,5, ağzının diametri 13, hündürlüyü 16,5, digərinin (Şəkil 1.2.5.6) oturacağının diametri 9, ağzının diametri 13,5, hündürlüyü isə 12 sm-dir [75, s.250].

Küpə tipli qabların içərisində boğaz hissəsi nisbətən hündür və çıxıntılı olan nümunələrə də rast gəlinir (Şəkil 1.2.5.7) [75, s.251]. Bu nümunə yastı oturacaqlı olmaqla gövdə hissəsində bir ədəd, boğaz hissədə isə 2 ədəd paralel dairəvi zehi var. Küpənin ağzı kənarlara doğru qatlanmasa da onun boğaz hissəsinin uzun olması qabın ağzının bağlanmasında yardımçı rol oynayır.

Təqdim olunan küpə tipli qablardan daha birinin (Şəkil 1.2.5.8) [75, s.268] oturacağının diametri 11, ağzının diametri 16, hündürlüyü 16 sm, digərinin (Şəkil 1.2.5.9) isə oturacağının diametri 8, hündürlüyü isə 13 sm-dir. Qala ərazisindən aşkar olunmuş (Şəkil 1.2.5.10) digər bir küpə nümunəsi də oxşar formaya malik olmaqla yanaşı, ağzı kənarlara doğru daha çox qatlanmış vəziyyətdədir. Hər üç küpə nümunəsi yastı oturacağa və yumurtavari gövdəyə malik olmaqla yanaşı, dövr etibarilə XII-XIII əsrlərə aiddir [75, s.270].

Küpə tipli qablardan nəinki gündəlik tələbat üçün, daha çox ağartı məhsulları, həmçinin ehtiyat ərzaq saxlanılmasında istifadə edilib. Professor Q.C.Cəbiyev *"Küpələrdə əsasən yağ, qaxac, pendir, bəkməz, bal və turşunun saxlanmasını göstərir"* [14, s.78].

Qəbələdən aşkar olunmuş küpələr digər orta əsr şəhər yerlərindən tapılan küpələrlə forma etibarilə oxşarlığa malik olsa da, lakin bir sıra fərqli xüsusiyyətlərə malikdir. Məsələn, Bakıdan tapılmış küpələrin biri şar gövdəli, yastı oturacaqlı, hündür və geniş boğazlıdır. Qabın boğazına yapışdırılmış en kəsiyi dairəvi olan qulpu vardır. Küpənin ağız tərəfi rombvari formada, gövdə ilə boğazını birləşdirən sahə isə içərisinə nöqtələr düzülmüş butaya oxşar rəsmlərlə bəzədilib. Ümumiyyətlə, qədim və orta əsr küplərinin üstündə təsvir olunmuş günəş rəmzi və şəbəkə formalı naxışlar orta əsr keramikasında da geniş yayılmışdır [50, s.200-201].

Təbiidir ki, digər keramika nümunələri kimi Qəbələnin XI-XIII əsrlərə aid küpə tipli qabları da özünəməxsus əlamət və cizgiləri ilə seçilir. Onlar əsas etibarilə yastı oturacağa, dairəvi və yumurtavari gövdəyə malikdir. Qabların ölçüləri müxtəlif olsa da, onların ən kiçiyinin oturacağının diametri 3, böyüyünün diametri 11, ağzının diametri 16, hündürlüyü isə hətta 35 sm-ə qədər təşkil edir. Dövrün kü-

pə tipli qabları həmçinin, daha səliqəli və müfəssəl hazırlanmış, gili məsaməsiz olmaqla keyfiyyətli bişirilmişdir.

### 1.2.6. Dolça tipli qablar

Qəbələnin XI-XIII əsrlərə aid dulus məmulatı içərisində dolça tipli qablar da xüsusi qrup təşkil edir. Bu qablar həm formasına və ölçülərinə, həm də naxışlanmasına və təyinatına görə digər saxsı qablardan fərqlənir. Maraqlıdır ki, digər nümunələrlə müqayisədə dolçaların səthinin bəzədilməsində xətti və nöqtəvari naxışlardan, həndəsi ornamentlərdən geniş istifadə olunub.

Bununla belə zaman keçdikcə digər keramika nümunələri kimi dolça tipli qablar da həm forma və tərtibatı, həm də ölçüləri baxımından müəyyən dəyişikliklərə məruz qalıb. Dəyişməyən təkcə onların təyinatı və istifadə arealı olub.

Antik dövr tədqiqatçısı F.L.Osmanov *"Gil qabların bu növünün müxtəlif formalarının Sultankənd, Nüydi və Gənzədən məlum olan torpaq qəbirlərindən də əldə edildiyini və onların daha çox qara, qırmızı, sarımtıl rəngli olduğunu yazır"* [110, s.82].

Azərbaycanın XIV-XVII əsrlərə aid keramikasını araşdıran professor Q.C.Cəbiyev*"Qazıntı materialları içərisində dolçalara tez tez təsadüf olunmasını, nümunələrdən ən böyüyünün hündürlüyünün 13, ağzının diametrinin 6,5, gövdəsinin daha çox qabarıq hissəsinin diametrinin isə 11,5 sm olduğunu göstərir"* [14, s.79].

Qəbələ ərazisində aparılmış çoxillik tədqiqatlar zamanı tədqiq olunan dövrə aid çoxlu sayda dolça tipli qab aşkar olunub. Məsələn, 2009-cu ildə Qala ərazisində tapılmış nümunə (Şəkil 1.2.6.8) dövr etibarilə XIII əsrə aiddir. Gövdə hissəsi enli, xarici səthi mükəmməl hamarlanmış qabın qulpu qırılıb. Gilinin yaxşı təmizlənməklə məsaməsiz olduğu, keyfiyyətli bişirildiyi diqqət çəkir [61, s.249].

Dolça tipli qablar qeyd etdiyimiz kimi həcm etibarilə nisbətən kiçik olur. Onların ölçüləri fərqli olsa da, qabların hazırlanma texno-

logiyası və forması oxşardır. Bu cəhətdən Qala ərazisindən tapılan və xronoloji baxımdan XII-XIII əsrlərə aid edilən iki nümunədən (Şəkil 1.2.6.5; 1.2.6.6) birincisinin (Şəkil 1.2.6.5) qulpu qırılmış vəziyyətdə olsa da, qabın gövdə və çiyin hissəsində qulpun qırılmış yerinin izi qalmışdır ki, bu da həmin dolçanın qulpunun olmasını deməyə əsas verir. Digər dolça nümunəsi də (Şəkil 1.2.6.6) qulplu olmaqla boğaz hissəsinin bir tərəfi qırılmış vəziyyətdə aşkar olunub. Qabın qulpu gövdə və boğaz hissəyə bərkidilməklə qövsvaridir. Hər iki nümunə yastı oturacaqlı olmaqla üzəri naxışsızdır [76, s.206].

Daha bir dolça nümunəsi formasına görə əvvəl qeyd etdiyimiz nümunələrdən qismən fərqlənir. Oturacağının diametri 5 sm-dir (Şəkil 1.2.6.4) [75, s.251]. Qabın üzərində isə gövdənin hər tərəfini əhatə etməklə bir ədəd dairəvi cızıq çəkilib. Gövdə hissədə qırılmış qulpun izi görünür. Darboğazlı olmaqla, hündür və çıxıntılı oturacağa malikdir.

Dolça tipli qabların qulpları da bir-birinə çox oxşayır və demək olar ki, az fərqlənir. Əsasən lentvari formada olan qulplar gövdə və boğaz hissəyə bərkidilib, bəzən ağız hissədən yuxarıya doğru qalxmış nümunələrə də rast gəlinmişdir.

Daha bir dolça tipli qabın gövdə və çiyin hissəsinə dairəvi olmaqla iki cızıq çəkilib, oturacağının diametri 6, hündürlüyü isə 13 sm təşkil edir. Dövr etibarilə XII-XIII əsrlərə aiddir (Şəkil 1.2.6.3) [75, s.268].

Qəbələdən aşkar olunmuş və XI-XIII əsrlərə aid olan dolça nümunələrinin bir qismi üzərinin daha nəzərə çarpacaq dərəcədə nəfis naxışlanması ilə seçilir. Bu da dövrün ustalarının qabların üzərinə naxış vurmaqda əvvəlki dövrlərə nisbətən daha peşəkar olduqlarını göstərir.

XIII-XIV əsrlərə aid edilən başqa bir dolça tipli qabın (Şəkil 1.2.6.2) oturacağının diametr 6,5, ağzının diametri 8, hündürlüyü isə 13 sm təşkil edir [75, s.297]. Dolçanın gövdəsinin aşağı yarımhissəsinə şaquli formada paralel cızıqlar çəkilmiş, gövdənin yuxarı yarımhissəsi və boğazı naxışlanmış, oturacağı isə çıxıntılıdır.

Səlbir ərazisindən aşkar olunan və dövr etibarilə X-XII əsrlərə aid olan dolça fraqmentinə əsasən (Şəkil 1.2.6.1) qabın ağzının dia-

metrinin 9,1, divarının qalınlığının isə 0,5 sm olması müəyyən olunub [75, s.214].

Qala ərazisində 2009-cu ildə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş enliboğaz dolça nümunəsi səliqəli hazırlanmaqla yanaşı, yastı oturacaqlıdır və çiyin hissəsi qismən daralmışdır ki, bu da qabın xarici görünüşünə yeni forma verir (Şəkil 1.2.6.7). Dövr etibarilə XIII əsrə aid olan qabın boğazının yuxarı yarımhissəsinə 3 ədəd cızıq çəkilməklə naxışlanmış, qulp isə gövdə və boğaz hissəyə bərkidilmişdir [76, s.206].

Qəbələdən aşkar olunmuş XI-XIII əsrlərə aid dolça tipli qablar içərisində qulpu qabın boğaz hissəsinə, ağız hissədən nisbətən aşağı və gövdə hissəyə bərkidilmiş qablarla yanaşı, qulpu birbaşa ağız hissəyə bərkidilməklə yuxarıya doğru nisbətən qalxmış nümunələrə də rast gəlinib. Bu qəbildən olan nümunələr dulusçu ustalar tərəfindən daha səliqəli hazırlanmaqla yanaşı, qabların üzəri naxışlanmışdır. Beləliklə, XI-XIII əsrlərdə Qəbələ şəhər yerində dolça tipli qabların istehsalı həm forma, həm də keyfiyyət baxımından təkmilləşmiş və bu xarakterik əlamətlər son orta əsrlər dövründə də davam etdirilmişdir.

## 1.2.7. Mehtərə tipli qablar

Mehtərə tipli saxsı qablardan məişət və təsərrüfatda istifadə hələ antik dövrdən başlayaraq kifayət qədər geniş yayılıb. Bu cür qablar Mingəçevir, Qəbələ, Nüydi, Mollaisaqlı, Uzunboylar, Qırlartəpə və digər abidələrdən bəllidir [14, 24, 69, 110, 131, 151, 178, 179, 180, 181, 182]. Onların salamat nümunələrinə daha çox qəbir abidələrində rast gəlinir. Bu tip qabların istehsalı ənənəsi orta əsrlərdə də davam etdirilmişdir. Qəbələdə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunan nümunələr buna sübutdur. Təbiidir ki, orta əsrlərdə İslam normalarını rəhbər tutaraq qəbirlərə inventar qoyulmurdu. Başqa sözlə, yəni orta əsrlərə aid mehtərə tipli qablar birbaşa yaşayış yerlərindən aşkar olunub.

Mütəxəssislərin fikrincə, mehtərələr özünün təyinatı etibarı ilə daha çox səfər qablarıdır. Alt üzünün yastı olması, üst hissədəki qoşa qulpu və nəhayət, nisbətən uzun ördəkburun boğaza və dar ağıza malik olması doğrudan da onların əlverişli səfər qabları olduğuna dəlalət edir. Məhz bu əlamətlərinə görə mütəxəssislər mehtərələri çox zaman zoomorf tipli qablar qrupuna aid edirlər. İnsanlar səfərə çıxarkən, yaxud da təsərrüfat işlərinə gedərkən adətən həmin qablarda içməli su götürürdülər. 2-3 litr su tutumu olan bu qablar təbiidir ki, insanın içməli suya olan bir günlük tələbatını ödəyirdi.

Professor Q.C.Cəbiyev Qəbələnin son orta əsrlərə aid mehtərə tipli qablarını üzərinin naxışları etibarı ilə iki qrupa ayırmışdır: 1. Cızma naxışlı mehtərələr. 2. Basma naxışlı mehtərələr. Fikrimizcə, bu bölgü XI-XIII əsr nümunələri üçün də məqbul hesab edilə bilər.

Bu tip qabların öyrənilməsi zamanı diqqəti cəlb edən əsas xarakterik xüsusiyyətlər onların zaman keçdikcə forma və naxışlanmasında müşahidə olunan inkişaf və dəyişiklikdir. Mehtərə tipli qabların formasına nəzər salsaq, onların mayelərin saxlanması və daşınması məqsədilə istifadə olunan bardaq, sərnic və digər qablardan fərqli formaya malik olduğunu görürük. Belə ki, bu qablar çoxqulplu olmaqla yanaşı, həm də yastı oturacaqlıdır.

Başqa sözlə, Qəbələnin XI-XIII əsrlərə aid mehtərə tipli qabları forma yetkinliyi və zəngin naxışlanması ilə diqqəti cəlb edir. Professor Q.C.Cəbiyev "*Qəbələnin basma naxışlı mehtərələrindən XIV əsrin ortalarınadək istifadə olunmasını göstərir*".Onun qənaətinə görə XII-XIII əsrlərdən başlayaraq bu tip qabların istehsalının artması monqol təsiri ilə əlaqədar olub. Köçəri maldarların arana-yaylağa gedərkən səfər qablarına-mehtərələrə ehtiyacının artması, eyni zamanda Orta Asiya ərazisində də mehtərələrə bənzər qabların geniş istifadə ənənəsi bu barədə düşünməyə əsas verir [14, s.73-75].

Mehtərələrin üzərindəki təsvirlər daha çox gül və ya günəş təsvirlərini xatırladan sxematik motivlərdən ibarətdir. Xatırladaq ki, basma naxışlı mehtərələrin daha geniş ərazilərdə yayıldığı müşahidə olunur. Bakı və Orta Asiya materialları buna sübutdur [126, 165].

Yeri gəlmişkən onu da qeyd edək ki, Qəbələnin XI-XIII əsrlərə aid dulus məmulatı içərisində mehtərə tipli qabların xüsusi çəkisi o qədər çox deyil. Bu o deməkdir ki, yerli ustalar digər nümunələrlə yanaşı, mehtərə tipli qabları nisbətən az istehsal ediblər. Bu da təbiidir ki, ehtiyacın miqyası ilə əlaqədar olub.

Tədqiqatçı K.Fərhadoğlu Köhnə Bakı ərazisindən çoxlu sayda basma naxışlı mehtərələrin tapıldığını, həm də bütöv mehtərələrlə yanaşı, üzərində relyef naxışlarının izləri qalmış fraqmentlərinin də məlum olduğunu yazır [50, s.218; s.220].

Qəbələ ərazisində 2011-ci ildə aparılmış arxeoloji tədqiqatlar zamanı da xeyli sayda mehtərə tipli qab aşkar olunub. Məsələn, Qala ərazisindən tapılan belə bir nümunə XI-XII əsrlərə aiddir (Şəkil 1.2.7.2). Qabın oturacağının diametri 12, ağzının diametri 19, hündürlüyü isə 19 sm təşkil edir [75, s.248]. Bu nümunə ikiqulplu olmaqla yastı oturacaqlıdır. Qabın ağız və gövdəsinin bir hissəsi qırılmış, gövdənin yuxarı hissəsinə cızma xətlərlə paralel olaraq bir neçə cızıq çəkilməklə naxışlanmış, xarici səthi hamar olmaqla gili məsaməsizdir.

Qala ərazisindən aşkar olunmuş digər bir mehtərə tipli qab nümunəsi əvvəl qeyd etdiyimiz nümunəyə nisbətən kiçik olsa da, lakin qabın xarici səthi daha mükəmməl naxışlanmışdır (Şəkil 1.2.7.1). Xronoloji cəhətdən XI-XII əsrlərə aid edilən bu qab gövdə hissəyə bərkidilmiş iki lentvari qulpa malik olmaqla, oturacağının diametri 8, hündürlüyü 18, ağzının diametri isə 5 sm-dir [75, s.249]. Darboğazlı olmaqla, ağız hissəsi boğaz hissəyə nisbətən enlidir. Gövdə hissəyə, hər iki qulpun arasında yerləşən sahəyə basma naxış, naxışın üzərinə və ətrafına isə cızma xətlərlə gülə bənzər bəzəklər vurulub.

Oradan tapılan daha bir nümunə də dövr etibarilə XI-XII əsrlərə aiddir (Şəkil 1.2.7.3). Qulpları qabın çiyin hissəsinə bərkidilmiş, gövdə hissə isə ənənəvi olaraq yumurtavari formadadır. Qabın diametri 10, hündürlüyü isə 16 sm-dir [75, s.250]. 2011-2012-ci illərin arxeoloji qazıntıları zamanı Qala ərazisindən aşkar olunmuş digər bir mehtərə tipli qab isə xronoloji baxımdan XIII əsrə aiddir (Şəkil 1.2.7.4). Oturacağının diametri 8,5, ağzının diametri 16, hündürlüyü

isə 16 sm-dir [75, s.291]. Qabın qulpunun biri və ağız hissəsi qırılmış, forması və gövdəsi əvvəl qeyd olunan nümunələrlə oxşardır.

Bütövlükdə, Qəbələdən aşkar olunmuş nümunələrin tədqiq olunması onların formasına və hazırlanma texnologiyasına görə digər ərazilərdən tapılmış nümunələrlə oxşar olduğunu deməyə əsas verir. Bu tip qabların hündürlüyünün əsasən 19 sm-dək, oturacağının diametrinin 12, ağzının diametrinin isə hətta 16 sm-ə qədər olduğu müəyyən olunub.

## 1.2.8. Çıraqlar

Qəbələdə aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunmuş XI-XIII əsr materialları içərisində çıraq nümunələri xüsusilə çoxluq təşkil edir. Çıraq nümunələrinin tədqiqi və öyrənilməsi zamanı diqqət çəkən əsas məqamlardan biri çıraqların forması və onların hansı məqsədlə istifadə olunmasıdır. Bununla bağlı həm yerli, həm də əcnəbi arxeoloqlar tərəfindən kifayət qədər əsaslandırılmış elmi dəlillər vardır.

Orta əsrlərin müxtəlif inkişaf mərhələlərinə aid olan çıraqlar arasında oxşarlıq olsa da, lakin qabların hazırlanma texnologiyasında müəyyən fərqlər vardır. Arxeoloqlardan Q.M.Əhmədov, S.M.Qazıyev, Ö.Ş.İsmizadə, R.B.Göyüşov, H.A.Ciddi və başqaları nəinki Qəbələnin, ümumiyyətlə Azərbaycanın gil çıraqları və onların səciyyəvi xüsusiyyətləri barədə əsaslandırılmış elmi mülahizələr irəli sürmüş və gil çıraqların təsnifatını verməklə onları müxtəlif qruplara ayırmışlar. Məsələn, arxeoloq A.Ş.Orucov *"Azərbaycan ərazisində aşkar edilmiş ilk orta əsr çıraqlarının əsasən, lüləksiz, kasavari, ağzı dairəvi, ellips formalı və vaza formalı olduğunu bildirir"* [107, s.12].

Qəbələnin I-X əsr keramikasını tədqiq edən görkəmli arxeoloq R.B.Göyüşov kasavari çıraqları I qrupa, vazaya oxşar çıraqları II qrupa, lüləkli çıraqları isə III qrupa aid etmişdir. Müəllif kasavari çıraqların azlıq təşkil etdiyini, tədqiq olunan illərə qədər Qəbələ ərazisindən iki ədəd belə çıraq nümunəsinin tapılmasını və vazaya oxşar çı-

raqların kasavari çıraqların inkişaf etmiş forması olmasını bildirmişdir [52, s.971-972].

Professor Q.C.Cəbiyev isə XIV-XVII əsrlər dövrünə aid çıraqları vazaya oxşar çıraqlar və lüləkli çıraqlar olmaqla iki qrupa ayıraraq təsnif etmişdir. Arxeoloq Ö.Ş.İsmizadə isə çıraqları X-XIII əsrlərə aid nümunələrə əsasən vazaya oxşar çıraqlar və lüləkli çıraqlar (bunlar həmçinin üstünün naxışlı və naxışsız olmasına görə ayrı-ayrı yarımqruplara ayrılır) olmaqla iki qrupa ayırıb [14, s.80]. Arxeoloq S.M.Qazıyevin apardığı tədqiqatlar zamanı tapılmış 70-ə qədər çıraq nümunəsi bu qabların ətraflı tədqiqi və öyrənilməsinə xüsusi töhfə vermiş oldu [63, s.117].

Tədqiqatçı A.N.Bernştam "*Xalqın məişətində mühüm əhəmiyyəti olan çıraqlardan əsasən otağın işıqlandırılmasında və dini ayinlərin icrasında istifadə olunduğunu göstərir*". Xatırladaq ki, dini ayinlərin icrasında istifadə olunan çıraqların əksəriyyəti metaldan hazırlanmışdır [134, c.44].

Qəbələdən aşkar olunmuş XI-XIII əsrlərə aid çıraq nümunələrini lüləkli və vaza tipli çıraqlar olmaqla iki qrupa ayırmaq məqsədə müvafiqdir.

### 1.2.8.1. Lüləkli çıraqlar

XI-XIII əsrlərin çıraqları yastı oturacaqlı olmaqla dairəvi, sağanaqvari və ellips formalı qulplara malikdir. Qulplar gövdə və qabın ağız hissəsinə bərkidilmişdir. Bu dövrdə lüləkli çıraqlar çoxluq təşkil edir. Dövrün lüləkli çıraqları haqqında daha ətraflı təsəvvür yaratmaq üçün aşkar olunmuş nümunələrin bir qismi haqqında daha geniş məlumat verilməsi məqsədə müvafiqdir.

2008-ci ildə Qala ərazisində arxeoloji qazıntılar zamanı aşkar olunmuş XII əsrə aid çıraq nümunəsinin lüləyinin uc hissəsi qırılıb. Çırağın lülək hissəsi his qatı ilə örtülmüşdür. Qulp isə sağanaqvari olmaqla çırağın gövdə və ağız hissəsinə bərkidilmişdir (Şəkil 1.2.8.1.1) [76, s.146].

2011-ci ildə Qala ərazisində aparılan tədqiqatlar zamanı aşkar olunan XI-XIII əsrlərə aid çıraq nümunəsinin (Şəkil 1.2.8.1.2) oturacağının diametri 6, hündürlüyü isə 9 sm təşkil edir. Çırağın qulpu yarımdairəvi formada olmaqla, lüləyin uc hissəsi və ağzının bir tərəfi qırılmış vəziyyətdə müəyyən olunub [75, s.244]. Elə həmin yerdən tapılmış XI əsrə aid digər bir çıraq tam salamat vəziyyətdədir (Şəkil 1.2.8.1.3). Oturacağının diametri 5,5, ağzının diametri isə 4,5 sm-dir. Boğaz hissə yuxarıya doğru enlənmiş, lülək hissə uzun və sivridir, qulp isə lüləyin əksi tərəfində qoyulmaqla ellips formalıdır, gövdə və ağız hissəyə bərkidilib. Çırağın xarici səthi yandığı üçün hisdən qaralmışdır [75, s.245].

Təqdim olunan XII-XIII əsrlərə aid lüləkli çıraqların (Şəkil 1.2.8.1.4-1.2.8.1.7) oturacağının diametri 5, ağızlarının diametri isə 4,5 sm təşkil edir. Onların üzəri naxışsız, qulpu qövsvari, boğaz hissələri gödək, oturacaqları isə yastıdır [75, s.263; s.270]. XII-XIII əsrlərə aid oxşar formalı digər bir çırağın oturacağının diametri 5, hündürlüyü isə 6 sm-dir (Şəkil 1.2.8.1.8) [75, s.271].

Xatırladaq ki, Qəbələnin tədqiq olunan dövrə aid lüləkli çıraqları qulplarının formasına görə Beyləqanın XI-XIII əsrlərə aid nümunələri ilə oxşardır. Belə ki, Beyləqanda hazırlanmış çıraqların yanacaq tutumu kiçilməklə yanaşı, qulpları halqavari formada olmuşdur.

Qəbələnin XI-XIII əsrlərə aid olan çıraqlarının bir qismi əvvəl qeyd etdiyimiz nümunələrdən fərqli olaraq boğazlarının hündür və nisbətən dar olması, ağız hissənin gövdəyə nisbətən enli olmaqla qıfvari formada olması, qulp hissələri nisbətən nazik olmaqla gövdə və boğazı birləşdirməsi, gövdə hissələri isə yumru olması və cızma xətlərlə naxışlanması ilə seçilir. Ağız hissənin qıfa bənzər formada olması çırağa yanacaq doldurulmasını daha asan edir (Şəkil 1.2.8.1.9-1.2.8.1.15). Çıraqların lülələri isə düz və sivridir. Xatırladaq ki, belə çıraqların ölçüləri də fərqlidir. Təqdim olunan nümunələrin bir qisminin lüləyinin uzunluğu 7, hündürlüyü 7-10 (Şəkil 1.2.8.1.9-1.2.8.1.12), bəzilərinin isə diametri 7 sm-dir (Şəkil 1.2.8.1.14; 1.2.8.1.15) [75, s.298-299].

Xatırladaq ki, Qala və Səlbir ərazilərində aparılan 2013-cü il qazıntıları zamanı digər şirsiz qab nümunələri ilə yanaşı, bir neçə ədəd çıraq nümunəsi də aşkar olunub. Müəyyən olunmuş çıraqlar forma etibarilə qeyd olunan nümunələrlə oxşar olmaqla yastı oturacaqlıdır. Bəzi çıraqlar enliboğazlı olsa da, darboğazlı nümunələrə də rast gəlinmişdir. Məsələn, 131 saylı şirsiz çıraq: Qala ərazisində aşkar olunub. Oturacağının diametri 2,8, ağzının diametri 2,5, hündürlüyü 3, lüləyinin uzunluğu isə 3 sm təşkil edir. Dövr etibarilə X-XI əsrlərə aiddir (Şəkil 1.2.8.1.16). Çırağın qulpu yarımdairəvi formalı olmaqla gövdə və ağız hissəyə bərkidilib [72, s.251].

134 saylı qab. Təqdim olunan bu nümunə də yastı oturacağa, ellips formalı qulpa malik olmaqla xronoloji cəhətdən XII əsrə aiddir. Oturacağının diametri 2,2, ağzının diametri 2, hündürlüyü isə 3 sm təşkil edir (Şəkil 1.2.8.1.17). Qabın lülək hissəsi və gövdəsinin bir tərəfi ocaqda yanaraq his qatı ilə örtülüb [72, s.265].

133 saylı qab: Ağzının diametri 1,4, oturacağının diametri 2, hündürlüyü 3, lüləyinin uzunluğu isə 3 sm-dir (Şəkil 1.2.8.1.18). Çırağın gövdə hissəsi oval formalı deşilmiş vəziyyətdə aşkar olunub, boğaz hissə yuxarı doğru qalxdıqca tədricən enlənir və qıfabənzər forma almışdır. Qulp isə çubuqvaridir, lüləyin əks tərəfində olmaqla, gövdə və ağız hissəyə bərkidilib [72, s.271].

Xatırladaq ki, Səlbir ərazisindən aşkar olunmuş çıraq nümunələri nisbətən böyük ölçülü olması ilə diqqət çəkir. Bu cəhətdən bəzi nümunələri təqdim edirik:

659 saylı qab: Təqdim olunan bu nümunə xronoloji baxımdan XI əsrə aid olmaqla, hündürlüyü 9, oturacağının diametri 4,9, oturacağının hündürlüyü 0,4, gövdəsinin diametri 8,3, boğazının hündürlüyü 2,9, boğazının diametri 3,2, ağzının diametri 4,3, lüləyinin mövcud uzunluğu 5,1, lüləyinin diametri 2,7, qulpunun uzunluğu isə 1,4 sm-dir (Şəkil 1.2.8.1.20). Qabın boğaz hissəsi nisbətən enli olmaqla, lüləyi düzdür və ocaqda yanaraq his qatı ilə örtülüb.

660 saylı qab: 2013-cü ildə Səlbirdə aparılan qazıntılar zamanı aşkar olunan XI əsrə aid bir çırağın hündürlüyü 6, oturacağının diametri 5,8, gövdəsinin diametri 7,2, boğazının hündürlüyü 3, boğazı-

nın diametri 4,2, ağzının diametri 4,7, lüləyinin uzunluğu 6, lüləyinin diametri isə 2,5 sm-dir (Şəkil 1.2.8.1.19) [72, s.240].

661 saylı qab: Təqdim olunan çıraq nümunəsi dövr etibarilə XI əsrə aiddir, Səlbir ərazisindən aşkar olunan və xronoloji cəhətdən XI əsrə aid edilən bu nümunənin hündürlüyü 6, oturacağının diametri 5,8, gövdəsinin diametri 7, boğazının diametri 3,2, ağzının diametri 4,3, qulpunun eni 0,6, qulpunun uzunluğu 1,7, lüləyinin mövcud uzunluğu 4,2, lüləyinin diametri 2,5 sm-dir (Şəkil 1.2.8.1.21). Nümunə dik və boruya bənzər nazik lüləyə, sağanaqvari qulp və enli ağıza malikdir. Qulp gövdə və ağız hissəyə bərkidilməklə qaba sonradan əlavə olunmuşdur.

662 saylı qab: Təqdim olunan nümunə XI əsrə aid olmaqla, hündürlüyü 4,7, oturacağının diametri 4,1, oturacağının hündürlüyü 0,3, gövdəsinin diametri 6,2, boğazının hündürlüyü 1,5, boğazının diametri 3,2, ağzının diametri 3,6, qulpunun eni 0,6, qulpunun uzunluğu 1,6 sm-dir (Şəkil 1.2.8.1.22). Çıraq forma etibarilə əvvəl qeyd etdiyimiz nümunələrlə anoloji oxşarlığa malik olmaqla lülək və gövdənin bir hissəsi his qatı ilə örtülüb [72, s.241].

## 1.2.8.2. Vaza tipli çıraqlar

XI-XIII əsrlərdə Qəbələ əhalisinin məişətində geniş istifadə olunan çıraq nümunələrinin bir tipi də vazaya oxşar çıraqlardır. Bəzi müəlliflərin əsərlərində bu tip çıraqlar piydanlar kimi də təqdim olunur. Bu da həmin çıraqlarda yanacaq kimi daha çox piydən istifadə ilə əlaqədardır.

Dövrün görkəmli Azərbaycan şairlərinin əsərlərində də çıraqlarla bağlı məlumatlara rast gəlinir. XI-XII əsrlərə aid çıraqlarda yanacaq kimi yağdan istifadə olunmasına XII əsrin görkəmli şairi Xaqani Şirvaninin aşağıdakı beyiti bariz nümunədir:

*Fitil nazik olsa, tükənərsə yağ,*
*Titrək işıq saçar ətrafa çıraq* [55, s.92].

Ümumiyyətlə, Azərbaycanın orta əsr çıraqları iki qrupa bölünür: Birinci qrupa iki tiplə təmsil olunan piydanlar daxildir. Birinci tipə yastı oturacaqlı, piyalə şəkilli piydanlar daxildir. İkinci tip piydanlar isə 3 hissədən – fitil qoyulmaq üçün kiçik açıq burnu olan üst kasacıq, oturacaq rolu oynayan alt kasacıq və onları birləşdirən oxdan ibarətdir. Belə çıraqlar Qəbələ ilə yanaşı, Beyləqan, Şabran, Mingəçevir və digər abidələrdən də məlumdur. İkinci qrup isə "qara çıraq" deyilən nümunələrdən ibarətdir ki, bu çıraqlar qısa boğazdan, nisbətən kiçik gövdədən, qulp və fitil keçirilən burundan ibarət olur [3, c.6, s.124].

Professor Q.C.Cəbiyev "*Vaza tipli çıraqların əsas etibarilə kasavari çıraqların daha təkmilləşmiş forması olmasını, xüsusilə XII-XIII əsrlərdə vaza tipli çıraqların geniş yayıldığını göstərir*". Vaza tipli çıraqlar dörd hissədən – alt kasa, üst kasa, alt və üst kasaları birləşdirən ox və qulpdan ibarətdir. Qeyd olunan hissələrin hər biri ayrı-ayrılıqda düzəldilərək sonradan birləşdirilir. Yanacaq üst kasaya tökülür, qulpun aşağı tərəfi alt kasanın kənarına, yuxarı tərəfi isə birləşdirici oxun yuxarı hissəsinə bərkidilir [153, c.14-15].

Xatırladaq ki, Qəbələdə aparılan arxeoloji tədqiqatlar zamanı çoxlu sayda vaza tipli şirsiz çıraq nümunələri aşkar olunub. Nümunələrin tədqiqi nəticəsində müəyyən olunmuşdur ki, dulusçu ustalar tərəfindən vaza tipli çıraqlar hazırlanarkən ənənəvi formalar əsasən qorunub saxlanılmaqla daha da inkişaf etdirilib. Bunu 2013-cü ildə Qala və Səlbir ərazilərində aparılan qazıntılar zamanı tapılan XI-XIII əsrlərə aid bir neçə vaza tipli çıraq nümunəsi timsalında da müşahidə etmək olar. Məsələn, Qala ərazisindən aşkar olunmuş və xronoloji baxımdan XIII əsrə aid olan vaza tipli çıraqda alt kasanın ağzının diametri 4, üst kasanın ağzının diametri 2,02, hündürlüyü 3, oturacağının diametri isə 2 sm-dir (Şəkil 1.2.8.2.3) [72, s.271]. Tapıntı vaza tipli çırağın tipik nümunəsi olmaqla üst kasa, üst və alt kasanı birləşdirən ox, alt kasadan ibarətdir.

Qala ərazisindən aşkar olunmuş yarımsalamat vəziyyətdə olan digər çıraq nümunəsi dövr etibarilə XII-XIII əsrlərə aiddir. Üst kasanın diametri 2,6, hündürlüyü isə 3 sm-dir (Şəkil 1.2.8.2.2) [72,

s.269]. Çırağın qulpu və alt kasa hissəsi qırılıb, üst kasanın isə bir tərəfi his qatı ilə örtülüb.

Səlbirdən tapılmış digər bir vaza tipli çıraq nümunəsi isə dövr etibarilə XIII-XIV əsrlərə aiddir (Şəkil 1.2.8.2.1). Çırağın hündürlüyü 6,5, orta oxunun hündürlüyü 4, qulpunun eni 0,4, qulpunun uzunluğu 1,6 sm-dir [72, s.244]. Alt və üst kasaları birləşdirən oxun mərkəzi hissəsinə bəzək finksiyasını yerinə yetirən çıxıntı qoyulub.

Nümunələrin təhlili nəticəsində Qəbələnin XI-XIII əsrlərə aid olan şirsiz çıraqları barədə aşağıdakı xarakterik xüsusiyyətləri müəyyən etmək olar:

1. Qəbələnin XI-XIII əsr şirsiz çıraqları əsas etibarilə lüləkli və vaza tipli olmaqla iki qrupa bölünür.
2. Dövrün lüləkli çıraqları həm enliboğaz, həm də darboğaz olmaqla yanaşı, boğazlarının hündürlüyü kiçik və nisbətən hündür olan nümunələrə də rast gəlinib. Çıraqların hündürlüyü əksər nümunələrdə 5-9 sm arası ölçüdə dəyişir. Oturacaqların diametrinə gəldikdə 2 sm-dən başlayaraq, 6,9 sm-ə qədər ölçüsü olan nümunələrə rast gəlinmişdir. Bəzi çıraqların lüləyinin uzunluğu isə 6 sm-ə qədər olmuşdur.
3. Çıraqların lülək hissəsində də müəyyən fərqlər vardır. Belə ki, bəzi nümunələrdə lülək hissə düz olmaqla oturacağa paralel, bəzilərində isə ağız hissəyə doğru mailli formadadır.
4. İstər enliboğaz, istərsə də darboğaz olmasından asılı olmayaraq çıraqların ağız hissəsi boğaz hissəyə nisbətən enli olması ilə seçilir.

## 1.2.9. Şar-konusvari qablar

Qəbələ şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı digər şirsiz qablarla yanaşı, şar-konusvari qab nümunələri də aşkar olunub. Xatırladaq ki, şar-konusvari qablar Qəbələ ilə yanaşı, Azərbaycanın Bakı, Şabran, Beyləqan, Gəncə, Bəndovan, Şamaxı, Şəmkir, Bərdə, Naxçıvan və digər orta əsr şəhər yerlərindən də müəyyən olunub. Qə-

bələdən aşkar olunmuş şar-konusvari qablar nisbətən az olsa da, onların tədqiqi bu tip qabların səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirməyə kömək edir.

Professor Q.M.Əhmədovun yazdığına görə şar-konusvari qablara ilk dəfə 1802-ci ildə fransız alimi V.Denon diqqət yetirmiş və o, həmin qabların ümumiyyətlə yararsız məmulat olması fikrini bildirmişdir [40, s.105].

Xatırladaq ki, müxtəlif illərin tədqiqatları zamanı Səlbir və Qala ərazisində xeyli sayda şar-konusvari qab nümunəsi aşkar olunaraq öyrənilib. Həmin nümunələr Örənqalanın, Qədim Gəncənin, o cümlədən Cənubi Qafqazın, Suriyanın, Fələstinin və Orta Asiyanın anoloji qabları ilə müəyyən oxşarlıqların olduğunu göstərir. Xüsusilə, əsas oxşarlıq qabların xarici görünüşündə aydın şəkildə görünür.

2011-ci ildə Qalada VI qazıntı sahəsində aparılan tədqiqatlar zamanı bir neçə ədəd şar-konusvari qab aşkar olunub (Şəkil 1.2.9.1). Onlardan birinin üzərində qazıma üsulla ərəb əlifbası ilə "Əli" sözü yazılıb və dövr etibarilə XI-XII əsrlərə aiddir [75, s.251]. Həmin yazı ehtimal ki, istehsal prosesində deyil, sonradan əşyanın istifadəçisi tərəfindən yazılmışdır [71, s.279].

Şar-konusvari qablarda diqqəti cəlb edən əsas əlamətlərdən biri də, möhür və yazıların qabların hansı hissəsinə və kim tərəfindən vurulması ilə bağlıdır. Arxeoloq Q.M.Əhmədov bu barədə göstərmişdir ki, həmin yazılar bəzən onlara vurulmuş möhürlərin içərisində olur. Bu möhürlər və yazılar qab sahibinə deyil, onları hazırlayan ustaya məxsus olmaqla möhür qabın alt hissəsinə vurulmuş, yazı isə çiyin hissəyə yazılmışdır [40, s.101-102].

Maraqlıdır ki, şar-konusvari qablar tapıldığı yerdən asılı olmayaraq əsas etibarilə eyni quruluş və formaya malikdir. Azərbaycanın bir çox qədim və orta əsr şəhərlərindən tapılan şar-konusvari qablar təyinatına görə mübahisəlidir. Gildən düzəldilmiş, yaxşı bişirilmiş, cızma və basma naxışlarla bəzədilmiş bu qablar konus şəkilli olmaqla, şara bənzəyir. Tədqiqatçı K.Fərhadoğlu IX-X əsr sferokonuslarının sadə, XII-XIII əsrlərə aid olan nümunələrin isə daha çox naxışlanmasını, digər silahlar kimi şar-konusvari qabların da bəzəkli olub,

hökmdarın və ya sərkərdənin damğası vurulmaqla onların üzərinə şəxsi ad və ya şüar yazılmasını göstərmişdir [50, s.220-221]. Fikrimizcə, K.Fərhadoğlunun şar-konusvari qabların erkən dövrü və mənsubiyyəti ilə bağlı mülahizələri ilə razılaşmaq olmaz.

Qəbələdən tapılmış daha bir neçə ədəd nümunəni təqdim etmək yerinə düşər. Məsələn, 2013-cü il tədqiqatları zamanı Qala ərazisində aşkar olunmuş iki nümunə dövr etibarilə XII əsrə aiddir (Şəkil 1.2.9.2; 1.2.9.7). Onlardan birinin (Şəkil 1.2.9.2) hündürlüyü 13, gövdəsinin diametri 9, ağzının diametri isə 2,5 sm-dir və ağzının diametrinin nisbətən böyük olması ilə digər nümunələrdən fərqlənir [75, s.261; s.263].

Ümumilikdə Qala ərazisində 2013-cü ildə davam etdirilən arxeoloji tədqiqatlar nəticəsində üzərində ərəb əlifbası ilə "Allah" və "Əli" sözləri yazılmış beş ədəd şar-konusvari qab tapılıb. Dövr etibarilə XI-XII əsrlərə aid olan nümunənin üzərində (Şəkil 1.2.9.6) "Allah" sözü yazılıb. Qabın hündürlüyü 5,5 sm-dir. Üzərində oxşar yazılar işlənmiş digər iki nümunə (Şəkil 1.2.9.3; 1.2.9.4) də dövr etibarilə XI-XII əsrlərə aiddir. Hər iki nümunənin ağzının diametri 1 sm-dir [72, s.260]. Gövdəsində ərəb qrafikası ilə cızılmış xətlərlə "Allah" sözü yazılmış digər bir şar-konusvari qabın çiyin hissəsinə deşdəkləmə üsulu ilə bəzək vurulub (Şəkil 1.2.9.10, inv. № 65). Qabın ağzı boğazından daralıb, armud gövdəlidir, gili bozumtul və dənəvərlidir. 64 saylı qab: Nümunə dövr etibarilə XII əsrə aiddir (Şəkil 1.2.9.5). Qabın xarici səthi təqdim olunan digər nümunələrə nisbətən aşınmışdır. Hündürlüyü 4 sm-dir [72, s.267].

Digər iki nümunə 2015-ci ildə Səlbirdə aparılan tədqiqatlar zamanı aşkar olunub və dövr etibarilə X-XI əsrlərə aiddir (Şəkil 1.2.9.8; 1.2.9.9). Onlardan birinin (Şəkil 1.2.9.8) hündürlüyü 11,5, oturacağının diametri 3, gövdəsinin diametri 10, boğazının hündürlüyü 2,2, boğazının diametri 2,5, ağzının diametri 3,5 sm-dir, açıq bozumtul rəngdədir. Digərinin isə (Şəkil 1.2.9.9) gövdəsinin diametri 10,2, divarının qalınlığı 0,8 sm olmaqla sarımtıl rəngdədir [73, s.237].

Nümunələrin təhlili nəticəsində müəyyən olunmuşdur ki, şar-konusvari qabların ağız və aşağı hissəsi çıxıntılıdır, ağız hissəyə kiçik de-

şik qoyulur, gövdəsi isə yumrudur. Qablar narın gildən hazırlanmaqla gili məsaməsizdir. Onların xarici səthi isə sarımtıl, boz və yaxud açıq yaşıl rəngli anqobla örtülüb. Göründüyü kimi şar-konusvari qabların gövdəsinin enli, ağızlarının isə dar olması diqqət çəkir [68, s.39]. Tədqiq olunan dövrdə bu qabların istehsalı təkmilləşməklə onlar daha mükəmməl hazırlanmış, lakin ənənəvi forma saxlanılmışdır.

Yeri gəlmişkən qeyd edək ki, şar-konusvari qabların təyinatı ilə bağlı tədqiqatçılar arasında fikir ayrılığı mövcuddur. Məsələn, Tədqiqatçı S.İ. Valiulina belə qabların "qızıl məhlulu" üçün istifadə edilən qab olduğunu [138, c.161], Q.V.Şişkina onların civə və bu qəbildən olan bəzi maddələrin qablaşdırılmasında istifadə olunduğunu [192, c.16], bəzi mütəxəssislər isə həmin qablardan əl-kimya laboratoriyasında istifadə edilməsini vurğulamışdır [190, c.240]. Mütəxəssislərdən L.D.Dmitrov [156], A.V.Arçixovskiy [117], S.M.Qazıyev [67], S.Ə.Əhmədov [43] isə şar-konusvari qabların mərmi və qumbara kimi hərbidə tətbiq olunmasını, bəziləri (B.V.Lunin [168], O.L.Vilçevskiy [139], H.A.Ciddi [155]) həmin qablardan civə və bu qəbildən olan maddələrin qablaşadırılması və daşınması üçün istifadə edildiyini göstərir. Tədqiqatçıların bir neçəsi şar-konusvari qabların ətriyyat və qiymətli mayelərin qablaşdırılması məqsədilə işlədildiyini (E.Ataqarrıyev [118]), bəziləri şar-konusvari qabların təsərrüfat əhəmiyyətli olduğunu, müxtəlif şirniyyat və içkilərin saxlanması və daşınması üçün istifadə edildiyini (Q.M.Əhmədov [41]), bir qrup tədqiqatçılar isə (B.İ.İbrahimov [160], T.M.Dostiyev [32]) şar-konusvari qabların polifunksional əhəmiyyət kəsb etməklə onlardan qiymətli mayelərin daşınmasında və məişət ehtiyaclarını ödəmək üçün istifadə edildiyini göstərirlər.

Qeyd olunan fərqli yanaşmalarla yanaşı, Azərbaycanın orta əsr şəhərlərinin görkəmli tədqiqatçısı Q.M.Əhmədov Örənqaladan tapılmış nümunələrə əsasən şar-konusvari qabların nə məqsədlə istifadə olunması barədə bildirir ki, "*Bakıdan neft gətirmək üçün lazım olsaydı onda Beyləqanda qab hazırlanmazdı, bu qablar hər halda yerli təsərrüfatla əlaqədar olmalı idi!*" [41, s.31]. Fikrimizcə arxeoloq Q.M.Əhmədovun bu qablarla bağlı irəli sürdüyü müddəa daha düz-

gündür. Çünki, sözügedən dövrdə məişətdə istifadə edilən şirsiz qablar təbiidir ki, əhalinin ehtiyacı zərurətindən istehsal olunurdu. Bu da həmin qabların yerli tələbata uyğun istifadə edildiyini deməyə əsas verir.

Qəbələnin XI-XIII əsrlərə aid şirsiz saxsı qablarının öyrənilməsi nəticəsində müəyyən olunmuşdur ki, bu dövrdə saxsı məmulatı içərisində şirsiz keramika nümunələri çoxluq təşkil edib. Eyni zamanda qablar çoxçeşidli olmaqla, əvvəlki dövrlə müqayisədə onların gili daha keyfiyyətli bişirilmiş, səthi mükəmməl hamarlanmış, üzərinə çəkilmiş naxışlar isə daha cəlbedici olması ilə diqqət çəkir. Saxsı qabların qulpları da bir-birindən fərqlənir. Qulp hissə qaba elə bərkidilmişdir ki, onun sonradan əlavə olunması demək olar ki, nəzərə çarpmır. Qeyd olunanlar dövrün dulusçu ustalarının daha peşəkar olmasını göstərir.

# II FƏSİL. QƏBƏLƏNİN XI-XIII ƏSRLƏR ŞİRLİ SAXSI MƏMULATI

## 2.1. Şirli saxsı məmulatının istehsal texnologiyasına dair

Artıq yuxarıda qeyd olunduğu kimi məişətdə işlədilən saxsı qablar hazırlanma texnikası və texnologiyasına görə şirsiz və şirli qablar olmaqla iki qrupa ayrılır. Özüdə nəzərə almaq lazımdır ki, bu bölgü heç də bütün dövrlərin keramika məmulatına şamil edilə bilməz. Çünki, bəşəriyyət, o cümlədən, Azərbaycan cəmiyyəti şirli keramika istehsalının sirlərinə bələd olandan min illər öncə şirsiz keramika istehsalının texnologiyasına hakim idi. Şirli qablar istehsalına dünyanın hər yerində heç də eyni vaxtda başlanılmayıb. Məsələn, Azərbaycan ərazisində məişətdə istifadə olunan şirli qabların istehsalına IX əsrdən etibarən başlanılıb. Doğrudur, bəzi mütəxəssislər keramika istehsalındakı bu yeniliyin VIII əsrin sonlarından etibarən yayıldığını ehtimal edirlər.

Məsələn, V.N.Leviatov Azərbaycanda şirli qabların VIII əsrdə meydana gəldiyini bildirir [167]. Görkəmli arxeoloqlar S.M.Qazıyev [68] və İ.A.Babayev [6] Qəbələ şəhərində VIII əsrdə şirli qabların mövcudluğunu göstərmişlər. Professor Q.M.Əhmədov şirli qabların nə vaxtdan istehsal olunmasının mübahisəli olduğunu bildirir. Onun yazdığına görə tədqiqatçılardan İ.A.Suxaryev Əfrasiyab şəhərində VIII əsrin I rübündə artıq şirli qablardan istifadə edilməsini, İ.B.Bentoviç Orta Asiyada ərəb işğalına qədər şirli qab istehsalının olmasını, B.A.Şelkovnikov isə IX əsrdən şirli qabların istehsal olunduğunu

müəyyən edib [41, s.32]. A.L.Yakobson da həmçinin, IX əsrdən bu qabların istehsal olunduğunu göstərir [195].

Fikrimizcə, bu məsələdə mübahisə etməyə və geniş diskussiya açmağa dəyməz. Ona görə ki, belə bir texnoloji kəşfin konkret olaraq nə vaxt baş verdiyini ayına, gününə, ilinədək dəqiqləşdirmək praktik baxımdan qeyri-mümkündür. Bəli, IX əsrdə demək olar ki, bütün Azərbaycan şəhərlərində şirli keramika istehsalının olduğu şəksizdir. Bakı [50,126], Gəncə [154,166,], Qəbələ [6,7,12,14,21,22,23], Şəmkir [29,31], Beyləqan [41], Şamaxı [28, 155] və digər yerlərdə aparılmış arxeoloji tədqiqatlar zamanı əldə olunmuş tapıntılar bunu təsdiq edir. Lakin, IX əsr materialları içərisində şirli keramika nümunələrinin həm kəmiyyət, həm də çeşid etibarı ilə azlığı da bu istehsalın yeni başlandığından xəbər verir. Təbiidir ki, IX-X əsrlərlə müqayisədə XI-XIII əsrlərdə hər yerdə olduğu kimi Qəbələdə də şirli keramika istehsalının həcminin sürətlə artması müşahidə olunur. Bu artım şirli keramika məmulatının çeşid müxtəlifliyində də qabarıq şəkildə özünü büruzə verir. Bu göstəricilərlə yanaşı, XI-XIII əsrlər keramikasının bədii-texniki və texnoloji göstəriciləri də sürətlə yaxşılaşır. Ən çox diqqəti cəlb edən isə məmulatın dekor etibarı ilə daha cəlbedici olması idi. Yəni, bu dövrün keramikasının bədii cəhətdən bəzədilməsində daha çox rənglərdən və müxtəlif məzmunlu təsvirlərdən istifadə olunurdu. Şirli keramika istehsalındakı bu dəyişikliklərin miqyasının böyüklüyünü nəzərə alan bir çox mütəxəssislər hətta həmin dövrü Azərbaycanın renessans dövrü kimi də xarakterizə edirlər.

Dövrünün görkəmli şairi Xaqani Şirvaninin yaradıcılığında da saxsı qablarla bağlı motivlərə rast gəlinir. Böyük şairin saxsı kasalarla bağlı beyiti bunun bariz nümunəsidir:

*Dodağım saxsı, üzüm torpağa dönmüş, canım,*
*Daş olub, odlu sudur saxsı kasa dərmanım [55, s.114].*

Q.M.Əhmədovun fikrincə, Beyləqan şəhərində də şirli qab istehsalına IX əsrdən başlanıb. Doğrudur, IX əsrə qədər Beyləqan dulusçuları anqobdan, sonra isə rəngsiz şəffaf şirdən (qurğuşun oksidindən)

istifadə etmişlər. Təbiidir ki, qurğuşun oksidini qabın üzərinə çəkdikdə qab nəinki çox hamar, davamlı, həm də çox parlaq olur [41, s.32].

Şirli saxsı qabların istehsal texnologiyası hazırlanma və şirlənməsi nöqteyi-nəzərindən mürəkkəb proses olsa da, şirsiz saxsı məmulatının istehsal texnologiyası ilə oxşarlıq təşkil edir. Bu cəhətdən qeyd edə bilərik ki, qabların hazırlanmasında tətbiq olunan texnoloji proseslər istehsalın müəyyən mərhələsinədək şirsiz qablar istehsalında olduğu kimi eynilə təkrar olunur. Lakin, bu oxşarlıqla yanaşı, şirli saxsı məmulatının hazırlanma texnologiyası bir sıra özünəməxsus texnoloji xüsusiyyətlərə də malikdir.

Professor Q.C.Cəbiyev bu cəhətdən *"Anqobun, şirin və rəngin hazırlanmasının, onlar vasitəsilə şirsiz qablar üzərində müxtəlif süjetlərin yaradılmasının və nəhayət qabın təkrar bişirilməsinin bu qəbildən olan əməliyyatlara aid olduğunu göstərir"* [14, s.36].

Tapıntılar şirli saxsı qabların hazırlanması və şirlənməsi texnologiyasının XI-XIII əsrlər dövründə daha da təkmilləşdiyindən xəbər verir. Şirlənmədən əvvəl qabın üzərinə anqob astarın çəkilməsi isə Azərbaycanın bütün saxsı qablar istehsal olunan orta əsr şəhərləri üçün xarakterik əlamət olmuşdur.

Təbiidir ki, şirin əldə olunması da zaman keçdikcə xeyli təkmilləşmişdir. Məsələn, Qubada şirli qabların hazırlanması ilə məşğul olan Ziyafət Əlimova əvvəllər şir üçün xammalın Dağıstanın Quruş kəndindən gətirildiyini, sonralar bu məqsədlə qurğuşun və kükürddən istifadə olunduğunu bildirir. Xatırladaq ki, mütəxəssislər qurğuşundan hazırlanan şirdən Romada, Yunanıstanda, Asiyada eramızın I əsrindən istifadə olunmasını göstərirlər. Şirlənmə prosesinə gəldikdə usta tərəfindən qabların sayı nəzərə alınmaqla lazım olan miqdarda qurğuşun tiyana tökülərək əridilir, sonra ona kükürd əlavə olunur. Bu reaksiya nəticəsində $Pb+S=PbS$ adlı birləşmə alınır. Şir hazırlanarkən çox qatı və ya çox duru ola bilməz, çünki çox duru şir qab kürədə bişirilərkən yana bilər [108, s.248-251].

Şirlənmə nəticəsində şir qabın səthini örtməklə bərabər, istifadə zamanı qabın daha uzun müddət davamlı olmasını şərtləndirir, eyni zamanda qabın xarici görünüşünə xüsusi gözəllik və parlaqlıq verir.

Şirlənmə öz şəffaflığına görə iki əsas qrupa bölünür:

1. Şəffaf şirləmə.
2. Şəffaf olmayan şirləmə.

Keramika istehsalında məmulatın rənglənməsi üçün müxtəlif metalların turşu və duzlarından istifadə olunub. Tədqiqatçı E.Maysuradze həmin metallardan alınan rəng effektini aşağıdakı kimi göstərmişdir:

- Kobalt turşusu (Co2 O3). Göy rəng verir.
- Mis turşusu (CuO). Yaşıl və ya göyümtül yaşıl rəng verir.
- Marqans turşusu (Mn2O3). Qəhvəyi və ya bənövşəyi rəng verir.
- Dəmir turşusu (Fe2O3 və ya FeO). Bunlardan birincisi sarı rəngi, ikincisi isə yaşıl rəngi verir.

Qabların şirlənməsi və onların üzərində müxtəlif təsvirlərin verilməsi hər bir dövrün müvafiq olaraq tələbat və zövqlərini özündə əks etdirir. Bu xüsusiyyət qabların xarici görünüşündə aydın müşahidə edilir. Məmulat bişirilməsindən sonra onun səthi suda qarışdırılmış şirlə örtülür. Şir təbii ki, rəngsiz (şəffaf) və rəngli ola bilər. Bu zaman şir keramik məmulatın səthini örtərkən fon və ya bəzək kimi istifadə olunur [169, c.14-18].

Tədqiqatçı V.N.Leviatov Qədim Gəncənin şirli keramika nümunələrinə əsasən qeyd edirdi ki, *“Şəffaf şirlər qurğuşun turşusu ilə hazırlanır və ona görə də bu adla adlanır. Qeyri-şəffaf şirlər isə qalay turşusundan əldə edilir”.* Xatırladaq ki, şəffaf şirlər Cənubi Qafqazda qədim zamanlardan məlumdur. Gəncə materiallarının öyrənilməsi zamanı daha qədim dövrə aid şəffaf şirli keramika nümunələrinə də çox rast gəlinib [166, c.31].

Əvvəlki dövrlərdən fərqli olaraq XII əsrdən başlayaraq şirli keramikanın dekorunda tətbiq olunan rənglər və şirlər dəyişməklə yanaşı, həm də zənginliyi ilə diqqət çəkir. Əgər XII əsrə qədər olan şirli saxsı qablarda başlıca olaraq lokal anqob rənglərdən (ağ, sarı, qırmızı və yaşıl), mis və marqans oksidlərindən alınan yaşıl və bənövşəyi rənglərdən istifadə olunurdusa, XII əsrdən başlayaraq qabların şirlənməsində müxtəlif metalların oksidlərindən əldə olunan rənglər üstünlük təşkil etməyə başlayır.

V.N.Leviatov şirli keramika tiplərinin dəyişməsini 4 aspektdən izah etmişdir:

1. Keramika məmulatlarının tiplərinin dəyişməsi özünün birbaşa ifadəsini keramika istehsalının inkişafında və yüksəlişində, eləcə də ayrı-ayrı dövrlərdə onun tənəzzülündə tapır.

2. Tətbiqi kimyanın nailiyyətləri istehsal sahəsinə tətbiq edilir.

3. Şirli keramika məmulatlarının böyük bir hissəsinin bəzəyi olur və bu bəzəklər həmin məmulatın görünüşünü dəyişir. Yəni burada artıq xalq bədii yaradıcılığının təsir dairəsi müşahidə olunur.

4. Arxeoloji işlərdə keramika məmulatları bəzən tək material olur ki, onun əsasında tarix müəyyənləşdirilir.

Maraqlıdır ki, şirli qablar istehsalı dedikdə təkcə məmulatın səthinin şirlənərək bədii cəhətdən bəzədilməsi düşünülməməlidir. Buna qədər hələ həmin məmulat növlərinin özünün istehsalata gətirilməsi tələb olunur. Söhbət ilkin şirli qab nümunələri olan kiçik ölçülü nəlbəki, kasa, və duz qablarından gedir. Hansı ki, şirli qablar istehsalı başlanan dövrdən əvvəlki dönəmdə demək olar ki, bu tip qablar istehsal olunmurdu. XI-XIII əsrlərdə isə bu qəbildən olan məmulat növləri daha da artır. Artıq müxtəlif ölçülü piyalə, kasa, boşqab, çıraq, vaza və sini tipli qabların istehsalı genişlənir, duz qablarının həcm və görünüş baxımından yeni formaları yaranır.

V.N. Leviatovun fikrincə, "*Şirli qabların hazırlanmasının ilkin dövründə onların dekorasiyasında ağ gilin müxtəlif kombinasiyalarından və marqans turşusundan alınmış şirdən istifadə edilib*". Bu qabların rəngi açıq qəhvəyi parlaq fondan ibarət olmaqla üzərində ağ zolaqlar aydın görünür, ağ gillə təsvir edilmiş halqalar, nöqtələrlə verilmiş ləkələrlə birləşən boz bənövşəyi halqalar təsvir edilirdi [167, c.36]. Qeyd edək ki, farfor qablar da ağ rəngdə olur. Lakin, farfor qablar ağ rəngdə olmaqla yanaşı, saxsı qablara nisbətən istiliyə davamlı olması ilə fərqlənir. Bu qablara toxunduqda davamlı cingiltili səs yaranır [201].

Şirli qablar, o cümlədən Qəbələnin XI-XIII əsrlər keramikasının istehsal texnologiyasında məmulatın səthinin anqoblanması xüsusi mərhələ təşkil edir. Təbiidir ki, daha erkən dövrün şirli keramika

məmulatlarında anqob təbəqə olmamışdır. İstehsal prosesi təkmilləşdikcə anqobdan istifadə də istehsalata gətirilib. İlk vaxtlar anqobdan həm astar örtük, həm də naxış kimi istifadə olunub. Qədim Qəbələ şəhər yerində müxtəlif illərdə aparılmış arxeoloji qazıntılar zamanı XI-XIII əsrlərə aid xeyli miqdarda anqob naxışlı qab nümunələri aşkar olunub.

Saxsı qabların anqob vasitəsilə naxışlanması Azərbaycanla yanaşı, həmçinin, Misir, Əfrasiyab, Mavəraənnəhr, Paykənd, Qara dəniz sahili və Volqaboyu qazıntılarından da məlumdur. Bu qrup qablardan Azərbaycan ərazisində IX-X əsrlərdə geniş istifadə olunub [14, s.95].

Xatırladaq ki, "anqob" termini fransızca "engobe" sözündən olub, suvaq mənasını verir. Bəzən onu rəngli gil kimi də tərcümə edirlər [51, s.101-102]. Tədqiqatçı E.V.Sayko isə *"Anqob sözünün fransızcadan tərcümədə mazlamaq, maz sürtmək mənasını ifadə etdiyini göstərir"*. Arxeoloji və sənətşünaslıq ədəbiyyatlarında anqob termini birtərəfli izah edilir, onun yalnız dekorativ əlaməti qeyd olunur. Anqobun kifayət qədər dolğun izahını isə ingilis alimi A.Lukas qədim Misirdə sənətkarlıq məmulatlarının istehsalının öyrənilməsinə həsr etdiyi kitabında verib. Anqob onun tərəfindən təkcə dekorativ baxımdan xarakterizə edilmir, eyni zamanda texniki xassə nöqteyinəzərindən də aydınlaşdırılır. N.A.Saxarovanın və O.V.Çerepovanın anqob texnologiyasının öyrənilməsinə həsr olunmuş tədqiqatlarında gil kütləsinin hazırlanmasının incə işlənməsi nəticəsində strukturun açıq və ya rəngli xüsusi şəkli xarakterizə olunur. Onun vəzifəsi qırıntının rəngini örtmək və onun səthinə hamarlıq, möhkəmlik və su keçirməzlik verməkdir [186, c.83-84].

Arxeoloq R.B.Göyüşovun yazdığına görə anqoba istifadə məqsədindən asılı olaraq ustalar tərəfindən fərqli adlar verilib. Məsələn, Orta Asiya dulusçuları anqobu astar, Lənkəran dulusçuları yağ, tədqiqatçı H.Qext isə şirə adlandırıb. Anqobun necə adlanmasından asılı olmayaraq 4 məqsəd üçün işlənmişdir:

1. Gil qabların üzərindəki məsamələri örtmək və qabın səthini hamarlamaq.

2. Gil qabların rəngini dəyişdirmək.
3. Gil qabların səthinə şir çəkmək üçün onları astarlamaq.
4. Qablara naxış vurmaq.

Professor R.B.Göyüşov Qəbələ tədqiqatları əsasında gil qabların anqoblanması üsullarına dair xüsusi məqalə yazıb. Onun fikrincə, anqob üçün heç də istənilən gili seçmək məqsədə uyğun deyil. Belə ki, anqob üçün seçilmiş gil tərkib etibarı ilə onun çəkiləcəyi qabın gilinin xüsusiyyətlərinə uyğun olmalıdır. Daha doğrusu anqob gili də suda həll olunma qabiliyyətinə, oda davamlılıq xüsusiyyətinə və əlavə olaraq bişmə zamanı öz rəngini saxlamaq keyfiyyətinə malik olmalı və yağlılıq dərəcəsi ilə seçilməlidir [51, s.101-102].

Anqob termini ilə yanaşı arxeoloji ədəbiyyatda mineral gil boya ilə verilmiş, daha çox "anqobla örtülmüş" kimi təsvir edilən "anqob təsviri", məmulat, təsvirlə bəzək, və s. kimi bir sıra terminlər də tez-tez işlənir. E.V.Saykonun fikrincə, *"Dulusçuluq məmulatlarının mazlanması qabın texnoloji və dekorativ keyfiyyətinin yaxşılaşdırılması üçün texnoloji bir üsuldur. Təsvir yalnız dekorativ keyfiyyəti yaxşılaşdırır"* [186, c.83-84]. Əslində isə anqob xüsusilə, ağ və ya rəngli gildən seçilmiş və yaxşı işlənmiş mazlamanın xüsusi bir növüdür. Məmulatın səthinə anqobun sürtülməsi ilə o hamar, gözəl görünüşlü bir rəng alır və həm də səth daha etibarlı olur.

Arxeoloji qazıntılar zamanı Azərbaycanda anqobdan istifadə etmə üsulunun Tunc dövründən başlayaraq son orta əsrlərə qədər davam etdiyi müəyyən olunub. Hal-hazırda da kustar dulus sənətkarlığında anqobdan qismən istifadə olunmaqdadır.

Anqoblu məmulatlar üçün firuzəyi və yaşıl şirlər tətbiq olunur. Lakin məlum deyildir ki, beş rənglə şirlənmiş qablarda hansı səbəbdən firuzəyi rəngə rast gəlinmir?! V.N.Leviatov bunun texnoloji səbəblərdən tətbiq edilmədiyini əsaslı saymır. Xatırladaq ki, Samarrada aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış anqoblu qablarda şəffaf yaşıl və göy şirlə dekor edilməsi də məlumdur. Çox ehtimal ki, rənglərin belə kombinasiyası Azərbaycanda bədii sənət sayılmayıb. Şirli qablarda bununla yanaşı, XI-XIII əsrlərdə artıq ştamplama texnikasının tətbiqi də məlum idi [167, c.42].

R.B.Göyüşovun fikrincə, şirli qablar üçün anqob iki məqsədlə hazırlanırdı:

1. Anqobla gil qablara şirdən əvvəl ümumi fon üçün astar çəkirdilər.

2. Anqobdan naxış vururdular.

1963-cü ildə Qəbələnin Qala hissəsində dulus kürələri sahəsindən analiz üçün götürülmüş ağ anqob gilinin tərkibi aşağıdaki kimi olmuşdur. Anqobun analizi Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun kimya laboratoriyasında professor İ.R.Səlimxanov tərəfindən aparılıb.

| Mn | Mg | Ca | Si | Fe | P |
|---|---|---|---|---|---|
| + | +1 | +1 | +1 | 0,1 | 0,5 |

Bu cür tərkibli anqob bişdikdən sonra olduqca ağ olur [51, s.105-108].

Ağ rəngli astar hələ nəm olan gil qabın üstünə çəkiləndən sonra yenidən havada qurudulur. Əlin izi anqobun üzərində qalmazsa, o, qurumuş hesab edilir. Həmin qabın gilinin və onun üzərinə çəkilən anqobun istidən genişlənməsi əmsalı eyni olmalıdır. Əks təqdirdə qabın üzərində zədələnmə əmələ gəlir və anqob ilə gil şəbəkəsi yaxşı bitişmir. Anqoblar ağ və rəngli (qırmızı, boz, sarı, çəhrayı və s.) olur. Ağ rəngli anqobdan qabın əlvan bəzəyi üçün fon kimi istifadə edilir [38, s.47-49].

Mütəxəssislərə keramika istehsalının incəliklərini təbiidir ki, sırf arxeoloji materiallar əsasında öyrənmək çox çətin olar. Odur ki, bu zaman etnoqrafik müşahidələr də alimlərin köməyinə gəlir. Məsələn. Q.M.Əhmədov, R.B.Göyüşov, A.Ş.Orucov, Q.C.Cəbiyev, S.M.Ağamalıyeva və qeyriləri Azərbaycanda keramika istehsalının texnologiyasını öyrənərkən Şəki, Qəbələ, Quba, Gəncə, Lənkəran və Astara rayonlarında son illərədək kustar dulusçuluqla məşğul olan ustalardan da çox şey öyrənmişlər. Amma bu sözləri şirli qablar istehsalına aid etmək olmaz. Çünki, kustar dulusçuluqla məşğul olan ustalar çoxdandır

ki, daha şirli saxsı məmulatı istehsalı ilə məşğul olmurlar və təbiidir ki, onunla bağlı texnoloji prosesləri də artıq unudublar.

Kustar dulusçuluqla məşğul olan Gəncə ustalarının şirli qablar istehsalı ilə məşğul olduğu keçən əsrin 80-ci illərində S.B.Hüseynova tərəfindən müşahidə edilərək elmi ictimaiyyətə təqdim olunub. Həmin müşahidə və qeydlərdən belə məlum olur ki, Gəncədə kustar dulusçuluqla məşğul olan ustalar yalnız saya şirli qabları hazırlayırmış. Bu məqsədlə onlar hazır məmulatı xüsusi qablarda hazırlanmış şir məhluluna batırır və yalnız şir təpiyib quruduqdan sonra kürəyə düzərək bişirirlər [149, c. 68-74].

Şirsiz saxsı qabların istehsal texnologiyasına nəzər salsaq qabların kürələrə yerləşdirilməsində üçayaqlardan istifadə edildiyini müşahidə edirik. Anoloji əlamətlər şirli qabların istehsalına da aiddir.

Artıq yuxarıda qeyd olunduğu kimi 1961-ci ildə Ö.Ş.İsmizadə tərəfindən Qalada arxeoloji qazıntılar aparılarkən ikinci mədəni təbəqədə aşkar olunan 3 ədəd dulus kürəsindən birinin şirli qabların bişirilməsi üçün istifadə olunduğu müəyyən edilib. Kürənin ətrafından şirli qabların bişirilməsində istifadə olunan 100-dən artıq üçayaq, silindr formalı çubuqlar aşkar olunub. Hansı ki, onların bəzilərinin üzərində bərkimiş şir damcıları da qeydə alınıb [162, c.24]. Kürənin ətrafından aşkar olunan şirli qab nümunələri və digər fraqmentlər onun XI-XV əsrlərə aid olduğunu göstərir

Maraqlıdır ki, Gəncə dulusçuları şirli qabların istehsalı zamanı üçayaqlardan istifadə etməmişlər. Tədqiqatçı S.B.Hüseynova üçayaqların istehsaldan yoxa çıxmasını istehsal olunan qabların çeşidinin dəyişməsi ilə əlaqəli olduğunu əsaslandırmışdır [149, c.68-74].

Anqob və anqoblama üsulu heç də V.N.Leviatovun dediyi kimi, *“Şirli gil qab istehsalının sonrakı inkişafı dövründə kəşf edilmiş bir yenilik olmayıb, dulusçuluq sənətinin inkişafı tarixində hələ tunc dövründən məlumdur”* [167, c.41-48]

Anqob naxışlı qablar bir neçə xüsusiyyəti ilə seçilir. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

1. Anqobla heç bir canlı təsvir edilməmişdir. Daha çox nisbətən qalın xətlərdən ibarət dairələr, yaxud düz zolaqlar çəkilmişdir.

2. Anqobla naxışlanmış bütün qabların üzəri şəffaf şirlə örtülmüşdür.

3. Anqob naxışlara daha da gözəllik verməkdən ötrü onların üzəri ya marqans oksidi ilə nöqtələrlə, yaxud da mis oksidindən ibarət ləkələrlə bəzədilmişdir.

Arxeoloq R.B.Göyüşov anqobdan istifadənin 3 əsas mərhələ keçdiyini göstərir:

- Birinci mərhələdə (tunc və dəmir dövrləri) qabların rəngini dəyişdirmək və onların üzərindəki məsaməliliyi örtmək.
- İkinci mərhələdə (antik və ilk orta əsrlər) əsasən qabların üzərindəki məsaməliliyin qarşısını almaq.
- Üçüncü mərhələdə isə (VIII əsrdən sonrakı dövr) müxtəlif növ rənglərə fon vermək və həmçinin, qabları naxışlamaq üçün anqobdan istifadə etmişlər [51, s.105-108].

Professor Q.C.Cəbiyevin fikrincə, Qəbələ şəhər yerinin Qala ərazisində IV qazıntı sahəsində tədqiqatlar aparılarkən oradan aşkar olunmuş bir neçə ədəd iri kasa tipli qaba aid fraqment şirli qabların istehsalı zamanı texnoloji proseslərin ardıcıllığını öyrənmək baxımından müstəsna əhəmiyyət kəsb edir. Belə ki, həmin nümunələr şirsiz saxsı məmulatı istehsalı üçün vacib olan bütün mərhələlərdən keçdikdən sonra, deməli həm də bişirildikdən sonra səthinə anqob astar vurulub, onun üzərindən isə müxtəlif boyalarla əsasən də marqans boya ilə mükəmməl nəbati təsvirlər işlənib. Lakin, təsvirlər işləndikdən sonra onların səthi hansı səbəbdənsə şəffaf şirlə örtülməyib. Ola bilsin ki, ehtiyatsızlıq ucbatından həmin qablar sınıb və bu səbəbdən də istehsal prosesi yarımçıq qalıb, qablar isə zibilliyə tullanıb. İstehsal prosesinin yarımçıq qaldığını bildirən əlamət isə həmin qabların səthinin həm anqob, həm də boyasının asanlıqla yuyulub itməsidir. Təbiidir ki, həmin nümunələrin üzəri şəffaf şir təbəqəsi ilə örtülsəydi, o zaman nə anqob, nə də boya heç bir halda silinməzdi [14, s.37-38].

Deməli, şirli qabların üzərindəki təsvirlərin yüz illər ərzində silinmədən öz ilkin parlaqlığını qoruyub saxlamasına səbəb bütünlüklə istehsalın növbəti mərhələsində qabların üzərinin şəffaf şirlə örtülmə-

si olub. Hansı ki, bu texnoloji mərhələdən sonra qablar kürələrə doldurularaq təkrar bişirilib. Bu da şirli saxsı məmulatı istehsalının son texnoloji mərhələsidir.

Mütəxəssislər şirli qabların bədii işlənməsini bəzək texnikası xüsusiyyətlərinə görə 2 növə bölürlər:

1. Anqoblandıqdan sonra şəffaf şirlə örtülmüş qablar.
2. Şəffaf şir altında səthi anqobla örtülüb üstdən boyalarla naxışlanmış qablar [105, s.62].

Anqob gilləri ağ, qırmızı, çəhrayı, sarı və b. rənglərdə olur. Anqobun yaratdığı ağ fon şəffaf rəngli şirlərin işlədilməsi və qabın sqrafito üsulu ilə naxışlanması üçün geniş imkanlar açırdı. Belə ki, sqrafito üsulunda anqob səthinin cızılması ilə əldə edilən naxışların konturu qabın öz rəngində olur. Bədii keramikanın inkişafı sahəsində IX-XI əsrlərin nailiyyətləri XII-XV əsrlərdə daha da təkmilləşir.

Rəngli anqoblardan həm də boya kimi istifadə olunub. Saxsı qab ağ rənglə boyandıqdan sonra açıq havada qurudulub, sonra isə üzərinə naxışlar işlənib. Ardıcıl olaraq qabartma və cızma üsulu ilə naxışlar verildikdən sonra isə məmulat açıq havada qurudularaq 900 dərəcədə bişirilir. Saxsı qabların səthinə çəkilən şir örtüyü şüşə şəkilli kristala oxşayır və iki qrupa ayrılır:

1. Rəngsiz, şəffaf şirlər.
2. Rənglənmiş şirlər.

Rəngsiz, şəffaf şirlərin kimyəvi tərkibi qurğuşun oksidi və kvarsdan ibarətdir. Məlumdur ki, rəngli şir şəffaf şirin boyayıcı maddə ilə qarışdırılmasından alınır. Boyayıcı maddələr isə metal oksidlərindən ibarətdir. Anqoblanmış saxsı qablar əsasən iki cür naxışlanırdı:

1. Saxsı məmulatı cızma, qabartma bəzəklər və anqobla çəkilmiş təsvirlərlə naxışlanırdı. Lakin bu naxışlar şirdən əvvəl tətbiq olunurdu.
2. Qablar şir işlədilməklə, cızma, qabartma naxışlar və boyalı təsvirlərlə naxışlanırdı.

Beləliklə, saxsı məmulatı anqoblandıqdan və üzəri təsvirlərlə işləndikdən sonra onun üzərindəki təsvirlər şir ilə boyanırdı. Bütünlüklə qabı əhatə edən və ikinci dəfə çəkilən şirin ərimə dərəcəsi, təs-

virlərə işlənmiş və birinci dəfə çəkilən şirin ərimə dərəcəsindən aşağı olmalıdır. Belə olmasa naxışların şiri əriyər [38, s.47-49].

Şirli saxsı qabların hazırlanması nəinki Qəbələnin, bötüvlükdə Azərbaycan keramika sənətinin böyük bir intibahıdır. Digər ölkələrlə yanaşı, Azərbaycanın orta əsr şəhərlərində də hazırlanmış saxsı qablar istiyə, soyuğa davamlı olması və yaxşı görünməsi üçün şüşəyə oxşayan rəngli maye ilə örtülürdü.

Şirli keramikanın anqobsuz və anqoblanmış iki növünə təsadüf olunur. Əvvəllər anqobdan gil qabların üzərindəki məsamələri örtmək və onun rəngini dəyişdirmək üçün istifadə olunurdusa, XII-XV yüzilliklərdə isə naxış vurmaq üçün astar kimi tətbiq edildi. Anqoblanmış saxsı qabların səthi birrəngli və ya çoxrəngli şirlə örtülürdü. Çoxrəngli şir bəzəkləri az olan qabların üzərinə, birrəngli şəffaf şir isə nisbətən zəngin naxışlı saxsı qablarda istifadə olunurdu. Saxsı qabların üzərində işlənmiş naxışlar boya, oyma, cızma və qabartma üsullarla işlənirdi. Oyma üsulu ilə daha çox ağız hissəsi kənarlara doğru açılmış qablar (nimçə, kasa və s.) bəzədilirdi [39, s.64-65].

Azərbaycanda saxsı məmulatlarının müxtəlif boyalarla naxışlanmasında əsasən 2 texniki üsul tətbiq edilmişdir:

1. Şirüstü boya.
2. Şiraltı boya.

Şiraltı boya birbaşa gil qabın üzərinə çəkilir, sonra isə şirə batırılaraq odda qızdırılırdı. Şirüstü boya şiraltı boyaya nisbətən az inkişaf etmişdi [37, s.21].

Xatırladaq ki, ağ rəngli şiraltı anqob Orta Asiyanın saxsı məmulatında da geniş tətbiq olunub. Ağ gilə müxtəlif tərkibli gil, adətən kvars qumu əlavə edilirdi. Şiraltı anqobun keyfiyyəti rənglə, işlənmənin xarakteri və dərəcəsi ilə müəyyən olunur. Göründüyü kimi anqobun növləri müxtəlif dövrlərə və müxtəlif yerlərə görə fərqlənir. Lakin anqobun bütün tarixində onun hazırlanmasının anqoblama vəzifəsi ilə bağlı olan əsas prinsipləri saxlanılır. Qırmızı, qara və açıq rəngli anqoblar bir tərəfdən keramika dəbi ilə, digər tərəfdən də hər bir rayonun xammal resursları ilə, anqobun keyfiyyəti isə bu və ya başqa dövrdə keramika sənətinin inkişaf səviyyəsi ilə bağlı olur [186, c.95-97].

Müxtəlif rəngli olmaqla şirli cızma xətlərlə naxışlanmış keramika nümunələri XII-XIII əsrin əvvəllərindən məlumdur.

Tədqiqatçı N.N.Nəcəfova bəhs olunan dövrdə Azərbaycan şirli keramikasının naxışlanmasında aşağıdakı üsulların tətbiq olunduğunu göstərmişdir:

1. Anqobla naxışlama, çox zaman saxsının rənglə boyanması;
2. Anqoblanmış saxsının cızma xətlərlə naxışlanması;
3. Cızma xətlərlə və üç rənglə naxışlanma;
4. Bənövşəyi rənglə oyma naxışlar;
5. Polixrom naxışlama;
6. Monoxrom siluet naxışlama;
7. Anqob səthin qazılıb təmizlənməsi, əlavə texniki üsullarsız sqraffito;
8. Anqob səthin qazılıb təmizlənməsi, oyma naxışlar və rəngli naxışlama, sqraffito;
9. Relyef bəzəklər;
10. Basma naxışlarla bəzədilmə;
11. Oyma naxışla bəzədilmə;
12. Şəbəkə bəzəklər, ümumilikdə xarakterik olmayan əsas üsullara əlavələr (məsələn, sonradan boyanmış relyef və basma naxışlar).

Qəbələnin şirli qablarının təhlili və öyrənilməsi zamanı qeyd olunan naxışlanma üsullarından dövrün ustalarının məharətlə istifadə etdiyini görmək olur. Diqqət çəkən əsas məqam qabların naxışlanması zamanı həm cizgilərin aydın təsvirinin verilməsi, həm də müxtəlif kombinasiyalaradan ustaların məharətlə faydalanmasıdır [177, c.92]. Mütəxəssislərin araşdırmalarına görə gil qabların kürədə bişirilmə temperaturu həmişə eyni dərəcədə olmur. Kürənin odluq hissəsinə, yəni alt kamerasına yaxın yerdə 1100-1200 dərəcə istilik olurdusa, kürənin üst kamerasında 800-850 dərəcədən yuxarı keçmirdi. Normal bişmə isə daha çox 950-1000 dərəcədə baş verirdi [147, c.157]. Tez-tez al rəngdə yaxşı bişməmiş bəzən də çox bişmiş nümunələrə rast gəlinir. Təsadüfi deyildir ki, Qəbələ tədqiqatları zamanı arxeoloji materiallar içərisində həm normal bişməyən, yaxud da yüksək temperatur altında bişərək ötmüş nümunələrə də tez-tez təsadüf olunur.

Maraqlıdır ki, naxışlanmış fayans qablar isə digər qablardan fərqi olaraq dulus kürəsində iki, yox üç dəfə bişirilir. Birinci mərhələ qabların hazırlanması zamanı 1250-1280 dərəcədə aparılır. İkinci mərhələdə şir çəkildikdən sonra qablar 1050-1150 dərəcədə bişirilir. Qablara təsvirlər işləndikdən sonra isə üçüncü mərhələdə 700-900 dərəcədə bişirilmə prosesi aparılır [202].

Azərbaycanın IX-XIII əsrlərə aid şirli saxsı məmulatı hazırlanma texnikası və bədii xüsusiyyətləri etibarı ilə A.L.Yakobson tərəfindən 12 qrupa bölünmüşdür. Bu təsnifatda şirli qabların parlaq və şəffaf qurğuşun şiri altında müxtəlif naxışlarla işlənməsi, anqob üzərində işlənmiş cızma naxışların çoxrəngli rəsmlərlə uzlaşması, yaxud uzlaşmaması və digər xarakterik cəhətlər əsas götürülmüşdür [195, c.228-302]. Daha sonra Q.M.Əhmədov da bu təsnifatı məqbul hesab etmişdir.

Maraqlıdır ki, uzun illər keçməsinə baxmayaraq ötən əsrin 50-ci illərində elmi ictimaiyyətə təqdim olunmuş bu təsnifata mütəxəssislər tərəfindən hələ də hansısa dəyişiklik və ya alternativ yanaşma olmamışdır. Halbuki, buna imkan da, zərurət də var. Birincisi, A.L.Yakobsonun təsnifatı kifayət qədər mürəkkəb və çətin qavranılandır. Təsnifat müəllifi materialı hansısa ümumi və oxşar əlamətlərinə görə qruplaşdırmaq əvəzinə, daha çox xırdalıqlar üzərində dayanmışdır.

İkincisi, A.L. Yakobson və Q.M. Əhmədovun təsnifatı konkret olaraq XI-XIII əsrlərin keramikasını deyil, nisbətən daha geniş xronoloji çərçivəni, yəni IX-XIII əsrləri əhatə edir. Nəticədə XI-XIII əsrlərin şirli keramikası on iki qrup halında təqdim olunub. Əslində bu cür yanaşma təsnifatdan daha çox, sadəcə ayrı-ayrı nümunələrin xarakterizəsi təsiri bağışlayır.

Üçüncüsü, həm A.L. Yakobson, həm də Q.M. Əhmədovun təsnifatı sırf Beyləqan materialları əsasında, həm də nə az, nə də çox düz 60 il bundan öncə işlənib. Təbiidir ki, ötən müddət ərzində Azərbaycanın çoxsaylı digər şəhərləri də arxeoloji cəhətdən tədqiq olunub və XI-XIII əsrlərə aid zəngin və rəngarəng çeşidli keramika kolleksiyası yaranıb. Hansı ki, bütün bu amillər nəzərə alınmaqla bəhs olunan dövrün keramikasının yenidən təsnif olunmasına ehtiyac var. Həm də fikrimizcə, bu işi məhz Qəbələ materialları əsasında həyata

keçirmək daha məqsədə uyğun olardı. Birincisi, Qəbələ şəhər yeri artıq yüz ilə yaxındır ki, arxeoloji cəhətdən tədqiq olunmaqdadır. Təbiidir ki, bu illər ərzində orada XI-XIII əsrlərə aid aşkar olunmuş zəngin və rəngarəng çeşidli keramika fondu yaranıb. Həmin tapıntıların analizi və təhlili nəticəsində daha doğru elmi nəticələrin hasil olunma ehtimalı da çox yüksəkdir.

İkincisi, Qəbələdə D.B.Şərifov, S.M.Qazıyev, İ.M.Cəfərzadə, R.M.Vahidov, Q.M.Əhmədov, İ.A.Babayev, Ö.Ş.İsmizadə, F.V.Qədirov, Q.C.Cəbiyev, C.T.Eminli, son illərdə isə həm də Koreya arxeoloqları müxtəlif vaxtlarda, həm də ayrı-ayrılıqda tədqiqat aparmışlar. Həmin tədqiqatçıların bəhs olunan dövrün keramika məmulatının, o cümlədən şirli keramikasının təsnifatına yanaşmasındakı oxşar və fərqli məqamların da mütləq şəkildə nəzərə alınması vacib amil hesab oluna bilər.

Xatırladaq ki, XII əsr və XIII əsrin əvvəllərinə aid Azərbaycanın şirli keramikası bədii-texniki bəzədilmə üsulları və sosial-iqtisadi amillərlə əlaqədar olaraq qonşu ölkələrin şirli keramikası ilə ornamental kompozisiya oxşarlığı baxımından yaxınlığı ilə yanaşı, orijinal bəzədilmə üsullarının spesifikliyi və onun tamamilə yeni növləri baxımından fərqlənir. Təsadüfi deyildir ki, şirli keramikanın diqqət çəkən növ müxtəlifliklərindən biri də XII əsr və XIII əsrin əvvəllərində yalnız Azərbaycan üçün səciyyəvi olan rezervasiya olunmuş naxışlarla bəzədilmiş məmulatlar üstünlük təşkil edir. Bunu nümunələrin təhlilindən aydın müşahidə etmək mümkündür [177, c.81].

Əgər XII əsr və XIII əsrin əvvəllərində çoxrəngli şirli qablar yüksək bədii zövqlə bəzədilmiş nümunələrlə təmsil olunurdusa, XIV əsrin II yarısında isə məmulatların naxışlanması primitiv və sadə olub. XII-XIII əsrin əvvəlinə aid sadə naxışlı monoxrom şirli keramika isə XIV əsrin sonu və XV əsrin əvvəllərində inkişaf edərək bütövlükdə Azərbaycanın qırmızı rəngli keramikasının bəzədilməsində əsas üsula çevrilmişdir [177, c.48].

Yuxarıda sadalanan amilləri nəzərə alaraq Qəbələnin XI-XIII əsrlər şirli keramikasının təsnifatını təqdim edirik:

1. Kasa və boşqab tipli qablar:
❖ Saya şirli qablar;
❖ Nəbati təsvirli qablar;
❖ Həndəsi təsvirli qablar;
❖ Antropomorf və zoomorf təsvirli qablar;
❖ Qarışıq təsvirli qablar;
2. Duz qabları.
3. Damğalı qablar.

## 2.2. Kasa və boşqab tipli qablar

Şirli saxsı məmulatı XI-XIII əsrin əvvəllərində təkcə Azərbaycan şəhərlərində deyil, hətta bütün Zaqafqaziyanın, Orta Asiyanın, Yaxın Şərqin, habelə Rusiyanın şəhərlərində sənətkarlığın aparıcı sahələrindən birinə çevrilmişdir. Cənubi Qafqazın qırmızı gildən hazırlanmış parlaq və rəngarəng şirli qabları, İranın fayansı, Çinin seladonu dəyərli sənət nümunələridir [41, s.59].

Tədqiqatçı N.İ.Rzayev *“Qədim dulusçu ustaların qabları hazırlayarkən onların gövdə kompozisiyasına xüsusi əhəmiyyət verdiklərini və sənətkarların predmetin funksional vəzifəsindən çıxış etdiklərini göstərmişdir”* [185, c.58].

Qəbələ şəhər yerinin Qala və Səlbir ərazilərində müxtəlif illərdə aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş şirli qabların böyük bir qrupunu kasa və boşqab tipli qablar təşkil edir. XI-XIII əsrlərin kasa və boşqab tipli qabları özündən əvvəlki və sonrakı dövrlərin anoloji nümunələri ilə müqayisədə həm bir sıra oxşar cəhətlərə, eyni zamanda həm də, fərqli əlamətlərə malikdir. Xatırladaq ki, hələlik arxeoloji ədəbiyyatda bu məsələyə demək olar ki, toxunulmayıb. Tapıntılar sadəcə ümumi şəkildə təsvir və təqdim olunub. Halbuki, ayrı-ayrı dövrlərin, o cümlədən XI-XIII əsrlərə aid kasa və boşqab tipli qabların əvvəlki və sonrakı dövrlərlə müqayisədə nəzərə çarpan fərqli əlamət və keyfiyyət göstəriciləri bütövlükdə həmin tapıntıların xronoloji çər-

çivəsini dəqiq müəyyən etməyə imkan verir. Fərqli əlamətlərə gəldikdə, məlum olduğu kimi IX-X əsrlərə aid kasa tipli qabların oturacağı yastı və düz formadadır. Bu səbəbdən də arxeoloji ədəbiyyatda onlar çox vaxt diskvari oturacağa malik qablar kimi təqdim olunur. XI-XIII əsrin qablarında isə diskvari oturacaq tədricən dabanlı oturacaqla əvəz olunur. Qabların bu cür oturacağa malik olması praktiki zərurətdən irəli gəlib. Belə ki, diskvari oturacaqlı qablar istifadə zamanı səthə tam olaraq yapışmaya bilərdi. Amma dabanlı oturacaqlı qablarda belə problem nisbətən daha az müşahidə oluna bilər.

XI-XIII əsrlərin kasa tipli qablarının sonrakı dövrün, yəni son orta əsrlərin kasa tipli qablarından necə fərqləndirmək olar? Professor Q.C.Cəbiyevin tədqiqatlarından bəlli olduğu kimi son orta əsrlərin kasa tipli qabları hündür dairəvi oturacağa (buna bəzən sağanaqvari oturacaq da deyirlər) malikdir [14]. Deməli, XIV əsrdən etibarən dabanlı oturacaqlar hündür dairəvi oturacaqla əvəz olunub. Nümunələrin hərtərəfli təhlili və dönə-dönə nəzərdən keçirilməsi nəticəsində kasa tipli şirli qabları üzərindəki təsvir müxtəlifliyi cəhətdən aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Saya şirli kasa tipli qablar.
2. Nəbati təsvirli kasa tipli qablar.
3. Həndəsi təsvirli kasa tipli qablar.
4. Antropomorf və zoomorf təsvirli kasa tipli qablar.
5. Qarışıq təsvirli kasa tipli qablar.

Azərbaycanın orta əsr şəhərlərinin görkəmli tədqiqatçısı, professor Q.M.Əhmədov IX-X əsrlərdə olduğu kimi XI-XIII əsrlərdə də şirli qabların kütləvi istehsalında əsas diqqətin aşxana və süfrə qablarına verildiyini göstərmişdir. Onlar da əsasən boşqab, kasa, dolça, badya, küpə, duzqabı və s. ən çox saya şirlənən kiçik həcmli qablardan ibarətdir [41, s.59].

## 2.2.1. Saya şirli qablar

Qəbələ şəhər yerindən aşkar olunmuş şirli kasaların bir qismini saya şirli kasa tipli qablar təşkil edir. Doğrudur, IX-X əsrlərlə müqayisədə XI-XIII əsrlər dövründə bu tip məmulatın istehsalı və məişətdə o qədər də geniş yer almadığı müşahidə olunur. Fikrimizcə, saya şirli kasa tipli qabların ümumiyyətlə, şirli qablar istehsal edilən bütün dövrlərdə mövcudluğu onların istehsalının texnoloji baxımdan daha sadə olması və cəmiyyətdə bu tip qablara sosial sifarişin hər zaman böyük olması ilə əlaqəlidir. Professor Q.C.Cəbiyev həmin qabların səthinə anqob astar çəkilib-çəkilməməsindən asılı olaraq iki qrupa, həmin qruplara aid olan nümunələrin isə cızma naxışlı və naxışsız olmalarına görə iki yarımqrupa ayrıldığını göstərir [14, s.90].

Xatırladaq ki, XI-XIII əsrlərdə saya, yəni monoxrom şirli kasa tipli qablar təkcə Qəbələdə deyil, Azərbaycanın digər orta əsr şəhərlərində də geniş istehsal olunub. Bakı, Gəncə, Şəmkir, Bərdə, Şamaxı, Şabran və Şəhərgah (Kürdəmir rayonu) materialları bunu təsdiq edir.

2008-ci il qazıntıları zamanı Qala ərazisindəki VI qazıntı sahəsindən tapılan və xronoloji baxımdan XIII əsrin sonuna aid edilən kasanın fraqmenti saya tipli qablara aid tipik nümunədir (Şəkil 2.2.1.1) [76, s.153].

Müqayisə və tədqiqatlar göstərir ki, anqob astarı olan saya şirli kasa tipli qabların şiri daha parlaq olması ilə diqqəti cəlb edir. Qəbələ ərazisindən aşkar olunmuş saya şirli kasa tipli nümunələrdə bu əlamət aydın müşahidə edilir. Məsələn, 2011-ci ildə Səlbir ərazisində aşkar olunan XI əsrə aid kasa fraqmenti (Şəkil 2.2.1.2) buna nümunə göstərilə bilər. Qabın hündürlüyü 4,5, oturacağının diametri isə 5,5 sm təşkil edir [75, s.212].

Qəbələ materiallarının çoxillik müşahidə, müqayisə və analizi göstərir ki, IX-X əsrlərdə olduğu kimi, XI-XIII əsrlərə aid tapıntılar içərisində də anqob astarı və cızma naxışı olmayan saya tipli şirli qablar tapıntılar içərisində nisbətən çoxluq təşkil edir. Bu da sözsüz ki, dulusçu ustaların hələ ki, çoxnövlü boyalardan istifadə təcrübəsi-

nin yetərincə olmaması ilə izah edilə bilər. Doğrudur dulusçu ustalar həmin dövrdə də artıq bir neçə boyadan istifadə edirdilər.

Tapıntılar içərisində mis, dəmir, kobalt və marqanes boyalardan istifadə olunduğuna aid nümunələr də var. Amma ilk vaxtlar bu boyalardan daha çox məhz saya qabları rəngləməklə kifayətləniblər. İnsanların zövqü və dulusçu ustaların peşəkarlığı artdıqca keramika məmulatının çeşid müxtəlifliyi və bədii-texniki səviyyəsi də inkişaf edib.

Yuxarıda qeyd olunduğu kimi XI-XIII əsrlərin saya şirli kasa tipli qablarını səciyyələndirən daha çox onların oturacaq hissəsinin forması və ölçüləridir. Onlardan daha bir neçə xarakterik nümunəni təqdim edirik:

Qala ərazisində aşkar olunmuş saya şirli kasa nümunəsi (Şəkil 2.2.1.3) xronoloji baxımdan XI əsrə aiddir. Qabın oturacağının diametri 9, ağzının diametri 15, hündürlüyü isə 6 sm təşkil edir [75, s.246].

Dabanlı oturacağa malik digər bir saya şirli kasa nümunəsi isə (Şəkil 2.2.1.5) dövr etibarilə XIII əsrə aiddir. Ağzının diametri 28, oturacağının diametri 10,5, hündürlüyü isə 10 sm təşkil edir [75, s.296].

Saya şirli kasa nümunələri içərisində nisbətən daha böyük həcmli nümunələrə də rast gəlinir (Şəkil 2.2.1.4). Dövr etibarilə XIII əsrə aid olan şirli kasa nümunəsinin ağzının diametri 19 sm təşkil edir [75, s.293].

631 saylı qab: Səlbir ərazisində 2013-cü ildə aparılmış qazıntılar zamanı müəyyən olunmuş bu qab X-XI əsrə aid olmaqla, onun hündürlüyü 7, oturacağının diametri isə 9,2 sm-dir (Şəkil 2.2.1.6) [72, s.235]. Göründüyü kimi şirli kasa nümunəsi dabanlı oturacağa malikdir.

624 saylı qab: Xronoloji cəhətdən XI əsrin ortalarına aid olan dabanlı oturacağa malik saya şirli kasa nümunəsi də Səlbir ərazisindən 2013-cü ildə aşkar olunub (Şəkil 2.2.1.7). Kasanın hündürlüyü 6,5, oturacağının diametri 7,8, ağzının diametri isə 21 sm-dir [72, s.243]. Bu şirli kasa nümunəsi tünd yaşıl rəngdə olmaqla qabın şirinin rənglənməsində mis oksidindən istifadə olunmuşdur. Qab usta tərəfindən mükəmməl və səliqəli şirlənmişdir.

153 saylı qab: Dabanlı oturacağa malik saya şirli kasa nümunəsi 2013-cü ildə Qala ərazisində aparılmış arxeoloji qazıntılar zamanı yarımsalamat vəziyyətdə tapılıb və dövr etibarilə XI əsrə aiddir (Şəkil 2.2.1.8). Qabın oturacağının diametri 12, ağzının diametri 30, hündürlüyü isə 14 sm-dir [72, s.255]. Daxili səthi tünd yaşıl rəngdə olmaqla səliqəli şirlənib. Bu kasa nümunəsinin oturacağı yastı dabanlı olması ilə diqqəti cəlb edir. Fikrimizcə, bu nümunə diskvari oturacaqdan dabanlı oturacağa keçidi əks etdirən nümunə kimi xarakterizə oluna bilər.

IX-X əsr materiallarından fərqli olaraq, XII-XIII əsrlərdə cızma üsulu ilə daha çox saya şirli qablara naxış vurulub. Naxışlar həndəsi və nəbati təsvirli olmuş, eyni zamanda cızma üsulu ilə işlənmiş naxışların getdikcə daha çox sadələşdiyi diqqət çəkir. Böyük saxsı qablarda işlənmiş cızma xətlər dərin və enli, kiçik tutumlu qablarda isə nazik və incə olur [3,c.6,s.391]. Səlbir ərazisindən bir neçə anoloji saya şirli kasa tipli nümunələr aşkar olunub. Təqdim olunan belə şirli kasa nümunələrindən birinin (Şəkil 2.2.1.9) divarının qalınlığı 1,3 sm, digərinin (Şəkil 2.2.1.10) isə hündürlüyü 6,5, ağzının diametri 18,5, oturacağının diametri isə 7,5 sm-dir [75, s.215].

Göründüyü kimi saya şirli kasa tipli qab nümunələri XI-XIII əsrlər dövründə kifayət qədər çox istehsal edilib. Deməli, bu tip məmulata tələbat böyük olmuşdur.

## 2.2.2. Nəbati təsvirli qablar

Qədim Qəbələ şəhər yerində aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş şirli saxsı məmulatının bir qrupu nəbati təsvirli kasa və boşqab tipli qablardan ibarətdir. Bu nümunələrin üzərinə təbiəti tərənnüm edən təsvirlərin işlənilməsi əlbəttə ki, dövrün ustalarından böyük məharət və bədii zövq tələb edirdi. Tapılmış nümunələrdə müxtəlif gül və digər təbiət mənzərələrini xatırladan təsvirlərdən ustalıqla istifadə olunub. Bu da XI-XIII əsrlərdə Qəbələ ustalarının şirli qabların hazırlanmasında, o cümlədən onların üzərinə o qə-

dər də sadə və asan olmayan nəbati təsvirlərin işlənilməsində peşəkar olduqlarını deməyə əsas verməklə yanaşı, eyni zamanda onların təbiətə olan sevgisindən də xəbər verir.

Nəbati təsvirli kasa və boşqab tipli qabların çeşidlərinə nəzər saldıqda üzərində daha çox gül təsviri verilmiş qabların çoxluq təşkil etməsi məlum olur. Qala ərazisində 2008-ci ildə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş şirli kasa parçaları XIII əsrə aiddir (Şəkil 2.2.2.1). Qabın üzərində müxtəlif rəng çalarlarından istifadə olunmaqla gül təsvirləri verilmiş, daxili səthinin kənarlarında da həmçinin, gül təsvirləri var [76, s.148]. Qala ərazisində aşkar olunmuş digər bir dayaz kasa nümunəsi də xronoloji baxımdan XIII əsrə aiddir (Şəkil 2.2.2.2) [76, s.161]. Qabın daxili səthi yaşıl, tünd qəhvəyi və sarı rəng çalarlarından istifadə olunmaqla gül təsviri ilə bəzədilib.

Gül təsviri verilmiş kasa tipli qablarda eyni zamanda təsvirlər şirlənmə rənglərinə və formalarına görə bir-birindən fərqlənirlər (Şəkil 2.2.2.3; 2.2.2.4; 2.2.2.5). Nümunələrin birində (Şəkil 2.2.2.3) kasanın daxili səthinə anqob astar vurulmuş, daxili səthin orta hissəsinə yaşıl və tünd qəhvəyi rənglərdən istifadə olunmaqla gül təsviri verilmişdir [76, s.180]. Digər nümunədə də (Şəkil 2.2.2.4) qab müxtəlif rənglə şirlənməsi ilə fərqlənir [76, s.181]. Dövr etibarilə XIII əsrə aid edilən digər bir kiçik şirli kasa fraqmentində (Şəkil 2.2.2.5) verilmiş gül təsviri qabın daxili səthinin dibinə işlənib [76, s.193].

Qəbələdə aparılmış arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş nümunələr içərisində bir-birinə oxşar olan nəbati təsvirli şirli kasa nümunələrinə tez-tez rast gəlinib. Məsələn, təqdim olunan iki nümunə (Şəkil 2.2.2.6; 2.2.2.10) xronoloji baxımdan müxtəlif dövrlərə aid edilir. Hər iki nümunədə kasanın daxili səthinin mərkəzində eyni rənglə şirlənmiş gül təsvir edilmişdir. Nümunələrin hər ikisi Qala ərazisində aşkar olunsa da, onlardan biri (Şəkil 2.2.2.6) dövr etibarilə XIII əsrə [76, s.205], digəri (Şəkil 2.2.2.10) isə XI əsrə aiddir [75, s.247].

Qala ərazisində 2009-cu il qazıntıları zamanı aşkar olunmuş digər bir şirli kasa parçası dövr etibarilə XIII-XIV əsrlərə aiddir (Şəkil 2.2.2.7). Qab zəngin nəbati elementlərdən istifadə olunmaqla bəzə-

dilmişdir. Bu zaman qəhvəyi, yaşıl və sarı rəngli şirlərdən istifadə edilib [76, s.211].

Nəbati təsvirli kasa tipli şirli qab nümunələri içərisində anqob naxışlı, daha mükəməl şirlənmiş qablara daha çox rast gəlinib. Təqdim olunan (Şəkil 2.2.2.9) anqob naxışlı şirli kasa fraqmenti xronoloji cəhətdən XI əsrə aid olmaqla Qala ərazisindən aşkar olunub. Fraqmentə əsasən müəyyən olunmuşdur ki, qabın ağzının hündürlüyü 22 sm təşkil edir. Bu da həmin kasanın nisbətən daha iri həcmli olmasını göstərir. Qabın içərisində mərkəzdən kənarlara doğru gül təsvirini xatırladan şırımlar çəkilmişdir. Digər bir nümunəyə nəzər salsaq, (Şəkil 2.2.2.8) bu şirli kasa fraqmenti fərqli naxışlanması və şirlənməsi ilə seçilir. Kasanın içəri səthinə sarı rəngli şirlə naxış çəkilmiş, naxışın içərisi isə qara nöqtələrlə bəzədilmişdir. Qabın oturacağının diametri 24 sm olmaqla, dövr etibarilə XI əsrə aiddir [198, p.130].

640 saylı qab: Səlbir ərazisindən bəlli olan və dövr etibarilə X əsrin sonu, XI əsrin əvvəllərinə aid edilən bu nümunənin hündürlüyü 6,8, oturacağının diametri 7,5, gövdəsinin diametri 14, ağzının diametri isə 18 sm-dir (Şəkil 2.2.2.13) [72, s.238]. Kasanın daxili səthi gül təsvirləri ilə şirlənmiş, kənarları isə qara nöqtələr əlavə olunmaqla naxışlanıb.

128 saylı qab: Bu şirli kasa nümunəsi xronoloji baxımdan XI əsrə aid olmaqla Qala ərazisində müəyyən olunub. Oturacağının diametri 3,8, ağzının diametri isə 8,2 sm təşkil edir (Şəkil 2.2.2.14) [72, s.254]. Kasa nümunəsinin daxili səthi daha mükəmməl şirlənmiş və naxışlanmışdır.

87 saylı qab: Qala ərazisində məlum olan və dövr etibarilə XI-XII əsrə aid olan bu şirli kasanın oturacağının diametri 3,3, ağzının diametri 8, hündürlüyü isə 2,5 sm təşkil edir (Şəkil 2.2.2.15) [72, s.259]. Təqdim olunan **ş**irli kasa nümunəsinin digər nümunələrdən fərqli olaraq daxili səthi daha zəngin və müxtəlif rəng çalarlarından istifadə olunmaqla gül təsvirləri ilə, qabın kənarları isə dairəvi zolaq formasında şirlənmişdir.

Nəbati təsvirli şirli kasa nümunələri eyni zamanda parlaq və çeşidli şirlənməsi ilə daha çox diqqəti cəlb edir. Bu tip qablara aid

daha bir nümunə (Şəkil 2.2.2.11) Qala ərazisindən aşkar olunub və xronoloji cəhətdən XI-XIII əsrlərə aiddir. Qabın oturacağının diametri 10 sm təşkil edir [75, s.257]. Bu nümunə daxili səthi gülə bənzəyən naxışlarla və müxtəlif rənglərin kombinasiyalarından istifadə olunmaqla şirlənib və dabanlı oturacağa malik şirli kasanın fraqmentidir. Dövr etibarilə XII-XIII əsrə aid olan və oturacağının diametri 10 sm təşkil edən digər bir şirli kasa fraqmenti (Şəkil 2.2.2.12) də gül təsviri ilə şirlənməklə anoloji xarakterik əlamətlərə malikdir [75, s.274]. Həmin ərazidə 2013-cü ildə aparılmış qazıntılar zamanı müəyyən olunmuş nəbati təsvirli şirli kasa nümunəsinin daxili səthinə qabın divarını əhatə etməklə və müxtəlif rəng kombinasiyalarından istifadə olunmaqla gül təsvirləri işlənib (Şəkil 2.2.2.16). Qabın oturacağının diametri 4, ağzının diametri isə 26 sm-dir [72, s.255].

Arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə Qala ərazisində V qazıntı sahəsində aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş şirli saxsı qab fraqmentləri içərisində kasa tipli şirli qablara aid nümunələr də müəyyən olunub [85, s.12].

Qəbələdən aşkar olunmuş XI-XIII əsrlərə aid şirli saxsı qablar içərisində boşqab tipli şirli qablar çoxluq təşkil edir. Boşqab tipli qablar texniki və texnoloji cəhətdən yüksək keyfiyyətlə hazırlanması, zəngin naxışlanması və şirlənməsi ilə seçilir. Xatırladaq ki, Qəbələ şəhər yerindən aşkar olunmuş şirli boşqab nümunələri Gəncə, Şəmkir, Şabran, Şamaxı, və Beyləqan materiallarından demək olar ki, fərqlənmir.

Professor Q.M.Əhmədov Beyləqan qazıntıları zamanı aşkar olunmuş nümunələrə əsasən boşqab tipli qabların nisbətən dayaz, divarlarının isə yanlara doğru daha açıq olmasını göstərmişdir [41, s.32]. Eyni əlamətlər Qəbələnin XI-XIII əsrlərə aid boşqab tipli qablarına da aiddir. Kasa tipli qablar kimi boşqab tipli qabların da bədii cəhətdən bəzədilməsində həndəsi, nəbati motivlərdən, onların qarışığından, habelə antropomorf və zoomorf təsvirlərdən geniş istifadə olunub. Diqqəti cəlb edən cəhətlərdən biri də boşqab nümunələri içərisində saya şirli nümunələrə hələlik rast gəlinməməsidir.

Xüsusən də Qəbələdən aşkar olunmuş boşqab nümunələri ilə İçərişəhərdə aparılan qazıntılar zamanı tapılan anoloji nümunələrlə

oxşarlıq çoxdur. Məsələn, 1966-cı ildə arxeoloq Ö.Ş. İsmizadənin rəhbərliyi ilə İçərişəhərdə Böyük qala küçəsində aparılmış arxeoloji tədqiqatlar zamanı ikinci mədəni təbəqədən çoxlu sayda küpə, qazan, cam, çıraq və digər şirsiz qablarla yanaşı, daxili səthinə zəngin həndəsi, nəbati, quş və digər heyvan təsvirləri işlənmiş XII əsr və ondan sonrakı dövrə aid boşqab nümunələri də aşkar olunmuşdur [163, c.182-183].

Maraqlıdır ki, Qəbələdən aşkar olunmuş şirli kasa nümunələri kimi şirli boşqab nümunələri içərisində də nəbati təsvirli qablar çoxluq təşkil edir. Məsələn, 2010-cu ildə Səlbir ərazisində aparılan qazıntılar zamanı aşkar olunan nəbati təsvirli şirli boşqab fraqmenti dövr etibarilə XI əsrə aiddir (Şəkil 2.2.2.17) [76, s.115]. Qabın daxili səthində gül təsviri verilmiş və mükəmməl şirlənmişdir.

Nəbati təsvirli şirli boşqablara nəzər salsaq, onların üzərində verilmiş təsvirlər içərisində gül təsvirləri çoxluq təşkil edir. Hansı ki, gül təsvirlərinin qabların üzərində işlənməsi dulusçu ustalardan xüsusi bacarıq tələb edirdi.

Professor Q.M.Əhmədov şirli qabların naxışlanması haqqında göstərmişdir ki, *“Bu qrup qablar üçün xarakterik əlamət naxışın fonunun daha geniş yer tutmasıdır. Qabın dibindən ağzına doğru günəş şüaları və yarpaq şəklində uzanan nazik və enli zolaqlar, konsentrik dairələr, nəbati, həndəsi və buta şəkilləri bu qabların xarakterik naxışlarıdır”* [41, s.33]. Qeyd olunan bu xarakterik xüsusiyyətlər Qəbələnin boşqab tipli şirli qablarına da aiddir.

2009-cu il qazıntıları zamanı Qala ərazisindən müəyyən olunmuş şirli boşqab parçası dövr etibarilə XII-XIII əsrlərə aiddir (Şəkil 2.2.2.18) [76, s.180]. Qabın daxili səthi parlaq boya ilə şirlənmiş və gül təsvirləri verilməklə naxışlanmışdır.

Səlbir ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş dabanlı oturacaqlı (Şəkil 2.2.2.19) boşqabın hündürlüyü 9,5, oturacağının diametri 10,5, ağzının diametri isə 27 sm təşkil edir [75, s.211]. Qabın daxili səthi nəbati təsvirlərlə naxışlanmışdır. Qala ərazisindən müəyyən olunmuş digər bir nəbati təsvirli boşqab fraqmenti (Şəkil 2.2.2.20) dövr etibarilə XI-XII əsrlərə aiddir.

Oturacağının diametri 9 sm, mövcud hissəsinin diametri isə 23 sm təşkil edir [75, s.252]. Qabın daxili səthinin dibində gül təsviri verilmiş, təsvirin ətrafına dairəvi formalı cızıqlar çəkilmiş, ardıcıl olaraq mərkəzdənqaçan şüalar fonunda və bir-birinə paralel dalğavari xətlər işlənmişdir.

Nəbati təsvirli şirli boşqab nümunələri içərisində yarpaq təsvirli qablar da çoxluq təşkil edir. Qala ərazisində 2013-cü il qazıntıları zamanı aşkar olunmuş şirli boşqab fraqmenti xronoloji baxımdan XI əsrə aiddir (Şəkil 2.2.2.21). Oturacağının diametri 4,4 sm təşkil edir [72, s.256]. Qabın daxili səthinin dibinə kiçik dairə cızılmış, dairədən kənarlara doğru isə yaşıl və qəhvəyi rəngli yarpaq təsvirləri işlənmişdir.

Keramika nümunələrinin üzərinə vurulmuş bəzəklərlə bağlı tədqiqatçı N.N.Nəcəfova göstərmişdir ki, X əsrin əvvəlində anqob üzərində qravür texnikası meydana gəlmiş, XI əsrdən qravür bəzəyi polixrom şiraltı təsvirlə birləşmişdir. XII-XV əsrlərdə Azərbaycan keramikasının bədii dekoru inkişaf etmişdir ki, bu da Azərbaycanın və Yaxın Şərqin keramika mərkəzlərində əldə edilmiş əvvəlki dövrlərin nailiyyətləri əsasında baş verib [177, c.7].

## 2.2.3. Həndəsi təsvirli qablar

Qəbələnin XI-XIII əsrlərə aid şirli kasa və boşqab tipli qabların bir qrupu da həndəsi təsvirli nümunələrdən ibarətdir. Bu nümunələrin üzərində verilmiş həndəsi təsvirlər daha çox bir-birinə paralel və ya perpendikulyar xətlər formasında özünü göstərir. Əlbəttə hər bir dulusçu ustanın işləmiş olduğu həndəsi təsvirlər sadəcə nizamsız xətlər və fiqurlar toplusu deyildir. Onların hər birində sözsüz ki, uyğunluq və məna gözlənirdi. Bu tipdən olan həndəsi təsvirli şirli kasa və boşqab nümunələrinin bir neçəsini təqdim etməklə onların əsas xarakterik xüsusiyyətlərini müəyyən edə bilərik.

2009-cu ildə Qala ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş şirli kasa parçası (Şəkil 2.2.3.1) dövr etibarilə

XII əsrə aiddir [76, s.183]. Dabanlı oturacağa malikdir. Üzərində bir-birinə paralel və perpendikulyar olmaqla tünd qəhvəyi rəngli şirlə cızma xətlər çəkilib. Bununla da kasanın üzərində kvadrat formalı təsvir alınmışdır. XI-XII əsrlərə aid olan və Qala ərazisindən aşkar olunmuş digər bir şirli kasa parçasının (Şəkil 2.2.3.2) üzərində də həndəsi təsvirlər verilib [76, s.205]. Belə ki, qabın mərkəzindən kənarlara doğru bir-birinə paralel olmaqla yaşıl, ağ və tünd qəhvəyi rəngli qalın və nazik xətlər çəkilməklə şirlənib.

XIII əsrə aid başqa bir nümunə (Şəkil 2.2.3.3) Qala ərazisindən aşkar olunub [76, s.212]. Dabanlı oturacağı olan qabın daxili səthinə anqob ləkələr və qalın ziqzaqvari xətlərlə tünd qəhvəyi və qara rəngli fiqur çəkilib. Fiqurun tinlərinə isə yaşıl rənglə nöqtələr işlənib.

Səlbir ərazisində aparılmış arxeoloji qazıntılar zamanı da həndəsi təsvirli nümunələrə təsadüf olunub (Şəkil 2.2.3.4). Belə nümunələrdən biri şirli kasa fraqmentidir və dövr etibarilə X-XI əsrlərə aiddir. Qabın oturacağının diametri 10, divarının qalınlığı isə 0,7 sm təşkil edir [75, s.213]. Kasanın daxili səthi müxtəlif rəng kombinasiyalarından istifadə olunmaqla dördbucaqlı, beşbucaqlı və çarpaz xətlər çəkilməklə şirlənib və naxışlanıb.

Səlbir ərazisində aşkar olunmuş digər bir şirli kasa fraqmentinə (Şəkil 2.2.3.5) əsasən həmin kasanın oturacağının hündürlüyünün 2,5, oturacağının diametrinin isə 8,9 sm olması müəyyən olunub. Nümunə dövr etibarilə X-XI əsrlərə aiddir [75, s.213]. Anqoblandıqdan sonra qabın daxili səthinə sarı rəngli şirlə bir-birinə paralel və kəsişən xətlərdən ibarət təsvirlər işlənib.

Qala ərazisində 2019-cu ildə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş digər nümunələrlə yanaşı, 3 ədəd həndəsi təsvirli kasa tipli qab naxışlanmasına görə diqqət çəkir. Təqdim olunan iri şirli kasa nümunəsi XIII-XIV əsrlərə aiddir (Şəkil 2.2.3.9, inv.№ 2). Qabın daxili səthi anqob astar üzərindən göyümtül rənglə bütövlükdə qarışıq həndəsi naxışlarla işlənib. Oturacağının diametri 8, qabın içəriyə hamarlanan ağzının diametri isə 22 sm-dir. Digər həndəsi təsvirli şirli kasa tipli qabın (Şəkil 2.2.3.10, inv.№ 92, (Qəbələ Arxeoloji Ekspedisiyası 2019: Hesabatlar, Tapıntılar. – Bakı: CBS Nəşriyyatı,

– 2021. – s.148) mərkəzini gövdəsindən marqansla səliqəsiz cızılmış dairə ayırır. Dairənin içərisində, qabın mərkəzində bir-birini tamamlayan açıq qəhvəyi və sarımtıl rənglərlə cızma üsulu ilə dörd üçbucaq çəkilib. İri üçbucaqların arasında tünd qəhvəyi rənglə cızılmış üçbucaqlar var. Dairənin kənarı boyunca isə açıq marqans və yaşıl rənglə müxtəlif ölçülü dairələr və üçbucaqlar cızılıb. Qabın ağzının diametri 18, nisbətən hündür dairəvi oturacağının diametri isə 6 sm-dir. Gili qırmızımtıl və nisbətən qatışıqlıdır. Həmin nümunələrdən üçüncüsünün isə daxili səthinə ağ anqob təbəqə çəkilib (Şəkil 2.2.3.11, inv.№ 94, Qəbələ Arxeoloji Ekspedisiyası 2019: Hesabatlar, Tapıntılar. – Bakı: CBS Nəşriyyatı, – 2021. – s.149). Mərkəzdən qabın kənarı boyunca yaşımtıl və qəhvəyi rənglərlə enli və ensiz şüavari xətlər cızılıb. Qabın ağzının diametri 14, dairəvi oturacağının diametri isə 6 sm-dir. Qabın xarici səthində anqob təbəqə onun ağzının kənarı boyunca axıb. Gili qırmızımtıl, tərkibi nisbətən qatışıqlıdır. XI əsrə aid digər şirli kasa fraqmentləri də daxili səthinin şirlənməsinə görə diqqəti cəlb edir (Şəkil 2.2.3.6; 2.2.3.7). Oturacağının diametri 6, hündürlüyü isə 4,5 sm olan bu nümunələrin daxili səthinə yaşıl rəngli şirlə içərisində nöqtə qoyulmuş üçbucaq təsviri, onun kənarına isə qabın daxili səthi boyu dairəvi zolaq çəkilmişdir [75, s.246].

Digər bir kiçik kasa tipli şirli qabın oturacaq hissəsindən ibarət olan nümunə dövr etibarilə XI-XII əsrlərə aiddir (Şəkil 2.2.3.8). Oturacağının diametri 5 sm təşkil edir [75, s.254]. Qabın daxili səthində yaşıl və tünd qəhvəyi rəngli şirlə mərkəzdən qaçan şüalar əks olunub.

Xatırladaq ki, müxtəlif həndəsi və ya qrafik naxışlar işlənmiş şirli qablara XI-XIII əsrlərdə Azərbaycanla yanaşı, Gürcüstan, İran, Orta Asiya, Volqaboyu, Qara dənizin şimalı və digər ərazilərdə də çox rast gəlinir [32, s.164].

Maraqlıdır ki, arxeoloq F.V.Qədirov tərəfindən 1964-cü ildə Qəbələ şəhər xarabalığından 8 km cənubda yerləşən Pirəşərif abidəsində arxeoloji qazıntılar aparılarkən şirli qablara aid nümunələr də aşkar olunub. Aşkar olunan cam tipli şirli qabın kənar hissəsindən ibarət olan fraqment şirlənməzdən əvvəl düz xətlərdən ibarət olmaqla cızma üsulu ilə naxışlanmış, həmin düz xətlərin arası isə açıq, tünd

yaşıl və şabalıdı rəngli boyalarla səliqəsiz şirlənib. Belə şirli qab nümunələri Qəbələnin X-XIV əsr təbəqələrindən daha çox aşkar olunmuşdur [90,s.205-206].

Təqdim olunan nümunələrdən göründüyü kimi Qəbələnin XI-XIII əsrlərə aid həndəsi təsvirli kasa tipli qabları texniki və texnoloji cəhətdən digər kasa tiplərindən yalnız bədii cəhətdən işlənməsi ilə fərqlənir. Digər parametrləri isə eynidir.

Qəbələ şəhər yerindən müəyyən olunmuş XI-XIII əsrlərə aid şirli boşqab nümunələrinin də bir qismi həndəsi təsvirli qablardan ibarətdir. Həndəsi təsvirli boşqablar həm təsvirin dəqiqliyi və mükəmməlliyi, həm də yaxşı şirlənməsi ilə seçilir. Bu dulusçu ustaların müəyyən riyazi təsəvvürlərə malik olmaqla yanaşı, şirli qabların üzərində həmin təsvirlərin işlənilməsində də xüsusi bacarığa malik olduğunu göstərir.

F.V.Qədirovun rəhbərliyi ilə 1975-ci ildə Səlbirdə VII qazıntı sahəsində aparılan tədqiqatlar zamanı forma etibarilə boşqablara bənzəyən şirli gil qablara aid fraqmentlər aşkar olunub. Həmin qablar çoxrəngli olmaqla üç növə ayrılır. Birinci növ qablar qrafik naxışlıdır. Dayaz boşqablara oxşayan bu qabların hündürlüyü 1-1,5 sm olmaqla, ağızları kənarlara doğru qatlanıb və dabanlı oturacağa malikdirlər [86, s.7-8].

Bəzi nümunələr əsasında fikrimizi əsaslandırmaq istərdik: Məsələn, Qala ərazisində aparılmış qazıntılar zamanı aşkar olunmuş həndəsi təsvirli boşqab fraqmenti dövr etibarilə XI-XII əsrlərə aiddir (Şəkil 2.2.3.12). Oturacağının diametri 9, ağzının diametri 18, hündürlüyü isə 7 sm-dir [75, s.252]. Boşqabın daxili səthi anqoblanmış, üzəri həndəsi təsvirlərlə işlənmişdir. Qabın daxili səthinin dibinə kiçik dairə cızılmış, dairədən kənarlara doğru qabın yan tərəflərini əhatə edən üçbucaq formalı fiqur təsvirləri verilməklə naxışlanmışdır.

Həmin ərazidən aşkar olunmuş və dövr etibarilə XII-XIII əsrlərə aid olan iki ədəd həndəsi təsvirli şirli boşqab fraqmenti də diqqət çəkir. Onlardan birinin (Şəkil 2.2.3.13) üzərində ərəb qrafikalı yazı var. Mütəxəssislər həmin yazının "Quran" ayələrindən bir parça olduğunu düşünürlər. Fraqmentdən göründüyü kimi qabın daxili səthi-

nə anqob astar üzərindən konsentrik xətlər arasında iri dalğalı xətlər çəkilib, qabın daxili səthi isə yaşıl rəngli boyadan istifadə olunmaqla şirlənmişdir. Digərinin isə (Şəkil 2.2.3.14) daxili səthi təsvirdən əvvəl rəngsiz (şəffaf) şirlə şirlənmiş, şirin üzərindən beşbucaqlı formasında həndəsi təsvirlər verilməklə naxışlanmışdır [75, s.280]. Qala ərazisində 2019-cu ildə aparılmış arxeoloji qazıntılar zamanı XI-XIII əsrlərə aid də bir neçə həndəsi təsvirli boşqablar aşkar olunmuşdur. Təqdim olunan boşqabın (Şəkil 2.2.3.16, inv. № 93, Qəbələ Arxeoloji Ekspedisiyası 2019: Hesabatlar, Tapıntılar. –Bakı: CBS Nəşriyyatı, – 2021. – s.149) daxili səthinə çəkilmiş ağ anqob təbəqə üzərindən onun ağzının kənarı boyunca bir-birinə paralel və perpendikuliyar olan xətlər cızılıb. Xətlərin əmələ gətirdiyi üçbucaqların içərisində yaşıl və qəhvəyi rənglərlə iri dairələr çəkilib, dairələrin içərisi isə tünd qəhvəyi rənglə doldurulub. Qabın ağzının kənarı çölə doğru hamarlanıb və yayğın qəhvəyi rəng çəkilib. Onun ağzının diametri 23 sm, dairəvi oturacağının diametri 7,5 sm-dir. Gili qırmızımtıl və narın qum qatışıqlıdır. Digər boşqab nümunəsinin (Şəkil 2.2.3.17, inv.№ 95, Qəbələ Arxeoloji Ekspedisiyası 2019: Hesabatlar, Tapıntılar. –Bakı: CBS Nəşriyyatı, – 2021. – s.149) daxilində qəhvəyi rənglə bir-birinə paralel və perpendikuliyar cızılmış xətlər üçbucaqlar əmələ gətirib. Üçbucaqların daxilinə isə yaşıl və qəhvəyi rənglə dairələr cızılıb. Qabın ağzının kənarı çölə doğru hamarlanıb. Qabın ağzı ilə çiynini qəhvəyi rənglə cızılmış üç dairəvi xətt ayırır. Qala ərazisindən aşkar olunmuş həndəsi təsvirli boşqab tipli iri şirli qablara aid fraqmentlər dövr etibarilə daha çox XIII-XIV əsrlərə aiddir (Şəkil 2.2.3.15). Nümunənin enli hissəsinin diametri 5 sm təşkil edir [75, s.299]. Qabın daxili səthi müxtəlif həndəsi formalı təsvirlər verilməklə mükəmməl naxışlanıb, təsvirlər bir-biri ilə uzlaşdığı üçün qaba daha yaxşı görünüş verir.

Bu qabların oxşarına Bakı, Şamaxı və Örənqalanın XI-XIII əsrlərə aid olan mədəni təbəqələrində də rast gəlinir. Məsələn, 1968-ci ildə H.Ə.Ciddi tərəfindən Şamaxıda Cümə məscidinin yaxınlığında yerləşən I qazıntı sahəsində arxeoloji qazıntılar aparılarkən II mədəni təbəqədən XI-XIII əsrlərə aid zəngin saxsı məmulatı aşkar olunmuş-

dur. Həmin saxsı məmulatı içərisində şirsiz qablarla yanaşı, şirli qablara aid nümunələr də çoxluq təşkil edir. Xüsusilə, bir neçə rəng kombinasiyalarından istifadə olunmaqla boyanmış, qrafik, yaxud həndəsi təsvirlərlə bəzədilmiş şirli qablar bunların bariz nümunəsidir. Arxeoloq H.Ə.Ciddi qabların üzərindəki həndəsi təsvirlərin dəqiq və simmetrik işlənildiyini, bunun həm də rəssamlığın inkişaf səviyyəsini göstərdiyini bildirmişdir [28, s.208-209; s.214].

Xatırladaq ki, həm qabların şirlənməsi, həm də onların üzərində həndəsi və ya digər təsvirlərin verilməsi hər bir dövrün müəyyən zövq və tələbatlarından irəli gəlir. Professor Q.M.Əhmədov göstərirdi ki, "*Qabın səthini hissələrə ayırıb, hər hissənin ayrılıqda işlənməsi hallarına tez tez təsadüf olunur. Mərkəzdən yanlara doğru genişlənən naxışlar qabı canlandırsa da, qabı düz həndəsi xətlərlə hissələrə ayırmaq onun dairəvi quruluşu ilə uzlaşmır*" [41, s.33]. Xatırladaq ki, tədqiqatçı A.L.Yakobson belə naxışların saxsı məmulatına incəsənətin digər növü olan tikmə sənətindən keçdiyini bildirir [195, c.239]. Şübhəsiz burada xalçaçılıq sənətinin də təsiri danılmazdır.

## 2.2.4. Antropomorf və zoomorf təsvirli qablar

Qəbələdən aşkar olunmuş XI-XIII əsrlərə aid şirli kasa və boşqab nümunələri içərisində az miqdarda olsa da antropomorf və zoomorf təsvirli nümunələrə də tez-tez təsadüf olunur.

İnsanların əbədi həyata baxışının ifadələrindən olan animizm, totemizm, fetişizm kimi ibtidai dini təsəvvürlər, o cümlədən onun qalıqları, demək olar ki, tarixi inkişafın bütün mərhələlərində müxtəlif səviyyədə özünü büruzə vermişdir. Onlardan biri də həyatın, həyatdakı müxtəlif hadisələrin, mifik təsəvvürlərin zoomorf obrazlarla ifadəsidir. Tədqiqatçılar totemizmi zoolatriyanın daha qədim forması olmaqla zoomorf əşyaların əsasını təşkil etdiyini göstərirlər. Orta əsrlər dövrünə aid zoomorf əşyaların Azərbaycan xalqının təfəkküründə, məişətində tutduğu yeri müəyyənləşdirmək üçün onların tarixi

baxımdan nə kimi məna və məzmun kəsb etdiklərinə nəzər salmaq lazımdır [1, s.65-66].

Tədqiqatçı F.Ə.Abbasova Azərbaycanın orta əsr zoomorf əşyalarını tədqiq etmiş və əşyaları iki qrupda cəmləşdirib:

1. Ev heyvanları təsvir olunmuş əşyalar.

2. Vəhşi heyvanların təsvirləri.

Hər iki növ təsvirlərdə iki mühüm cəhət mövcud olmuşdur. Yəni istər ev, istər vəhşi heyvan təsvirlərində real obrazlarla yanaşı, stilizələşdirilmiş fiqurlara da təsadüf olunur [1, s.9].

Tədqiqatçı R.M.Vahidovun fikrincə, *"Heyvan fiqurları üzərindəki müşahidələr onların qədimdə dini-ayini və sonralar əyləncə vasitəsinə çevrilməsi faktını aydın şəkildə göstərir"* [113, s.50].

Erkən orta əsrlərdə olduğu kimi, XI-XIII əsrlərdə də bədii keramikada öküz təsvirləri geniş yer alıb. Qəbələ, Beyləqan, Gəncə, Şabran, Şəmkir və s. kimi orta əsr şəhər qazıntılarından çoxsaylı bu cür nümunələr məlumdur. Tədqiq olunan dövrdə Azərbaycanın maddi-mədəniyyət abidələrində öz əksini tapmış və nisbətən geniş yayılmış təsvirlərin böyük bir qismini quş mövzusu tutur [1, s.46].

Qəbələ şəhər yerindən aşkar olunmuş antropomorf və zoomorf təsvirli şirli kasa nümunələrindən bəzilərini təqdim etməyi məqsəd müvafiq hesab edirik.

2008-ci ildə Qala ərazisində arxeoloji qazıntılar zamanı aşkar olunmuş və içərisində insan təsviri olan şirli kasa parçası (Şəkil 2.2.4.1) dövr etibarilə XII əsrə aiddir [25, s.108]. Nümunədən də göründüyü kimi kasa parçasının daxili səthində bir əlində nizəyə oxşar silah, digər əlində isə müdafiə funksiyası daşıyan alət olmaqla, baş geyimi geyindirilmiş insan təsvir edilib. Bu da dövrün ustalarının qabların üzərində döyüşçü təsvirlərini daha mükəmməl təqdim etdiklərini göstərir. Təsvirin kənarlarında isə sarı, yaşıl və qəhvəyi rəng çalarlarından ibarət naxışlar işlənib. Üzərində insan təsvir işlənmiş digər bir şirli kasa fraqmenti də qeyd olunanlara aid tipik nümunədir (Şəkil 2.2.4.8). Qab dövr etibarilə XI-XII əsrlərə aiddir. Cizgiləri aydın və dəqiq nəzərə çarpan insan təsviri kasanın içəri səthində olmaqla dibinə işlənmişdir [196, p.52].

Zoomorf təsvirli iri kasa nümunəsinin bir hissəsi Qala ərazisində 2009-cu il qazıntıları zamanı aşkar olunub (Şəkil 2.2.4.2). Bu kasa nümunəsi xronoloji baxımdan XIII-XIV əsrlərə aid edilir [76, s.183]. Kasanın daxili səthinə yaşıl, tünd qırmızı, qara və sarı rəngli şirlərdən istifadə olunmaqla naxışlar vurulmuş və ev heyvanının baş hissəsi təsvir edilmişdir.

Xatırladaq ki, orta əsr Şəmkir şəhər yerində 2009-cu ildə aparılan tədqiqatlar zamanı da üzərində döyüşçü təsviri verilmiş şirli qablar tapılmışdır. Mütəxəssislər belə qabları bədii şirli qabların ikinci qrupuna aid edirlər. Hansı ki, orta əsr şəhər yerlərindən aşkar olunmuş bu nümunələr dövrün şirli keramikası ilə yanaşı, hərb işində istifadə olunan əsas silahlar və döyüşçülərin geyimləri barədə fikir yürütməyə zəmin yaradır [42, s.110].

Yuxarıda qeyd olunduğu kimi zoomorf təsvirli şirli kasalar içərisində quş təsvirli nümunələr xüsusilə çoxluq təşkil edir. Belə təsvirli qablar adətən müxtəlif rəng kombinasiyalarından istifadə olunması ilə fərqlənir.

Qala ərazisində müəyyən olunan və dövr etibarilə XII-XIII əsrlərə aid kasanın daxili səthində uzun dimdikli quş təsviri verilib (Şəkil 2.2.4.3) [76, s.199]. Qabın şirlənməsi zamanı isə yaşıl və tünd qəhvəyi rəngli boyalardan istifadə edilib.

Üzərində quş təsviri olan daha bir şirli kasa fraqmenti Qala ərazisində 2012-ci ildə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunub (Şəkil 2.2.4.6). Dövr etibarilə XII-XIII əsrlərə aid olan bu qabın oturacağının diametri 9 sm təşkil edir [75, s.275]. Kasanın daxili səthinin dib hissəsinin mərkəzində quş təsviri verilmiş, təsvirin kənarı isə eyni rəngli şirlərdən istifadə olunmaqla naxışlanmış, qabın kənarlarına isə dairəvi zolaq çəkilmişdir. Quş təsviri daha mükəmməl və aydın işlənmişdir ki, bu da təsvirin təbii görünməsinə zəmin yaradır. Üzərində quş təsviri verilmiş digər bir şirli kasa fraqmenti XII-XIII əsrlərə aiddir (Şəkil 2.2.4.7). Qabın oturacağının diametri 8 sm təşkil edir [75, s.275].

Tədqiqatçı F.Ə.Abbasova *"Quş təsvirlərinin ilk tunc dövründən başlayaraq inkişaf etmiş orta əsrlərədək maddi-mədəniyyət abidələrin-*

*də geniş yayılmasını, bu sahədə Azərbaycan xalqının xüsusi ənənəsinin olduğunu, həmin mövzunun mənəvi mədəniyyətdə özünəməxsus yer tutduğunu izləməyə imkan verdiyini göstərmişdir"* [1, s.32].

Kasa tipli qabların üzərində olan ev quşları və vəhşi quş obrazları orta əsrlər dövründə bir-biri ilə sıx bağlı olmuşdur. Bu cür təsvir nümunələri içərisində göyərçin təsvirli əşyalar xüsusilə mühüm yer tutur. Xatırladaq ki, mifoloji təsəvvürlərə görə göyərçin həyatın əbədiliyi, müdafiəçisi rəmzi kimi izah olunur [1, s.175].

Tədqiqatçı N.N.Nəcəfova XII əsr və XIII əsrin əvvəllərinə aid şirli qabların keramika dekorunda polixrom, üçrəngli insan və heyvan təsvirlərinin sonrakı dövrlərdə aradan qalxdığını göstərmişdir [177, c.70].

Tapıntılar içərisində quş təsvirləri ilə yanaşı, digər heyvan təsvirləri olan nümunələrə də rast gəlinir. Bəzi nümunələrə nəzər salaq. Məsələn, Qala ərazisində 2009-cu ildə aparılan qazıntılar zamanı aşkar olunan və xronoloji baxımdan XII-XIII əsrlərə aid olan kasa nümunəsi tam salamat vəziyyətdə olmasa da daxili səthində heyvan təsvirinin verilməsi aydın şəkildə görünür (Şəkil 2.2.4.4) [76, s.204]. Təsvirin həm özü, həm də ətrafı səliqəli və daha mükəmməl şirlənmişdir.

Qəbələ ərazisində maral təsvirli şirli kasa nümunələri də aşkar olunaraq öyrənilmişdir (Şəkil 2.2.4.5). Belə bir nümunə 2009-cu il qazıntıları zamanı aşkar olunub və dövr etibarilə XIII əsrə aiddir [76, s.211]. Maral təsviri qəhvəyi rəngli boyadan istifadə olunmaqla işlənib.

Xatırladaq ki, XI əsrdən etibarən müsəlman ölkələrində, o cümlədən Azərbaycanda yaranmış mədəniyyət inteqral olub. Yəni, onda türk-islam çalarları dominant olmasına baxmayaraq, hələ zərdüştlük və xristianlığa aid dini baxışlar yer almaqda davam edirdi.

Qala ərazisində 2009-cu ildə aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş və dövr etibarilə XII-XIII əsrlərə aid şirli kasa parçasında heyvan təsviri fonunda gül təsviri verilməklə qab səliqəli şirlənmişdir (Şəkil 2.2.4.9) [76, s.186]. Həmin ərazidən aşkar olunmuş və xronoloji baxımdan XIII əsrə aid olan digər kiçik kasa parçasının üzərində də heyvan şəklini xatırladan təsvir verilməklə səliqəli şirlənib (Şəkil 2.2.4.10) [76, s.190].

Dövr etibarilə XII-XIII əsrə aid olan və Qala ərazisində aşkar edilən başqa bir şirli kasa nümunəsi daha mükəmməl işlənməsi ilə fərqlənir (Şəkil 2.2.4.11). Bu şirli kasa parçasına aid fraqmentlər 2009-cu il qazıntıları zamanı aşkar edilib [76, s.180]. Qab yaşıl, sarı və qəhvəyi rənglərdən istifadə olunmaqla şirlənmiş və gül təsviri fonunda heyvan təsviri verilmişdir.

Qala ərazisindən məlum olan və dövr etibarilə XII-XIII əsrlərə aid daha bir şirli kasa nümunəsində isə müxtəlif rəng kombinasiyalarından istifadə olunmaqla gül təsviri fonunda quş obrazı təqdim olunub. Təsvirin kənarları da əlavə olaraq naxışlanmışdır (Şəkil 2.2.4.12) [75, s.278].

Qala materialları içərisində yer alan və xronoloji baxımdan XIII əsrə aid olan digər bir şirli kasa fraqmenti də (Şəkil 2.2.4.13) kasa tipli şirli qablara aid tipik nümunə hesab edilə bilər. Nisbətən hündür dabanlı oturacağı olan qabın oturacağının diametri 9 sm təşkil edir [75, s.293]. Üzərində heyvan təsviri olduğu aydın müşahidə edilir.

Kasa tipli qablarla yanaşı, boşqab tipli qabların da bədii cəhətdən bəzədilməsində antropomorf və zoomorf təsvirlərdən istifadə olunub.

Qala ərazisində 2008-ci ildə aparılmış qazıntılar zamanı aşkar olunmuş şirli boşqab parçası dövr etibarilə XII əsrə aiddir (Şəkil 2.2.4.14) [76, s.156]. Qabın üzərində digər təsvirlərlə yanaşı verilmiş quş təsviri marqans turşusundan istifadə olunmaqla (Mn2O3) tünd qəhvəyi rəng, gül təsvirinə bənzəyən naxış isə mis turşusundan (CuO) istifadə olunmaqla yaşıl rəng fonunda işlənmişdir.

Anoloji oxşarlığa malik olan digər şirli boşqab fraqmenti də XII əsrə aid olmaqla Qala ərazisindən aşkar olunub (Şəkil 2.2.4.15) [75, s.264]. Üzərində quş təsviri verilmiş nümunənin daxili səthinin yan tərəfləri həndəsi və cızma xətlərlə naxışlanıb.

Xatırladaq ki, Gəncəbasarın XI-XIII əsrlərə aid zoomorf təsvirli şirli qablarına nəzər salsaq, qabların üzərində ev heyvanlarından daha çox at, qoyun və keçi, vəhşi heyvanlardan isə bəbir və quş təsvirlərinin işlənilməsi diqqət çəkir [95,s.73]. Tədqiqatçı A.L.Yakobson Xersonun XII-XIV əsrlərə aid sənətkarlığını, o cümlədən şirli keramikasını tədqiq edərkən Azərbaycanın həmin dövr şirli keramikası-

na aid bir sıra məqamlara aydınlıq gətirərək göstərmişdir ki, *"Azərbaycan keramikasının oyma texnikası ilə təsvir edilməsi diqqətə layiqdir. Bu əsasən quşların və digər heyvanların təsvirlərindən ibarətdir. Oyma texnikasından istifadə edilməklə bu cür təsvirlərin işlənməsi ilk dəfə Qafqazda, daha doğrusu Azərbaycanda yaranmış, daha sonra isə İranda, Kiçik Asiyada, Bizansda və digər ərazilərdə geniş yayılmışdır"*[194, c.170].

Tanınmış şərqşünas alim O.Q.Bolşakovun fikrincə,*"Canlı mövcudatın hər hansı bir formada təsvirinin verilməsinin günah hesab edilməsi islamda IX əsrin əvvəlində baş versə də, qəti qadağan isə XI əsrin sonunda olmuşdur"* [136, c.146]. Belə bir şəraitdə mövcudatın təsvirinin qadağan olunmasına baxmayaraq dövrün dulusçu ustaları onları əhatə edən mühitin reallıqlarına heç də biganə qalmamış, bu sahədə öz düşüncə və fikirlərini stilizə olunmuş təsvirlər vasitəsilə hazırladıqları qablarda ifadə etmişlər.

Göründüyü kimi Qəbələ qazıntılarından antropomorf və zoomorf təsvirli kasa və boşqab tipli şirli qablara aid xeyli nümunə müəyyən olunmuşdur ki, bu da həmin şirli qabların əsas hazırlanma texnologiyasını və xarakterik xüsusiyyətlərini müəyyən etməyə kömək edir.

## 2.2.5. Qarışıq təsvirli qablar

Qəbələ şəhər yerində aşkar olunmuş XI-XIII əsrlərə aid şirli kasa nümunələrinin bir qrupu qarışıq təsvirli kasalardan ibarətdir. Qarışıq təsvirli dedikdə, biz əsasən məişətdə işlədilən o şirli qabları nəzərdə tuturuq ki, onların üzərindəki təsvirlərin işlənməsində eyni zamanda həm nəbati, həm həndəsi, həm də antropomorf və ya zoomorf təsvirlərin ən azı iki növündən istifadə olunur. Hansı ki, axtarışlar zamanı bu qəbildən olan nümunələrə də təsadüf olunmaqdadır. Həmin nümunələrin tərəfimizdən ayrıca qrup halında təsnif olunaraq işlənməsi zərurəti də elə buradan yaranıb. Xatırladaq ki, XIII əsrin sonlarına doğru, yəni monqol işğallarından sonrakı dövrdə po-

lixrom şirli qabların üzərinin zəngin naxışlanması, naxışların və rənglərin bir-birinə uyğunluğu, bütövlükdə bədii tərtibatı əvvəlki dövrlə müqayisədə bir-birini tamamlamaması ilə diqqət çəkir. Bu qrup üçün xarakterik olan bəzi nümunələrə diqqət yetirək.

2009-cu il qazıntıları zamanı Qala ərazisində yarımsalamat vəziyyətdə aşkar olunan və dövr etibarilə XIII əsrə aid kiçik şirli kasa (Şəkil 2.2.5.1) daxili səthinin zəngin şirlənməsi və naxışlanması ilə diqqət çəkir [76, s.189]. Kasanın bədii cəhətdən bəzədilməsində həm həndəsi, həm də nəbati elementlərdən istifadə olunub. Qabın daxili səthinin dib hissəsində ağ fonda qarışıq təsvirlər verilib.

Digər bir dabanlı oturacağa malik qarışıq təsvirli şirli kasa parçası xronoloji baxımdan XIII-XIV əsrlərə aiddir (Şəkil 2.2.5.2) [76, s.208]. Qabın daxili səthinin mərkəzi hissəsinə ağ fonda gül təsvirini xatırladan bəzək vurulmuş, naxışın kənarları isə dairəvi və mərkəzdən qaçan şüalar formasında cızma xətlərlə naxışlanıb. Qabın bu dərəcədə mükəmməl naxışlanması və şirlənməsi onun təcrübəli usta tərəfindən hazırlandığını deməyə əsas verir.

Səlbir ərazisindən aşkar olunan və dövr etibarilə XI əsrə aid dabanlı oturacağa malik şirli kasa nümunəsinin (Şəkil 2.2.5.3) hündürlüyü 6,4, oturacağının diametri 7,4, ağzının diametri 18,7 sm təşkil edir [75, s.211]. Onun daxili səthi həm nəbati, həm də həndəsi motivlərdən istifadə olunmaqla bəzədilib.

Qala ərazisində 2011-2012-ci illərin qazıntıları zamanı VI qazıntı sahəsindən çoxlu miqdarda qarışıq təsvirli kasa nümunələri tapılıb. XI-XIII əsrlərə aid edilən həmin nümunələrdən birinin (Şəkil 2.2.5.4) oturacağının diametri 6 sm təşkil edir [75, s.258]. Qabın daxili səthi tünd qəhvəyi rəngdə şirlənmiş, həmçinin, əlavə olaraq sarı rənglə nəbati və həndəsi təsvirlər verilməklə naxışlanmışdır.

VI qazıntı sahəsindən tapılan və dövr etibarilə XII-XIII əsrlərə aid edilən digər bir dabanlı oturacağa malik qarışıq təsvirli kasanın oturacağının diametri 7,5 sm-dir (Şəkil 2.2.5.5) [75, s.275]. Kasanın daxili səthinin mərkəzi ağ fonda gül təsviri və cızma xətlər formasında həndəsi elementlərdən ibarət naxış vurulmaqla şirlənmiş, ətrafı isə əlavə olaraq müxtəlif naxışlarla bəzədilmişdir.

Xatırladaq ki, tədqiqatçı A.L.Yakobson Beyləqanın XI-XIII əsrlər şirli keramikasını xarakterizə edərkən, polixrom təsvirlərin artıq öz əhəmiyyətini itirərək yerini qravüraya verdiyini, sonuncunun elə o vaxtdan şirli keramikanın bəzədilməsinin əsas prinsipinə çevrildiyini göstərir. Belə ki, əvvəlki dövrün keramikası ilə müqayisədə onları XII-XIII əsrlərə aid qab və kasalara yaxınlaşdıran yeni cəhətləri müşahidə etmək çətin deyil. Əvvəlki dövrün qablarından fərqləri həlqəvi sapın artması, bəzən dərin qablarda şaquli tutacaqların görünüşü və adətən kəskin şəkildə çölə əyilmiş halqanın profilinin dəyişməsidir [195, c.246].

Qala ərazisindən məlum olan daha bir qarışıq təsvirli şirli kasanın oturacağından ibarət olan nümunə dövr etibarilə XIII-XIV əsrlərə aiddir (Şəkil 2.2.5.6). Qabın dabanlı formada olan oturacağının diametri 10 sm təşkil edir [75, s.299]. Qabın daxili səthinin mərkəzində ağ fonda nazik cızma xətlərlə tor təsviri, onun xaricində isə yenə də nazik cızma xətlərdən istifadə edilməklə gül təsvirləri işlənib. Həndəsi və nəbati təsvirlərlə bəzədilmiş və dövr etibarilə XII-XIII əsrlərə aid olan, dabanlı oturacaqlı digər bir şirli kasanın daxili səthi təsvir zənginliyi ilə yanaşı, şirinin parlaqlığı ilə diqqət çəkir (Şəkil 2.2.5.7). Qabın ağzının diametri 20, oturacağının diametri 9,5, hündürlüyü isə 10 sm-dir [75, s.271]. Həmin ərazidə 2013-cü ildə aparılmış qazıntılar zamanı aşkar olunan digər şirli kasa nümunəsinin daxili səthi qabın dibindən divarlarına doğru dairələr və zəncirvari təsvirlərlə naxışlanmışdır (Şəkil 2.2.5.8). Oturacağının diametri 3,3, ağzının diametri isə 7 sm-dir [72, s.255].

Qəbələdən aşkar olunmuş XI-XIII əsrlərə aid kasa tipli şirli qablarda olduğu kimi şirli boşqab nümunələri içərisində də qarışıq təsvirli şirli qablar çoxluq təşkil edir. Qabların müxtəlif təsvirlər verilməklə naxışlanması dulusçu ustaların peşəkarlığını göstərir. Belə təsvirli qablarda müxtəlif kombinasiyalar bir-birini tamamlayır. Şübhəsiz, burada ustanın qabın şirlənməsində ona rəng çalarları verən müxtəlif metalların turşu və duzlarından yerli-yerində istifadə etməsi xüsusilə mühüm rol oynayırdı.

Diqqəti cəlb edən odur ki, şirli boşqab nümunələri nəbati, həndəsi və zoomorf təsvirlərin kombinasiyalarından məharətlə istifadə olunmaqla çox zəngin bəzədilib. Məsələn, belə nümunələrdən biri Qala ərazisində 2019-cu ildə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş zoomorf təsvirli dərin şirli boşqabdır ki, qabın daxili səthinə ağ anqob təbəqə çəkilib, ağzının diametri 20 sm, oturacağının diametri isə 8 sm-dir (Şəkil 2.2.5.10, inv. № 91, Qəbələ Arxeoloji Ekspedisiyası 2019: Hesabatlar, Tapıntılar. –Bakı: CBS Nəşriyyatı, – 2021. – s.148). Onun çiyin hissəsinə isə marqansla cızılmış qoşa dairə işlənib. Qabın mərkəzində açıq marqansla hərəkətdə olan heyvan-ulaq təsviri işlənmiş, qabın çevrəsi boyunca isə açıq yaşıl rənglə qarışıq nəbati təsvirlər, onların içərisində marqansla yayğın ləkələr çəkilmişdir. Boşqab tipli qabın ağzının kənarı içəri hamarlanıb. Gili qırmızımtıl və nisbətən qatışıqlıdır.

Qala ərazisindən aşkar olunmuş XI-XII əsrlərə aid digər bir şirli boşqabın (Şəkil 2.2.5.9) [75, s.255] daxili səthi yaşıl, sarı və tünd qəhvəyi rəngli boyalardan istifadə olunmaqla gül təsviri və həndəsi təsvirlərlə bəzədilib. Qabın ağzı isə kənarlara doğru qatlanmışdır. Qarışıq təsvirli oxşar şirli qab nümunələrinə Gəncəbasarın XII-XIII əsrlərə aid nümunələri içərisində də rast gəlinir. Belə ki, şirli qabları hazırlayan ustalar həndəsi və rəngli naxışları təsvir edərkən onların bir-birinə uyğunluğunun gözlənilməsinə xüsusi diqqət göstərirdilər. Bu zaman qablar əvvəlcə anqoblanır, sonra şirlənirdi ki, bu da ustaya qarışıq təsvirlərin işlənilməsi zamanı onları əlaqələndirməyə əlverişli şərait yaradırdı [95, s.73].

Şirli qablarda rənglər, təsvirlər qabların hazırlanması və şirlənməsində sadədən mürəkkəbə doğru olan inkişafı aydın şəkildə göstərir. Azı iki rənglə həndəsi təsvirlər, iki və daha artıq rənglə isə nəbati, zoomorf və antropomorf təsvirlər səlis və aydın verilir. Həm də bu dövr şirli qabların üzərində verilmiş insan təsviri artıq monqol tipində deyil, yerli və sadə tipdə işlənmişdir [67, s.152].

Xatırladaq ki, tədqiq olunan dövrdə şirli kasa tipli qablardan Yaxın və Orta Şərq regionunda da geniş istifadə olunub. Bu cəhətdən 1135-ci ildə Ədəndən olan bir tacirin Misirdəki tanışına onun üçün

fərqli rənglərdə olmaqla iyirmi standart kasa və qırx kiçik kasadan ibarət şirli qab alması barədə məktubu diqqət çəkir. Bu fakt kasa tipli şirli qablardan geniş istifadə olunmaqla yanaşı, həm də dizayn zənginliyinin əyani göstəricisidir [203].

Fikrimizcə, yuxarıda təqdim olunan nümunələr bütövlükdə qarışıq təsvirli şirli kasa və boşqab nümunələrinin səciyyəvi əlamət və xüsusiyyətlərini öyrənmək baxımından olduqca əhəmiyyətlidir. Bu nümunələr əsasında belə bir qənaətə gəlmək olar ki, XI-XIII əsrlərə aid digər qruplardan olan şirli kasa və boşqab nümunələri ilə qarışıq təsvirli nümunələrin texniki və texnoloji parametrləri tam olaraq eyniyyət təşkil edir. Onların digər nümunələrdən başlıca fərqi isə səthinin, xüsusən də daxili səthinin bədii cəhətdən bəzədilməsindəki özünəməxsusluqdur. Bu isə Qəbələ ustalarının müxtəlif boyaların kombinasiyası və onların anqob astarla uzlaşma xüsusiyyətlərini çox mükəmməl bildiyinə dəlalət edir.

## 2.3. Duz qabları

Qədim Qəbələ şəhər yerində aparılmış arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuş şirli qabların bir qrupu da duzqabılardan ibarətdir. XI-XIII əsrlərə aid şirli duzqabı nümunələri forma etibarilə tədqiq olunan dövrdən əvvəlki və sonrakı dövrə aid nümunələrlə müəyyən oxşarlığa malik olsa da, şirlənməsinə görə fərqlənir.

Arxeoloq Q.M.Əhmədov Beyləqanın şirli duzqabılarının xarakterik cəhətlərini qeyd edərkən göstərmişdir ki, onlar forma etibarı ilə şirsiz duzqabılara nisbətən müxtəlifdir. Onların yanları buğumlu, ağızlarının qıraqları isə gəzli və xırda deşiklidir [41, s.32].

Qəbələdən aşkar olunmuş və XI-XIII əsrlərə aid olan şirli duzqabı nümunələri forma etibarilə orta əsr Beyləqan şəhər yerindən müəyyən olunmuş duzqabılarla oxşardır.

Xatırladaq ki, 1975-ci ildə Səlbirdə VII qazıntı sahəsində aparılan tədqiqatlar zamanı aşkar olunmuş şirli qabların bir qrupunun da-

xili səthi yaşıl şirlə örtülmüş dayaz qablardır ki, bunlardan da duzqabı kimi istifadə olunub. F.V.Qədirovun fikrincə, yerli əhali həmin nümunələrdən XI əsrdə geniş istifadə edib [86, s.7-8].

Qala ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkar olunmuş şirli duzqabı nümunəsi dövr etibarilə XII-XIII əsrlərə aiddir (Şəkil 2.3.1). Oturacağının diametri 6, ağzının diametri isə 7 sm-dir [75, s.277]. Bu duzqabı nümunəsi yastı oturacaqlı olmaqla, onun oturacağı ilə ağız hissəsinin diametri arasında fərq çox azdır. Qabın daxili səthi şirlənmiş, ağız hissəsi isə kənarlara doğru qatlanmışdır.

Qala ərazisindən tapılmış digər bir şirli duzqabı XIII-XIV əsrlərə aiddir (Şəkil 2.3.2). Bu nümunə ağzının nisbətən enli, oturacağının isə dar olması ilə fərqlənir. Oturacağının diametri 4,5, ağzının diametri isə 7 sm-dir [75, s.297].

Qala ərazisindən tapılan daha bir nümunə dövr etibarilə XIII-XIV əsrlərə aiddir (Şəkil 2.3.3). Oturacağının diametri 4 sm təşkil edir [75, s.301]. Daxili səthi yaşıl rəngli boyadan istifadə olunmaqla şirlənib. Qabın içərisində dib hissədə qara rəngli altı ədəd nöqtə vardır.

Səlbir ərazisində 2013-cü ildə aparılmış arxeoloji qazıntılar zamanı digər şirli qab nümunələri ilə yanaşı şirli duzqabılar da müəyyən olunub. Belə nümunələrdən biri xronoloji baxımdan XI əsrə aiddir (Şəkil 2.3.4). Oturacağının diametri 4,5, hündürlüyü 3,4, oturacağının hündürlüyü 0,5, gövdəsinin diametri 8,7, ağzının diametri isə 7,9 sm-dir [72, s.241]. Daxili səthi şirlənmiş və üzərindən tünd qəhvəyi rəngli boyalarla qabın oturacağından mərkəzdənqaçan şüalar şəklində zolaqlar çəkilmişdir.

Qala ərazisindən aşkar olunmuş və dövr etibarilə X-XI əsrlərə aid olan şirli duzqabı nümunəsi yastı və hamar oturacağa malikdir (Şəkil 2.3.5). Oturacağının diametri 2 sm-dir. 2013-cü il qazıntıları zamanı orada aşkar olunan digər şirli duzqabı da dövr etibarilə X-XI əsrlərə aiddir (Şəkil 2.3.6). Oturacağının diametri 2, ağzının diametri isə 4 sm-dir [72, s.252]. Bu şirli duzqabı nümunəsi yuxarıda qeyd olunan nümunələrdən fərqli olaraq daha səliqəli şirlənməsi ilə seçilir. Qabın içərisi anqoblanaraq şirlənib və parlaqlığı ilə diqqəti cəlb edir. Ağız hissə isə həm kənarlara doğru qatlanıb, həm də qabın kənarları

dalğavari formalı çıxıntılar şəklində kəsilməklə işlənmişdir ki, bu da qabın xarici görünüşünə yeni forma verir.

Dövr etibarilə XI əsrə aid olan digər bir şirli duzqabının (Şəkil 2.3.7) oturacağının diametri 1,7, ağzının diametri 2,5 sm təşkil edir. Yastı və hamar oturacağı olan duzqabının daxili səthi mis oksidindən istifadə olunmaqla göyümtül rənglə şirlənib və şirin üzərindən tünd qəhvəyi rənglə iki ədəd zolaq çəkilmişdir. Qala ərazisindən 2013-cü il qazıntıları zamanı tapılan və dövr etibarilə XI əsrə aid şirli duzqabının (Şəkil 2.3.8) oturacağının diametri 2,7, ağzının diametri isə 3 sm-dir [72, s.256]. Duzqabı yastı oturacaqlıdır və ağız hissəsi kənarlara doğru qatlanmışdır.

Qəbələ ərazisindən bəlli olan XI-XIII əsrlərə aid şirli duzqabı nümunələrinin təhlili onu deməyə əsas verir ki, bu dövrdə süfrə qabları olan şirli duzqabılardan əhalinin məişətində geniş istifadə edilmiş, eyni zamanda duzqabılar yastı və hamar oturacalı olmaqla digər Azərbaycan şəhərlərindən məlum olan nümunələrlə oxşardır.

Maraqlıdır ki, bəhs olunan dövrün duzqabıları əsasən yaşıl və ya göy rəngli boyalarla saya işlənib. Onlar nə forma, nə də şirlənmə üsulu etibarı ilə həm özündən əvvəlki, həm də özündən sonrakı dövrün anoloji nümunələrindən elə də fərqlənmir.

## 2.4. Damğalı qablar

Qəbələdə aparılmış arxeoloji qazıntılar zamanı çoxlu sayda damğalı qab nümunələri aşkar olunmuşdur. Bu qablar nə forması, nə bədii-texniki xüsusiyyətləri, nə də hazırlanma texnologiyası baxımından digər şirli qablardan demək olar ki, heç nə ilə fərqlənmir.

Professor Q.C.Cəbiyev *"Damğalı qablara XII-XIII əsr materialları içərisində daha çox təsadüf edildiyini, eyni tip damğa ilə bəzən müxtəlif naxışlı, hətta müxtəlif texniki üsulla işlənmiş qabların, bəzən isə əksinə müxtəlif tip damğa ilə eyni naxışlı və eyni texniki üsulla işlənmiş qabların damğalandığının məlum olduğunu göstərir"* [12, s.374-375].

Xatırladaq ki, təkcə şirli qablara deyil, şirsiz qablara da damğaların vurulması barədə mütəxəssislər tərəfindən əsaslandırılmış fikirlər irəli sürülüb. Bu baxımdan T.İ.Qolubkinanın Mingəçevir ərazisindən tapılmış nümunələr barədə araşdırmasını qeyd etmək olar. O, Mingəçevirdən tapılmış ilk orta əsr qabları üzərində damğası olan gil qablara rast gəldiyini, şirli qablardan fərqli olaraq şirsiz qablarda damğalara qabların alt hissəsində deyil, ağız və qulp hissəsində rast gəlindiyini bildirib [107, s.6].

Damğalı qabların tədqiq olunması zamanı əsas məqam damğaların qablara kim tərəfindən vurulması, nə məqsədlə vurulması və damğaların təsvirləri ilə bağlıdır. İlk növbədə həmin damğaların qablara kim tərəfindən vurulmasına gəldikdə bu barədə mütəxəssislər tərəfindən fərqli fikirlər irəli sürülmüşdür.

Orta əsr Azərbaycan şəhərlərinin görkəmli tədqiqatçısı, professor Q.M. Əhmədovun fikrincə *"Möhürdən istifadə etmək hüququna o ustalar malik olub ki, onlar ya emalatxana sahibi, ya da ən azı ustad ləqəbi daşımaq səviyyəsinə yüksəlmiş olsun"* [41, s.69-70]. O, Beyləqanın şirsiz saxsı məmulatının üzərində hətta "ustad" kəlməsinə də rast gəlindiyini qeyd edir. Saxsı qabların üzərində olan nişan, damğa və möhürlər müəyyən ictimai məna daşımaqla, ya istehsalçıya, ya da istehlakçıya aid olmuşdur. Xatırladaq ki, altına damğa vurulmuş qablara Beyləqan ilə yanaşı, Gəncə, Qəbələ, Bakı, Şamaxı, Şabran şəhərlərində də rast gəlinmişdir.

Damğaların şirli qablara nə məqsədlə vurulmasına gəldikdə, professor Q.C.Cəbiyevin fikrincə, *"Saxsı qablara damğalar həmin qabların itməməsi, yaxud dəyişik düşməməsi məqsədilə vurulub"*. Belə ki, hər bir emalatxana sahibinin dulus kürəsi olmadığından qablar ya bişmə prosesində, ya da məclis və mərasimlərdə istifadə zamanı itə və ya dəyişik düşə bilərdi [15, s.15].

Tədqiqatçı S.B.Hüseynova Azərbaycana aid ornamentli damğaları 3 qrupa bölmüşdür: 1) Həndəsi ornamentli; 2) Nəbati ornamentli; 3) Memarlıq ornamentli. O, həmçinin, təsvirli damğaları da quş təsvirli, heyvan təsvirli, insan və heyvan təsvirli olmaqla 3 qrupa ayırır. Həndəsi təsvirli damğaların ən çox yayılmış növləri torlar,

ümumi mərkəzdən ayrılan şüalar, kəsişən ovallar, həndəsi fiqurlu rozet, kəsişən lentşəkilli düz xətlərdir. Əksər abidələr üçün tipik olan bitki işarələrinin növləri rozet, çoxləçəkli çiçək və s. aiddir. Memarlıq əlamətli olanlardan çox şüalı ulduzlar, çöl künclərində tağları olan dördləçəkli fiqurlar, rozet və s. dövrünə görə ən çox sevilənlər idi [148, c.53].

Arxeoloji qazıntılar zamanı aşkar olunmuş damğalı qab nümunələrinin öyrənilməsi və dönə-dönə nəzərdən keçirilməsi onu deməyə əsas verir ki, XI-XIII əsrlərdə saxsı qabların alt hissəsinə damğa vurulmasının miqyası sürətlə artıb.

Diqqət çəkən daha bir məqam ondan ibarətdir ki, damğaların çeşidi də artıb. Həmçinin, onların daha səliqəli və aydın icra olunduğu müşahidə edilir. Nəhayət, damğalar yalnız kasa və boşqab tipli qablarda qeydə alınıb.

Professor Q.C.Cəbiyevin rəhbərliyi ilə Qəbələ şəhərinin Qala hissəsində aparılmış uzunmüddətli arxeoloji qazıntılar zamanı XI-XIII əsrlərə aid çoxlu sayda damğalı şirli qab nümunələri aşkar olunmuşdur. Həmin nümunələrdən bir neçəsini təqdim edirik:

XI-XII əsrlərə aid şirli kasanın oturacaq hissəsinin diametri 10 sm-dir (Şəkil 2.4.2). Qabın daxili səthində olmaqla dibinə içərisi qara və kənarı yaşıl rənglə boyanmış gül təsviri, təsvirin kənarlarına isə dairəvi formalı naxış əlavə edilmişdir. Naxışlar işlənərkən ağ, yaşıl və sarı rəngli boyalardan istifadə olunub. Gül təsvirinin kənarlarına isə bir-birinə sıx yerləşməklə naxışlar işlənib. Maraqlıdır ki, qabın alt hissəsinə vurulmuş damğa da gül şəkillidir [59, s.101].

Tam salamat vəziyyətdə aşkar olunmuş digər bir damğalı şirli kasa nümunəsi (Şəkil 2.4.5) dövr etibarilə XII-XIII əsrlərə aid edilir. Oturacağının diametri 8, ağzının diametri 22, hündürlüyü isə 6 sm təşkil edir [75, s.271]. Dabanlı oturacağa malik olan kasanın oturacaq hissəsinin altında olmaqla torşəkilli damğa vurulub.

1960-1961-ci illərin qazıntıları zamanı da Qala ərazisində xeyli miqdarda damğalı qab aşkar olunub. Ö.Ş. İsmizadənin fikrincə, damğaların əksəriyyətinə öz dövrünə görə forma və təsvir nöqteyi-nəzərdən ilk dəfə rast gəlinib. Qəbələ damğaları hamısı qabarıq (relyef)

şəklindədir və qırmızı gildən olan qabların dibinə bişirilmədən öncə xüsusi damğa vuranla (ştampla) vurulub. Qabların ölçüsündən asılı olaraq tapılmış damğa izlərinin 3,5-5,5 sm arasında olduğu müəyyən olunub [161, c.161-162].

Göründüyü kimi damğalı şirli qablar içərisində kasa tipli qablar çoxluq təşkil edir. 2016-cı ildə Qalada aparılan qazıntılar zamanı da tor, yarpaq, gül xonçası və günəş təsvirli damğası olan bir neçə kasa aşkar olunmuşdur [21, s.287]. Altında damğa olan digər bir şirli kasanın (Şəkil 2.4.1) oturacağının diametri 8 sm təşkil edir və dövr etibarilə XI-XII əsrlərə aiddir [75, s.252]. Kasanın altına damğanın vurulması müəyyən olunsa da, lakin aşındığı üçün həmin damğada konkret olaraq nə təsvir olunduğunu müəyyən etmək çətindir.

Digər damğalı şirli kasaya aid fraqment əvvəl qeyd etdiyimiz nümunəyə nisbətən kiçik ölçülüdür (Şəkil 2.4.3). Oturacağının diametri 5,5 sm təşkil edir. Nümunə xronoloji baxımdan XI-XII əsrlərə aid edilir [75, s.254].

Digər bir şirli kasa fraqmentinin oturacaq hissəsinə vurulmuş damğa torşəkillidir (Şəkil 2.4.4). Damğanın ətraf hissəsinə isə nazik dairəvi cızıqlar çəkilib. Qaladan aşkar olunmuş bu nümunə dövr etibarilə XI-XII əsrlərə aiddir [75, s.262]. Göründüyü kimi kasanın daxili səthi müxtəlif rəng kombinasiyalarından istifadə edilməklə naxışlanıb.

Maraqlıdır ki, Qala ərazisində qeydə alınan XIII-XIV əsrlərə aid şirli kasa nümunələrindən birinin altına vurulmuş damğa müxtəlif ölçülü və iç-içə çəkilmiş dairələrdən, bu dairələri birləşdirən paralel kiçik xətlər və nöqtələrdən ibarət olmaqla formasına görə digər damğalardan fərqlənir (Şəkil 2.4.9). Qabın diametri 11,5 sm təşkil edir [75, s.300].

Fikrimizcə, şirli qabların altına vurulmuş damğaları məzmun və forma etibarı ilə üç qrupa ayırmaq olar:

1. Həndəsi təsvirli damğalar.
2. Nəbati təsvirli damğalar.
3. Sxematik təsvirli damğalar.

Qəbələnin XI-XIII əsrlərə aid damğalı keramika nümunələri tədqiq olunarkən onların daxili səthinin müxtəlif və zəngin naxışlarla işlənməsi diqqət çəkir.

Qala ərazisində aşkar olunmuş altında torşəkilli damğası olan şirli qab fraqmentinin oturacağının diametri 8 sm təşkil edir və dövr etibarilə XII-XIII əsrlərə aiddir (Şəkil 2.4.6) [75, s.275]. Qabın daxili səthinin dib hissəsi müxtəlif rəngli boyalardan istifadə edilməklə və paralel xətlər çəkilməklə naxışlanıb. Həmin paralel xətlərin ətrafı isə müxtəlif rəngli boyalarla dairəyə alınmış və naxışlanma davam etdirilmişdir.

Altında gülşəkilli damğa olan digər bir kasa tipli şirli qab nümunəsi dövr etibarilə XII-XIII əsrlərə aiddir (Şəkil 2.4.7). Oturacağın diametri isə 7 sm-dir [75, s.276].

Həmin yerdən aşkar olunmuş XII-XIII əsrlərə aid, oturacağının diametri 5,5 sm olan digər bir şirli kasa framentinin də alt hissəsinə torşəkilli damğa vurulub (Şəkil 2.4.8) [75, s.278]. Kasa nümunəsi həm də çoxrəngli olması ilə diqqət çəkir.

2013-cü ildə Qala ərazisində aparılmış arxeoloji qazıntılar zamanı öyrənilmiş VIII-XII əsrlərə aid təbəqələrdən digər keramika nümunələri ilə yanaşı, çoxlu sayda damğalı şirli qablar da aşkar olunub. Oradan tapılmış oturacağının diametri 3 sm olan damğalı şirli kasa nümunəsi dövr etibarilə X-XI əsrlərə aiddir (Şəkil 2.4.10). Qabın alt hissəsinə vurulmuş damğa torşəkillidir [72, s.121; s.251]. Kasanın daxili səthində olmaqla dibinə dörd ədəd çarpaz cızıqlar çəkilmiş, həmin xətlərin kənar qurtaracaq hissələri isə yaşıl və sarı rənglərlə boyanmışdır.

Arxeoloq Ö.Ş.İsmizadə Qəbələnin damğalı qablarını xarakterizə edərkən yazır: *"İt, quş, konsentrik dairə, birləşmiş dördləçəkli işarə, yayvari işarə Qəbələ şirli keramikası üçün xarakterikdir"*. Bu damğaların əsas hissəsində təsvirlər yüksək dəqiqliklə verilib, ona görə də onların izləri qabların altında çox aydın görünür [161,c.168].

Göründüyü kimi, XI-XIII əsrlər dövründə Qəbələnin şirli keramikası içərisində damğalı qablar çoxluq təşkil etməklə yanaşı, bu qablar dövrün ustaları tərəfindən daha səliqəli hazırlanmış, müxtəlif

rəng və təsvir kombinasiyalarından istifadə olunmaqla şirlənmiş və damğalanmışdır. Qəbələnin damğalı qabları eyni zamanda özünəməxsusluğu ilə seçilir. Bu onu göstərir ki, tədqiq olunan dövrdə dulusçu ustalar qablara damğaların vurulmasında artıq yüksək peşəkarlığa malik olmaqla yanaşı, keramikada həm də xalq yaradıcılığını təcəssüm etdirmişlər.

Qeyd olunanlar Qəbələ şəhərində şirli saxsı qablar hazırlayan orta əsr ustalarının mürəkkəb və çoxşaxəli texnoloji metodları və riyazi hesablamaları haqqında müəyyən mülahizələr irəli sürməyə, şirli saxsı məmulatının hazırlanmasının əsas üsullarından bəhs etməyə imkan verir. Təbiət elmlərinə aid müxtəlif tədqiqat metodlarının istifadəsi ilə orta əsr keramikasının öyrənilməsi nəticəsində əldə edilmiş materiallar böyük maraq doğurur və keramika sənətinin inkişaf tarixinin, onun texnologiya tarixinin, səviyyə və imkanlarının, bir sözlə, feodalizm dövründə nəinki Qəbələdə, bütövlükdə Azərbaycanın orta əsr şəhərlərində keramika istehsalı tarixinin öyrənilməsi üçün dəyərli qaynaq rolunu oynayır.

Qəbələnin XI-XIII əsrlər şirli keramikasının tədqiqi nəticəsində əldə etdiyimiz elmi məlumatları, həmin dövrün keramikasının öyrənilməsinə aid tarixi-arxeoloji materialları ümumiləşdirərək qeyd edə bilərik ki, XI-XIII əsrlər dövrü şirli keramika istehsalının texnologiyası üçün əhəmiyyətli nailiyyətlər dövrüdür.

# III FƏSİL. QƏBƏLƏNİN XI-XIII ƏSRLƏR İNŞAAT KERAMİKASI

Yaxın Şərq ölkələrində olduğu kimi XI-XIII əsrlərdə Azərbaycanda da şəhərlərin inkişafı nəticəsində sənətkarlıq da getdikcə inkişaf edirdi. Bu zaman memarlıq tikililərinin əsas sifarişçisi yerli feodallar və zadəganlar, bəzən isə dini icmalar idi. Bədii xalq yaradıcılığında görkəmli yer tutan ornament sənəti də XII-XIII əsrlərin memarlıq irsi timsalında olduqca möhtəşəm bir inkişaf dövrü yaşayıb [38, s.50].

Səlcuqların hakimiyyəti dövründə inşaat sənətində "səlcuq üslubu" adlanan üslub tətbiq olunur və tikililərdə bu aydın nəzərə çarpırdı. Bu dövr Azərbaycan memarlığına nəzər salsaq, əsasən iki istiqamətin olması diqqət çəkir. Bunlar Naxçıvan və Şirvan-Abşeron memarlıq məktəbləri idi ki, onların həm təşəkkül prosesi başa çatmış oldu, həm də bu məktəblər sonrakı dövrün memarlıq sənətinə böyük təsir göstərdi. Təsadüfi deyildir ki, binaların tikintisi zamanı tikilinin daha cəlbedici görünməsi üçün kərpiclərin yonulması və kərpiclərdən istifadə olunmaqla naxışlanma da bu dövrdən etibarın tədricən artmağa başlayıb [2, s.49;s.51].

XI-XIII əsrin əvvəlləri Azərbaycanda feodal münasibətlərinin yüksəliş dövrü olduğu üçün bu dövr çoxlu miqdarda mühüm tarixi və bədii əhəmiyyətə malik memarlıq abidələri ilə təmsil olunur. XII əsrdən XIII əsrin əvvəllərinə qədərki dövrdə Azərbaycan memarlığındakı inşaat mədəniyyəti memarlıq kompozisiyasındakı bir sıra orijinal cəhətlərlə xarakterizə olunur. Monqol işğallarının ağır nəticələrinə baxmayaraq sənətkarlıq və inşaat ənənələri məhv olmadı. XIII əsrin sonunda inşaat sahəsində olan nailiyyətlər bu ənənələrin bərpa olunmasına və daha da inkişafına səbəb oldu [97, s.38; s.55].

Xatırladaq ki, Azərbaycanın dahi mütəfəkkiri Nizami Gəncəvinin əsərlərində də dövrün memarlığı ilə bağlı fikirlər diqqət çəkir. Dahi mütəfəkkirin əsərlərində Azərbaycanın kənd və şəhərlərinin mövcud abadlıq durumu sosioloji problem kimi önə çəkilməklə yanaşı, ictimai problemlər də məharətlə təsvir olunub. Onun memarlıqda rənglərin işlənməsi, tikililərin estetik təsvirindən bəhs olunması, eyni zamanda memarlıq sənəti çoxşaxəli olduğu üçün memarların savadlı olmasını vurğulaması xüsusilə qeyd olunmalıdır. Göstərilənlər nəinki Qəbələnin, bütün orta əsr şəhərlərinin inşaat sənətində rəhbər tutulacaq əsas meyar sayıla bilər [48, s.9; s.12; s.40].

Orta əsrlər dövründə digər şərq ölkələrində olduğu kimi Azərbaycan şəhərlərində də "şəhristan" və "rabad" mövcud olub. Hökmdarlara məxsus saraylar və digər dövlət tikililəri adətən mərkəzdə inşa olunurdu. İnkişaf edən şəhristanın ətrafında yerləşən rabad hissədə sənətkarlara məxsus emalatxanalar yerləşirdi. Dövrün şəhərlərində əhalinin əsas hissəsini din xadimləri və zadəganlarla yanaşı, sənətkar və tacirlər təşkil edirdi. Bu da sənətkarların həm say etibarilə çoxluq təşkil etdiyini, həm də sənətkarlığın müstəqil sahə olaraq inkişafını göstərən başlıca faktorlardan biridir [10, s.165].

XI-XIII əsrlərdə Azərbaycan şəhərlərində müxtəlif təyinatlı, həm də bir-birindən möhtəşəm çoxsaylı tikililər inşa olunmuşdur. Tikinti növlərinin çoxluğu ictimai həyatın rəngarəng tələblərindən irəli gəlirdi. Memarlıq abidələri böyük və kiçikliyindən asılı olmayaraq yerləşdiyi şəhərlərin tarixi inkişafını özündə əks etdirirdi [99, s.139].

Qəbələ şəhəri IX-XIII əsrlərdə özünün intibah dövrünü keçirirdi. Bayır şəhər və sənətkarlar məhəlləsi də bu dövrdə təşəkkül tapmışdı. Bayır şəhərdə aparılan arxeoloji tədqiqatlar zamanı bir neçə yaşayış binasının bünövrəsi tapılıb. Bayır şəhər əkin sahəsi kimi istifadə olunmadığına görə burada son tikililərin qalıqları daha yaxşı izlənilir. Təsadüfi deyildir ki, sənətkarlar məhəlləsində hər 50-60 metrdən bir istehsalat ocaqları müəyyən olunub, hansı ki, bu ərazi təxminən 10 hektara qədərdir [46, s.17-18].

## 3.1. Kərpic nümunələri

Tədqiqatlar zamanı Qəbələdən dağınıq şəkildə çoxlu miqdarda kərpic, kaşı və hörgü qalıqları müəyyən olunub. Bu nümunələr digər orta əsr şəhərlərinin materialları ilə müəyyən oxşarlığa malikdir. Xatırladaq ki, əvvəlki dönəmdə olduğu kimi XI-XIII əsrlərdə də inşaatda istifadə olunan materialların əksəriyyəti gildən hazırlanırdı. Azərbaycan ərazisi gil ehtiyatları ilə zəngin olduğundan burada gildən hazırlanmış rəngarəng çeşidli inşaat materiallarından geniş istifadə olunmuşdur.

Qəbələnin müxtəlif ölçülü bişmiş kərpic nümunələrindən istifadə olunmaqla inşa edilmiş qala divarları və bürcləri (Şəkil 3.1.12) [78, s.41], habelə müxtəlif illərdə arxeoloji tədqiqatlar nəticəsində aşkar olunmuş çoxsaylı tikili qalıqları XI-XIII əsrlərdə orada inşaat materialı kimi kərpicdən və kirəmitdən geniş istifadə olunmasından xəbər verir.

S.M.Qazıyevin rəhbərliyi ilə Qalanın mərkəzi hissəsində 1959-1960-cı illərdə nəhəng ictimai bina qalığı [68], 1977-ci ildə Qala ərazisində arxeoloq Q.M.Əhmədovun rəhbərliyi ilə IV qazıntı sahəsində qazıntılar aparılarkən kərpicdən istifadə olunmaqla hörülmüş bina qalığı aşkar olunub. Qalınlığı 60-70 sm-ə qədər olan divarın çəkilməsində istifadə olunmuş kərpiclərin ölçüləri diqqət çəkir. Belə ki, kərpiclər əsasən eyni ölçülü olmaqla, 21-25X4-5 sm təşkil edir və bir-birindən çox fərqlənmir [123, c.29-30]. Habelə, Q.C.Cəbiyevin rəhbərliyi ilə 2009-2014-cü illərdə Qala ərazisində VI qazıntı sahəsində qeydə alınan çoxsaylı bina qalıqları buna misal ola bilər. 2017-2021-ci illərdə Qalanın şimal divarlarının üzə çıxarılması və orada qeydə alınan tikintilər də əsasən bişmiş kərpicdən istifadə olunmaqla inşa edilmişdir. Bina qalıqları, bürclər və divarlarla yanaşı, müxtəlif ölçüdə olan bişmiş kərpic nümunələri də burada möhtəşəm binaların inşa olunduğunu göstərir.

Azərbaycanda inşaat sənətinin görkəmli tədqiqatçısı K.M.Məmmədzadə dövrün inşaat materiallarını və onların hazırlanma texnologi-

yasını xarakterizə edərkən bir sıra əsas xarakterik xüsusiyyətləri fərqləndirərək göstərir ki, daş olmayan yerlərdə gil onu əvəz etmişdir. Gil keyfiyyətli kərpic, kirəmit, su tüngləri və kaşı hazırlamaq üçün əsas xammaldır. Tikinti materialı olaraq bişmiş kərpic həm ucuz başa gəlir, həm də demək olar ki, hər yerdə yayılmışdı və rənginə görə tikililərin fasadına sanki rəng çaları əlavə edirdi [97, s.12-13].

Tədqiqatçıların qənaətinə görə bişmiş kərpicdən istifadə ilk dəfə Ön Asiyanın e.ə. III minilliyə aid tikintilərində qeydə alınıb. Qədim dövrdə hazırlanmış kərpiclərin indiyə qədər gəlib çatmış nümunələrindən də aydın olur ki, onlar çox yüksək keyfiyyətlə hazırlanıb. Şərqdə yüksək keyfiyyətli kərpic hazırlamaq ənənəsi orta əsrlər dövründə də qorunub. Bu dövrdə yüksək keyfiyyətli kərpic istehsalı texnikası daha da inkişaf edib [188, c.266].

Azərbaycan ərazisində bişmiş kərpic istehsalının nə vaxtdan etibarən mövcud olması ilə bağlı elmi ədəbiyyatda bəzi fikir ayrılıqları bu günədək qalmaqdadır. Məsələn, Arxeoloq İ.A.Babayev Antik Qəbələ ərazisində aşkar olunmuş bişmiş kərpic nümunələrinin I əsrə aid olduğunu bildirib. Onun fikrincə, bunlar Albaniya ərazisində təsadüf olunan ən qədim bişmiş kərpic nümunələridir. Bişmiş kərpiclərdən istifadə olunmaqla tikilmiş, üstü kirəmitlə örtülmüş bina şəhərin həmin hissəsində həyat kəsildikdən sonra sökülmüş və tikilinin kərpic və kirəmitləri də aparılmışdır [7, s.11].

Q.C.Cəbiyev isə həmin nümunələrin kərpicdən daha çox örtük materialına uyğun gəldiyini bildirir. Onun fikrincə, belə iri həcmli, lakin həcmi ilə müqayisədə olduqca nazik olan nümunələrdən divar hörgülərində istifadə olunduğu inandırıcı deyil. Əgər o nümunələr kərpic idisə, onda həmin dövrün digər çoxsaylı tikintilərində niyə bu növ inşaat materialından istifadə olunmayıb?! [151, c.316]

Xatırladaq ki, Qəbələdə antik kirəmitlər tapılan ərazilərdə və Mingəçevirdə üstü kirəmitlə örtülmüş olan məbədin ərazisində bişmiş kərpic nümunələrinə rast gəlinməyib. Beyləqanın VI-VII əsrlərə aid mədəni təbəqəsində də bişmiş kərpic qalıqlarına təsadüf edilməmişdir. Oradakı ilk orta əsr dulus kürələrinin də istisnasız olaraq hamısı tərkibində saman qarışığı olan çiy kərpiclə tikilib. Bütün bunları nəzərə

alan tədqiqatçı K.M.Məmmədzadə Azərbaycan ərazisində bişmiş kərpic istehsalına VIII əsrdən etibarən başlandığını göstərir [12, s.256].

Başqa sözlə, inşaat keramikasının əsas növü sayılan bişmiş kərpic Azərbaycanda əsas etibarilə VIII əsrdən istifadə olunmağa başlanıb, X əsrdən etibarən isə memarlıqda çox geniş istifadə edilib. Bunu Örənqala qazıntılarından da aydın görmək mümkündür [97, s.89].

Arxeoloq F.V.Qədirov tərəfindən 1964-cü ildə Qəbələ şəhər xarabalığından 8 km cənubda yerləşən və həmin vaxta qədər tədqiq olunmamış Pirəşərif abidəsində qazıntı aparılarkən bu abidənin ikimərtəbəli tikili olması müəyyən olunub. Burada kvadrat formalı olmaqla yeri bilinən üç otaq qeydə alınıb. Abidənin Savalan və Əlvan adlı keçidlərdən gələn yolların qarşısında olmaqla əlverişli yerdə inşa edilməsi yadelli hücumlarından mühafizə üçün bir məntəqə olma ehtimalını da istisna etmir. Maraqlıdır ki, Pirəşərif abidəsi də yalnız bişmiş kərpicdən inşa olunmuş və həmin kərpiclərin hörgüsü zamanı kirəc məhlulundan istifadə edilib. Tədqiqatlar zamanı eyni zamanda həmin abidənin bünövrəsinin də bişmiş kərpicdən hörülməsi təsdiqlənmişdir. Kərpiclər kvadrat formalı olmuş, ölçüləri isə 22X22X6 və 22X22X7 sm olmuşdur [90, s.200-204]. Xatırladaq ki, tədqiqatçı İ.P.Şeblıkin Qəbələnin qala divarlarının qalıqlarını öyrənərək orada istifadə olunan kərpiclərin bir sıra səciyyəvi xüsusiyyətlərini göstərmişdir. Yuxarıda bəhs olunan həmin kərpiclər İ.P. Şeblıkinin tədqiqatında göstərilmiş Qəbələnin qala divarlarının inşası zamanı istifadə olunan kərpiclərlə eyniyyət təşkil edir [191, c.92-93].

XI-XIII əsrlərə aid Qəbələnin inşaat materialları ilə digər orta əsr şəhərlərinin, o cümlədən Örənqalanın tikinti materialları oxşarlıq təşkil edir. Qəbələdə bu dövrdə divar hörgüsü üçün yonulmuş əhəngdaşı və bişmiş kərpicdən (22-24 X 24-22 X 5-4,5) geniş istifadə edilirdi. Bəzən bu tikinti materiallarının kombinasiyalarından (çaydaşı, əhəngdaşı və bişmiş kərpic) növbəli şəkildə istifadə olunub. Təsadüfi deyildir ki, 1973-cü ildə Qəbələdə aparılan qazıntılar zamanı aşkar olunmuş inşaat keramikasına aid nümunələr əsasən bişmiş kərpicdən, göy və ya bənövşəyi şirlə örtülmüş iri və kiçik plitələrdən və kirəmit parçalarından ibarətdir [124, c.45; c.47].

Beyləqanda aparılan arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, şəhərin qala darvazasının bürcündə əsasən möhrə, çiy və bişmiş kərpiclərdən istifadə edilmişdir. Bürclərin içərisi çiy kərpic və möhrə ilə hörülüb. Darvaza və xəndək tərəfdən isə ona bişmiş qırmızı kərpicdən üz çəkilib [98, s.16]. Bu sözsüz ki, ayrı-ayrı bölgələrdə yerli material ehtiyatlarının əlçatanlıq dərəcəsindən asılı olub. Yəni, çay daşı ehtiyatları olmayan yerlərdə təbiidir ki, möhrə və ya çiy kərpicə üstünlük verilib. Dövrün Örənqala tikililərinə nəzər salsaq, burada həm müdafiə məqsədilə inşa olunmuş divarlar, həm də yaşayış və ictimai binaların divarları əsasən, xam, qarışıq və kərpic olmaqla üç hörgü növünü əhatə edib.

Tədqiqatçı K.M.Məmmədzadə memarlıq abidələrində divar hörgülərini orada istifadə olunmuş inşaat materiallarına görə 5 növə ayırıb: 1. Möhrə hörgüsü. 2. Çiy kərpic hörgüsü. 3. Bişmiş kərpic hörgüsü. 4. Daş hörgü. 5. Qarışıq hörgü. Onun fikrincə, bişmiş kərpicdən istifadə olunması inşaat sənətinin inkişafına, inşaat üsulları və konstruksiyalarının dəyişməsinə, bunlar da öz növbəsində tikintilərin bədii quruluşunun yaxşılaşmasına səbəb olmuşdur. XI-XII əsr tikintilərində istifadə olunmuş bişmiş kərpiclərin ölçüsü 22-28 sm arasında dəyişir. Belə kərpiclərin ölçüsünün çiy kərpiclərlə müqayisədə nisbətən azalması onun hər tərəfdən eyni dərəcədə bişməsini təmin etmək üçün idi [97, s.84-88]. Qəbələ tikintilərində istifadə olunmuş bişmiş kərpic nümunələrinin ölçüləri daha çox 20X25X5 sm arasında dəyişir.

Azərbaycanda inkişaf etmiş orta əsrlər dövrü bütövlükdə şəhər mədəniyyətinin və şəhər sənətkarlığının yüksəliş dövrü idi. Bu dövrdə Gəncənin, Beyləqanın, Şəmkirin qala divarları möhkəmləndirilmiş, bir sıra hallarda çiy kərpicdən inşa edilmiş köhnə qala divarları bişmiş kərpiclə yenidən hörülmüşdür. Bu zaman 24X24X5 sm və 26X26X5 sm ölçülü bişmiş kərpiclərdən xüsusilə geniş istifadə olunub [38, s.51]. Tədqiqatlar göstərir ki, ilk vaxtlar bişmiş kərpicdən inşaat materialı olaraq digər inşaat materialları (daş, gil, möhrə, çiy kərpic və s.) ilə birlikdə istifadə olunub.

XII-XIII əsrlərdə nəinki Azərbaycanda, digər qonşu ölkələrdə də inşaat keramikası sahəsində inkişafın olduğu maddi-mədəniyyət

nümunələri əsasında müəyyən olunub. Bu dövrdə Moskvada Dulusçu qəsəbəsində nəinki dulusçuluq məhsulları hazırlanır, eyni zamanda kərpic, döşəmə üçün plitə, dam üçün plitələr, keramik boru kimi materiallar da istehsal edilib. Binaların tikintisində nisbətən kiçik ölçülü kərpiclərdən (21-23 X 9-11 X 4-5) istifadə olunmuş, şəhər sənətkarlarığında isə kərpic istehsalı tədricən genişlənmişdir [184, c.95-97].

Tədqiqatlar göstərir ki, hələ X əsrin əvvəllərindən başlayaraq bişmiş kərpicdən istifadə ornamental üsulların inkişafına böyük təsir göstərmişdir. İlk kərpic ornamentlərlə bəzəmə növü sadəşəkilli kərpic üzlüyü sayılırdı. Bu bir-birini əvəz edən şaquli və üfüqi vəziyyətdə qoyulmuş kərpiclərdən ibarətdir. Belə üsul divar səthlərini sadə naxışla bəzəməyə imkan verirdi. Divar hörgülərində fiqurlu kərpicdən hörgünü canlandıran frizlər də düzəldilirdi. Müxtəlif, xüsusilə yolkaşəkilli, həndəsi naxışlar bir müstəvidə bir neçə kərpicin xaricə çıxması və o birilərinin daxilə batması ilə düzəldilirdi. Bu Qəbələnin cənub qala divarlarında və bürclərində aydın müşahidə olunur. İ.P.Şeblıkinin yazdığına görə Qəbələnin cənub qala divarlarının tikintisində ölçülərinə görə fərqlənən 15 növ kərpicdən istifadə olunub [191, c.90-94]. Qalanı inşa edən ustalar bişmiş kərpiclərin ölçü və düzülüş müxtəlifliyindən məharətlə istifadə etməklə sözün əsil mənasında nadir memarlıq nümunəsi yarada bilmişlər. Zəngin və rəngarəng memarlıq üslubu qala bürclərində daha aydın müşahidə olunur.

Xatırladaq ki, Qəbələdə aparılmış uzunmüddətli tədqiqatlar İ.P.Şeblıkinin kərpiclərin növ müxtəlifliyi ilə bağlı göstərdiyi rəqəmin o qədər də real olmadığını göstərir. Çünki, nümunələri təhlil edərkən əsasən 20X20X5, 21X21X5, 22X22X5, 25X25X5, 27X27X5 və 28X28X5 sm ölçülü kərpiclərə daha çox rast gəlinib. Kərpiclərin növ müxtəlifliyinə gəlincə isə bu ustanın qabaqcadan hazırladığı qəlibdən asılı idi.

Qeyd edək ki, inşaat sənətinin görkəmli tədqiqatçısı K.M.Məmmədzadə Örənqala tapıntılarına əsasən naxışlı hörgünün həm adi kərpiclə, həm də fiqurlu kərpiclə geniş tətbiq edildiyini bildirir. Belə ki, divarların kərpic hörgüsünün bəzədilməsi təkcə fiqurlu kərpicdən şaquli birləşmələrlə istifadə ilə məhdudlaşmırdı. Fiqurlu kərpic hörgünü tamamilə canlandırırdı. Beyləqandakı XI əsrə aid hamam binasında

naxışlı hörgü geniş tətbiq edilib. Hörgü zamanı hər bir təkrarlanan element üfüqi vəziyyətdə olan kərpiclə şaquli vəziyyətdə olan kərpicin simmetrik birləşməsindən əmələ gəlmişdir [170, c.172-173].

Yeri gəlmişkən son vaxtlaradək Qəbələnin cənub qala divarları və bürclərinin tikilmə tarixi ilə bağlı müxtəlif, həm də ziddiyyətli fikirlər söylənilməkdə idi. Lakin, professor Q.C.Cəbiyevin 2018-2021-ci illərdə Qala ərazisində aparmış olduğu tədqiqatlar nəticəsində bu məsələyə elmi cəhətdən aydınlıq gətirilmişdir. Belə ki, professor Q.C.Cəbiyevin fikrincə, X əsrin sonu, XI əsrin əvvəllərində Qala Səlbirdən ayrıldığı dövrdə, başqa sözlə Qalanın şimal divarları inşa edilərkən şəhərin qala divarları bütövlükdə ilkin bünövrə üzərində olmaqla bişmiş kərpicdən istifadə edilərək tikilib.

Xatırladaq ki, belə memarlıq üslublu qala divarlarına Qəbələ ilə yanaşı, Gəncə, Şəmkir, Naxçıxan və Örənqala tikintilərində də təsadüf olunur. Qeyd edək ki, Azərbaycanın əksər şəhərlərində divarların memarlıq baxımından belə bəzədilməsi ənənəsi bu gün də davam etdirilməkdədir.

Artıq yuxarıda qeyd olunduğu kimi Qəbələ şəhər yerində aparılmış arxeoloji tədqiqatlar zamanı istər Qala, istərsə də Səlbir ərazisində XI-XIII əsrlərə aid xeyli sayda bişmiş kərpic nümunələri, hörgü və divar qalıqları aşkar olunmuşdur. Həmin nümunələrə əsasən arxeoloqlar XI-XIII əsrlər dövrünün inşaat keramikasının başlıca xarakterik xüsusiyyətlərini, eyni zamanda tikintilərin hansı məqsədlə inşa olunduğunu, memarlıq üslubunu müəyyən etməyə cəhd göstərmişlər. Əldə olunan kərpic nümunələri fərqli ölçüdə olmalarına baxmayaraq daha mükəmməl hazırlanmaları və möhkəmliyi ilə seçilir. Bədii cəhətdən cəlbediciliyini təmin etmək məqsədi ilə bəzi hallarda onların üzərinə hətta naxışlar da vurulurdu. Bu əlamət artıq yerli ustaların bu sahədə əvvəlki dövrlərə nisbətən daha çox peşəkar olduğunu göstərir.

Azərbaycanda demək olar ki, bütün orta əsr şəhərlərində tikilən məscidlərdə, türbələrdə, hamamlarda, saraylarda və digər ictimai binalarda bişmiş kərpicdən geniş istifadə olunub. Ərəb müəlliflərindən Əl-Müqəddəsi, Həməvi və başqaları Azərbaycan şəhərlərində bişmiş

kərpicdən inşa edilmiş və kaşılarla bəzədilmiş binaların olduğunu qeyd etmişlər. XII əsrin axırı, XIII əsrin əvvəlində yaşamış Yaqut Həməvi yazır ki, *"Təbriz çox əhaliyə malik gözəl bir şəhər olub, bu şəhərin kərpicdən tikilmiş evləri kaşılarla bəzədilmişdir"* [38, s.66]. Eyni sözləri Gəncə, Naxçıvan, Beyləqan, Şəmkir, Qəbələ, Şabran barəsində də demək olar. Arxeoloji tədqiqatlar zamanı Kürdəmir rayonu ərazisindəki Şəhərgah adlı şəhər yerində də XI-XII əsrlərə aid kərpicdən inşa olunmuş möhtəşəm tikinti qalıqları qeydə alınıb [27, s.261-266].

Öz formasına görə Qəbələ tikililərinin naxışlı hörgüsü müəyyən qədər Örənqalada və Qədim Gəncədə aşkarlanmış analoji hörgülərlə oxşarlıq təşkil edir. Lakin hörgülərin naxışlarında bəzi fərqli motivlər vardır. Bu da ondan ibarətdir ki, Qəbələ hörgüsü başlıca olaraq küknar formalı naxışlardan ibarətdir. Örənqala və Köhnə Gəncə divarlarının naxışları isə küknar formada olmaqla yanaşı, meandra yaxın pilləli naxış formasında da işlənmişdir [164, c.81].

Qəbələnin XI-XIII əsr tikintilərində əsasən az qalınlıqlı kvadrat kərpiclər daha geniş yayılıb. Ümumiyyətlə, kvadrat şəkilli bişmiş kərpicdən hələ qədim zamanlarda ön Asiyada istifadə edilmişdir. Kərpicin çəhrayı və tünd qırmızı rəngli olması onun bişmə dərəcəsinin göstəricisidir. Yüksək keyfiyyətli kərpicin hazırlanması orta əsrlərdə çox böyük müvəffəqiyyət qazanmışdır. Kvadrat formalı kərpiclə hörgü tikişlərini bağlamaq üçün yarımkərpic hissələr tələb edilməsinə baxmayaraq, bu forma Azərbaycan və Orta Asiyada geniş istifadə olunub.

Müqayisələr göstərir ki, Qəbələnin kərpicləri çəhrayı və tünd qırmızı rəngdə olmaqla daha keyfiyyətli hazırlanmış və yaxşı bişirilmişdir. Onların formasına gəldikdə isə kvadrat şəkilli və düzbucaqlı formada olmuş, bəzən isə kərpiclərin üzəri yonulmaqla onlara bəzək vurulmuşdur. Kərpiclərin üzərində itibucaqlı ulduz formalı bəzəklərə də rast gəlinirdi. Xatırladaq ki, kərpiclərin ölçüsü uzun müddət stabil qalmışdır. Orta əsr şəhərlərində hörgünün əsasını təşkil edən kvadrat formalı kərpiclərdən başqa, türbələrdə ornament bəzəyi və üzlük məqsədi ilə müxtəlif forma və ölçülü kərpiclərdən də istifadə edil-

mişdir. Uzunluğu müxtəlif, qalınlığı isə 3,5 sm olan bu tip kərpiclərdən Möminə Xatun türbəsinin üzlük bloklarında da istifadə olunub.

Məlum olduğu kimi qalın olmayan kvadrat formalı kərpiclərdən Örənqala tikililərində də geniş istifadə olunub. Mütəxəssislərin fikrincə, kərpicin hamar forması binanın davamlılığını və seysmik şəraitə dözümlülüyünü şərtləndirirdi.

İnşaat keramikasının tədqiq olunması zamanı diqqət çəkən əsas məqamlardan biri də dövrün inşaat materiallarının istehsal texnologiyasıdır. Qəbələdən tədqiq olunan dövrə aid aşkar olunmuş çoxsaylı bişmiş kərpic nümunələri onu deməyə əsas verir ki, burada binalar inşa olunarkən istifadə edilmiş kərpiclər şəhərin özündə hazırlanmışdır. Təsadüfi deyildir ki, aparılmış arxeoloji tədqiqatlar zamanı istehsalat ocaqlarının, o cümlədən dulus kürələrinin aşkar olunması məmulatların necə bişirilməsi və istehsalı barədə aydın təsəvvür yaradır.

1982-ci ildə arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə Qəbələ arxeoloji ekspedisiyasının Səlbir dəstəsi Covurlu çayın sol sahilində "Yanıq yer" adlanan ərazidə arxeoloji qazıntılar aparmış və orada XI-XII əsrlərə aid iki ədəd dulus kürəsi aşkar edilmişdir. F.V.Qədirovun fikrincə, şimal tərəfdə olan kürə kərpic kürəsi olub.

Dulus kürəsinin şimal divarı oradan müəyyən olunmuş kərpic kürəsinin cənub divarını əhatə edir. Hər iki kürəni birləşdirən bu divarın eni 85 sm-dir və 27X27X5 sm ölçüyə malik olan bişmiş kərpiclərlə hörülüb.

Kərpic kürəsinin (Şəkil 3.1.17) odluq yerinin sağ və sol tərəfində duzbucaqlı formalı bişmiş kərpicdən sütunlar var. Dulus kürəsi ilə kərpic kürəsinin odluq yerləri arasında hava axınının yaranması ocağın daha yaxşı yanmasına şərait yaradırdı [81, s.45-49].

Kərpic kürəsi dulus kürəsinin oxşarı olmaqla düzbucaqlı formadadır və iki kameradan ibarətdir. Ənənəvi olaraq alt kamera xam torpaqda yerləşir (Şəkil 3.1.18). Yeri gəlmişkən qeyd edək ki, kərpic kürəsi ölçülərinə görə dulus kürəsindən böyükdür, kürənin qərb divarının uzunluğu 4,25 m, şərq divarının uzunluğu 4,15 m, şimal divarının uzunluğu 2,7 m, cənub divarının uzunluğu isə 2,8 m-dir. Bu kürənin tağvari boşluqları doqquz cərgədən ibarətdir. Alt kamera ilə üst

kameranı əlaqələndirən boşluqların eni orta hesabla 26 sm-dir. Digər fərq odur ki, kərpic kürəsinin odluq yeri dairəvidir və hətta, orta boylu bir nəfərin oraya daxil olması mümkündür. Eyni zamanda alov gözləri olmadığı üçün oradan çıxan daha geniş alov qabların bişirilərkən ötməsinə səbəb olar deyə burada digər saxsı qabları bişirmək demək olar ki, mümkün deyil.

Maraqlıdır ki, qeydə alınan kürədən xeyli miqdarda gil kütləsi və bişmiş kərpic qalığı da aşkar olunub. Kürədə nisbətən yaxşı qalmış kərpiclərin hamısı 25X25X5 sm ölçüdədir. Kərpiclər kürəyə elə düzülüb ki, boşluqlar boyu hər 25 sm məsafədə bir alov gözü yaranır. Kürənin tədqiqatçısı arxeoloq F.V.Qədirov göstərir ki, belə alov gözləri əvvəlcədən deyil, bişirmək üçün düzülən kərpiclərdən istifadə etməklə hazırlanır. Arxeoloq həmçinin, kərpic kürəsində bir dəfə istifadə zamanı nə qədər kərpic bişirilməsini də müəyyən edib. Bunun üçün isə kərpiclərin eni və qalınlığının ölçüsü ilə kürənin eni və uzununun ölçüsünün hasilini əsas götürüb. Kürənin eni 2,8 metrdirsə, oraya kərpiclər qalınlığa görə tili üzərində düzülməklə onların hər birinin qalınlığı 5 sm-dirsə, onda 2,8 metr məsafəyə 58 kərpicin düzülməsi mümkündür.

Kürənin üst kamerasının döşəməsinə düzülmüş kərpiclərin bir qatının sayını müəyyən etmək üçün mütləq şimaldan cənuba doğru uzununa olan ölçünü və bu məsafədə kərpiclərin tili üzərində eninə düzülüşü nəzərə alınmalıdır. Hər kərpicin eni 25 sm olduğu üçün uzununa olan məsafənin hər metrinə 4 cərgə kərpic düzmək olar. Kərpic kürəsinin uzunluğu 4,25 metr olduğundan, hər metrəyə 4 cərgə kərpic düzülərsə, 4,25 metr məsafəyə 17 cərgə kərpic düzülə bilər. Belə olduqda bir qata düzülən kərpicin sayını bilmək üçün eninə düzülmüş kərpiclərin sayını (58), uzununa düzülən kərpiclərin sayına (17) vurmaq lazımdır. Buradan məlum olur ki, kürədə yerləşdirilən bir qat kərpicin sayı 986-dır.

Sözsüz ki, bişirilmək məqsədi ilə kürəyə yığılan kərpiclərin ölçüsü müxtəlif olarsa, ona müvafiq olaraq tutumu da dəyişə bilər. F.V.Qədirovun hesablamalarına görə onun birdəfəlik tutumu (986X15) 14790 ədəd kərpicə hesablanıb. Bu ölçüsü 25X25X5 sm olan kərpiclərə aiddir.

Deyilənlərə onu da əlavə edək ki, qeyd olunan kürə təmizlənərkən oradan xeyli miqdarda bişirilərkən yanıb ötmüş və əriyərək daşlaşmış gil kütləsi tapılıb (Şəkil 3.1.19). Kirəmit qırıqları və tısbağa çanağı isə kürələrin üst hissəsindən aşkarlanıb (Şəkil 3.1.20).

Son olaraq onu da bildirək ki, bəhs olunan kürələr tikilərkən 27X27X5 sm və 28X28X5 sm ölçülü kərpiclərdən istifadə olunmuş, bişirilmiş kərpiclər isə 25X25X5 sm ölçüyə malik olmuşdur. Müşahidə və tədqiqatlar göstərir ki, iri ölçülü kərpiclərdən daha çox orta əsrlərin ilkin dövründə, kiçik ölçülü kərpiclərdən isə orta əsrlərin sonrakı dövrlərinə aid tikintilərdə istifadə olunub. XI əsrin əvvəlində Qəbələ feodal hakimliyi ilə Şirvanşahlar arasında olan hərbi qarşıdurma Qəbələdə olan kürələrin məhvinə səbəb oldu [81, s.49-54].

Xatırladaq ki, orta əsrlərdə Təbrizdə də kərpic kürələrindən geniş istifadə olunub. Orada əsasən qırmızı kərpic bişirilmişdir. Təsadüfi deyildir ki, bu tarixi şəhərin binalarının əksəriyyəti kərpicdən istifadə olunmaqla inşa edilmişdir [106, s.127].

Məlumdur ki, ocaqda oda yaxın qoyulmaqla yaxşı bişirilən kərpic daha möhkəm və davamlı olur, ocaqdan kənarda olan kərpic isə keyfiyyətcə nisbətən zəif olur. Kərpiclərin hazırlanmasını müqayisə etsək, qeyd etmək lazımdır ki, Gürcüstanın Dmanisi şəhərindən aşkar olunmuş kərpiclərin hazırlanmasında böyük həcmdə qum qarışığı olan gildən və xırda doğranmış çay daşından istifadə olunub. Onun gili təmizlənməyib, yəqin ki, elə hazır şəkildə mədəndən çıxarılaraq istifadə olunub və əllə sıxılaraq qarışdırılıb [169, c.11].

Yuxarıda deyilənlərə əsasən belə qənaətə gələ bilərik ki, orta əsrlərdə, xüsusən də XI-XIII əsrlərdə monumental memarlığın forma və texnikasının inkişafı əsas tikinti materialı olan bişmiş kərpicdən istifadə imkanlarının artması ilə sıx bağlıdır. Sözsüz ki, kərpic texnikasının inkişafına Azərbaycanın təbii şəraiti, o dövrdə ağac materialının az olması və düzənlik yerlərdə daşın olmaması zərurət yaradıb. XI-XII əsrlərdə bişmiş kərpic istehsalında sıçrayışlı bir inkişaf olmuş, bu zəmində də tikinti üsulları və konstruksiyalarında dəyişiklik baş vermişdir. Konstruksiyanın tam çılpaqlığı, hər kərpicin görünməsi hörgünün çox dəqiq aparılmasını vacib edirdi. Bununla da ustanın

düşüncəsi aydın və inamlı görünürdü. Dövrün memarlıq abidələrində bişmiş kərpicdən istifadə etməklə aparılan tikinti işlərində yapışdırıcı və bərkidici material kimi əsasən gəc və əhəngdən istifadə edilmişdir. İnşaat gəcinin 250-300 dərəcə temperaturda bişirilməsi onun mexaniki möhkəmliyini artırırdı. Gəc gipsə nisbətən suya davamlı və möhkəm olurdu. Tədqiqatçıların fikrincə, gəc-əhəng məhluluna xırdalanmış kərpic də əlavə edilirdi və belə tərkib Xorasanda yarandığına görə "xorasanı" adlanırdı. Gəc indi də Cənubi Qafqazda və Orta Asiyada geniş yayılıb. Orta Asiyada gəc məhluluna xırdalanmış kərpic, ağac kömürü və yandırılmış od külü də əlavə edildiyi bildirilir. N.M. Baçinskinin fikrincə, xırdalanmış kərpic və kömür gəc məhlulunun nəmliyə qarşı möhkəm olmasına kömək edirdi [97, s.13-14; s.17].

Azərbaycan ustaları XI-XIII əsrlərdə daşdan və kərpicdən inşaat materialı kimi eyni dərəcədə divar və üzlüklərdə istifadə etmişdir. Kərpicdən tikilən türbələr konstruksiyasına görə əsas divar massivindən və üzlükdən ibarət idi [188, c.266-268].

Müxtəlif illərdə S.M.Qazıyev, Ö.Ş.İsmizadə, Q.M.Əhmədov, F.V.Qədirov, Q.C.Cəbiyev tərəfindən Qala və Səlbir ərazisində tədqiqatlar aparılarkən bişmiş kərpicdən istifadə olunmaqla tikilən bina qalıqları ilə yanaşı, su arxları, döşəmə qalıqları, təndirlər də aşkar olunub.

Məsələn, arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə 1976-cı ildə Səlbirdə aparılan qazıntılar zamanı digər nümunələrlə yanaşı, ölçüsü 21X21X5 sm olan bütöv kərpiclər, kərpic fraqmentləri və divar bünövrəsinin qalıqları aşkar olunmuşdur [91, s.5]. Oxşar nümunələr 1977-ci il qazıntıları zamanı da aşkar olunub. Tapılmış təndirlərdən birinin içərisinin 25X25X5 sm ölçülü bişmiş kərpiclə döşəndiyi müəyyən olunub [84, s.22].

Maraqlıdır ki, Səlbirdə aşkar olunan təndirlər tədqiq olunarkən onlardan birinin içərisində gil qablar da müəyyən olunub. Tədqiqatçı K. Xatisov apardığı etnoqrafik müşahidələr əsasında 1891-ci ildə yazmış olduğu hesabatında təndirlərdə əsasən böyük həcmli deyil, xırda gil qabların bişirildiyini göstərmişdir [189, c.338].

Professor Q.C.Cəbiyevin rəhbərliyi ilə 2009-cu ildə Qalada VI qazıntı sahəsində qala divarının qalıqları və divarları bişmiş kərpicdən hörülmüş kiçik bir otaq aşkara olunub (Şəkil 3.1.5). Otağın uzunluğu 3, eni 1,5 m olmuş və burada qala gözətçiləri tərəfindən keşik çəkildiyi ehtimal olunur [70, s.312-313; s.345]. Burada eyni zamanda ilk dəfə olaraq bir-birinin yaxınlığında olmaqla 2 hamam otağı aşkara çıxarılaraq tədqiq olunub (Şəkil 3.1.3). Həmin otaqlardan birinin yeri bişmiş kərpiclə, ikincisinin yeri isə xüsusi olaraq hazırlanmış saxsı plitələrlə döşənib [70, s.355; s.372].

2013-cü ildə VI qazıntı sahəsində tədqiqatlar davam etdirilərkən orada kərpiclə hörülmüş kanalizasiya qalıqlarına da rast gəlinib. Buradan aşkar olunmuş 1 ədəd ortası deşilmiş kərpic nümunəsi diqqəti cəlb edir (Şəkil 3.1.11). Kvadrat formalı bu kərpicin orta hissəsinin deşik olması onun trap funksiyasını həyata keçirməklə həmin oyuğun suyun axmasına xidmət etdiyini deməyə əsas verir [72, s.119].

Maraqlıdır ki, döşəməyə kərpiclərin vurulması, onların düz və səliqəli olaraq kəsildikdən sonra işlənilməsi aydın şəkildə görünür (Şəkil 3.1.1; 3.1.2; 3.1.4). Hörgü zamanı bərkidici material kimi gəcdən istifadə olunmuşdur ki, bu da hörgünü daha möhkəm və davamlı edirdi [70, s.373-374].

Qala ərazisində 2011-ci ildə VI qazıntı sahəsində tədqiqatlar davam etdirilərkən oradan qalınlığı 5, uzunluğu isə 18 sm olan kərpic nümunələri aşkar olunub (Şəkil 3.1.6) [75, s.262]. Həmin nümunələrdən birinin üzərində bəzək funksiyasını yerinə yetirən naxışların olması diqqət çəkir. Bəzəyin ulduza bənzər olması aydın seçilir.

2013-cü ildə VI qazıntı sahəsi tədqiq olunarkən divar və döşəmələr, bişmiş kərpicdən inşa edilmiş bir neçə bina qalıqları da müəyyən olunub. Binaların həyətinə bişmiş kərpic döşənmişdir (Şəkil 3.1.7; 3.1.8; 3.1.9) [72, s.109; s.110-112; s.116]. Tikilinin həyətinə döşənmiş bişmiş kərpiclər səliqəli və ardıcıl düzülməsi ilə diqqət çəkir (Şəkil 3.1.10) [72, s.117].

Kərpiclərin üzərinə naxış vurulması hallarına bir neçə digər nümunələrdə də rast gəlinmişdir. Bu naxışların bəziləri qəlibdə tökülüb, bir qismi isə sonradan iti uclu əşya ilə oyulmuşdur. Maraqlıdır ki, qa-

zıntılar zamanı belə qəlib nümunələri də aşkar olunub [71, s.289]. Orta əsr sənətkarları kərpiclərin üzərinin bəzədilməsi zamanı "çınağı naxış" adlanan naxışlardan daha çox istifadə ediblər. Qəbələ, Şabran və digər orta əsr şəhərlərindən aşkar olunmuş nümunələr buna misal ola bilər [92,s.184]. Arxeoloq T.M. Dostiyev qeyd edir ki, *"Çınağı naxış" kərpiclərin üfüqi olmaqla tini üzərində və dik formada düzülməsi ilə yaradılır"*[32, s.104].

Xatırladaq ki, XIII əsrə qədər orta əsr şəhərlərində çox geniş yayılmış döşəmə növü qat şəklində qoyulmuş gil olsa da, kərpic səkilər də qeydə alınıb. Hətta, Örənqalada bişmiş kərpiclə asfaltlamanın olması da müəyyən edilib. Ehtimal edilir ki, tikintinin döşəməsini rütubətdən qorumaq üçün yerə qamış və saman hörülərək döşənirdi [170, c.174].

2013-cü ildə C.T.Eminli tərəfindən Səlbir ərazisində tədqiqatlar davam etdirilərkən orada səkkizguşəli hovuz aşkar olunub. Divarları əsasən çay daşından olan hovuzun tikintisində bişmiş kərpicdən də istifadə olunub (şəkil 3.1.14; 3.1.15) [72, s.100-101].

Qeyd olunanlar onu deməyə əsas verir ki, XI-XIII əsrlərdə də Qəbələdə əsas tikinti və hörgü materialı bişmiş kərpic olmuşdur. Bişmiş kərpic ümumi tikinti işində geniş istifadə olunmaqla yanaşı, həm də tikilinin və ya hörgünün xarici səthinin bəzədilməsində də xüsusilə geniş tətbiq olunurdu. Yuxarıda qeyd olunanlar bir daha Qəbələdə divarların fasad hissəsinin də digər şəhərlərlə müqayisədə fərqli olduğunu göstərir. Bu da yerli ustaların tikinti işində xüsusilə peşəkar olduqlarını və iş prosesində yeni forma və metodlardan istifadə etdiklərinə dəlalət edir.

Dövrün inşaat sənətində kərpic əsas rol oynamaqla əvəzsiz inşaat materialı idi. Bəhs olunan tikinti üsulları bu günümüzə qədər gəlib çatmaqla yanaşı, eyni zamanda xalqın uzun illər boyu toplanmış tarixi təcrübəsini özündə əks etdirir.

## 3.2. Kaşılar

XI əsrdən etibarən şirli keramikanın kaşı adlanan növü Azərbaycan memarlığında geniş tətbiq edilməyə başlanıb. Üzərinə şir çəkilmiş kvadrat və düzbucaqlı gil lövhələr dulus kürələrində bişəndən sonra parlaq rəng alıb. Belə lövhələrə kaşı deyilir. Memarlıq abidələrinin əsasən interyerinin və fasadının bəzədilməsində rəngarəng çeşidli kaşılardan geniş istifadə olunurdu. Kaşının başqa bir növü də var ki, buna mayolika deyilir. Mayolikada gil lövhə üzərinə müxtəlif rəngli şir çəkilir. Belə lövhələr kürədə bişəndən sonra füsunkar gözəlliyə malik olan rəngarəng və parlaq bədii kompozisiyalara çevrilir [38, s.47].

XII əsrdən etibarən inşaat işlərində kərpic memarlığı inkişaf etdikcə kərpic istehsalı da zərurətə çevrilmişdir. Belə şirli üzlük kərpiclərdən Azərbaycanın orta əsr şəhərlərində geniş istifadə olunub. Şirin rəngi adətən mavi və firuzəyi olurdu. Professor T.M. Dostiyev haqlı olaraq qeyd edir ki, "*Şirli kərpiclərin meydana gəlməsi kaşıların hazırlanmasına və sonrakı inkişafına zəmin yaratmışdır* [32, s.107].

Kaşılardan bəzək-inşaat materialı olaraq XI-XIII əsrlərdə inşaat işlərində geniş istifadə olunurdu. Kaşının möhkəmliyində şir məhlulu ilə saxsının temperaturda genişlənmə əmsallarının yaxınlığı mühüm rol oynayır. Əks halda kaşının üzərindəki şir örtüyü çatlayaraq öz keyfiyyətini və davamlılığını itirə bilərdi [97, s.96-97]. Orta əsr tikililərində böyük ölçülü kvadrat kərpiclərdən istifadə olunma ənənəsi xeyli müddət davam edib. Təsadüfi deyildir ki, kaşı inşaat materialı olaraq ilk dəfə Azərbaycanın orta əsr şəhərlərinin memarlıq abidələrində istifadə olunub [100, s.115].

Kaşı üzlüklərdən əsas etibarilə məscid, türbə, hamam və saray tipli binaların bəzədilməsində istifadə olunurdu. Yuxarıda qeyd olunduğu kimi ərəb müəlliflərindən Əl-Müqəddəsi, Yaqut əl-Həməvi orta əsr Azərbaycan şəhərlərində binaların inşası zamanı bişmiş kərpiclərdən istifadə olunmasını göstərməklə yanaşı, xüsusilə, tikililərin fasadının bəzədilməsində kaşılardan da istifadə olunduğunu bildirirlər.

Təsadüfi deyildir ki, Azərbaycanın kobalt ehtiyatları ilə zənginliyi də öz növbəsində həm də rəngarəng çeşidli kaşı istehsalını şərtləndirirdi [14, s.37]. Müxtəlif şəhərlərdə o cümlədən, Qəbələdə hamam və binaların bədii tərtibatında işlənmiş müxtəlif rəngli (xüsusən abı, göy, firuzəyi) kaşılardan istifadə edilib.

Məsələn, arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə 1976-cı ildə Səlbirdə aparılan qazıntılar zamanı öyrənilən mədəni təbəqənin üst hissəsindən şirli gil qablara aid nümunələr və kərpiclərlə yanaşı, çoxlu sayda kaşı qırıqları da aşkar olunmuşdur. Həmin kaşıların üzəri göy, qara və ağ rəngli şirlə örtülmüşdür. Kaşıların formaca əsasən dördkünc olduğu bildirilir [91, s.11].

2013-cü il qazıntıları zamanı aşkar olunmuş bir neçə kaşı nümunəsi qeyd olunanların bariz nümunəsidir (Şəkil 3.2.1). Təqdim olunan kaşı nümunələrindən birinin ölçüləri 3,8 X 4 X 1,5 sm, digər nümunənin isə ölçüləri 3,8 X 4 X 1,3 sm-dir [72, s.109-110;s.267]. Hər iki nümunənin üzəri açıq firuzəyi rəngdədir. Onlardan əsas etibarilə divarların bəzədilməsində istifadə olunmuşdur.

Qalada 2019-cu il qazıntıları zamanı aşkar olunan ütüyəbənzər formalı kaşı parçası XII əsrə aiddir (Şəkil 3.2.5). Kaşının yastı və hamar olan üzü yaşımtıl şirlənib, divara oturan hissəsi isə nisbətən qabarıq formadadır. Kaşı parçasının gilinin tərkibi nahamardır. Belə kaşılardan əsasən divarlarda, xüsusən daha çox məscidlərin divarlarında bəzək olaraq istifadə olunub. Eni 3,8 x 4 sm, qalınlığı 1,3 sm-dir. Həmin yerdən aşkar olunan başqa bir kaşı nümunəsinin hörgünün içərisində qalan hissəsi nisbətən qabarıq, çöl tərəfdə olan üzlük hissəsi isə yastı formalıdır. Kaşının üzərinə çəkilmiş göyümtül rəngin az bir hissəsi qalıb (Şəkil 3.2.6). Göründüyü kimi son illərdə Qala ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı çoxlu sayda kaşı nümunəsi aşkar olunub (Şəkil 3.2.2) [73, s.193]. Bu kaşı nümunələrinin üzəri mavi rəngli şirlə boyanmış və dördkünc formadadır. Həmin yerdən aşkar olunmuş digər kaşı nümunəsi tünd göy rənglə şirlənmiş və dövr etibarilə XI-XIII əsrlərə aiddir (Şəkil 3.2.3). Nümunənin uzunluğu 7, eni 5, qalınlığı 4 sm-dir [74, s.130]. 2017-ci ildə Səlbirdə aparılan arxeoloji qazıntılar zamanı aşkar olunmuş digər kaşı nümunəsi isə əv-

vəlkilərə nisbətən uzun olması ilə diqqət çəkir (Şəkil 3.2.4). Dövr etibarilə XII-XIII əsrlərə aid olan bu kaşı nümunəsinin uzunluğu 22,3, eni isə 3,8 sm-dir [74, s.60].

Tədqiqatlar göstərir ki, Bakı, Gəncə, Naxçıvan, Şəmkir, Şamaxı, Şabran, Dərbənd, Təbriz və Beyləqanın XI-XIII əsr binalarının bəzədilməsində də inşaat keramikası olaraq kaşılardan xüsusilə geniş istifadə olunub. Məsələn, 1968-ci ildə H.Ə.Ciddi tərəfindən Şamaxıda Cümə məscidinin yaxınlığında arxeoloji qazıntılar aparılarkən I qazıntı sahəsinin II mədəni təbəqəsindən qismən yonulmuş daşlardan inşa edilmiş və səkiyə bənzər formada tikilən bina qalıqları ilə bərabər, dövr etibarilə XI-XIII əsrlərə aid mavi rəngli iri kaşı fraqmentləri də aşkar olunub. [28, s.208-209]. Bu kaşı nümunələri ilə Qəbələnin tədqiq olunan dövrə aid olan kaşıları arasında oxşarlıq aydın müşahidə edilir.

XI-XIII əsrlərdə Cənubi Azərbaycan şəhərlərində, o cümlədən Təbrizdə də kaşı istehsalı inkişaf etmişdi. Mənbələrdə göstərilir ki, Təbriz sənətkarlarının hazırladığı kaşılar çini qablardan demək olar ki, fərqlənmirdi. Onların içərisi ağ rəngdə olmaqla isti suya davamlı idi. Kaşılardan daha çox məscidlərdə istifadə edilirdi [106, s.127].

Azərbaycanın orta əsr tikililərində istifadə olunan kaşılar forma etibarilə iki qrupa ayrılır:

1. Dördkünclü kaşılar.
2. Divarın böyük hissəsini əhatə edən çoxdilli kaşılar.

Azərbaycanda bir neçə memarlıq abidələrində belə tərtibatlara rast gəlinir. Həmin abidələrdə istifadə olunan kaşılar onun xarici görkəmini daha cəlbedici edir [39, s.69; s.71].

Ağ, yaşıl, firuzəyi, mavi rənglərlə boyanmış kaşıların üzərində eyni zamanda müxtəlif nəbati təsvirlər də verilirdi. Məsələn, “Göy Məscid”in kaşı bəzəkləri göy rənglər vəhdətində boyanmışdır ki, elə buna görə də Göy məscid adlanır. Orada stilizə olunmuş nəbati ornamentlərdən geniş istifadə olunub [38, s.67]. Eyni zamanda Gəncəbasarın XI-XIII əsrlərə aid tikililərində də kaşılardan geniş istifadə olunmaqla yanaşı, onların üzəri ovulmaqla naxışlanmışdır [95, s.75]. Diqqəti çəkən əsas məqamlardan biri də müxtəlif memarlıq məktəb-

ləri arasında fərqlərin olmasıdır. Məsələn, Şirvan-Abşeron memarlıq məktəbində inşaat keramikası əsasən kaşıdan - üzlük plitədən ibarət idi. 1967-ci il qazıntıları zamanı İçərişəhərdən aşkar olunan kaşılardan biri dulus kürəsində bişirilmiş, üzəri ağ və göy rəngli olmaqla nəbati təsvirlərlə işlənmişdir. Mütəxəssislərin rəyinə görə şəffaflığı və əlvanlığı ilə seçilən firuzəyi rəngli kaşılar daha qiymətli sayılırdı [50, s.192; s.222-223].

## 3.3. Kirəmitlər

Arxeoloji qazıntılar zamanı Azərbaycanın orta əsr şəhərlərindən, o cümlədən Qəbələdən müxtəlif növ kirəmit nümunələri aşkar olunub. Mütəxəssislərin fikrincə, inşaat materialı olaraq kirəmitdən ən çox ictimai və dini binalarda örtük materialı kimi istifadə olunurdu. Qəbələ qazıntılarında kirəmitin yastı, novşəkilli və ikiçatılı olmaqla üç tipi qeydə alınmışdır. Antik şəhər yerində aparılan tədqiqatlardan bəlli olduğu kimi burada ilk vaxtlar (e.ə. II əsrdə) yastı və novşəkilli kirəmitlərdən istifadə olunmuş, eramızın başlanğıcında ikiçatılı kirəmitlər meydana gəlib [102, s.93]. Oxşar tapıntılar Qala və Səlbirin alt mədəni təbəqələrindən də tapılıb.

2009-cu ildə Səlbir ərazisində koreyalı mütəxəssislər tərəfindən aparılmış arxeoloji qazıntılar zamanı XI-XII əsrlərə aid çoxsaylı kirəmit nümunələri aşkar olunub (Şəkil 3.3.2) [76, s.102]. Səlbirdən məlum olan kirəmit tiplərinə oxşar nümunələrdən Qala ərazisində də geniş istifadə edilib. Məsələn, 2009-cu ildə Q.C.Cəbiyevin rəhbərliyi ilə Qala ərazisində arxeoloji qazıntılar aparılarkən XIII əsrə aid xeyli kirəmit aşkar olunub. Həmin tapıntılardan bir ədədinin üstü boyalıdır və xronoloji cəhətdən XIII əsrə aiddir (Şəkil 3.3.1) [76, s.200]. Bəhs olunan nümunənin hər iki tərəfi çıxıntılıdır. Mütəxəssislərin fikrincə, kirəmitlərin üzərinin boyanması onların xarici görünüşünü baxımlı etməklə bərabər, həm də onları uzun dövr ərzində aşınmadan qoruyurdu.

Xatırladaq ki, Qala ərazisində 2011-2012-ci illərin qazıntıları zamanı da xeyli miqdarda kirəmit nümunələri tapılıb. Bu nümunələrin tədqiq olunaraq öyrənilməsinin XI-XIII əsrlər dövrünə aid kirəmitlərin əsas xarakterik xüsusiyyətlərinin müəyyən olunması nöqteyi-nəzərindən əhəmiyyəti böyükdür. Qala ərazisində aşkar olunmuş irihəcmli kirəmit fraqmenti (Şəkil 3.3.3) ölçüsünə görə nisbətən böyük olsa da, forma etibarı ilə digər nümunələrlə oxşarlıq təşkil edir. Bu kirəmit fraqmenti dövr etibarilə XI-XII əsrlərə aid olmaqla, qalınlığı 2, mövcud hissəsinin uzunluğu isə 22 sm-dir. Təqdim olunan nümunə nisbətən qalın və novvari hazırlanmışdır ki, bu da onun davamlı olmasına və tikililərin üzərinə ardıcıllıqla daha asan yerləşdirilməsinə şərait yaradırdı [65, s.138-139]. Qazıntılar zamanı aşkar olunmuş kirəmit nümunələrinin fraqmentlər halında aşkar olunmasına baxmayaraq onlar fərqli hissələrdən ibarət olduğuna görə bütövlükdə tapıntının formasını bərpa etməyə imkan verir. Bu cəhətdən Qala ərazisində aşkar olunmuş 3 ədəd kirəmit nümunəsi bir-birinə oxşardır (Şəkil 3.3.4; 3.3.5; 3.3.6). Hər üç kirəmitin mövcud hissələrinin uzunluqları 8-12 sm təşkil edir [75, s.251]. Kirəmitlərin kənarındakı çıxıntı onların həm bir-birinə, həm də tikilinin üzərinə daha asan yerləşdirilməsinə kömək edirdi.

Həmin nümunələrlə eyni yerdən aşkar olunmuş digər bir kirəmit fraqmentinin (Şəkil 3.3.9) qalınlığı 6, uzunluğu isə 16,5 sm-dir. Başlıq hissədə çıxıntı olmaqla yanaşı, kirəmitin içəri tərəfinin orta hissəsindən də onun uzunluğu boyunca çıxıntısı vardır. Rəngi bozumtul olan bu nümunə xronoloji baxımdan XI-XIII əsrlərə aiddir. Qala ərazisində aşkar olunmuş XI-XIII əsrlərə aid olan digər iki kirəmit fraqmenti də oxşar formaya malikdir (Şəkil 3.3.7; 3.3.10). Bu kirəmitlərin ağız hissəsinin eni 10, qalınlığı isə 1,5 sm-dir. Hər iki kirəmit çıxıntılı olmaqla yanaşı, həm də qalındır. Kirəmitlərdən birinin (Şəkil 3.3.7) rəngi açıq bozumtul olmaqla solğundur, digəri isə (Şəkil 3.3.10) tünd sarı rəngdədir [75, s.256].

Qala ərazisindən aşkar olunmuş XI-XIII əsrlərə aid digər bir nümunənin (Şəkil 3.3.8) salamat qalmış hissədə eni 13, qalınlığı isə 2 sm

təşkil edir. Kirəmitlərin orta hissəsində çıxıntının olmasını Qəbələdə aşkar olunmuş demək olar ki, əksər nümunələrdə görürük [197, p.48].

2011-ci ildə Qalada aparılan tədqiqatlar zamanı tapılan XII əsrə aid digər novvari kirəmit parçalarının (Şəkil 3.3.11; 3.3.13) qalınlığı 1,5, uzunluğu 25, eni 12, diametri isə 4 sm-dir. Kirəmitlərin həm daxili səthi, həm də xarici səthi hamarlanmış, yan tərəfi uzununa doğru qatlanmaqla çıxıntılıdır. XII əsrə aid digər bir kirəmit nümunəsinin uzunluğu 29, eni 11,5, qalınlığı isə 4,5 sm təşkil edir (Şəkil 3.3.12) [75, s.260]. Fraqmentdən göründüyü kimi kirəmitin uzununa kənarı boyunca çıxıntı qoyulub. Kirəmit nümunələrindən göründüyü kimi onların bir qismi eyni zamanda qalın və enli olması ilə diqqəti cəlb edir. XII əsrə aid olan digər bir kirəmit fraqmenti əvvəl qeyd etdiyimiz nümunədən frəqli olaraq nisbətən enlidir (Şəkil 3.3.14). Onun qalınlığı 4, uzunluğu 25, eni isə 16 sm-dir [75, s.260]. Digər kirəmit nümunələrində olduğu kimi həmin kirəmitin də yan tərəfinə çıxıntı qoyulmuş, xarici səthi yaxşı hamarlanmışdır.

Qala ərazisində aşkar olunmuş və xronoloji cəhətdən XII-XIII əsrlərə aid olan başqa bir kirəmit nümunəsi də nisbətən böyük ölçülü olması ilə diqqət çəkir. Bu kirəmitin uzunluğu 37, eni 19, qalınlığı isə 2 sm-dir (Şəkil 3.3.15). XII-XIII əsrlərə aid olan digər bir kirəmit parçasının (Şəkil 3.3.16) uzunluğu 30, eni 12, qalınlığı isə 4 sm-dir [75, s.272]. Statistik hesablamalara əsasən tapıntılar içərisində uzunluğu 30-38 sm olan kirəmit nümunələrinin çoxluq təşkil etdiyini deyə bilərik.

XII-XIII əsrlərə aid edilən 2 ədəd kirəmit fraqmenti qeyd etdiklərimizə aid tipik nümunədir. Kirəmit parçasından birinin (Şəkil 3.3.18) uzunluğu 27, qalınlığı 5, eni isə 17 sm-dir. Bu kirəmit nümunəsinin hər iki yan tərəfinə kirəmitin uzunluğu boyunca çox da enli olmayan çıxıntı qoyulub. Digər bir fraqmentin isə (Şəkil 3.3.17) qalınlığı 5, eni 2, uzunluğu isə 20 sm-dir [75, s.273].

2013-cü ildə Qala ərazisində müəyyən edilmiş kirəmit parçasının (Şəkil 3.3.22) uzunluğu 38, eni 15, qalınlığı isə 1,5 sm olmaqla, xronoloji cəhətdən XI-XII əsrlərə aiddir. Kirəmitin başlıq hissəsi çıxıntılı və yarımdairəvi formaya malikdir. 2013-cü ildə həmin ərazidə

aşkar olunmuş başqa bir nümunə XI-XII əsrlərə aid olmaqla, uzunluğu 23 sm, eni 20 sm, qalınlığı isə 5 mm-dir (Şəkil 3.3.19) [72, s.260].

Qaladan aşkar olunmuş digər kirəmit nümunəsi dövr etibarilə XII əsrə aiddir (Şəkil 3.3.23). Uzunluğu 26, eni 30 sm, qalınlığı isə 4,5 mm təşkil edir. Həmin yerdən aşkar olunmuş digər kirəmit nümunəsinin uzunluğu 36,5, enli hissəsində eni 30, ensiz hissəsində eni isə 25 sm, qalınlığı 55 mm-dir (Şəkil 3.3.20). Nümunə bütöv aşkar olunmuş, orta hissədən isə çatlamışdır. Dövr etibarilə XII əsrə aid olan bu nümunənin kənarları səliqəli və düz xətt boyunca kəsilib. Təqdim olunan digər kirəmitlər dövr etibarilə XII əsrə aiddir (Şəkil 3.3.21). Uzunluqları 36,5, enli hissədə eni 32, ensiz hissədə eni 26 sm, qalınlığı isə 5 sm-dir. Onların sayı 5 ədəd olmaqla, üçü salamat, ikisi isə yarımsalamat vəziyyətdə aşkar olunub [72, s.267]. XII əsrə aid olan və bütöv halda aşkar olunmuş digər kirəmit nümunəsinin uzunluğu 35, eni 30X25 sm, qalınlığı isə 5 sm-dir (Şəkil 3.3.24) [72, s.268].

Təqdim olunan nümunələrə nisbətən kiçik ölçülü kirəmitlər Qəbələdə Səlbir ərazisindən, Mingəçevirdə məbəd yerindən, habelə Gürcüstanda Samtavro və Baqanetidən də tapılmışdır [68, s.20-23]. 1980-cı ildə arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə Qəbələ rayonunun Bayramkoxa kəndindən 15 km cənub-şərqdə yerləşən Ustacantəpə abidəsində aparılan arxeoloji qazıntılar zamanı çoxlu sayda kirəmit fraqmentləri müəyyən olunub. F.V.Qədirov həmin kirəmitləri novçalı və müstəvi formalı olmaqla iki tipə ayırıb. Novçalı kirəmitlərin en kəsiyi yarımdairəvi olmaqla, bir tərəfi digər tərəfinə nisbətən enlidir. Ölçülərinə gəldikdə isə, onların uzunluğu 40, dar tərəfdə diametri 12, enli tərəfdə 20, qalınlığı isə 1,5 sm təşkil edir. Tikililərin üzərinə örtülərkən yağış suyunun keçməməsi üçün novçalı kirəmitlər müstəvi kirəmitlərin kətillərinin üstü ilə düzülürdü [80, s.1; s.21; s.29]. Xatırladaq ki, 1978-ci ildə arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə Səlbirdə aparılan qazıntılar zamanı da kiçik ölçülü kirəmit qalıqlarına daha çox təsadüf olunub. Bu kirəmitlər antik dövrün kirəmitlərinə oxşar olmaqla novşəkillidir. Ölçüləri əsasən 30X21X25 sm olmaqla kiçikdir. Nümunələrin hərtərəfli təhlili və öyrənilməsi nəticəsində müəy-

yən olunmuşdur ki, VIII əsrdən başlayaraq XII əsrə qədər Səlbirdə novşəkilli kirəmitlərdən geniş istifadə edilmişdir [79, s.13].

Qəbələnin orta əsr kirəmitlərindən fərqli olaraq antik dövrə aid olan kirəmitlərin əksəriyyətinin üzərinə qırmızı boyaq çəkilib, bəzi kirəmitlərin üzərinə isə xüsusi gil məhlulundan astar çəkilmişdir. Bişirildikdən sonra həmin astar bozumtul-çəhrayı rəng alırdı [88, s.4-5].

Gürcüstanın orta əsr abidələrindən aşkar olunan inşaat keramikasını tədqiq edən E.Maysuradze qeyd edir ki, dam örtükləri kimi istifadə olunan kirəmitlər kərpicə nisbətən daha çox plastik gildən hazırlanır, onun gili zərif, qumu və daşı az olur, ya da heç olmur. Bu isə onlara mexaniki möhkəmlik verir. Burada gil daha yaxşı bişmiş olur [169, c.10-11].

Keramika məmulatının görkəmli tədqiqatçılarından olan A.L.Yakobsonun fikrincə, Tavriya və Xersonesin XI-XIII əsr tikililərinin dam örtüklərinin forması əvvəlki kimi qalır. Belə ki, düz dam örtüklərindən (kirəmitlər) istifadə olunur və onların birləşdiyi yerləri, aralarını örtən yarımdairəvi örtüklərdən-kalipterlərdən istifadə edilirdi. Kirəmitlər əsasən, özlərindən əvvəlki dövrün dam örtüyü formasını saxlamış, lakin bununla yanaşı bir qədər fərqli xüsusiyyət daşımışdır. Bu kirəmitlər IX-X əsrlərin dam örtüklərindən həcmcə kiçikdir. Ölçüləri 32X36X36-42 sm-dir. Ölçüsü 34X36X40-42 sm olan nümunələr daha çoxdur. Dam örtüyünün materialı isə əhəmiyyətli dərəcədə fərqlənir. Onlar açıq qırmızı rəngdə olmaqla, nisbətən az sarımtıl idi [193, c.147]. Xatırladaq ki, 1959-cu ildə arxeoloq S.M.Qazıyevin rəhbərliyi ilə Qəbələdə tədqiqatlar aparılarkən ilk dəfə olaraq burada çox iri kirəmitlərə təsadüf edilib [79, s.13].

A.L.Yakobsonun fikrincə, dam örtüyü üzərindəki təsvirin özü bəzək deyil, o örtüyü bəzəmir, çünki aşağıdan görünmür. Ehtimal ki, bu işarələr – müdafiəçi, döyüşçü, quşlar, günəş şüaları altında təsvir edilən qartallar, göyərçinlər və s. qoruyucu xarakter daşıyır. A.L.Yakobsonun tədqiqatlarına əsasən diqqəti cəlb edən əsas məqamlardan biri də odur ki, dam örtükləri üzərindəki təsvirlərin xeyli hissəsi məhz hərflərdən ibarətdir. Həmin təsvirlər dulusçular arasında savadlılığın artmasından xəbər verir [193, c.153].

Deyilənləri ümumiləşdirərək Qəbələ kirəmitlərini forma etibarilə düz və novşəkilli nümunələrdən ibarət olmaqla iki qrupa bölə bilərik. Düz kirəmitləri də öz növbəsində bir neçə yarımqrupa ayırmaq olar. Belə ki, bu qəbildən olan kirəmitlərin düzbucaqlı formada olan nümunələrindən fərqli olaraq, bir tərəfi enli, digər tərəfi isə ensiz olan nümunələrə də rast gəlinir. Düz formalı kirəmitlər də yuxarı hissəsindəki çıxıntı-kərtlərin formasına, ölçüsünə və sayına görə fərqlənir. Bu tip kirəmitlər həmçinin, kənarları boyunca olan çıxıntı və batıq şırımların ölçüsünə və sayına görə də fərqlənirlər. Həm də kirəmitlərin yuxarı hissəsinin alt tərəfindəki çıxıntı-kərtlər onların binanın üzərində üfüqi istiqamətdə olan ağac altlıqdan asılaraq bərkidilməsi üçündürsə, yanlardakı kərt-çıxıntılar isə kirəmitlərin bir-birinə geydirilərək bağlanması və yağış sularının alta keçmədən asanlıqla axıb getməsi üçündür.

## 3.4. Su tüngləri

Orta əsr şəhərlərində əhalini içməli su ilə təchiz etmək və suvarma suyu ilə təmin etmək, habelə, kanalizasiya şəbəkəsini qurmaq məqsədilə su tünglərindən geniş istifadə olunub. Şəhər yerlərində axar su üçün kanalizasiyanın sadə forması da var idi. Maraqlıdır ki, Avropa şəhərlərində su kəməri XII-XIII əsrlərdə meydana çıxdığı halda, Azərbaycanın Qəbələ, Beyləqan, Gəncə, Şəmkir, Naxçıvan və başqa bu kimi şəhərləri hələ IX-XI əsrlərdə inkişaf etmiş saxsı su kəmərləri sisteminə malik idi. Şəhərlərin içməli suya olan ehtiyacı şaxələnmiş su kəməri (Qəbələ, Şamaxı, Dərbənd və s.) və yeraltı kəhriz sistemi (Təbriz, Bakı) vasitəsilə ödənirdi [99,s.136]. Xatırladaq ki, mütəxəssislər tərəfindən saxsı tünglərdən istifadə olunmaqla su xətlərinin çəkilməsinin Azərbaycanda hələ eramızdan əvvəl məlum olduğu və bunun ellin mədəniyyətinin təsiri ilə əlaqəli olması bildirilir [129, c.73].

Su tüngləri dulus çarxından istifadə olunmaqla hazırlanır və kürədə bişirilirdi. Gilin tərkibi və bişmə dərəcəsindən asılı olaraq

tünglər müxtəlif rəng alırdı. Tünglərin bir-birinin içinə geydirilməsi üçün onlar xüsusi dulus dəzgahında və ya xüsusi qəliblərdə hazırlanırdı. Onların bir tərəfi ensiz, dar və nisbətən nazik, digəri tərəfi isə enli və qalın düzəldilirdi. Kəmər çəkilərkən tünglərin ensiz tərəfi enli tərəfə geydirilir və həmin yer kirəc məhlulu ilə möhkəm suvanırdı. Nazik tərəfdə olan xüsusi kərt onların bir-birinə möhkəm geydirilməsinə xidmət edirdi.

Arxeoloji qazıntılar nəticəsində tapılan demək olar ki, bütün tünglərin içərisində dairəvi batıq zehlər qeydə alınıb. Bəzi müəlliflər bunun xüsusi texniki üsul olduğunu düşünür. Guya tüngün içərisindəki bu cür yivlər suyu təmizləməyə xidmət edib. İkincisi, guya suyun burulması nəticəsində borunun daxilinə düşmüş yad cismi aparır və tüng boruların içərisinin tutulmasının qarşısını alırdı.

Professor Q.C.Cəbiyev hesab edir ki, saxsı tünglərin içərisindəki zehlər heç də xüsusi olaraq hazırlanmayıb. Bu zehlər sadəcə olaraq dulusçu ustanın barmaq izlərinin qalıqlarıdır. Özü də bu cür zehlər təkcə su tünglərinin içərisində deyil, dulus dəzgahında hazırlanan və daxili səthi görünməyən bütün qablarda qeydə alınıb. Səhənglərin, bardaqların, küplərin, nehrə və sərnic tipli qabların hamısının içərisində bu cür zehlərin olduğu müşahidə edilir.

İstifadə məqsədinə görə su tüngləri müxtəlif ölçüdə hazırlanırdı. Suyun müntəzəm axması üçün tünglər ardıcıl düzülməklə yanaşı, onların yerləşdiyi ərazinin relyefinə uyğunluğu da nəzərə alınırdı. Qəbələdən tapılmış tünglərdən ibarət su kəmərləri şəhərin həm içməli su ilə yaxşı təchiz olunmasını, həm də suyun şəhər sakinləri arasında paylanılmasında istifadə olunan saxsı boruların peşəkar ustalar tərəfindən hazırlandığını göstərir. Mütəxəssislər orta əsrlər dövründə Azərbaycan şəhərlərini su ilə təmin edən sistemləri iki hissəyə ayırırlar. Birinci hissə suyun şəhər və yaşayış yerlərinə gətirilməsi, ikinci hissə isə onun şəhər və yaşayış yerlərində paylanılmasından ibarət idi [58, s.51; s.68].

Professor Q.M.Əhmədov arxeoloji tədqiqatlar nəticəsində müəyyən etmişdir ki, orta əsr Beyləqan şəhərinin özündə və sənətkarlar məhəlləsi deyilən ərazidə su içmək üçün bişmiş kərpiclə tikil-

miş arxlardan, saxsı tünglərdən çəkilmiş kəmərlərdən ibarət olmaqla iki əsas üsuldan istifadə olunub. Kərpiclə tikilmiş su arxları daha qədim olsa da, saxsı tünglərdən istifadə olunmaqla su kəmərlərinin çəkilməsi əsas etibarilə XI əsrdən başlanıb. Su kəmərləri uzunluğu 30-40, diametri 10-15, bəzən 16-17 sm olan tünglərin bir-birinə geydirilməsi ilə düzəldilir və birləşdirici məhlul ənənəvi olaraq kirəc idi. Bu sonuncu üsul bütün Cənubi Qafqazda XI-XIII əsrlərdən başlayaraq geniş yayılıb. Maraqlıdır ki, Beyləqan qazıntılarında üçlük tünglərə və dirsək tünglərinə də rast gəlinmişdir. Hansı ki, belə tünglər su kəmərinin ancaq bir xətt boyunca deyil, zərurət olduqda kəmərin istiqamətini dəyişməyə və əlavə su xəttləri ayırmağa imkan verirdi. Bu cür nümunələrin əldə olunması XI-XIII əsrlərdə üçlük və dirsək tünglərdən istifadə edilmədiyi haqda vaxtilə ayrı-ayrı müəlliflər tərəfindən söylənilmiş yalnış fikirləri tamamilə təkzib edir [41, s.51].

Azərbaycanın orta əsr şəhərlərində su tünglərindən istifadəni təsdiq edən çoxsaylı misallar göstərmək olar.

Məsələn, hələ 1939-1940-cı illərdə Gəncə şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində saxsı tünglərdən düzəldilmiş su kəmərinin bir hissəsi aşkar olunub. Maraqlıdır ki, tünglərin xarici mühitin təsirinə qarşı davamlılığını artırmaq üçün onların üzəri kül məhlulu ilə örtülürdü. A.B.Nuriyevin rəhbərliyi ilə 1984-cü ildə aparılan qazıntılar zamanı isə orta əsr Bərdə şəhər yerində XIII-XIV əsrlərə aid saxsı tünglərdən ibarət su kəmərləri aşkar olunmuşdur [58, s.89;s.91-93]. Anoloji nümunələr arxeoloq H.A.Ciddi tərəfindən orta əsr Şamaxı şəhər yerindən də müəyyən olunub. Orada XI-XIII əsrlərə aid uzunluğu 44, diametri 10-12 sm olan keramik borular tapılıb. Maraqlıdır ki, dövrün ustaları boruları dağılmaqdan qorumaq üçün onların üzərini kvadrat şəkilli bişmiş, ölçüsü 24X24 sm olan kərpic və əhəngdaşı palçığı ilə örtmüşlər [155, c.28-29].

Orta əsr Şabran şəhər yerində də su tünglərinə aid nümunələr aşkar olunub. Burada şəhərgahın II və V qazıntı sahələrindən tapılan su tüngləri bunun tipik nümunəsidir. Şabran ustaları təzyiqə davamlı olması üçün kəmərlərin üzərini bişmiş kərpiclərlə bağlamışlar. Orta əsrlər dövründə tünglərdən ibarət su kəmərlərindən təkcə Azərbaycanda

deyil, digər ölkələrdə də, o cümlədən İranda, Orta Asiyada, Gürcüstanda və Volqaboyu ərazisində də geniş istifadə edilirdi [32, s.99-100].

Məlumdur ki, digər orta əsr şəhərləri ilə müqayisədə Qəbələ arxeoloji cəhətdən daha yaxşı öyrənilib. Bir əsrə yaxın aparılmış qazıntılar zamanı Qala və Səlbir ərazilərindən çoxlu sayda saxsı tünglərdən ibarət su və kanalizasiya şəbəkəsi tapılıb. Qəbələdə su təchizatına aid qurğuların qalıqları Govurlu çayının yuyaraq dərin uçquna çevirdiyi şərq tərəfdə daha aydın müşahidə edilir. Burada olan çoxsaylı su tüngləri, kərpicdən hörülmüş arx və quyu yerləri də şəhərin su təchizatı şəbəkəsi barədə təsəvvür yaradır. Arxeoloji qazıntılar nəticəsində aşkar olunan nümunələrin içərisində də saxsı tünglər çoxluq təşkil edir. Qazıntılar zamanı su xətlərinin ayrıcında istifadə edilən üçkünc və ya dördkünc qablar da tapılıb. Hansı ki, tüngləri məhz bu qablara geydirməklə su xəttini şaxələndirə biliblər.

Qəbələnin su təchizatı, əlverişli təbii-coğrafi və strateji mövqeyi barədə həm orta əsr ərəb müəlliflərinin, həm də digər müəlliflərin əsərlərində geniş məlumat verilmişdir. Məsələn, Şəmsəddin Əbu Abdallah Muhəmməd ibn Əhməd ibn Əbu Bəkr əl-Bənna əş Şami əl-Müqəddəsinin "Əhsən ət təqasim fi mərifət əl-əqalim" ("İqlimlərin öyrənilməsində ən yaxşı bölgü") adlı əsərinin "Dənizlər və çaylar haqqında" adlı bölməsində müəllif İslam dünyasının 12 məşhur çayları sırasında Kür və Araz çaylarının da adını çəkməklə yanaşı, Qəbələnin möhkəmləndirilmiş yer olmaqla şəhərin kənarından çayın axmasını göstərmişdir [114, s.307-309]. XII-XIII əsr ərəb müəllifi Yaqut əl-Həməvi zəngin təbii-coğrafi şəraiti nöqteyi-nəzərindən Azərbaycanı digər ölkələrlə müqayisə edərək, bu qədər bolsulu çayları və bulaqları olan yer görmədiyini, hər yerdə soyuq, şirin və sağlam sularının olmasına görə buranı səyahət edən şəxsə özü ilə su qabı götürməyə ehtiyacın olmadığını bildirir [47, s.110]. Görkəmli coğrafiyaşünas Həmdullah Qəzvini (1280-1349) isə "Nüzhətül-qülub" ("Ürəklərin əyləncəsi") adlı əsərində Aran və Gürcüstan arasında yerləşən 1 kvadrat fərsəx sahəsi olan Qəbələ dağında yetişən təbii çiçəklərin gözəl ətirləri ilə seçilməsini bildirməklə, qeyd olunan ərazinin zəngin təbii-coğrafi şəraitə malik olmasını göstərmişdir [44, s.154; s.160].

XV əsrin I yarısında yaşamış Bədr Şirvani isə Qəbələdə gördüyü çarhovuza 42 beytdən ibarət şeir həsr edib. Bolsulu çayların və şirin sulu bulaqların Qəbələdə çox olması orta əsrlərdə şəhərdə əhalinin su ilə təchizatında böyük əhəmiyyətə malik olmuşdur. Yerli sakinlər indinin özündə də həmin mənbələrdən məişət və təsərrüfat həyatında istifadə edirlər [17, s.119-120].

Dağ rayonlarında su şəhərlərə yaxın ərazidəki çaylardan və bulaqlardan çəkilmiş arxlar, kəhrizlər və saxsı tünglərdən olan kəmərlər vasitəsilə gətirilirdi [41, s.50].

Professor Q.M.Əhmədov kəhriz sistemi vasitəsilə şəhərin su ilə təchiz edilməsinə aid nümunələrin daha çox Bakıdan, saxsı tünglərdən istifadə olunmaqla şəhərlərə suyun çəkilişinin isə Qəbələdən, Gəncədən və digər şəhər yerlərindən müəyyən olunduğunu göstərmişdir. Məsələn, Beyləqanda aparılan qazıntılar zamanı müəyyən olunmuş nümunələr şəhərdə həm quyu suyundan, həm də Govurarxın suyundan istifadə edildiyini deməyə əsas verir. Təsadüfi deyildir ki, Məsud ibn Namdar Beyləqanda "yağış suyu" yığmaq üçün hovuzların olmasını, eyni zamanda əhalinin gündəlik içməsi üçün zəruri olan suyun quyu suyundan və gətirilmə çay suyundan əldə edildiyini bildirir [41, s.51].

1962-ci ildə Səlbirdə qazıntılar aparılarkən 4,5 metr dərinlikdə su kəmərinin qalıqları müəyyən olunub. Tunelin içərisində düzəldilən su kəmərinin bu texnologiya ilə inşa olunması Azərbaycanda yalnız Səlbirdə məlumdur. Tunelin ortasında dərinliyi və eni 40 sm olmaqla su arxları qazılmış və tünglər həmin arxlara yerləşdirilmişdir. Arxeoloq S.M.Qazıyev *"Qəbələnin Səlbir və Qala hissəsinə gələn suyun mənbəyinin indiki Mirzəbəyli kəndinin yaxınlığında olan mənbələrdən götürüldüyünü göstərir"*. Təsadüfi deyildir ki, arxeoloq buradan IX əsrə aid pulların tapılmasına əsasən həmin su kəmərinin IX-X əsrlərdə çəkildiyini ehtimal edir. Maraqlıdır ki, Səlbirdə həmin qazıntılar zamanı tünglərdən ibarət və uzunluğu 1,5 m olan su kəmərinin qalığı da tapılıb. Tünglərin uzunluğu 43, enli tərəfdən ağzının diametri 15, dar tərəfdən isə 11 sm-dir [58, s.90-91].

1977-ci ildə Qəbələ Arxeoloji Ekspedisiyasının arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə Səlbirdə apardığı qazıntılar zamanı müəyyən olunmuş 24X24X5 sm ölçüsü olan və dik olmaqla yan-yana düzülən kərpiclərin su arxının bir tərəfinə düzülməsi tədqiqatlar nəticəsində təsdiqini tapmışdır. Döşəməsinə kərpic döşənmiş arxların inşası orta əsr şəhərləri üçün xarakterikdir [84, s.26-27].

Dövrün ustaları nəinki gil tünglərlə su xətlərinin çəkilməsini, eyni zamanda su kəmərləri tutularkən onların təmizlənməsi üsullarını da öyrənmişdilər. Bu işlər kərpic kanalların müəyyən məsafələrində qazılmış quyular, saxsı tünglərlə çəkilmiş kəmərlərdə isə ya quyu, ya da tüngləri özündə birləşdirən xüsusi küplər vasitəsilə görülürdü. Bu quyu və küplər müasir kanalizasiyalarda olan "yoxlama quyuları" rolunu oynayırdı. Xatırladaq ki, Qəbələ qazıntıları zamanı belə nəzarət küplərinin formaları müəyyən olunub. Lakin, burada bir sıra oxşar və fərqli üsullar vardır. Məsələn, Beyləqanda kanalizasiya üçün ən geniş yayılmış üsul çirkli suyun quyu vasitəsilə torpağa hopdurulmasıdır. Bu quyuların ağız hissəsi ya bişmiş kərpiclə hörülür, ya da ağac tirlər düzülərək torpaqla örtüldükdən sonra üstdən bişmiş kərpiclə döşənirdi. Quyunun mərkəzində kiçik dairəvi deşik açılırdı. Həmin kərpiclərdə xüsusi gəzlər-novlar açılmışdır. Beyləqanda bu cür quyuağzı kərpiclərə tez-tez təsadüf edilib. Onların daşdan olan nümunələri Qəbələ qazıntılarından da məlumdur. Kanalizasiya quyularına çirkli su çox vaxt bir və yaxud bir neçə tüngdən düzəldilmiş kəmər vasitəsilə axıdılırdı [41, s.51].

Arxeoloq N.V.Minkeviç-Mustafayeva Beyləqanın sənətkarlar məhəlləsinin su ilə təchiz olunmasını araşdırarkən şəhərin sənətkarlar məhəlləsində dulusçuların su ilə təchiz edilməsi üçün quyuların qazıldığını, XII-XIII əsrlərə aid su kanallarının saxsı tünglərdən istifadə olunmaqla çəkildiyini müəyyən etmişdir. Hansı ki, sakinlər bu kəmərlərdən XII-XIII əsrlərdə meyvə suyu çəkmək üçün istifadə olunan hovuzları yumaq üçün də istifadə etmişlər. Arxeoloq haqlı olaraq saxsı tünglərdən ibarət bu su kəmərlərinə Qədim Gəncə və Qəbələdə də rast gəlinməsi qənaətinə gəlmişdir [172, c.232-233].

1985-ci ildə Qala ərazisində V qazıntı sahəsində arxeoloq F.V.Qədirovun rəhbərliyi ilə arxeoloji qazıntılar aparılarkən 4-V kvadratında müəyyən olunan quyu təmizlənmiş və quyunun ağzının şimal-qərb tərəfindən saxsıdan düzəldilmiş su borusu aşkar edilmişdir [87, s.8-9].

Qəbələdə bir sözlə, son illərdə aparılan arxeoloji tədqiqatlar zamanı çoxlu sayda su tüngləri, şəhərin su və kanalizasiya xətlərinə aid şəbəkə aşkar olunaraq tədqiq edilib. Onlardan bir neçəsini təqdim edirik:

Professor Q.C.Cəbiyevin rəhbərliyi 2008-ci ildə Qala ərazisində arxeoloji qazıntılar aparılarkən XII əsrə aid su tüngləri də aşkar olunub (Şəkil 3.4.2) [76, s.152]. Nümunələrin ağız hissəsi kənarlara doğru nisbətən enli olması ilə seçilir ki, bu da boruların bir-birinə geydirilərkən daha möhkəm və davamlı olmasını şərtləndirirdi.

Xatırladaq ki, 2008-ci ildə Qala ərazisində VII qazıntı sahəsində aparılmış qazıntılar zamanı bir-birinə paralel olmaqla çəkilmiş 4 su xətti aşkar olunaraq tədqiq olunub. Bu su xəttinin çəkilməsində uzunluğu 95, enli yerdə diametri 8, dar yerdə isə 5,5 sm olan saxsı borulardan istifadə edilib. Bununla yanaşı, qala qapısının şimal kənarında da bir neçə su xəttinin qalığı aşkar olunmuşdur. Tədqiqatlar nəticəsində Qala ərazisinə içməli suyun buradan daxil olması dəqiqləşmişdir. Qala divarından kənarda sakinlərin su ilə təchizatında ümumi mərkəz rolunu oynayan anbar tipli supaylayıcı da inşa olunmuşdur ki, nəticədə mənbədən gələn və saxsı kəmərlər vasitəsilə çəkilmiş su bu anbara toplanır, sonra isə ayrı-ayrı nazik gil tünglərdən istifadə olunmaqla sakinlərin evinə, yaxud ictimai binalara, küçə və meydanlara paylanılırdı. Təqdim olunan çoxşaxəli su kəmərinin qalığı dövr etibarilə XIII-XIV əsrlərə aiddir (Şəkil 3.4.3; 3.4.6) [70, s.346]. Borular çəkilərkən onların hər tərəfi səliqəli və planlı şəkildə hörülmüşdür ki, bu da onları kənar təsirlərdən daha etibarlı mühafizə edirdi.

Buradan aşkar olunan saxsı borulardan ibarət dördcərgəli su kəməri çəkilərkən borular bir-birinin üzərində qoyulmamış, araları torpaq qatı ilə örtülməklə çəkilmişdir. Borular eyni istiqamətdə olmaqla, aşağıdan yuxarıya doğru bir xətt boyunca paralel olaraq yerləşir. Bu da həmin su xətlərinin vasitəsilə suyun hansısa bir sutoplayıcı

yerə boşaldığını, sonra isə oradan əhaliyə paylanmasını deməyə əsas verir (Şəkil 3.4.5; 3.4.7) [70, s.346].

2009-cu ildə Qəbələ arxeoloji ekspedisiyasının orta əsrlər dəstəsinin professor Q.C.Cəbiyevin rəhbərliyi ilə apardığı qazıntılar zamanı əhalini içməli su ilə təmin edən və orta əsrlərə aid baş su kəməri tapıldı (Şəkil 3.4.17) [23, s.248]. Qazıntılar zamanı 20 sm diametrə və 40 sm uzunluğa malik su tünglərinin aşkar olunması diqqət çəkir. Kəmər təxminən 1 metr dərinlikdə olmaqla çəkilmiş və üzəri bişmiş kərpiclə döşənmişdir. Mütəxəssislərin hesablamalarına görə bu xəttlə sutka ərzində şəhərə təqribən 350-370 kubmetr içməli su verilib. Həmin xəttin davamı Səlbirin qərb kənarında da izlənilmişdir. Maraqlıdır ki, axtarışlar davam etdirilərkən Səlbirdə yer səthindən 7 metr dərinlikdə, eni 60, hündürlüyü 80 sm olan tunelin içərisi ilə çəkilmiş saxsı tünglərdən ibarət su xətti aşkar olunub. Tunel-kəmərin çəkilməsində uzunluğu 37, içərisinin diametri 18 sm olan tünglərdən istifadə olunub. Tunel Qaraçayın yatağı səviyyəsində olan çınqıl təbəqə boyunca qazılıb (Şəkil 3.4.18). Bu tapıntılar da S.M.Qazıyevin Qəbələnin Mirzəbəyli istiqamətində olan su mənbələrindən qidalandığına dair ehtimalının doğru olduğunu təsdiqlədi [70, s.364-365,s.382]. Səlbirdə 2012-ci ildə aparılan arxeoloji qazıntılar zamanı XIII kvadratdan aşkar olunmuş su xəttinin sərt döngəsi diqqət çəkir (Şəkil 3.4.19). Maraqlıdır ki, həmin sərt döngənin əmələ gəlməsi üçün ustalar döngənin yarandığı sahədə saxsı boruları bir-birinə nisbətən az geyindirmiş, bu zaman yaranan boşluq isə gil və ya çınqıllı əhəng məhlulu ilə bağlanmışdır [71, s.230;s.248]. Diqqət çəkən tapıntılardan biri də 2013-cü ildə Səlbirdə qazıntılar davam etdirilərkən Şimal 1Q4 xəndəyində su xəttinin qalığının müəyyən olunmasıdır (Şəkil 3.4.20). Bu su xətti tünglərin bir-birinə ardıcıl geydirilməsi ilə səliqəli çəkilib. Su xəttinin kənarında olan quyulardan ərzaq saxlanılması üçün, yaxud su quyusu kimi istifadə edilib. Səlbirdə həmçinin, tullantı quyuları da müəyyən olunub [72, s.61; s.69].

Qala ərazisində 2009-cu ildə aparılmış qazıntılar zamanı aşkar olunmuş su tüngünün nazik tərəfindən ibarət olan nümunə dövr etibarilə XIII-XIV əsrlərə aiddir (Şəkil 3.4.1) [76, s.178]. Tüngün tərəf-

ləri bir-birindən nazik və enli olması ilə fərqlənir, eyni zamanda tüngün bir tərəfinin içəri səthində olan zehlər diqqət çəkir. Həmin ərazidən aşkar olunmuş digər bir oxşar nümunə isə XII-XIII əsrlərə aiddir (Şəkil 3.4.4) [70, s.381].

Qala ərazisində 2011-2012-ci illərdə aparılmış arxeoloji qazıntılar zamanı digər keramika nümunələri ilə yanaşı, su tüngü nümunələri də tapılıb (Şəkil 3.4.11). Nümunə xronoloji baxımdan XII-XIII əsrlərə aid olmaqla, ağzının diametri 12, uzunluğu isə 24 sm təşkil edir [75, s.274]. Həmin ərazidə 2013-cü il qazıntıları zamanı aşkar olunmuş su tüngü nümunəsi isə dövr etibarilə XI-XII əsrlərə aiddir (Şəkil 3.4.12). Nümunənin bir tərəfi nazik, digər tərəfi isə ağız hissəyə doğru enlidir. Bu da tünglərin bir-birinə geydirilməsi zamanı onların daha möhkəm olmasına şərait yaradır. Tüngün ağzının diametri 22, uzunluğu 25, qalınlığı isə 2,3 mm təşkil edir [72, s.260]. Xatırladaq ki, bir-birinin içərisinə geydirilmiş tünglərin bərkidilməsində ənənəvi olaraq gəc məhlulundan geniş istifadə olunurdu.

2010-cu ildə Səlbirdə koreyalı arxeoloqlar tərəfindən qazıntı aparılarkən bişmiş kərpiclərlə quraşdırılan kanalizasiya xətləri və saxsı su borularının qalıqları tapılıb (Şəkil 3.4.9) [70, s.232; s.254]. Su borusu çəkilərkən borunun torpaq altında qalan hissəsinin kənarlarına kərpiclə hörgü çəkilmişdir ki, bu da borunun kənar təsirlər səbəbindən qırılmasının və aşınmasının qarşısını alırdı.

Qaladan aşkar olunmuş digər su xətləri qovşağı dövr etibarilə XIII-XIV əsrlərə aiddir (Şəkil 3.4.8) [70, s.312; s.346]. Qovşaqdan müxtəlif istiqamətdə olmaqla saxsı borulardan ibarət bir neçə su xətti çəkilib. Borular yer səthindən nisbətən yuxarıda yerləşir və hər tərəfi mühafizə məqsədilə kərpiclərdən istifadə olunmaqla hörülüb.

Yuxarıda qeyd olunduğu kimi 2009-cu ildə Qəbələdə ilk dəfə olaraq XII-XV əsrlərə aid mədəni təbəqədə iki hamam otağı aşkar olunub. Əhalinin sosial vəziyyəti etibarilə hamamlardan əsasən varlı təbəqə istifadə edirdi. Buradan aşkar olunmuş saxsı plitə-metlaxlardan birinin eni 47, uzunluğu 48, qalınlığı isə 4 sm olmuşdur. Maraqlıdır ki, hamamlardan birinin döşəməsində istifadə olunan bu cür nisbətən böyük ölçüyə malik olan saxs plitə-metlaxlara da Azərbaycan

ərazisində ilk dəfə Qəbələdə təsadüf edilib. Nümunə dövr etibarilə XII-XIII əsrlərə aiddir (Şəkil 3.4.10). Eyni zamanda hamamın yaxınlığında çirkab suların axıdılması üçün quyu-sambonun müəyyən olunması tədqiq olunan dövrdə Qəbələdə sanitariya qurğularının daha da təkmilləşdiyini göstərir [70, s.355; s.372].

Xatırladaq ki, dövrün kanalizasiya sisteminə aid nümunələrə Qəbələ ilə yanaşı, Şabran, Gəncə, Bakı və Beyləqanda aparılan qazıntılar zamanı da rast gəlinir. Məsələn, 1984-1986-cı illərdə Şabranda da kanalizasiya xətlərinə aid nümunələr tapılıb [32, s.100-101].

Qəbələ arxeoloji ekspedisiyasının Səlbir dəstəsi 2013-cü ildə V qazıntı sahəsində qazıntılar apararkən kərpic nümunələri ilə yanaşı, üzəri kərpiclə örtülmüş su xətləri də aşkar olunub (Şəkil 3.4.13; 3.4.14). Təqdim olunan nümunələrdən birinin (Şəkil 3.4.13) istiqaməti şimaldan cənuba doğru olmaqla maillilik 5-10 sm-dir, su xətti şimaldan 25, cənubdan 35 sm dərinlikdə yerləşmişdir. Nümunələrdən digəri isə (Şəkil 3.4.14) XII-XIV əsrlərə aid olan kərpic örtüklü su xəttidir. Arxeoloqlar buradan aşkar olunmuş kərpiclərin VIII-X əsrlərə aid olan kərpic nümunələri ilə müqayisədə kiçik olduğunu göstərir [72, s.83; s.102].

Eyni zamanda Səlbirdə 2013-cü il qazıntıları zamanı V qazıntı sahəsinin I kvadratında cənub-şərq tərəfdə keramika nümunələrinin fraqmentləri ilə yanaşı, tüng qırıqları da aşkar olunub. Burada cənub-şərqdən şimala tərəf 718 sm uzunluğa malik saxsı borudan ibarət su xətti müəyyən edilib (Şəkil 3.4.16). Bu su xəttinin 275 sm-ə qədər olan hissəsi nisbətən salamat olsa da, 275 sm-dən 463 sm-ə qədər olan hissə ümumiyyətlə dağıldığı üçün yoxdur. Boruların ölçüləri 31-34 sm təşkil edir. Mütəxəssislər bu su kəmərini dövr etibarilə Səlbirdə həyatın bitməsinə yaxın və sonrakı dövrə aid edirlər [72, s.77; s.92]. Həmin ərazidə V qazıntı sahəsinin III kvadratında su xəttinin cənub-qərbə olan davamı müəyyən olunub. Bununla yanaşı, binanın şərq tərəfində müəyyən olunmuş bu xəttin davamı isə binanın qərbində yerləşən divarların içərisində qeydə alınıb (Şəkil 3.4.15). Tədqiqatçıların fikrincə, saxsı dirsəklərdən əsas etibarilə XI əsrdən sonrakı dövrdə istifadə olunub. Səlbir ərazisində hələlik bu cür dirsək nümunələrinə rast gəlinməməsi də bu fikri təsdiq edir [72, s.84-85; s.107].

Göründüyü kimi qazıntılar zamanı Qəbələdə müxtəlif su xətləri sisteminin qalıqları aşkar olunmuşdur ki, bu da şəhərin istər Səlbir, istərsə də Qala hissəsində su təchizatının yüksək səviyyədə olduğunu göstərir. Xatırladaq ki, inşa olunmuş tikililərin divarları bişmiş kərpiclə hörülməklə üzəri kirəmitlə örtülmüş, kaşılardan geniş istifadə olunmuş, eyni zamanda yaşayış yerlərində su və kanalizasiya şəbəkəsi qurulmuşdur. Peşəkar ustalar tərəfindən keyfiyyətli hazırlanmış su tüngləri vasitəsilə suyun uzaq məsafəyə çəkilməsi təmin olunurdu.

Qəbələ, Beyləqan, Gəncə, Bərdə, Şamaxı, Şabran və digər orta əsr şəhər yerlərindən aşkar olunmuş inşaat keramikasına aid tapıntılar göstərir ki, tədqiq olunan dövrdə Azərbaycanda inşaat sənəti yeni mərhələyə qədəm qoymuş və intibah Cənubi Azərbaycan şəhərlərində də müşahidə edilmişdir. Maraqlıdır ki, Şabran şəhərinin əhalisi XI-XII əsrlərdə bulaq suyunu xüsusi saxsı tünglərdən istifadə etməklə 14 km-ə qədər məsafədən şəhərə gətirməyə müvəffəq olmuşdular [54, s.210]. Saxsı tünglər vasitəsilə uzaq məsafədən belə su xətləri sisteminin çəkilməsi nəinki Qəbələnin, Şabranın və digər şəhərlərin, bütövlükdə Azərbaycanın XI-XII əsrlərdə su şəbəkələrinin qurulması sahəsində böyük nailiyyəti sayıla bilər. Xatırladaq ki, saxsı tünglərdən ibarət su kəmərlərinə oxşar nümunələr Cənubi Qafqazın, Orta Asiyanın, Qazaxıstanın, Rusiyanın orta əsrlərə aid abidələrindən də müəyyən edilib.

Beləliklə, qeyd olunanlar XI-XIII əsrlərdə Qəbələ şəhərində inşaat sənətinin, o cümlədən abadlıq və sanitariya mədəniyyətinin yüksək və sivil səviyyədə olduğundan xəbər verir. Şəhərin su ilə təchizatı və kanalizasiya sistemi yenidən qurulmaqla daha da təkmilləşmişdir ki, bu XI-XIII əsrlərdə əhalinin dövrünə görə həm yaşayış tərzinin, həm də mədəni səviyyəsinin yüksək olmasını göstərən əsas faktorlardan biridir.

# Nəticə

Azərbaycan ərazisində saxsı qabların hazırlanması və onlardan istifadə neolit dövründən başlanıb. Zaman keçdikcə saxsı qabların istehsal texnologiyası daha da təkmilləşib. Bu sənət sahəsinin inkişafını şərtləndirən əsas səbəb isə bu növ məmulata olan tələbatın durmadan artması olmuşdur. Azərbaycanın orta əsr şəhərlərində məhsuldar qüvvələrin inkişaf etməsini dövrün ictimai-siyasi, iqtisadi və mədəni həyatında mühüm rola malik olan Qəbələ ilə yanaşı, Gəncə, Beyləqan, Naxçıvan, Şabran, Şəmkir, Bakı, Təbriz və digər orta əsr şəhərlərində də görmək mümkündür. Hansı ki, bu şəhərlər eyni zamanda böyük sənətkarlıq və ticarət mərkəzlərinə çevrilmişdi. Azərbaycanın orta əsr şəhərləri tədqiq olunarkən burada inkişaf etmiş şəhər mədəniyyətinin olması ilə yanaşı, XI-XIII əsrlərdə sənətkarlığın aparıcı sahələrindən biri olan keramika istehsalının tərəqqi etməsi müəyyən olunub. Bu cəhətdən Qəbələ şəhəri xüsusilə diqqət çəkir. Burada uzun illər ərzində aparılan arxeoloji tədqiqatlar nəticəsində aşkar olunmuş şirsiz və şirli qab nümunələri, onların fraqmentləri, inşaat keramikasına aid nümunələr, saxsı qabların və kərpiclərin bişirilməsi üçün inşa olunmuş dulus kürələri və digər zəruri nümunələr orta əsr Qəbələ şəhər yerində keramika nümunələrinin yeni texnologiyaların tətbiq olunması nəticəsində yüksək bədii zövqlə hazırlanmasını göstərir.

Monoqrafiyanın I fəslində Qəbələnin XI-XIII əsrlər dövrünün şirsiz keramikası araşdırılmışdır. Qəbələ şəhər yerinin Qala və Səlbir ərazilərində müxtəlif illərdə aparılmış arxeoloji tədqiqatlar nəticəsində aşkar olunmuş şirsiz keramika nümunələrinin öyrənilməsi nəticəsində əvvəlki dövrün, xüsusilə ilk orta əsrlərə xas olan bəzi əlamətlərin olmasına baxmayaraq, inkişaf etmiş orta əsrlərdə qabların hazır-

lanmasında bir sıra yeni texnoloji elementlərin mənimsənildiyi müəyyən olunub. Şirsiz saxsı qabların bir qrupunu təşkil edən, əsasən mayelərin istifadəsində, xüsusilə su qabı kimi istifadə olunan bardaqlar enliboğaz və darboğaz olmuşdur. Bu qabların boğaz və gövdə hissələri ilə yanaşı, ölçüləri də qismən fərqlidir. Bu tip qabların qulpu adətən boğaz və gövdə hissəyə bərkidilib. Lakin, dolça tipli qabların tədqiqi zamanı bu tip qablarda qulpların qabın ağzının kənarına bərkidilməsi müşahidə olunur.

Aşkar olunmuş nümunələr hətta şirsiz keramika istehsalında belə artıq ixtisaslaşmanın olduğunu göstərir. Belə ki, ustalar şirsiz, şirli qablar və inşaat keramikası sahəsində ixtisaslaşmaqla yanaşı, ayrı-ayrı qabların hazırlanması prosesində də daxili ixtisaslaşmanın olması diqqət çəkir. Saxsı qablar hazırlanarkən istehsal prosesinin hər bir mərhələsi ayrı-ayrı şəxslər tərəfindən icra olunurdu.

Şirsiz keramika nümunələrinin tədqiq olunması nəticəsində onların özündən əvvəlki və sonrakı dövrün materialları ilə müqayisədə müəyyən olunmuş əsas əlamət və xüsusiyyətlər bunlardır:

- XI-XIII əsrlər dövründə şirsiz saxsı qabların istehsalında intibah dövrü olmaqla, qabların istehsalı və hazırlanması texnologiyası daha da təkmilləşmiş, bununla belə əvvəlki dövrün ənənəvi istehsal elementləri də unudulmamışdır.
- İnkişaf etmiş orta əsrlər dövründə şirsiz saxsı qabların forması daha da təkmilləşmiş, müxtəlif tip qab nümunələri içərisində yastı oturacaqlılarla yanaşı, dabanlı oturacağa malik qabların istehsalı genişlənərək kütləvi hal almışdır.
- Keramika istehsalının tərəqqisində başlıca zəmin orada yerli gil ehtiyatlarının bolluğu olmuşdur. Qabların gili yaxşı təmizləndiyi üçün məsaməsizdir və yaxşı yoğurularaq keyfiyyətli bişirilib.
- Qabların xarici səthinə naxışların vurulması təkmilləşir, xüsusilə gövdə, boğaz və çiyin hissəyə vurulmuş naxışlar qabın xarici görünüşünə cəlbedicilik verib. Mehtərə tipli qablara basma naxışların vurulması xüsusilə diqqət çəkir.

– Arxeoloji qazıntılar zamanı əldə olunan keramika məmulatının təqribən üçdə iki hissəsi şirsiz saxsı məmulatından ibarətdir. Bu da şəhər əhalisinin həmin məmulata olan tələbatının çoxluğu ilə izah oluna bilər. Şirsiz saxsı qabların geniş yayılmış növünü isə iri təsərrüfat küpləri, qazanlar, qapaqlar, səhəng, bardaq, dolça, mehtərə, küpə tipli qablar, şar-konusvari qablar və çıraqlar təşkil edir.
– XI-XIII əsrlərdə şirsiz keramika nümunələri təkcə Qədim Qəbələ şəhəri ilə lokallaşmamışdır. Hansı ki, həmin nümunələr digər şəhər yerlərindən aşkar olunmuş nümunələrlə oxşarlıq təşkil edir.

Qeyd olunanlar XI-XIII əsrlərdə Qəbələ sakinlərinin gündəlik məişətdə şirsiz saxsı qablardan geniş istifadə etdiyini, qabların hazırlanmasının əvvəlki dövrlə müqayisədə daha da təkmilləşdiyini, ustaların isə peşəkar olduğunu göstərir [62, s.330].

"Qəbələnin XI-XIII əsrlər şirli saxsı məmulatı" adlı II fəsildə ilk dəfə olaraq Qəbələnin XI-XIII əsrlərə aid şirli saxsı məmulatının təsnifatı verilməklə onların bədii-texniki və texnoloji xüsusiyyətləri öyrənilmişdir. Dövrün şirli qabları kasa və boşqab tipli qablar, duz qabları və damğalı qablar olmaqla 3 qrupa ayrılmış, kasa və boşqab tipli qablar da öz növbəsində üzərində verilmiş təsvirlər əsas götürülərək saya şirli qablar, nəbati təsvirli qablar, həndəsi təsvirli qablar, antropomorf və zoomorf təsvirli qablar, qarışıq təsvirli qablar olmaqla fərqləndirilmiş və nümunələr təqdim olunmaqla hər birinin əsas səciyyəvi xüsusiyyətləri göstərilmişdir. Şirli kasa və boşqab tipli qabların bir hissəsinin altına damğa vurulub. Qəbələ şəhər yerinin Qala və Səlbir ərazilərindən aşkar olunmuş və XI-XIII əsrlərə aid olan şirli qabların üzərinə təsvirlərin, müxtəlif naxışların ustalar tərəfindən məharətlə işlənməsi onların bu sahədə peşəkar olmasını göstərir. Qabların adətən daha çox daxili səthi, gövdə və boğaz hissəsi naxışlanırdı.

XI-XIII əsrlərdə digər orta əsr şəhərləri ilə yanaşı, Qəbələdə də dulusçu ustalar tərəfindən şirli qablar daha mükəmməl hazırlanıb. Qala və Səlbir ərazilərində aşkar olunmuş zəngin və çoxçeşidli şirli

qab nümunələri bunun bariz nümunəsidir. Qəbələdə qabların şirlənməsi və naxışlanması XI-XIII əsrlərdə daha da təkmilləşmişdir ki, bu da istehsal prosesində yeni texnologiyaların tətbiq olunduğunu göstərməklə yanaşı, Qəbələdə şəhər mədəniyyətinin inkişaf etdiyini və geniş əhali kütləsi tərəfindən şirli qablara tələbatın artması zərurətindən irəli gəlirdi.

Monoqrafiyada şirli qabların istehsal texnologiyasının əsas xarakterik xüsusiyyətləri geniş şərh olunmuş, Azərbaycanın digər orta əsr şəhərlərində şirli qabların hazırlanmasının mövcud vəziyyəti müqayisəli şəkildə təhlil olunmuşdur. Saxsı qab hazırlandıqdan sonra onun üzərinə şir çəkilməsi təkcə qabın xarici görünüşünü dəyişdirmir, eyni zamanda onu daha uzunmüddətli istifadə etməyə imkan verirdi. Qabların üzərinə şirlənməzdən əvvəl anqob çəkilməsini xüsusilə qeyd etmək lazımdır. İlk vaxtlar anqob örtük-astar funksiyası daşıyıb. Lakin sənət inkişaf etdikcə anqobdan həm də qabların daxili səthinin bəzədilməsi məqsədi ilə istifadə olunub. Beləliklə, istehsalatda və məişətdə anqob naxışlı qablar görünməyə başlayıb.

Qəbələdən əldə olunmuş arxeoloji materiallar XI-XIII əsrlərdə şirli qabların hazırlanmasında anqoblanma texnikasının daha da inkişaf etdiyini göstərir. Buna görə də anqob naxışlı şirli qabların müəyyən olunaraq tədqiq olunması şirli qabların öyrənilməsində xüsusi əhəmiyyətə malikdir. Tədqiq olunan dövrdə qabların anqoblanmasında diqqət çəkən əsas məqamlardan biri də ondan ibarətdir ki, artıq anqob qabın rəngini dəyişdirmək üçün deyil, həm də qabın üzərində olan məsamələrin aradan qaldırılması və qabın daha yaxşı görünməsi məqsədinə xidmət edirdi.

Xatırladaq ki, tədqiqatçı N.İ.Rzayev Azərbaycanın antik dövr qablarının hazırlanması və bəzədilməsi zamanı ustaların daha çox qabın gövdə hissəsinə diqqət yetirdiklərini göstərir [185, c.58]. Şirli qabların çeşidləri nəzərdən keçirilərkən qabları hazırlayan ustaların daha çox süfrə qablarına üstünlük verməsi diqqət çəkir. Qabların naxışlanmasına gəldikdə əsasən həndəsi və nəbati təsvirlər çoxluq təşkil etmiş, xüsusilə kasa tipli qablarda gül təsvirli nümunələrə daha çox rast gəlinmişdir.

XI-XIII əsrlərdə şirlənmə prosesində müxtəlif rəng kombinasiyalarından artıq daha mükəmməl istifadə olunurdu. Zoomorf təsvirli nümunələrə nəzər salsaq, qeyd olunmalıdır ki, hələ ilk tunc dövründən başlanan quş təsvirli nümunələr XI-XIII əsrlərdə daha da inkişaf edib. Anoloji əlamətlər digər şirli qab nümunələrində də müşahidə edilir.

Şirli qablar içərisində damğalı qabların ətraflı tədqiq olunması onu deməyə əsas verir ki, araşdırılan dövrdə damğalı qablar kəmiyyət etibarilə çoxluq təşkil etməklə yanaşı, daha mükəmməl hazırlanmış, qablar şirlənərkən müxtəlif rəng və təsvirlərdən istifadə olunmuş, eyni zamanda qablara damğaların vurulması keyfiyyətcə daha da təkmilləşmişdir [59, s.106 ].

Beləliklə, Qəbələnin XI-XIII əsrlərə aid şirli qabları haqqında aşağıdakı əsas səciyyəvi xüsusiyyətləri qeyd etmək olar:

- Tədqiq olunan dövrdə keramika məmulatı istehsalında müxtəlif şirlərdən geniş istifadə edilib.
- Şirli saxsı məmulatı əsasən saya şirli, nəbati, həndəsi, antropomorf və zoomorf, qarışıq təsvirli nümunələrdən ibarətdir. Şirli kasa və boşqab tipli qabların bir hissəsinin altına damğa vurulub.
- Şirlənmə zamanı iki və daha çox rəngli metal oksidlərindən daha geniş istifadə olunub.
- Qabların səthinin hamar və parlaq olması məqsədi ilə şiraltı anqobun tətbiqi genişlənib. Bununla belə anqob naxışlı qablara da tez-tez təsadüf olunur.
- Monoxrom təsvirlərdə ərimiş metal oksidlərinin rəng çalarından istifadə olunub.
- Gil qabın üzərində şirli təsvir zamanı rəngləyicilərin əsas texnoloji üsullarının sabitləşməsi baş verib.
- Dövrün kasa və boşqab tipli şirli qabları üçün başlıca xronoloji əlamət onların əsasən dabanlı oturacağa malik olmalarıdır.
- Qəbələnin XI-XIII əsrlərə aid şirli keramikasının bədii cəhətdən bəzədilməsində regionun faunası və florasını əks etdirən motivlərə daha çox üstünlük verildiyi müşahidə edilir.

– Əvvəlki şirli qabların bişirildiyi temperatura nisbətən yüksək temperaturda bişirilən daha keyfiyyətli şir tətbiq olunub.

"Qəbələnin XI-XIII əsrlər inşaat keramikası" adlı III fəsildə dövrün inşaat sənətinin ümumi inkişaf vəziyyəti, əsas inşaat materialları, onların hazırlanma texnologiyası tədqiq edilmişdir. Eyni zamanda inşaat sahəsində həm Azərbaycanın orta əsr şəhərlərinə, həm də regionun digər orta əsr şəhərlərinə xas olan oxşar və fərqli cəhətlər müqayisə edilməklə təhlil olunub. Qəbələnin inşaat keramikası əsasən bişmiş kərpic, kirəmit, kaşı və su tünglərindən ibarətdir.

Arxeoloji materialların öyrənilməsi nəticəsində Qəbələnin XI-XIII əsrlərə aid tikililərində qalınlığı az olan kərpiclərdən geniş istifadə edilməsi məlum olmuşdur. Çəhrayı, tünd qırmızı rəngdə olan kərpiclər yaxşı bişirilməklə yanaşı, davamlı olması ilə seçilirdi.

Arxeoloji qazıntılar nəticəsində Qəbələ ərazisində tədqiq olunan dövrə aid çoxlu sayda örtük materialı kimi müxtəlif tikililərdə, o cümlədən ictimai və dini binalarda istifadə olunan kirəmit nümunələri aşkar edilib. Həmin nümunələrin öyrənilməsi nəticəsində XI-XIII əsrlərdə kirəmit istehsalında ustalar tərəfindən yeni texnologiyaların tətbiqi edildiyi müəyyən olunub. Bu da istehsalın genişlənməsinə şərait yaradırdı. Qalın və enli olmaqla, düz və novşəkilli növləri fərqləndirilən kirəmitlər ölçülərinə görə də bir-birindən fərqli olmuşdur. Dam örtüklərinin formasında ənənəvi forma qalmaqla yanaşı, düz dam örtüklərindən geniş istifadə edilmiş, eyni zamanda Qəbələdən aşkar olunan XI-XIII əsrlərə aid kirəmitlərin orta hissəsi çıxıntılı olmuşdur [197, p.48].

XI-XIII əsrlərdə bəzək-inşaat materialı kimi şirli keramikanın kaşı adlanan növündən Qəbələdə inşaat işlərində geniş istifadə olunması diqqət çəkir. Tikililərin əsasən fasadının işlənilməsində rəngarəng çeşidli kaşılar geniş tətbiq edilirdi. Kaşılar ağ, yaşıl, firuzəyi və mavi rənglərdə olmaqla, onların bəzilərinin üzərində nəbati təsvirlərə də rast gəlinmişdir.

Arxeoloji tədqiqatlar zamanı Qəbələdə su kəmərləri və sanitariya qurğularının müəyyən olunması artıq şəhərə suyun çəkilməsi və

paylanılmasında saxsı borulardan geniş istifadə edildiyini göstərir. Su xətləri təkcə bir xətt üzrə inşa edilməmişdir. Belə ki, su xətlərinin istiqamətini dəyişmək üçün saxsı dirsəklərin hazırlanması artıq zərurətə çevrilmiş, həmçinin, su və kanalizasiya xətlərinin inşası prosesində onların əraziyə görə yerləşməsi və relyefi nəzərə alınmışdır ki, bu da saxsı boruları sınmadan və digər kənar təsirlərdən qoruyurdu [197, p.51]. Tədqiqat işində XI-XIII əsrlərdə Qəbələdə çoxşaxəli su kəmərlərinin müəyyən olunması, su xətlərinin müxtəlif istiqamətlər üzrə çəkilməsi və ustalar tərəfindən qovşaqların yüksək peşəkarlıqla hazırlanması ətraflı araşdırılmışdır.

Beləliklə, tədqiqat nəticəsində XI-XIII əsrlərdə Qəbələdə şirsiz və şirli saxsı qabların, eyni zamanda inşaat materiallarının istehsal texnologiyasının daha da təkmilləşməsi, şəhərdə inşaat sənətinin, o cümlədən abadlıq və sanitariya mədəniyyətinin yüksək və sivil səviyyədə olması müəyyən edilmişdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


***Azərbaycan dilində***

1. Abbasova, F. Ə. Azərbaycanın orta əsr zoomorf əşyaları / F.Ə. Abbasova. – Bakı: Elm, – 2004. – 280 s.
2. Abdullayeva, S.F. XI-XIII əsrlərdə Azərbaycanda memarlıq və şəhərsalma mədəniyyəti (İranın Kembric tarixi əsəri əsasında) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, Elmi əsərlər,– cild 41-42-43, – s.48-59.
3. Azərbaycan arxeologiyası: [6 cilddə]/Baş red: Rəhimova, M.; Red.hey. Babayev, İ., Cəfərov, Ə., Cəfərov, H., Dostiyev, T., Əliyev, V., Məmmədov, A., Müseyibli, N. – Bakı: Şərq-Qərb,– c. 6.– 2008. – 632 s.
4. Azərbaycan tarixi: [7 cilddə]/Məsul red: Əliyev, İ.H; Məsul katib: Qaşqay, S.M.; Məsul redaktor müavini: Əliyev, K.H., Munçayev, R.M., Nərimanov, İ.H. – Bakı: Elm,– c.1.– 1998. – 476 s.
5. Babayev, İ.A. Qafqaz Albaniyasının paytaxtı qədim Qəbələ şəhəri və onun arxeoloji qazıntıları // Azərbaycan paytaxtları: Elmi-praktik konfrans "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi. – Bakı: Elm və təhsil, – 2014, – s.16-22.
6. Babayev, İ.A. Qəbələnin ilk şirli qabları // – Bakı: Azərbaycanın Maddi Mədəniyyəti V cild, – 1964, – s.131-148.
7. Babayev, İ.A. Qəbələ tarixi-arxeoloji oçerk / İ.A. Babayev, Q.M. Əhmədov – Bakı: Elm, – 1981. – 67 s.
8. Böyük Plini. Təbiət tarixi // – Bakı: Azərbaycan tarixi üzrə qaynaqlar, – 2007, – s. 27-30.
9. Bünyadova, Ş.T. XII-XVI əsrlərdə Azərbaycanda dulusçuluq sənəti haqqında// – Bakı: Azərbaycan Arxeologiyası jurnalı, – 2013. № 2, – s.13-15.
10. Bünyadov, T.Ə. Azərbaycan arxeologiyası oçerkləri / T.Ə. Bünyadov.–Bakı,– 1960. –263 s.
11. Cəbiyev, Q.C. Arxeologiya və romantika/ Q.C.Cəbiyev. – Bakı: Gənclik, – 1990. – 128 s.
12. Cəbiyev, Q.C. Azərbaycan arxeologiyasının əsasları/ Q.C.Cəbiyev.– Bakı: Elm və təhsil, – 2018. – 596 s.
13. Cəbiyev, Q.C. Azərbaycanın XIV-XVII əsrlərə aid şirli keramikasının bəzi səciyyəvi xüsusiyyətləri haqqında // Azərb. SSR EA Xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası, – 1984. №4, – s.77-87.

14. Cəbiyev, Q.C. Azərbaycan Keramikası/ Q.C.Cəbiyev. – Bakı, – 2003. – 236 s.
15. Cəbiyev Q.C. Azərbaycan keramikası// – Bakı: Elm və Həyat, – 1983. № 3, – s.13-15.
16. Cəbiyev, Q.C. Azərbaycanda keramika istehsalının tarixi və texnologiyasının bəzi məsələlərinə dair// – Bakı: Azərbaycan arxeologiyası və etnoqrafiyası, – 2007. №1, – s.136-146.
17. Cəbiyev, Q.C. Girdiman tarixi və tarixi coğrafiyası/ Q.C.Cəbiyev.– Bakı: Elm-təhsil, –2015. – 450 s.
18. Cəbiyev, Q.C. Keramikanın imkanları // – Bakı: Qobustan jurnalı, – 1985. №2,– s.77-79.
19. Cəbiyev Q.C. Klassik Azərbaycan poeziyasında dulusçuluq sənəti ilə bağlı motivlərə dair// Azərbaycan SSR Elmlər Akademiyasının Məruzələri, – 1986. № 11, – cild XLII, – s.95-98.
20. Cəbiyev, Q.C Klassik poeziyadan praktiki arxeologiyaya // – Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, – 2021, – s.237-347.
21. Cəbiyev, Q.C. Qəbələ arxeoloji ekspedisiyasının orta əsrlər dəstəsinin 2016-cı ildə apardığı arxeoloji tədqiqatlar / Q.C.Cəbiyev, E.İ.Abbasova, Ə.H.Qasımzadə //Azərbaycanda arxeoloji tədqiqatlar (2015-2016), – Azərbaycan Milli Elmlər Akademiyası. Arxeologiya və Etnoqrafiya İnstitutu, – Bakı, – 2017, – s.282-290.
22. Cəbiyev, Q.C. Qəbələdə (Qala) arxeoloji tədqiqatlar (Qəbələ rayonu)/ Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova // Azərbaycanda arxeoloji tədqiqatlar. – 2011, –Azərbaycan Milli Elmlər Akademiyası. Arxeologiya və Etnoqrafiya İnstitutu, – Bakı, – 2012, – s.297-301.
23. Cəbiyev, Q.C. Qəbələ orta əsrlərdə (Qəbələ rayonu) / Q.C.Cəbiyev, E.İ. Abbasova, S.D. Nemətov // Azərbaycanda arxeoloji tədqiqatlar-2009. Azərbaycan Milli Elmlər Akademiyası. Arxeologiya və Etnoqrafiya İnstitutu, – Bakı: Xəzər Universiteti nəşriyyat, – 2010, – s.244-251.
